AZƏRBAYCAN TEXNOLOGİYA UNİVERSİTETİ

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

"BEŞİNCİ SƏNAYE İNQİLABINA DOĞRU – UNİVERSİTETLƏRİN ROLU, ÇAĞIRIŞLAR VƏ İMKANLAR"

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş Beynəlxalq Elmi-Praktik Konfransın materialları

V HİSSƏ

5-6 May 2026

GƏNCƏ

atu.edu.az

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Texnologiya Universiteti

BEŞİNCİ SƏNAYE İNQİLABINA DOĞRU – UNİVERSİTETLƏRİN ROLU, ÇAĞIRIŞLAR VƏ İMKANLAR

Beynəlxalq Elmi-Praktik Konfransın

M A T E R İ A L L A R I

V H İ S S Ə

BÖLMƏ. TEKSTİL, YÜNGÜL SƏNAYE VƏ DİZAYN

BÖLMƏ. MAŞINQAYIRMA, NƏQLİYYAT VƏ LOGİSTİKA

BÖLMƏ. TURİZM SƏNAYESİNİN TƏŞKİLİ

GƏNCƏ – 2026

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNOLOGİYA UNİVERSİTETİ

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş "Beşinci sənaye inqilabına doğru – universitetlərin rolu, çağırışlar və imkanlar" mövzusunda Beynəlxalq Elmi-Praktik Konfransın

TƏŞKİLAT KOMİTƏSİ

Sədr: Yaşar Ömərov
Sədr müavini: Sahil Həmidov

Üzvlər

Şahmar Həsənov
Rauf Bağırov
Rövşən Əliyev
Mətləb Əliyev
Cəsarət Şabanov
Qalibə Məmmədova
Sevda Qurbanova
Eldəniz Bayramov
İlham Əlizadə
Arzu Əsgərov
Ülviyyə Məmmədova
Şamo Salayev
Xudayar Məmmədov
Rövşən Hacıyev
Mehman İsmayılov
Fazil Kərimov
Şakir Əliyev
Əhəd Nəbiyev
Məntiq Cəfərov
Fizuli Məmmədov
Natiq Cavadov
Sakit Verdiyev
Elşad Məmmədov
Yusif Hümbətov
Şahin Quliyev
Tofiq Mirzəyev
Nigar Əmiraslanova
Fuad Yusifov
Hamlet Kəsəmənli
Rövşən Qasımov
Aysel Məmmədli
Cahangir Hacıyev
İmaş Hacıyev
Cəmil Səfərov
Ələmdar Əlbəndov
Xəyalə Məmmədova
Nofəl Hacıyev
Mobil Qarayev

Redaksiya Heyəti

Adilə Həsənova
Gülnar Rzayeva
Gülnarə Əsədova
İlahə Qurbanova
Nilgün Məmmədova
Nigar Orucova
Mehriban Aslanova
Zəminə Novruzova
Mətanət Mustafayeva
Ramidə Xəlilova
Nurlan Suvarov
Tural Ələkbərov
Hicran Ramazanova
Leyla Rzayeva
Zeynəb Qocayeva
Könül Allahverdiyeva
Tamaşa Əliyeva
Nilufər Orucova
Zeynəb Həsənzadə
Xatirə Sultan
Günay Cəfərli
Turanə Məmmədova
Leyla Kərimova
Səkinə Hüseynova

XARİCİ TƏŞKİLAT KOMİTƏSİ

Üzvlər

1. Eduard Yakubov – Holon Texnologiya İnstitutunun prezidenti, professor (İsrail)
2. Miroslaw Minkina – Siedlce Universitetinin rektoru, professor (Polşa)
3. Dan Caşcaval – "Corc Asaçi" İaşi Texniki Universitetinin rektoru, professor (Rumıniya)
4. Czaba Gyuricza – Macarıstan Kənd Təsərrüfatı və Təbiət Elmləri Universitetinin rektoru, professor (Macarıstan)
5. Şalva Kinkadze – Kutaisi Dövlət Universitetinin rektoru, professor (Gürcüstan)
6. Henrik te Heesen –Trier Tətbiqi Elmlər Universitetinin elmi işlər üzrə prorektoru, professor (Almaniya)
7. İrina Lungu – "Corc Asaçi" İaşi Texniki Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor (Rumıniya)
8. Patrick Siegfried – Trier Tətbiqi Elmlər Universiteti (Almaniya)
9. Alina Danilovska – Varşava Təbiət Elmləri Universiteti (Polşa)
10. Saboxat Pulatova – Buxara Dövlət Texniki Universiteti (Özbəkistan)
11. Merab Datuaşvili – Ak.Tsereteli adına Dövlət Universiteti (Gürcüstan)
12. Vyaçeslav Boxonka – Xmelnitski Milli Universiteti (Ukrayna)
13. Teymuraz Babunaşvili – Gürcüstan Biznes Akademiyası (Gürcüstan)
14. Yelena Vankeviç – Vitebski Dövlət Texnologiya Universitetinin elmi işlər üzrə prorektoru (Belarusiya)
15. Serqey Nemov – Sankt-Peterburq Dövlət Politexnik Universiteti (Rusiya Federasiyası)
16. Natalya Novaselova – Rusiya Federasiyası Elm və Ali Təhsil Nazirliyi Şimali Qafqaz Federal Universitetinin Petitor İnstitutu (Rusiya Federasiyası)
17. Tatyana Musayeva – M.A.Bonç-Brueviç adına Sankt-Peterburq Dövlət Telekommunikasiya Universiteti (Rusiya Federasiyası)
18. Umida Maksudova – Daşkənd Tekstil və Yüngül Sənaye İnstitutu (Özbəkistan)
19. İqor Leuşin – Nijni Novqorod Dövlət Texniki Universiteti (Rusiya Federasiyası)
20. İqor Mazur – Lipetck Dövlət Texniki Universiteti (Rusiya Federasiyası)
21. Nika Şarifova – Rusiya Nəqliyyat Universiteti (Rusiya Federasiyası)
22. Malgorzata Gradzka-Dahlike – Bialistok Texnologiya Universiteti (Polşa)
23. Tuğba Semerci Sevimli – Lund Universiteti (İsveç); Eskişehir Osmangazi Universiteti (Türkiyə)
24. Sema Akyil Erenturk – İstanbul Texniki Universiteti (Türkiyə)
25. Osman Erkmen – İstanbul Okan Universiteti (Türkiyə)
26. Quram Marxulia – Suxumi Dövlət Universiteti (Gürcüstan)
27. Volkan Öner – Atatürk Universiteti (Türkiyə)
28. Marcin Bielski – Varşava Ekologiya və Menecment Universiteti (Polşa)
29. Federico Zurita Martinez – Qranada Universiteti (İspaniya)
30. Viktor Sajen – Vitebski Dövlət Texnologiya Universiteti (Belarusiya)
31. Svetlana Lapondina – Mərkəzi Elmi-Tədqiqat Tikiş Sənayesi İnstitutu (Rusiya Federasiyası)
32. Keti Tsxakaya – Kutaisi Dövlət Universiteti (Gürcüstan)
33. Olqa Şults – Kosigin adına Rusiya Dövlət Univesiteti (Rusiya Federasiyası)
34. İrina Petrosova – Kasıgin adına Rusiya Dövlət Universiteti (Rusiya Federasiyası)

35. Nino Beraya – Tbilisi Texniki Universiteti (Gürcüstan)
36. Maksut Doszhanov – Qızılorda Bolaşak Universiteti (Qazaxıstan)
37. İndira Curinskaya – Almata Texnologiya Universiteti (Qazaxıstan)
38. Bakhtynur Mukhitovna – Xalel Dosmuxamedov adına Atırau Dövlət Universiteti (Qazaxıstan)
39. Nino Dolidze – Kutaisi Dövlət Universiteti (Gürcüstan)
40. Fatimat Sultanovna Zumakulova – Kabardin-Balkar Dövlət Aqrar Universiteti (Rusiya Federasiyası)
41. Anatoliy Kulakov – "Frant" Səhmdar Cəmiyyəti (Rusiya Federasiyası)
42. Şaopin Lin – Sianya Tsyuytszyana adına Təsviri İncəsənət Muzeyi (Çin)
43. Hasan Işıq – Ankara Yıldım Beyazıt Universitesi (Türkiyə)
44. Sevilay Hacıyakupoğlu – İstanbul Texniki Universiteti (Türkiyə)
45. Marina Frontasyeva – Dubna Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (Rusiya Federasiyası)
46. İftixor Kamolov – Qarşi Dövlət Universiteti (Özbəkistan)
47. Özgür Demirkıran – Qəbələ Konserv Zavodunun direktoru
48. Rövnəq Rzayev – Azərbaycan Dövlət İqtisad Universiteti
49. Rövşən Xəlilov – Bakı Dövlət Universiteti
50. Məmmədəli Nuriyev – Azərbaycan Dövlət İqtisad Universiteti
51. Ramilə Bəşirzadə – Bakı Mühəndislik Universiteti
52. Tariyel Pənahov – Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
53. Cəfər Məhərrəmov – Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
54. Rasim Səidov – Azərbaycan Dövlət İqtisad Universiteti
55. Mikayıl Məhərrəmov – Lənkəran Dövlət Universiteti
56. Həsən Babayev – Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu
57. Novruz Quliyev – Azərbaycan Milli Elmlər Akademiyası
58. Vaqif Novruzov – Azərbaycan Milli Elmlər Akademiyası
59. Hasil Fətəliyev – Azərbaycan Dövlət Aqrar Universiteti
60. Vüqar Mikayılov – Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

KONFRANS MATERİALININ V HİSSƏSİNİ TƏRTİB EDƏNLƏR:

1. **Mobil Qarayev**
2. **Adilə Həsənova**
3. **Gülnarə Əsədova**

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ – CONTENTS

Ön söz **10**

BÖLMƏ. TEKSTİL, YÜNGÜL SƏNAYE VƏ DİZAYN **11**

C.Ə.Hacıyev. Lastik hörməsi və onun törəmələrinin fərqli cəhətləri 11

C.Ə.Hacıyev, H.N.Quliyeva, A.R.İsmayılova. İstismar zamanı geyimlərin keyfiyyətinin qorunmasının bəzi yolları 13

H.Q.Kərimov. Xam pambıq təmizləyicilərdə müxtəlif profilli kolosniklərin eksperimental tədqiqi 16

T.Q.Səfərova, Q.F.Abbasova, H.Ə.Ramazanova. Məişət tekstili dizaynında Azərbaycanın klassik naxışlarının müasir variasiyaları 18

T.H.Mirzəyev. Kompozit geyim hissələrinin formalanmasından sonra əyilmədə sərtliyinin ekspres üsulla təyini 20

İ.Q.Qasımov, L.Atakişiyeva, V.Abbasova, E.İsayeva. Bitki mənşəli təbii boyaq maddələrinin alınmasında müasir texnoloji üsulların tətbiqi 22

İ.Q.Qasımov, G.N.Əsədova, Ü.E.Paşayeva, Z.F.Yusubova. Azərbaycanda yüngül sənaye və tekstil sahəsinin inkişaf yolları 24

A.H.Hüseynov, M.E.Həsənova, M.E.Orucova. Müasir dizaynın aktual problemləri və süni intellekt texnologiyalarının dizayn sahəsinə inteqrasiya perspektivləri 25

A.H.Hüseynov, Q.F.Abbasova. Müasir mərhələdə naxış sənətinin aktual problemləri və süni intellekt texnologiyalarının tətbiq perspektivləri 27

İ.C.Əsgərov. Azərbaycan sənaye dizaynının yeni iqtisadi inkişaf mərhələsində rolu 30

A.Moldir, D.K.Zhamanbaevna. Creation of polyfunctional textile materials with protection and antimicrobial activity 32

V.H.Musayeva, E.E.Kərimli. Kətan parçalar əsasında geyim qrupunun xammal və strukturun təhlili 33

V.H.Musayeva, L.R.Səfərova. Polimer liflərin toxuculuq materiallarının mexaniki xassələrinə təsirinin tədqiqi 34

Ş.Ş.Aslanova. Texnoloji yeniliklərin teatr dekorasiyasına təsiri 36

S.Grigaliūnienė. Bridging art and technology: Digital strategies for enhancing museum-based cultural participation 39

T.Aldanayeva, A.Talgatbekova. Principles of Kazakh national clothing formation in modern design development 41

D.S.Eliseikina, A.İ.Karaseva, V.V.Kostyleva. Analysis of the constructive features of dance shoes 44

А. Ж.Талгатбекова, А.Сандр, О.В.Григорьеап. Обзорная классификация исторических корсетов ... 46

BÖLMƏ. MAŞINQAYIRMA, NƏQLİYYAT VƏ LOGİSTİKA **49**

Ş.M.Quliyev, Y.M.Hümbətov. Orta «Şərq-Qərb» nəqliyyat dəhlizinin inkişaf perspektivləri 49

G.Purtskhvanidze, M.Lejava, Z.Shubladze, J.Sharadze, A.Jijavadze, M.Kiknadze. Heat transfer peculiarities in the cooling system of internal combustion engines

Ş.M.Babayev. Yeni mühərrik qurğusunun elementlərinin forma, parametr və həndəsi yerlərinin əsaslandırılması 53

N.Hrytsenko. Modern trends in the digitalization of transport logistics and its economic feasibility 55

K.R.Həsənova. Metallurgiya sektorunda logistika problemlərinin analizi və həlli yolları 57

F.C.Rəhimova. Şərq-Qərb nəqliyyat dəhlizində yükdaşımaların logistika və idarəetmə aspektləri 60

D.Maksut, T.Galymzhan. Some equations of longitudinal and transverse vibrations of viscoelastic rods, plates, and shallow spherical and cylindrical shells 62

E.N.Babayeva. İntermodal nəqliyyat vahidləri: Logistika sistemlərinin əsas elementi kimi 65

A.V.Cəfərova. Azərbaycanda multimodal daşımaların inkişaf strategiyası və perspektivləri 67

İ.O.Qədimov. Gəncədə avtobusla sərnişin daşınmasının təhlili 69

А.А.Абдуллаева, М.Казиев. Цифровизация технического обслуживания оборудования 70

F.Ə.Vəliyev, N.E.Qəzənfərli. İntellektual nəqliyyat sistemlərinin şəhər nəqliyyatının effektiv idarə edilməsində rolu 74

Х.С.Гусейн-заде. Цифровизация железнодорожного транспорта Азербайджана: состояние и перспективы развития 76

D.Kozodoi. Recommendations for improving working conditions in the railway sector under modern conditions 78

B.Z.Verdiyev, A.A.Əhməd. İctimai nəqliyyatda hərəkət intervalının optimallaşdırılması və sərnişin gözləmə vaxtının azaldılması üçün riyazi model 80

X.Məmmədova, Ş.Quliyev. Nəqliyyat infrastrukturunda təhlükəsizlik standartlarının tətbiqi və səmərəliliyinin artırılması 83

Z.Y.Aslanov, A.V.Qadaşlı. Maşınqayırma sənayesində texnoloji innovasiyaların həyata keçirilməsi üçün optimal strategiyanın seçilməsi 84

Z.Y.Aslanov, Ə.Ə.Hacızadə. Ölçmənin struktur sxemində təklif olunan kalibrlənmə metodunu həyata keçirmək üçün sistem 86

F.C.Rəhimova. Şum səthini hamarlayan işçi orqanın enerji və resurs səmərəliliyinin elmi əsaslandırılması..... 88

M.B.Adıgözəlova, R.Y.Qəniyeva. Multifazalı sualtı boru kəmərlərinin dik borularında mürəkkəbləşmələrin aradan qaldırılması 90

G.Ə.Məmmədova, V.İ.Polosatikina. Neft-qaz emalı müəssisələrində metroloji təminat sisteminin tətbiqinin məhsulun keyfiyyətinə təsirinin təhlili 92

Р.Э.Шукуров. Устойчивости цилиндрических оболочек в перемещениях 94

F.Guliyev. Aerodynamic optimization of supersonic flight vehicles: shock wave management and thermal stability 96

E.Ə.Səmədov, M.N.Şirəliyev. Məişət çini məmulatlarının keyfiyyət ekspertizası 98

N.O.Məmmədova, R.M.Məmmədova. Dəriyə qulluq vasitələrinin istehlak xassələrinin tədqiqi və keyfiyyətinin ekspertizası 99

A.A.Əsgərova, C.F.Tahirzadə. Ölçmə vasitələrinin metroloji xarakteristikalarının əhəmiyyəti 101

X.Məmmədova, G.A.Əsədova. Maşınqayırmada ekoloji standartlar və tullantıların idarə edilməsi: ISO və Beynəlxalq sertifikatların rolu 103

Q.Məmmədova, X.Məmmədova. Logistika və tədarük zəncirində standartlaşdırmanın rolu: Qlobal tədarük zəncirlərində ISO və digər sertifikatların logistika və təchizat proseslərinə təsiri 105

F.Ə.Vəliyev, N.E.Qəzənfərli. İntellektual nəqliyyat sistemlərində (İNS) elementlərin, qurğuların və avadanlıqların növləri və iş prinsipləri haqqında 108

С.С.Усупов. выбор измерительного устройства для системы стабилизации зазора в гидростатической направляющей металлорежущих станков 110

М.Макаренко, Н.Захаренко. Энтропийный анализ устойчивости морских портов в условиях глобальной трансформации логистических циклов 112

М.Ш.Садыхова. Повышение эффективности сельского хозяйства с использованием GPS-технологий 116

В.Онищенко, Л.Семкова. Векторы развития морских портов на основе когнитивного моделирования 119

E.C.Hüseynov, E.E.Həsənova. Sənaye müəssisələrində SƏTƏM sisteminin rolu və ətraf mühitin qorunması 122

Н.Б.Муханов. Взаимоотношение животноводства и окружающей среды: экологические аспекты 124

A.İ.Məmmədov, B.İ.Mustafayeva. Rusiya və Çin istehsalı elektrik lampalarının istehlak xüsusiyyətlərinin müqayisəli təhlili....127

Ş.Babayev, E.Paşayev, İ.İsgəndərov. Maşınqayırma sənayesində məhlul sərfini avtomatik tənzimləyən qurğunun nəzəri tədqiqi 129

А.Т.Камысбаева, С.Е.Бекжанова, Ш.М.Суюнбаев. Повышение устойчивости транспортировки сельскохозяйственной продукции в интермодальных транспортно-логистических системах 131

Y.O.Bokhonko. Theoretical aspects of improving the efficiency of diagnostic and technological equipment in automotive repair production 135

E.A.Əliyev. Hidroötürücü rotasiyalı otbiçən maşınlarda bıçaqların iş prinsipi və analizi 137

Q.R.Məmmədova, V.R.Abbasova. Təchizat zəncirində risklərin idarə olunması....138

L.Bernauer. İnnovative engineering solutions for sustainable transport and logistics systems 141

S.Quliyev. Maşınqayırmada diyirlənmə yastığında hərəkətə müqavimət qüvvəsinin təyini 143

М.А.Емберген ов. Международное сотрудничество университетов Казахстана и Азербайджана как фактор развития в эпоху пятой промышленной революции 145

E.C.Hüseynov, E.E.Həsənova. Dəmir-karbon ərintilərinin öyrənilməsində effektiv tədris üsulları....148

BÖLMƏ. TURİZM SƏNAYESİNİN TƏŞKİLİ 150

T.T.Ələkbərov, A.T.Babayeva, Z.T.Ələkbərova. Turizm ixtisası üzrə təhsil alan tələbələrdə peşəkar kommunikasiya bacarıqlarının formalaşdırılmasının pedaqoji əsasları....150

M.Q.Rezvani, R.F.Khalilova. Role of emotional intelligence in fostering job satisfaction and employee engagement in tourism: Era of industry 5.0....153

H.E.Məmmədova, T.N.Məmmədova. Turizm sənayesinin təşkilində idman turizminin inkişafının aktual problemləri 156

Y.Ə.Hümbətov, R.Y.Hümbətova. Regionlarda turizmin idarə edilməsi məsələləri 158

A.M.İbrahimli, E.A.Əliyev. Şərqi Zəngəzur ərazisinin idman potensialı 161

E.S.Cəfərov, T.A.Hüseynov. Azərbaycanda turizm üzrə insan resurslarının idarə edilməsi: Milli sistem və qlobal təcrübələrin sintezi 163

Л.Байрамова, Г.Аскаров. История развития туризма в Карабахе после освобождения от оккупации164

T.T.Ələkbərov, A.R.Əsgərov. Azərbaycan Respublikası turizm siyasətinin analizi: 2020-2025-ci illər 166

T.T.Ələkbərov, İ.C.Hüseynov, A.E.Fərzəliyeva. Əshabi-Kəhf və Naxçıvan turizminin regionun sosial-iqtısadi inkişafında rolu 169

Е.А.Вердиева, Г.Ш.Исмаилова, Г.Ш.Исмаилова. Путешествие по заброшенным городам: туризм «Ghost Town» 172

G.Q.Hüseynova, E.A.Verdiyeva. Yerli məşğulluğun artırılmasında turizm sektorunun rolu 174

G.Q.Hüseynova, E.A.Verdiyeva, T.R.Əhədov. Turizm sektorunda investisiyaların iqtisadi səmərəliliyi.....176

Д.Ф.Тахирзаде, С.С.Мамедов. Концептуальные основы устойчивого туризма в малых исторических городах....177

И.Ю.Хусаинова, Ф.Р.Мамедов. Разработка стратегии устойчивого туризма 179

L.Ş.Musayeva, Ə.V.Abbaslı. Sosial medianın turizmə təsiri....182

E.S.Cəfərov, T.A.Hüseynov, V.X.Mustafazadə. Turizmdə insan kapitalının formalaşması: Porterin amil şərtləri baxımından təhlil.....183

М.Д.Юсифова. Популярные туристические маршруты мира 185

A.Allahverdiyeva. Turizm sənayesinin inkişafı: Mövcud vəziyyət və gələcək perspektivlər.....187

Ф.А.Ахмеджанова. Комплексный анализ эстетической ценности текстильных орнаментов и их влияния на развитие культурного туризма в центральной азии 190

Ф.А.Ахмеджанова, Н.Б.Ахмеджанова. Современные измерительные технологии и их роль в управлении логистическими системами в туризме 192

Ş.Ş.Ələsgərov, A.A.Hüseyn. Turizm sənayesinin canlanmasında daxili turizmin strateji əhəmiyyəti 195

A.R.Qurbanova, D.A.Hüseynova. Veloturizmin inkişafı və turizm infrastrukturuna təsiri 196

D.A.Hüseynova, A.R.Qurbanova, G.F.Mustafayeva. Turizmdə risklərin idarə olunması 197

В.Онищенко, Ю.Ярченко, А.Спортесная. Формирование туристического имиджа приазовья в контексте регионального развития.....198

Р.Ф.Халилова, А.Х.Мамедова. Оценка влияния критериев esg на риски зелёных инвестиций в туризме: путь к устойчивому развитию и долгосрочной прибыльности 201

N.Namiq. İşğaldan azad edilmiş ərazilərdə kənd turizmi və şərabçılığın inkişaf perspektivləri.....203

У.Умбетов, Г.М.Усайнова, Н.Г.Ошакбай, Р.Д.Митин. Теоретическая модель развития туризма в регионе

Z.T.Məmmədli, T.M.Ellazov. Şərq-Qərb nəqliyyat dəhlizi və Gəncə şəhərinin turizm potensialı 208

Kh.Huseynova, Sh.Aliyeva. The role of digital reservation systems in the development of the tourism industry 210

Kh.Huseynova, Sh.Aliyeva. Müalicə-sağlamlıq turizminin inkişafı və regional iqtisadiyyata təsiri: Azərbaycan və Slovakiya təcrübəsi.....212

N.D.Verdiyev. Azərbaycanda turizm iqtisadiyyatının təhlili və perspektivləri 214

T.Babunashvili. The role of foreign investments in Georgia's tourism industry.....217

U.Mammadova. Organizing agri-food startups through an ecosystem model for regional tourism development 221

Ф.Д.Садиевич. Значение органического молока в сохранении здоровья населения и туристов (на примере Узбекистана).....223

N.Ə.Əlizadə. Azərbaycanın Şimal-Qərb regionunda yaşıl turizm potensialı.....225

L.Ş.Musayeva, V.R.Musayev. İşğaldan azad olunmuş ərazilərdə ekoturizm potensialının iqtisadi təsirlər və ekoloji risklər əsasında qiymətləndirilməsi.....227

K.Lygkoni. Sustainable models for the organization and development of the tourism industry 230

L.Hyonjin. Resilient tourism systems: New paradigms in industry organization and governance 232

A.A.Həsənova, İ.Ə.Vəliyev. Turizm sənayesində vergitutma və fiskal siyasətin iqtisadi effektləri 235

A.A.Həsənova, F.A.İsgəndərov. Turizm sektorunda rəqabət qabiliyyətinin artırılması yolları.....237

N.Sukanthasaevee. Organizing tourism for regional development: Strategies, policies, and practices.....239

R.R.Əliyev. Turizmlə iqtisadi böyümə arasındakı dinamikanın əsas aspektləri 242

T.Ə.Abbaszadə, X.B.Məmmədov, S.V.İbadlı. Azərbaycanda regional turizmin inkişaf perspektivləri və strateji yanaşmalar.....244

T.Ə.Abbaszadə, E.A.İskəndərov, M.H.İsrəfilzadə. Turizm sektorunun davamlı inkişaf şəraitində iqtisadiyyatın digər sahələrlə inteqrasiyasının xüsusiyyətləri və perspektivləri 247

T.T.Ələkbərov, S.F.Məmmədova. Azərbaycana gələn turistlərin statistik analizi: 2020-2025-ci illər (Şəki şəhəri).....249

Л.И.Джаббаров. Сегментирование туристического рынка Азербайджана: Теория и практика.....251

T.T.Ələkbərov, V.İ.Paşazadə. Azərbaycan Respublikasına gələn turistlərin statistik analizi: 2020-2025-ci illər Gəncə şəhəri aspektində 254

Ön söz

Hörmətli konfrans iştirakçıları, dəyərli alimlər və tədqiqatçılar!

Azərbaycan Texnologiya Universitetində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş "Beşinci sənaye inqilabına doğru: universitetlərin rolu, çağırışlar və imkanlar" mövzusunda keçirilən beynəlxalq elmi konfransın materiallar toplusunu Sizə təqdim etməkdən böyük məmnunluq duyuruq.

Ümumiyyətlə, XXI əsr bəşəriyyətin inkişaf tarixində elmi-texniki tərəqqinin ən sürətli mərhələlərindən biri kimi xarakterizə olunur. Süni intellekt, böyük verilənlər, robot texnologiyaları, biotexnologiya, "ağıllı" istehsal sistemləri, rəqəmsal iqtisadiyyat və yaşıl enerji kimi istiqamətlər müasir dünyanın sosial-iqtisadi strukturunu köklü şəkildə dəyişdirməkdədir. Dördüncü sənaye inqilabının yaratdığı texnoloji transformasiya artıq yeni mərhələyə – insan mərkəzli, innovativ və dayanıqlı inkişaf prinsiplərinə əsaslanan Beşinci sənaye inqilabına keçidi sürətləndirmişdir. Bu yeni mərhələdə texnologiyanın məqsədi yalnız istehsalın avtomatlaşdırılması deyil, eyni zamanda insan rifahının yüksəldilməsi, sosial inklüzivliyin təmin olunması və ekoloji tarazlığın qorunmasıdır.

"Beşinci sənaye inqilabına doğru: universitetlərin rolu, çağırışlar və imkanlar" mövzusunda Azərbaycan Texnologiya Universitetində region universitetləri arasında ilk dəfə keçirilən beynəlxalq elmi-praktiki konfrans məhz bu aktual məsələlərin geniş elmi müstəvidə müzakirəsinə həsr olunmuşdur. Biz elm və təhsil işçisi olaraq texnoloji inkişafda mütəmadi yenilənən tendensiyanı təqib etmək, elm-texnologiya-sənaye üçbucağında qarşılıqlı inkişaf yeniliklərini qabaqlamaq, ölkəmizin gələcək inkişafı və təhlükəsizliyi naminə elmi tədqiqatlarımızı və təhsil səviyyəmizi daim artırmalıyıq. Bunu bizdən ikinci Qarabağ müharibəsində əldə etdiyimiz Böyük Zəfər, işğaldan azad edilmiş torpaqlarımızda vüsət almış bərpa və quruculuq işləri, dövlətimiz qarşısında duran ən ümdə vəzifələr və digər hədəflər tələb edir. Bu prosesin davamlı olmasında elm və təhsil işçilərinin də yerinə yetirməli olduğu mühüm vəzifələr var. Bu vəzifənin ən mühümünü Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində deyib: "Hər şeyi bundan sonra texnologiyalar həll edəcək. Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq". Azərbaycan Texnologiya Universiteti cənab Prezidentin dediklərini şüar kimi istifadə edərək, Azərbaycanda elm və texnologiyanın bundan sonrakı inkişafında da daha aktiv iştirak edərək öz töhfəsini verəcəkdir.

Bu beynəlxalq konfrans müxtəlif ölkələrdən alimləri, mütəxəssisləri və gənc tədqiqatçıları bir araya gətirərək aktual elmi problemlərin müzakirəsi, yeni ideyaların paylaşılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından mühüm platforma rolunu oynayır. Məcmuədə yer alan məqalələr universitetlərin transformasiya prosesində rolu, rəqəmsal təhsil mühiti, innovasiya ekosistemləri, sənaye-universitet əməkdaşlığı və gələcəyin texnologiyaları ilə bağlı dəyərli elmi yanaşmaları özündə əks etdirir. Əminik ki, konfrans materialları elmi ictimaiyyət üçün faydalı mənbə olacaq, yeni tədqiqat istiqamətlərinin formalaşmasına və gələcək əməkdaşlıqların inkişafına mühüm töhfə verəcəkdir.

Dos. Yaşar Ömərov
Azərbaycan Texnologiya Universitetinin rektoru

BÖLMƏ. TEKSTİL, YÜNGÜL SƏNAYE VƏ DİZAYN

Sədr: Cahangir Hacıyev
Həmsədr: Umida Maksudova (Daşkənd Tekstil və Yüngül Sənaye İnstitutu, Özbəkistan)

LASTİK HÖRMƏSİ VƏ ONUN TÖRƏMƏLƏRİNİN FƏRQLİ CƏHƏTLƏRİ

Cahangir Əhməd oğlu Hacıyev
j.hajıoglu@rambler.ru
Azərbaycan Texnologiya Universiteti

Trikotaj hörmələrinin təsnifatından bilinir ki, lastik və onun törəmələri bir çox ikiqat hörmələrin əsasını təşki edir. Lastikin ən çox istifadə olunan variantları sadə və böyük raportlu (mürəkkəb) lastiklərə bölünür. Sadə lastiklərdə ikinci iynədanda (əsasən dairəvihörücü maşınlarda diskdə və səthihörücü maşınlarda isə arxa iynədanda), ancaq bir ilmə alınır, məsələn, lastik 1+1 (L_{1+1}), lastik 2+1 (L_{2+1}), lastik 3+1 (L_{3+1}) və s. Böyük raportlu lastiklərdə isə hörücü maşının hər iki iynədanında iki və daha çox ilmə alınır, məsələn, lastik 2+2 (L_{2+2}), lastik 3+2 (L_{3+2}), lastik 3+3 (L_{3+3}), lastik 4+3 (L_{4+3}), lastik 6+3 (L_{6+3}) və s.


Kuponlardan (hissələrdən) alınan ədədi məmulatların istehsalında dünya trikotajçıları lastik 2+2 (L_{2+2}) hörməsindən daha çox istifadə edirlər. Burada diqqət yetiriləsi bir neçə incə məqam var:

1. Dairəvi hörücü maşınlarda silindrin və diskin iynələrində (səthihörücü maşınlarda isə qarşı və arxa iynədanlarda) hər üçüncü iynənin yeri boş saxlanılır. Bu halda iynə yatağının kənar divarları iynə tərəfindən sıxılaraq daraldığından, hörmə növü dəyişdirildikdə iynələrin oturduğu yuvada hərəkəti çətinləşdiyindən, məqsədəuyğun sayılmır. Sözügedən hörməni almaq üçün yaxşı halda iynə yatağına iynə (qarmaqlı və ya qarmaqsız) qoyulur, amma işlədilmir (şəkil1, *a*);
2. "İngilis lastiki" ("English rib") (dövrü maşınlardakı iynə düzülüşünə uyğun hörülməyə görə) – bu ilmə quruluşu dövrü maşınlarda növbə ilə bir iynədanda iki ilmə (ikibaşlı dilli iynənin bir başında), digər iynədanda isə iki ilmə (ikibaşlı dilli iynənin digər başında) alınır (bu da lastik 2+2 (L_{2+2}) adlanır, şəkil 1, *b*);
3. "İngilis lastiki" ("English rib") (iynələrin lastik düzülüşünə görə) – lastik 2+2 (L_{2+2}). Hər iynədanda ardıcıl oaraq iki iynə işlədilir, iki iynə isə işlədilmir, həm də işləməyən iynələrdən biri qarşı iynədanda işləyən iynələrin arasında yerləşir (şəkil 1, *c*);
4. "İsveçrə lastiki" ("Swiss rib") (iynələrin lastik düzülüşünə görə) – lastik 2+2 (L_{2+2}) (şəkil 1, *a*).
5. "İsveçrə lastiki"ni ("Swiss rib") diskdə (arxa iynədanda) bir iynə addımı qədər yerdəyişmə etsək alınan ilmə quruluşu "Skeleton lastik 1+1" ("Skeleton 1x1 rib") adlanır (şəkil 1, *d*). Bu hörmə məmulatın ətək (kəmər (bort)) hissəsini lastik 2+2 (L_{2+2}) hörməsi ilə almaq üçün iynədanların yerdəyişməsi zamanı əldə edilir. Çox vaxt hörülmə prosesində baş verən belə dəyişmiş hörmə hallarına əhəmiyyət verilmir. Hərçənd ki, hər yeni element özü ilə bərabər yeni şərtlər diktə edir. Bunları nəzərə almamaq həm texnoloji prosesin gedişini, həm də hesablama nəticələrinin xətalarını artırır. İlmələrin saya, lastik 1+1 və mürəkkəb lastik quruluşlarının olması, həmçinin birləşmələrin forma və ölçülərinin fərqliliyi trikotajın xassələrində lokal dəyişikliyə səbəb olur. Adlandırma sadəcə prosesin aydınlığı baxımından deyil, həm də prosesin quruluş parametrlərinin, onun xassələrinin dəyişməsnə təsir edən amillərin öyrənilməsinə yardımçı ola bilər.


Böyük raportlu lastik hörmələrindən xaricdə, xüsusilə Avropa ölkələrində "Derbi lastik 6+3" ("6+3 Derby rib") quruluşu da (şəkil 1, *e*) geniş istifadə olunur. Verilən şəkillərdəki qrafik yazılışlarda "•" ilə işləməyən iynələr, "○" ilə isə işləyən iynələrdə alnan ilmələr göstərilmişdir.

Lastikin törəmələrindən ikilastik və ya "interlok" və "eytlok" daha çox istifadə olunur. Bu hörmələri almaq üçün iynələrin interlok düzülüşü vacibdir. İnterlok hörməsində adi iki cərgə lastik 1+1 hörüldüyü halda (şəkil 2, *a*), eytlok hörməsində iki cərgə lastik 2+2 (L_{2+2}) hörməsi

alınır (şəkil 2, *b*). Hər iki hörmə raportunun alınması üçün iki hörücü sistem lazım olduğu halda, iynələrin yığılma ardıcıllığı fərqlidir.



Şəkil 1. "İngilis lastiki" (a, b), "İsveçrə lastiki" (c), "Skeleton lastik 1+1" (d) və "Derbi lastik 6+3" (e) hörmələrinin qrafik yazılışları



Şəkil 2. "İnterlok" (*a*) və "eytlok" (*b*) hörmələrinin qrafik yazılışları

Araşdırmalarla müəyyən edimişdir ki, ədədi məmulatların ətək hissəsinin hörülməsində elastikliyi artırmaq üçün istifadə olunan lastik 2+2 hörməsinin alınma xüsusiyyətlərinə görə quruluşunda fərqli cəhətlər mövcuddur. Beləki dövrü maşınlarda alınan lastik 2+2 ilə dairəvihörücü maşınlarda (şəkil 1, *a*) və ya səthihörücü maşınlarda alınan müvafiq hörmənun quruluşu (şəkil 1, *c*) bir-birindən nisbətən fərqlidir. Bunlara uyğun olaraq, Avropa ölkələrində bu hörmələrin adlarında fərqlilik özünü göstərir. Eyni zamanda lastik hörməsinin interlok və eytlok kimi quruluşlarının da mövcudluğu diqqət çəkmişdir.

VARIOUS ASPECTS OF RIB KNITTED STITCH AND ITS DERIVATIVES

Jahangir Ahmed oglu Hajiyev
j.hajıoglu@rambler.ru
Azerbaijan Technological University

Research has revealed that the 2+2 rib weave, used to increase elasticity in knitting the edges of individual garments, has different aspects depending on the production process. The 2+2 rib weave produced on reverse knitting machines and the corresponding weave produced on circular or flat knitting machines differ significantly. Consequently, the names of these weaves in European countries also vary somewhat. Meanwhile, derivatives of the rib knitted stitch, interlock and eightlock, have attracted attention.

Keywords: "English rib", "Swiss rib", rib 2+2, "Skeleton 1x1 rib", interlock, eightlock

İSTİSMAR ZAMANI GEYİMLƏRİN KEYFİYYƏTİNİN QORUNMASININ BƏZİ YOLLARI

Cahangir Əhməd oğlu Hacıyev
j.hajıoglu@rambler.ru
Hülya Nemət qızı Quliyeva
qulliyevahulya@gmail.com
Aişa Rəşad qızı İsmayılova
aismayilova413@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Tədqiqatlarla sübut olunmuşdur ki, istismar olunduğu andan başlayaraq, digər cansız məhsullar kimi, geyim məmulatlarının da keyfiyyəti aşağı düşməyə başlayır. Bu proses məhsulun təyinatı üzrə yararlılığını müəyyən edən xassələrin dəyişməsi ilə baş verir. Məmulatın pillinqlənməsi, onun səthinin müxtəlif yerlərində materialı təşkil edən hissəciklərin (elementlərin) sürtülərək parça və ya trikotajın quruluşunun zəifləməsinə səbəb olur. Bu hallara ayrı-ayrılıqda baxaq.

Trikotajın istismarı zamanı bəzi liflərin uclarının qıvrılaraq kürəciklər əmələ gətirməsinə pillinqləşmə deyilir. Yundan olan məmulatlarda pillinqləşmə istismar dövrünün başlanğıcında əmələ gəlsə də, müəyyən ölçüyə çatdıqdan sonra kürəciklər trikotajın səthindən düşürlər. Buna səbəb kürəciklərin oturacağını təşkil edən liflərin ilmədən asan çıxmasıdır.

Sintetik saplardan olan məmulatlarda pillinq daha davamlıdır, bu da onların xarici görünüşünü pisləşdirir və sonrakı istifadəsini qeyri-mümkün edir. Qarışıq saplarda təbii və kimyəvi liflər birlikdə olduqlarından, belə saplardan istehsal olunan tekstil materiallarında, standartla pillinqləşmə əsas göstərici kimi önə çəkilir.


Pillinqin (kürəciklərin) əmələ gəlməsinə təsir edən amillər aşağıdakılardır: liflərin növü və xassələri, ipliyin, parçanın, trikotajın və b. məmulatların quruluşu, onların həndəsi və mexaniki xassələri. Kürəciklərin əmələ gəlməsi bir neçə mərhələdə baş verir. Əvvəlcə, birinci mərhələdə, materialın səthində liflərin sərbəst ucları yuxarı qalxaraq görünən xovluq əmələ gətirir. İkinci mərhələdə, bəzi liflər qruplaşaraq, bir-birinə dolaşır və yumşaq lif topası yaradırlar. Üçüncü mərhələdə, materialdan çıxan və ya qırılan liflər oturacağı materialda olan və lif topasının özəyini təşkil edən kürəciyin bərkiməsinə kömək edirlər. Dördüncü mərhələdə, bəzi kürəciklər materialın səthindən qoparaq düşsə də, qalan kürəciklər məmulatın istifadə edilməsinə mənfi təsir göstərir.

Tərkibində poliefir və poliamid lifləri olan trikotaj məmulatları pillinqləşməyə daha meyllidirlər. Təcrübə göstərir ki, məmulatın üz tərəfində kürəciklər astar tərəfinə nisbətən daha çox əmələ gəlir. Həm də məmulatın ön hissəsində pillinqləşmənin intensivliyi digər hissələrlə müqayisədə böyükdür.

İstismar zamanı trikotaj məmulatlarının pillinqləşməsini azaltmaq üçün xüsusi emal növlərindən (qırxma, ütmə və s.) başqa, elə hörmə quruluşlu qumaşlardan istifadə etmək lazımdır ki, pillinqləşməyə meylli saplar sürtülməyə məruz qalmayan və ya az məruz qalan səthlərdə yerləşsin. Bunun üçün hörmənin seçilməsi çox vacibdir. Örtük, plyuş, ikiqat pres və birləşik (kombinə) və bu kimi hörmələr pillinqləşmənin azaldılması üçün yararlı sayıla bilər.

Məsələn, ikilaylı (ikiqatlı) trikotajın quruluşu və məlum ikiqat fanq və yarımfanq, həmçinin reps hörmələri imkan verir ki, poliefir (lavsan) və ya poliamid (kapron) liflərindən olan ipliyi astar tərəfdə, təbii və digər yararlı iplik (sap) növləri qumaşın və ya məmulatın üz tərəfində istifadə olunsun. Əgər bu hörmələrin astar tərəfində pillinqləşməyə meylli ipliklərdən pres və saya cərgələri alınarsa, onlar da məmulatın astar tərəfində yerləşdirilərsə, üz tərəfdən fərqli olaraq, onların sürtünən səthlərlə təması olmayacaqdır. Bunun nəticəsində kürəciklərin əmələ gəlməsi minimuma çatacaqdır.

Yuxarıda baxılan hörmələrdən fərqli olaraq elə hörmələr mümkündür ki, yüksək pillinqləşməyə meylli iplik növləri astar tərəfdə yerləşməklə bərabər, onların bəzi elementləri – birləşmə və ilmələr üz tərəfdən görünsə də sürtülməyə məruz qalmırlar. Qrafik yazılışı şəkil 1-də göstərilən trikotaj hörmələrinin quruluşunda belə elementlərə rast gəlinir. Bu hörmələrin alınması üçün iki hörücü sistem lazımdır.



Şəkil 1. Pillinqləşməyə meylli poliefir və poliamid liflərindən olan ipliklərin işlədilməsi üçün yararlı hörmələrin qrafik yazılışları

Birinci hörücü sistemdə lastik 2+2 ilmələrini (şək. 1, *a*, *b*) məsələn, pambıq ipliyindən, ikinci hörücü sistemdə isə diskin iynələrində saya ilmələri (şək. 1, *a*) və ya əvvəlki sistemdə diskin işləməyən iynələrində poliefir ipliyindən natamam saya ilmələri (şək. 1, *b*) alınır. Poliefir ipliyindən alınan ilmələrin, məmulatın astar tərəfində yerləşməsi pillinqləşmənin minimuma çatdırılmasını təmin edər. Birinci, buna astar tərəfdə yerləşən, amma üz tərəfdə görünməyən 3 və 4 (şək. 1, *a*), 5 və 6 (şək. 1.15, *b*) ilmələri, ikinci, 7 və 8 ilmələri (şək. 1, *a*), həmçinin 9 birləşməsi (şək. 1, *b*) səbəb olur. Digər tərəfdən, baxmayaraq ki, onlar üz tərəfdən görünürlər, uyğun olaraq 10, 11 və 12, 13 və s. (şək. 1, *a*) və 14, 15 və 16, 17 və s. (şək. 1, *b*) lastik 2+2 ilmə sütunlarının səthindən ipliyin iki qalınlığı qədər dərinlikdə yerləşirlər. Bununla da pillinqləşməyə meylli iplikdən olan ilmə və birləşmələrin, məmulatın üz tərəfində yer alan sürtünmə səthləri ilə təması heçə endirilir. Lastikin $i+j$ raportunda astar ilmələrinin sayını az ($j \leq 3$) götürmək lazımdır ki, məmulatların istismarı zamanı lastikin astar ilmə sütunları daha çox sürtülən, lastikin üz ilmə sütunlarından aralıda (geridə) dursun. Bu hal üçün lastikin sərfəli raportları lastik 2+1, lastik 1+2, lastik 2+2, lastik 3+2, lastik 2+3, lastik 3+3 ola bilər. Trikotaj məmulatlarının pillinqləşmə səviyyəsini azaltmaq üçün yararlı olan belə hörmələrin sayı hədsiz çoxdur.

Eyni zamanda pillinqləşməni naxışa – faydalı effektə çevirmək də mümkünür. Pillinqləşməyə meylli iplikdən ədədi məmulatların, məsələn, səthində zolaq əmələgətirmək məqsədilə bir neçə cərgə hörmək olar. Həmin zolaqda meydana çıxan pillinqlər naxış effekti verər. Belə zolaqları həm üfüqi, həm də şaquli istqamətlərdə hörmək qumaşın çeşidini artırar.


Boğazı V-vari olan pulover, jilet, jaket və s. trikotaj məmulatlarında xüsusi beykalardan istifadə olunur. Bu hissənin hörmə quruluşunu elə seçmək olar ki, pillinqləşməyə meylli iplikdən olan cərgə pillinqlənməyən sapların ilmə cərgələrinin arasında yerləşsin. Belə məmulatların istismarı zamanı pillinqlənən ilmə cərgələri məmulatı pis göstərməyəcək, əksinə naxış effekti olaraq daha da baxımlı edəcəkdir (şəkil 1, *c*).

Məmulatın köhnəlməsini və onun keyfiyyətinin aşağı düşməsini ortaya qoyan, daha doğrusu məmulatı istifadəyə yararsız edən amillərdən biri də onun istismar zamanı sürtülməsi nəticəsində səthində məcburi xovların yaranması, sonra isə müəyyən müddətdən sonra həmin yerdə dağılma baş erməsi nəticəsində deşiklərin əmələ gəlməsidir. Sürtülmə halları ən çox bədənin hərəkətli zonalarında məmulatın istismarı zamanı bir-birinə sürtünən hissələr arasında baş verir, məsələn, ayrıca pencəyin qolu, qabaq hissələri ilə altından geyinilmiş köynək, cemper, pulover və s. arasında baş verir. İnsanın geyindiyi məmulatların bəzi hissələrinin təmasda olduğu ətrafdakı cisimlərlə sürtülməsi və yeyilməsi halları da vardır.

Parça, trikotaj və s. materialların öz aralarında sürtünmələri nəticəsində məmulatların qoltuqaltı nahiyələri daha çox yeyilir. Bu hal ən çox nisbətən dar məmulatlarda özünü göstərir. Məsələn, pencəyin qolunun bədənə birləşdiyi yer həm xaricdən, həm də daxildən əsasən bu

səbəbdən daha çox sürtünür və onun astar tərəfdə qolaltı nahiyəsində astarıdaha tez sıradan çıxır. Pencəyn altındakı köynək və ya trikotaj məmulatının qolaltı sahəsi də çox sürtünən və tez korlanan sahə olaraq dəyərləndirilə bilər.

Məmulatların müxtəlif yerlərində tikimiş etiketlərin kontaktda olduğu digər məmulatlarla sürtünməsinin onların keyfiyyətinə təsiri maraqlıdır. Palto, plaş, pencək, kürk və başqa üst məmulatlarının daxili tərəfinə tikilmiş etiketlə, təmasda olduğu altdakı məmulatlar arasında yerli sürtülmə baş verir. Bu etiketlərin hazırlandığı materialların bir qayda olaraq, daha sərt olduğu nəzərə alınsa, onda onların arasında baş verən sürtülmə nəticəsində məmulatların səthində sapların liflərinin qırılmasına görə tiftiklənmə baş verər. Pencəkdəki daxili cibin üstündə tikimiş etiketin köynəklə toxunduğu yerdə belə tiftiklənmə halı şəkil 2, *a* və *b*-də, kürkün kürək-boyun hissəsindəki etiketin cemperlə təmas yerlərindəki sürtülmədən taranan tiftiklənmə 2, c-də göstərilmişdir.



***a*)** ***b*)** ***c*)**

Şəkil 2. Pencəyin cibinin üstündə və kürkün boyun-boğaz hissəsində tikilmiş etiketlərin, uyğun olaraq, köynək və cemperin təmasda olduqları sahələrdə sürtülmədən yaratdıqları tiftiklənmə sahələrnin göünüşü

Şəkillərdən də göründüyü kimi etiketlərin məmulatlarda yaratdığı yerli tiftiklənmə halları onun istifadəsi məhdudlaşdırır. Bahalı məmulatların sıradan tez çıxmasına səbəb olur. Bu çatışmazlığı aradan qaldırmaq üçün etiket və s. sərt nişanları üstdəki məmulatın elə yerlərində tikmək lazımdır ki, altındakı məmulatla təması olmasın. Etiketlərin məmulatın astar tərəfdəki cibinin daxilinə tikmək bu problemi çözmüş olar.

SOME WAYS TO MAINTAIN THE QUALITY OF CLOTHING WHILE WEARING THEM

Jahangir Ahmed oglu Hajiyev
j.hajıoglu@rambler.ru,
Hulya Nemat gizi Quliyeva
qulliyevahulya@gmail.com,
Aisha Reshad gizi Ismayilova
aismayilova413@gmail.com
Azerbaijan Technological University

This work addresses the preservation of clothing quality during wear. The types of yarn and weave patterns in knitwear that contribute to pilling are identified. Weave patterns that conceal pilling are proposed. It is established that labels that come into contact with the surface of the garment, due to friction, form visible lint, which spoils its appearance. It is proposed that labels on suits and similar items should be sewn to the inside of pockets.

Keywords: quality, piling, garment, friction

XAM PAMBIQ TƏMİZLƏYİCİLƏRDƏ MÜXTƏLİF PROFİLLİ KOLOSNİKLƏRİN EKSPERİMENTAL TƏDQİQİ

Hüsnü Qədir oğlu Kərimov
kerimov_husnu@mail.ru
Azərbaycan Texnologiya Universiteti


Pambıq emalı müəssisələrində xam pambığın iri qarışıqlardan təmizlənməsi üçün istər ən-ənəvi batareyalı ЧХ–3М –2, istərsə də axın xəttində tətbiq olunan УХК və АХОК təmizləyicilərində mişarlı baraban – kolosnik şəbəkə seksiyasında həyata keçirilir. Keçən əsrin 80 – ci illərindən bu zamana qədər demək olar ki dünyada pambıq təmizləyicilərində diametri 20 mm və ara məsafələri 40 mm olan dairəvi profilli kolosniklər tətbiq liunur.Əsasən aşağı pambıq sortları üçün əlverişli olan bu kolosniklər iri zibillərin təmizlənməsində faydalı olsa da təmizləmə effektinin aşağı olması ilə xarakterizə olunur.

Xam pambığın iri qarışıqlardan təmizləyicilərin parametrləri nəzəri və praktiki cəhətdən yaxın coğrafiyada ilk dəfə Baltabayev S.D, və Nuraliyev A,N, tərəfindən əsaslandırılmışdır. Sonralar Samandarov S.A., Muratov A.A.,Budin E.F., Miroşniçenko Q.D., Burnaşev R.Z.,Корабельников P.B., Luqaçov A.E. və başqa görkəmli alıimlərin işlərində geniş tədqiq olunmuşdur. Ölkəmizdə bu sahədə Vəliyev F.Ə., Hüseynov V.N., Sailov R.A., və Əfəndiyev Ə.Q. kimi alimlərin xidmətlərini qeyd etmək olar [2,3,4,5].

İri qarışıq təmizləyicilərdə trapesiya və üçüzlü prizmatik konfiqurasiyalı kolosniklərin, eyni zamanda tərpənən və müxtəlif profilli kolosniklərin kombinasiyasından təşkil olunmuş şəbəkənin tətbiqi ilə müsbət nəticələt almaq mümkün olmamışdır. Eyni zamanda emal olunan xam pambığın fiziki – mexaniki xassələrindən və texnoloji parametrlərindən asılı olaraq parametrləri tənzimlənən kolosniklərin tətbiqinə də cəhd edilmişdir [6,7,8,9].

Tərəfimizdən hazırda istismarda olan dairəvi profilli kolosniklərlə yanaşı dairəvi seqment və episikloid profilli kolosniklərin müqayisəli tətbiqi ilə təmizləmə effekti qiymətləndirilmişdir.Tədqiqatlar aşağıdakı metodika üzrə aparılmışdır. Hər bir variantda stend qurğusunda təcrübə aparmaq üçün 25 kq xam pambıq götürülmüşdür. Bu bizə kütləvi istehsalda geniş tətbiq edilən sənaye tipli maşınla alınan nəticələri müqayisə etməyə imkan verir [1,10,11,12,13]. Xam pambığın təmizlənməsindən çox saylı qiymətlər almaq üçün götürülmüş nümunələr stend qurğusundan beş dəfə buraxılmışdır. Hər bir buraxılışdan sonra pambıqdan nümunələr götürülmüş və pambığın iri qarışıqlar üzrə zibilliyini təyin etmək üçün laboratoriya sınaqları azı 5 dəfə təkrar olunmuşdur.

Şəkil 1 də xam pambığın stend qurğusundan hər bir buraxılma zamanı təmizləmə effektlərinin müqayisəli qrafiki verilmişdir. Ara məsafələri 40 mm olan dairəvi və episikloid, 30 mm olan dairəvi seqment en kəsiyə malik kolosniklərin nəticələri göstərilmişdir.



Şəkil 1. Gəncə 160 III sort maşınla yığılmış xam pambıq üçün ara məsafələri 40 mm olan dairəvi, episikloid və 30 mm olan dairəvi-seqment en kəsiyə malik kolosniklər üçün ümumi təmizlə effekti: göy rəng-dairəvi kolosniklər, qırmızı rəng –episikloid profilli kolosniklər, qara rəng isə-dairəvi seqmentin tətbiqi ilə alınan nəticələr.

Qrafikdən göründüyü kimi, sınaqların sayı artdıqca xam pambığın tərkibindəki kənar qarışıqların miqdarı azalır. Beşinci buraxılmadan sonra isə ən yaxşı nəticə alınır. Ara məsafələri 40 mm olan dairəvi kolosniklərin tətbiqi ilə ilkin buraxılışda təmizləmə effekti 56,10%, son buraxılışda isə 22,75% olmuşdur. Ara məsafələri 40 mm olan episikloid profilli kolosniklərin tətbiqi zamanı ilkin buraxılışda təmizləmə effekti 51,15% olmuş, son buraxılışda isə 20,45% olmuşdur.Eyni zamanda ara məsafələri 30 mm olan dairəvi-seqment profilli kolosniklərin də tətbiqi ilə sınaqlar aparılmışdır. Burada isə ilkin buraxılmada təmizləmə effekti 47,23% olmuş, son buraxılmada isə bu göstərici 17,12% təşkil etmişdir. Göründüyü kimi, dairəvi seqment profilli kolosniklərin tətbiqi ilə daha yaxşı nəticələr alınmışdır.

ƏDƏBİYYAT

1. Xam pambıq. Zibilliyin təyin olunma metodları. AZS 156-2005 // 01 iyul 2005 ci ildə qəbul edilmişdir. Rəsmi nəşr. Bakı, 2005, 31 s.
2. Kərimov H.Q., Hüseynov V.N., F.Ə.Vəliyev. Mişarlı barabanda kolosniklərin profilinin xam pambığın zibillərdən təmizlənmə intensivliyinə təsirinin nəzəri analizi // − Bakı: Azərbaycan Texniki Universiteti, Maşınşünaslıq, Beynəlxalq elmi texniki jurnal,−2016. cild 5 №1, − s. 10-12
3. Vəliyev F.Ə.,Kərimov H. Q.Xam pambığın təmizlənməsi üçün kolosnik şəbəkə,Faydalı model üçün patent P 2020.2023,Azərbaycan Respublikası/Hüseynov.V.N.,Kərimov.H.Q. 2020.
4. Будин Е.Ф. Исследование колосниково-пильчатых рабочих органов очистителей хлопка-сырца машинного сбора средневолокнистых сортов: / диссертация на соискание ученой степени кандидата технических наук / −Ташкент, 1968. − 231 с.
5. Бурнашев Р.З.Теоретические основы технологии очистки хлопка-сырца: / диссертация на соискание ученой степени доктора технических наук / − Ташкент, 1993− 434 с.
6. Громова Е.И., Корабельников Р.В., Лебедев Д.А. Обоснование выбора пильно-колосниковой системы с регулируемым параметрами// Тезисы докладов международной научно-технической конференции. Прогресс, − Иваново: − 2007, −с.55-58.
7. Джураев А.Д. Очистительная секция хлопкоочистительного агрегата, Патент на полезную модель № FAO 0007, Республика Узбекистан / Далиев Ш.Л.− 2016.
8. Керимов У.Г., Велиев Ф.А. Влияние профиля колосников на интенсивность выделения сорных примесей // XIмежд.научно-практ. конференция, Москва: − Интернаука, − 2016 № 9(11), − с.496-500.
9. Корабельников Р.В., Корабельников А.Р. Об одной проблеме выделения крупных сорных примесей из волокнистого материала // − Иваново: Технология Текстильной промышленности, − 2000. №3, − с.29-33.
10. КорабельниковА.Р.,Лебедев Д.А., ГромоваЕ.Н.Процесс взаимодействия волокна с колосником//−Иваново: Технология текстильной промышленности, − 2006. №4, − с.41-45
11. Хакимов Ш.Ш. Теоретические исследования движения хлопка-сырца в зазорах между закрепляющими колосниками и пильчатым барабаном // − Штутгарт: Журнал europaische fachhochschgle изд. ort publishing, − 2015, №11, − с.63-66.
12. SailovR.A., ValiyevF.A., Karimov H.Q.Determination of the heat distribution in the Rave cotton packed in the coie//Tallin: EUREKA:Physics and Enginering scopus, −2017, −3-11 pp.
13. Sailov R.A., Valiyev F.A., Karimov H.Q. Research into the process of mechanical formation of the upper part of a raw cotton bundle // − Xarkov: Eastern – European Journal of enterprise technologies scopus, − 2017, −56-63 pp.

EXPERIMENTAL STUDY OF GRATE BARS OF VARIOUS PROFILES IN RAW COTTON CLEANERS

Husnu Kadir oglu Karimov
Azerbaijan Technological University

Currently, in cotton processing enterprises, cleaning machines used to clean raw cotton from large debris use circular profile combs, which are considered the main working body. Despite the good cleaning of large-sized impurities in the cotton, the cleaning effect of circular profile combs is low. There is a need to improve such combs, which have been in operation for a long time. During the improvement, technological parameters such as the cleaning effect of the machine, mechanical damage to the raw material, the formation of free fibers, damage to fibers and the loss of cotton fly ash should be taken into account.

The article proposes the application of new profile combs developed by us - circular segment and epicycloid profile combs. For this purpose, a comparative experimental study of the proposed combs with circular profile combs was conducted on a stand device prepared on the basis of large-sized impurities cleaners. As a result of the study, it was determined that it is possible to obtain better results by applying circular segment profile combs.

Keywords: raw cotton, cleaning, kolosnik, circular, circular – segment, epicycloid

MƏİŞƏT TEKSTİLİ DİZAYNINDA AZƏRBAYCANIN KLASSİK NAXIŞLARININ MÜASİR VARİASİYALARI

Təranə Qasım qızı Səfərova[1]
tarana.safarova1@mail.ru
Qənirə Faiq qızı Abbasova[2]
Hicran Ədalət qızı Ramazanova[2]
ganira.abbasowa@yandex.ru
Azərbaycan Dövlət İqtisad Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

Dizayn dünyasında milli ornament yeni məna qazanaraq mədəni identikliyi ifadə vasitəsinə çevrilir. Bu isə xalq ənənələrinə dayanıqlı mədəni məna mənbəyi kimi müraciəti aktyallaşdırır. Xalçaçılıq, tekstil məmulatları və dekorativ-tətbiqi sənətdə formalaşmış Azərbaycan ornamental ənənəsi ritm, simmetriya və simvolikanın dəqiq qurulmuş məntiqinə malik mürəkkəb bədii sistemdir [1, s. 15–20]. Azərbaycan xalçaçılıq sənətinin UNESCO tərəfindən qeyri-maddi mədəni irs nümunəsi kimi tanınması onun yalnız tarixi hadisə deyil, həm də müasir inkişaf və yenidən şərh potensialına malik canlı ənənə olduğunu vurğulayır [7]. Bu baxımdan məişət tekstili xüsusi maraq doğurur; burada ənənəvi naxışlar müasir interyer təcrübələrinə uyğunlaşdırılmış yeni vizual yozum qazanır.

Azərbaycan ornamenti bütöv bədii sistem kimi nəzərdən keçirilməlidik. Bu sistemdə hər bir element ümumi kompozisiya quruluşuna tabedir. L.A.Kərimovun tədqiqatları göstərir ki, Azərbaycan xalça və parçalarının ornamental təşkili ritm, təkrarlanma və simmetriyanın qarşılıqlı təsiri üzərində qurulmuşdur və bu amillər sabit vizual model formalaşdırır [2, s. 12–14].

Ornamental sistemin ən xarakterik elementlərinə aşağıdakılar daxildir: həndəsi motivlər, bitki motivləri və parçalar üzərində geniş yayılmış stilizə edilmiş arabesklər, medalyon kompozisiyaları və raport strukturları, hansı ki, məhsulun kompozisiya bütövlüyünü təmin edir [2, s. 133–140], [4, s. 17–25].

Məişət tekstilinin müasir nümunələrinin təhlili göstərir ki, mürəkkəb ənənəvi ornamentlər formal qısaldılma və qrafik reduksiya prosesinə məruz qalır [6, s. 48–55]. Məsələn, Azərbaycan xalçalarından götürülmüş qrafik elementlər – romblar, medalyonlar, güllər, bitki motivləri və həndəsi xətlər – sxematik xətlərə, demək olar ki, piksel naxışlarına sadələşdirilir. Bundan əlavə, onlar tək rəngli fon üzərində vurğu rəngi ilə istifadə olunur və s. Bu yanaşma dekorativlik ilə müasir minimalizm arasında balans yaradır.

Xarakterik tendensiyalardan biri kiçik raport naxışından imtina edərək ornamentin iri fraqmentlərini istifadə etməkdir. Məişət tekstilində bu, adətən yorğan, dekorativ yastıq və ya tekstil

panellərində bir dominant motivin istifadəsi ilə özünü göstərir. Tədqiqatçılar qeyd edirlər ki, ölçünün dəyişdirilməsi ornament sisteminin bütövlüyünü pozmur, əksinə onu müasir qavrayışa uyğun formaya gətirir [2, s. 145–148].

Kontrastlı rəng birləşmələrinin yerinə monoxrom və ya ton-üzrə həllər gəlir, təbii və neytral rəng çalarlarına əsaslanır [3, s. 118–123]. Məsələn, yarpaq və çiçək motivləri (xüsusilə kələğayılarda), arabesklər və budaqlar incə, axıcı xətlərə çevrilir. Sanki kaligrafiyanı xatırladan hərəkətli kompozisiyalar yaradılır. Belə naxışlar nazik parçalar üzərində və hərəkət təəssüratı olan səthlərdə yaxşı görünür.

Məişət tekstilində Azərbaycan ornamentlərinin müasir variasiyaları ikiqat funksiyanı yerinə yetirir: həm utilitar, həm də mədəni-kommunikativ. Onlar milli mədəniyyətin vizual kodlarının qorunmasına kömək edir və eyni zamanda onları kütləvi istehsal və müasir həyat tərzinə uyğunlaşdırır.

Azərbaycanda müasir dizayn layihələri hazırlanır ki, burada milli naxışlar aktual bədii, moda və dekorativ həllərdə istifadə olunur. Məsələn: "The New Story of Kelaghayi" layihəsi – kələğayı sənətini müasir moda və muzey mədəniyyəti ilə birləşdirir. "Sumakh / AFFFAIR" kolleksiyası – xalça motivləri əsasında moda. Dizayner Rufat İsmayılın layihəsi. Bu, ənənəvi motivlərin müasir fashion-dizaynda istifadəsinin konkret nümunəsidir."A New Look at National Heritage" layihəsi – naxış ənənəsi ilə müasir bədii təcrübənin sintezini nümayiş etdirir. "Karabakh in Patterns" layihəsi – xalq ənənələrinin ictimai mədəni mühitə inteqrasiyasının nümunəsidir. "Azerbaijan's Carpet – Pattern Dance" layihəsi – ənənəvi motivlərə xalça istehsalının bədii kontekstində yeni baxış kimi yer tutur.

Aparılmış tədqiqat göstərir ki, məişət tekstili dizaynı milli bədii irsin aktuallaşdırılması üçün effektiv forma kimi qiymətləndirilə bilər və bu çərçivədə ənənə mexaniki surətdə təkrarlanmır, əksinə müasir estetik və funksional tələblər nəzərə alınmaqla yenidən yaradılır və genişlənir. Beləliklə, Azərbaycandakı müasir layihələr milli naxışları mədəni kod və vizual yaddaş kimi istifadə edir.

ƏDƏBİYYAT

1. Kərimov L. A. Azərbaycan xalçası. Bakı : Azərnəşr, 1983. 256 s.
2. Kərimov L. A.Azərbaycan xalçalarının bədii xüsusiyyətləri. Bakı:Elm,1985. 198 s.
3. Məxtiyev Ş. M. Azərbaycanın ənənəvi dekorativ-tətbiqi sənəti. Bakı: Şərq-Qərb, 2001. 176 s.
4. Əliyeva S. A.Kələğayı-Azərbaycanın ənənəvi sənəti. Bakı:Təhsil, 2014. 144 s.
5. Əliyeva N.R. Azerbaijani textile art:traditions and modernity.-Baku:Elm. 2012.132 p.
6. Məmmədova A. S. Ethnic motifs in contemporary Azerbaijani design // Materials of Baku State University. Baku, 2018. P.31-63.
7. UNESCO. Azerbaijani Carpet Weaving Art: Nomination File for the Representative List of the Intangible Cultural Heritage of Humanity. Paris, 2010. 56 p.

CONTEMPORARY VARIATIONS OF AZERBAIJANI CLASSICAL PATTERNS IN HOUSEHOLD TEXTILE DESIGN

Tarana Gasim Safarova[1]
Ganira Faig Abbasova[2]
Hijran Adalat Ramazanova[2]
Azerbaijan State University of Economics[1]
Azerbaijan Technological University [2]

The article explores contemporary approaches to the interpretation of Azerbaijani classical ornaments in household textile design. It examines the processes of transformation of traditional carpet, geometric, and floral motifs in terms of changes in form, scale, color schemes, and compositional structure. Special attention is paid to the role of textile design as a means of revitalizing cultural heritage and shaping visual identity within the modern interior environment. Based on an analysis of theoretical sources and contemporary design practice, the main directions for adapting the traditional ornamental language to current aesthetic and functional requirements are identified. **Keywords:** Azerbaijani ornament, household textiles, ethno-design, carpet motifs, cultural identity, contemporary interpretation.

KOMPOZİT GEYİM HİSSƏLƏRİNİN FORMALANMASINDAN SONRA ƏYİLMƏDƏ SƏRTLİYİNİN EKSPRES ÜSULLA TƏYİNİ

Tofiq Hacı oğlu Mirzəyev
t.mirzeyev@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Tikiş məmulatlarının keyfiyyətinin idarəedilməsində onun davamlı forması, yaxşı görkəmi üçün səmərəli formasaxlama metodikasının tətbiqindən və modelləşdirmənin müasir zövqə uyğun olmasından asılıdır.

Keyfiyyətin idarəetmə sistemi elə iqtisadi sistemdir ki, burada məhsulun keyfiyyəti anlayışına iqtisadi kateqoriya baxımalıdır [1, s. 115-135].

Əmtəə və əmtəəçilik dedikdə bütün cəhətlərin cəmi başa düşülür ki, bu da istehlakçının dəyər təyini və təcrübi qabiliyyətini xarakterizə edir.


Burada istehlakçı dəyərinin iki tərəfi olur. Birincisi məhsulun keyfiyyətinin texniki tərəfdən və emal texniki şərtlər əsasında yerinə yetirilməsi. O biri isə istehlakçının tələbləri əsasında formalaşması olur.

Məhsulun istehlakçı keyfiyyəti onun iqtisadi tərəfdən istehlakı dəyərinin necə meydana çıxmasıdır. İstehsalatda və istehlakda keyfiyyət bölgüsü iki itstiqamətdə öyrənilməlidir: a)İstehsalat istiqaməti – bu ondan ibarətdir ki, məhsul buraxılan anda keyfiyyəti təyin etmək və məhsul buraxılışı dövlət standartlarına və texniki şərtlərə tam uyğun olsun; b)İstehlakçı istiqaməti – bu ondan ibarətdir ki, keyfiyyət anlayışı belə başa düşülür ki, istehlakçının konkret tələbi qoyulsun . [1, s. 330-380].

Hal-hazırda nəmləşdirib-isitmə əməliyyatlarının keyfiyyəti iki üsulla təyin edilir. Keyfiyyət göstəricilərinin birbaşa ölçülməsi, və dolayı yolla hər hansı bir kəmiyyətin qəbul edilməsi. Bu üsullardan heç biri məmulat hissələrinin nəmləndirib-isitmə əməliyyatlarımdan sonra sərtliyinin tam xarakteristikası olmur. Ona görə də tikiş məmulatlarının prosesdaxili nəmləndirib-isitmə əməliyyatları üçün hissələrin formalanmadan sonra əyilmədə sərtliyinin keyfiyyət göstəricisi üçün yeni ekspres metodikasınıın işlənməsinə ehtiyyac vardır.

Bizim apardığımız tədqiqatlarda deyilənlərin təsdiq edilməsi üçün nəmləndirib-isitmə əməliyyatlarından sonra formalanmış geyim hissələrindən (kişi üst köynəkərinin, qadın bluzkalarının ön çubuqları; kişi və qadın kostyumlarının ətəkləri və s.) əyilmədə sərtliyi keyfiyyət göstəricilərilərinin dəyişməsinin səviyyəsinə əsaslanaraq, yeni metodika hazırlanmışdır. Bu günə kimi nəmləndirib-isitmə əməliyyatlarında geyim hissələrinin formalanmasından sonra əyilmə sərtliyinin təyin edilməsi "PT-2" parçaların, trikotajın, toxunmayan və kompleks polotnoların əyilmədə sərtliyi DST 10550 – 93 (beynəlxalq sertifikatlı dövlətlərarası standart) uyğun, "konsol" üsulu ilə təyin edilirdi . [2, 12 s.]. Lakin bu üsulla əyilmədə sərtliyin təyin edilməsi uzun vaxt sərfinə səbəb olur və daha sərt geyim hissələrindən 160x30 mm ölçülərdə nümunələr kəsilməsi ilə material israfına yol verilməsinə səbəb olur. Ona görə də bizim tərəfimizdən "Konsol tir" üsulu adlandırılmış yeni ekspres üsulla nəmləndirilib-isitmə üsulu ilə geyim hissələrinin formalanmasından sonra əyilmədə sərtliyinin təyini metodikası işlənmnilmişdir.

Mahiyyətcə "Konsol tir" üsulunda ölçüləri 100 x 25mm olan üç nümunə kəsilir və onlar bir tərəfdən bir ştativ dirəyi üzərində olan üfiqi bəndləycilərə bərkidilir digər tərəfi isə açıq qalır. Bu nümunələrin işçi uzunluğu L = 70mm olur. Digər ştativ dirəyində öz kütləsindən əyilən sərbəst tərəfin əyilmə hündürlüyünü təyin etmək üçün şaquli xətkeşin göstəricisi, əyilən nümunənin əyilməsinin dəqiq perpendikulyarını almaq üçün şaquli xətkeş üzərində sərbəst olaraq aşağı – yuxarı hərəkət edən üfüqi xətkeşdən istifadə edilir (şəkil 1).



Şəkil 1. "Konsol tir" üsulu ilə toxuculuq materiallarının əyilmədə sərtlik göstəricisinin təyini üçün tərtibat

1 – üzərinə material nümunələri bərkidilən ştativ; 2 – material bərkidən tutqaclar; 3 – şaquli vəziyyətdə olan material nümunəsi; 4 – ölçü xətkeşi; 5 – üfüqi hərəkət edən xətkeş; 6 – ölçü xətkeşi bərkidilən ştativ.

Alınmış qiymətlərdən (H) orta hesabi qiyməti hesablanır. Əyilmədə sərtlik aşağıdakı formula ilə təyin edilir:

$$B = E \cdot J \qquad [sN \cdot sm^2 (qr \cdot q \cdot sm^2)]$$

Burada, E – şərti modul (elastiklik); J– ətalət momentidir.

$$J = b \cdot a^3 / 3$$

Şərti modul "E" – nin qiyməti Huk qanununa və elastiklik nəzəriyyəsinə görə aşağıdakı formuladan hesablanır:

$$E = P L^2 / 3b\, a^3 h^2$$

Burada: P – nümunələrin işçi hissəsinin kütləsidir; qr; b – nümunənin enidir; sm; a – nümunənin qalınlığı, sm; h – nümunələrin öz çəkisindən əyilmə hündürlüklərinin(h_1,h_2,h_3) orta hesabi qiymətidir; L = 70 mm – nümunənin standart üsulda olduğu kimi işçi hissəsinin uzunluğudur.Beləliklə, əyilmədə sərtlik aşağıdakı formuladan hesablanır:

$$B = P L^2 / 6 h \qquad [sN \cdot sm^2 (qr \cdot q \cdot sm^2)].$$

ƏDƏBİYYAT

1.Товароведение непродовольственных товаров: учебник / В.Е. Сыцко. - Минск: Высшая школа, 2014. - 667 с. - ISBN 978-985-06-2538-0. - URL .

2.ГОСТ 10550 -93 Методы определения жесткости при изгибе. Межгосудар- ственный совет по стандартизации, метрологии и сертификации 01.01.1995. -12 с.

RAPID DETERMINATION OF BENDING RIGIDITY AFTER FORMATION OF COMPOSITE GARMENT COMPONENTS

Tofig Haji oglu Mirzayev

t.mirzeyev@atu.edu.az

Azerbaijan Technological University

Research has shown that the quality of fabric products depends on their ability to maintain their intended shape during use. This is achieved by increasing flexural rigidity during the bonding process between the outer fabric and the lining. Therefore, a rapid method was developed using the new "Consol-Tier" method for determining the flexural rigidity of composite parts in production. Preliminary experiments have shown that the values obtained using the new method differ by 2% from those obtained using the standard method.

Keywords: Fabric quality, flexural rigidity, bonding process, composite materials, Consol-Tier method

BİTKİ MƏNŞƏLİ TƏBİİ BOYAQ MADDƏLƏRİNİN ALINMASINDA MÜASİR TEXNOLOJİ ÜSULLARIN TƏTBİQİ

İmran Qasım oğlu Qasımov
Lətifə Atakişiyeva
Vüsalə Abbasova
abbasovavusale030@gmail.com
Elnarə İsayeva
A.R.Elm və Təhsil Nazirliyi Bioresurslar İnstitutu

İnsan cəmiyyəti yaranandan onun inkişafında qida, boyaq və dərman xassəli bitkilər çox böyük rol oynamışdır.

İnsanlar qida axtarışı yolunda bütün bitkilərdən dadmış və bu vaxta qədər təxminən 5000 növ yeyilən bitki müəyyən etmişlər.

Azərbaycanda yayılmış 4200 növ bitkinin 500 növə qədəri dərman əhəmiyyətli, 1500 növü isə boyaq xüsusiyyətlidir.

Boyaqçılıq sənəti başqa ölkələrdə olduğu kimi Azərbaycanda da çox qədim tarixdən öyrənilmiş və tətbiq edilmişdir. [1]

Boyama prosesi çox mürəkkəb və dəqiqlik tələb edən iş olduğundan bu işdə daha diqqətli olmaq tələb olunur.

Müasir dövrdə ekologiyanın və insan sağlamlığının qorunması məqsədi ilə təbii boyaq maddələrinin alınması həm ekoloji problemləri həll edir, həm də yüngül sənayedə daha keyfiyyətli materialların alınmasında, qida məhsullarına təbii rəng verməklə sağlam yeyinti məhsulu alınmasına kömək edir. [2]

Məlumdur ki, süni boyaqlarla boyanmış sənaye məhsullarının, kosmetika, yeyinti məhsullarının qəbulu zamanı insan sağlamlığına çox ciddi zərər verdiyi müəyyən edilmişdir.

Elm və istehsalatda insan sağlamlığının əsas amil olduğunu nəzərə alaraq, Respublikamızın qərb regionunun təbii sərvətləri və onların tullantılarından boyaq maddələri əldə edilməsi müasir elmin ən vacib məqsədlərindəndir. [3]

Bu vacib tələbləri nəzərə alaraq Bioresurslar İnstitutu (Gəncə) Boyaq emalı texnologiyası laboratoriyasının əməkdaşları qərb regionunda yayılmış bir sıra boyaq bitkiləri və onların tullantılarından: - yovşan, gicitkən, həmişəyaşıl birgöz, qızılgül ləcəkləri, nar ağacının yerə tökülmüş çiçəkləri, nar meyvəsinin qabığı, sarı turpəng, zəncirotu, sürvə, əmənkömənci çiçəkləri, dazıotu, mahmızçiçəyi və s. bitkilərdən təbii boyaq alaraq yun, pambıq, ipək lifləri bir çox rəng və rəngçalarları ilə boyanmasının yeni texnoloji üsullarını tədqiq etmişlər. [4] Laboratoriyada öyrənilən boyaq bitkilərindən biridə dazıotu bitkisidir. Dazıotunun çiçək və gövdəsindən müəyyən miqdar götürülərək üzərinə distillə suyu əlavə edib 12 saat saxlanılır. Sonra 90-95^{0}C – də 60 dəq müddətində qızdırıldıqdan sonra qismən soyudulur və süzülür. Boyama prosesində temperatur, vaxt və başqa parametrlər işin gedişindən dəfələrlə yoxlanmış və sınaqdan keçirilmişdir. Alınan boya ekstraktından 100 ml götürüb üzərinə 5% - li sirkə turşusu, rəngbərkidici olaraq 5% - li xörək duzu əlavə edib zəy məhlulunda aşqarlanmış yun lifin boyadılması prosesi aparılır. Məhlulun turşu göstəricisi PH – 4,30 – dir. Boyama prosesindən sonra rəngin möhkəmliyi, yuyucu vasitələrə, günəş şüalarının təsəirinə qarşı davamlılığı yoxlanılmışdır.

Dazıotundan alınan boyaq ekstraktından götürüb məhlula 5% - NaOH, yaxud çaysodası əlavə etməklə qələvi mühitdə pambıq lif, turş mühitdə ipək və yun liflərin boyadılması prosesinin fiziki – kimyəvi parametrləri öyrənilmiş, müxtəlif rəngablar – mis sulfat ($CuSO_4 \cdot 5H_2O$), kalium bixromat (K_2CrO_7), dəmir xlorid ($Fecl_3$) və s. rəngdəyişdiricilər əlavə etməklə qəhvəyi, yaşılı qəhvəyi, şabalıdı, sarımtıl qəhvəyi rəng və çalarlar alınmışdır.

Dazıotu bitkisindən alınan təbii boyağın PH-dan, rəngabdan asılılığı cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

Boyaq bitkisi	Boyadılan material	PH	Temperatur C	Zaman dəq.	Rəngab	Alınan rəng çalarları
Dazıotu	Yun lif	4,60	95	60	Alüminum zəyi	Qəhvəyi
		4,30	95	60	Mis sulfat	Yaşılı şabalıdı
		4,30	95	60	Kalium bixromat	Yaşılı sarı
		4,50	95	60	Dəmir xlorid	Şabalıdı

Cədvələ nəzər saldıqda görünür ki, rəngabın dəyişməsindən asılı olaraq alınan rəngçalarları da dəyişir.

ƏDƏBİYYAT

1. Ş.Əliyev, V. Novruzov, E. Məmmədov, T.Əsilbəyova, M.Məmmədova, R. Visali – Gəncəbasarın Yabanı Tərəvəz Bitkiləri [s.35-37] – Gəncə 2016.
2. F.Y.Əliyev, Ə.R.Əliyev, E.N.Məmmədov – Bitki Mənşəli Təbii Boyaqlar[s.28-31] – Gəncə 2007.
3. Cahangir Hacıyev. – Ləmbəli Oğuz Türk Yurdu; - Dili və Xalçalarındakı Tarix "Elm və təhsil" [s.182-185] Bakı 2024.
4. Mayıs Qasımov.Azərbaycanın Boyaq Bitkiləri Azərbaycan Dövlət Nəşriyyatı. s.55-57.Bakı. 1987.

APPLICATION OF MODERN TECHNOLOGICAL METHODS IN OBTAINING PLANT-BASED NATURAL DYES

Imran Gasim oglu Gasimov
Latifa Atakishiyeva
Vusala Abbasova
Elnara Isayeva
abbasovavusale030@gmail.com
Ministry of Science and Education of the Republic of Azerbaijan,
Institute of Bioresources

By adding mordants to the dyeing process, various color shades were obtained, the physicochemical parameters of the process were determined, and the color fastness was tested. At the same time, the dependence of the dyeing process on time and temperature was studied. By adding $CuSO_4 \cdot 5H_2O$, $K_2Cr_2O_7$, $FeXl_3$ to the dye extract obtained from the roots and flowers of St. John's wort (**Hypericum perforatum L.**), brown, greenish-brown, and chestnut colors were achieved. Methods for dyeing wool and cotton fibers were also investigated.

Keywords: dye, dye plant, St. John's wort, mordant, pH, wool fiber, color fixative.

AZƏRBAYCANDA YÜNGÜL SƏNAYE VƏ TEKSTİL SAHƏSİNİN İNKİŞAF YOLLARI

İmran Qasım oğlu Qasımov
etngbioresurslar@gmail.com
Gülnarə Nurəddin qızı Əsədova
gulus.esedova@bk.ru
Ülviyyə Eldəniz qızı Paşayeva
penahova.shahnaz@mail.ru
Zərifə Fuad qızı Yusubova
nagiyeva_zarifa@mail.ru
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bioresurslar İnstitutu

Müasir dövrdə iqtisadi inkişafın əsas istiqamətlərindən biri yüngül sənaye və tekstil sahəsinin gücləndirilməsidir. Bu sahə həm məşğulluğun artırılması, həm də ixrac potensialının genişləndirməsi ücün imkanlar yaradır.

Yüngül sənaye dedikdə əsasən əhalinin gündəlik tələbatını ödəyən məhsulların istehsalı nəzərdə tutulur.Bu sahəyə aşağıdakılar daxildir:

- Tekstil və toxuculuq
- Geyim istehsalı
- Ayyaqabı sənayesi
- Dəri və xalçaçılıq

Tekstil sahəsi isə yüngül sənayenin əsas istiramətlərindən biri olmaqla pambıq,yun,ipək kimi xammalların emalı və hazır məhsula çevrilmasini əhata edir. Pambıqçılıq və ipəkçilik ölkə iqtisadiyyatının inkişafına töhvə verən ənənəvi sahələridir. Pambıq əsasən toxuculuq sənayesinin xammalı kimi istifadə olunur. Müstəqillik dövründə pambıqcılıq bir qədər zəifləsə də,son illərdə bu sahəyə yenidən diqqət artırılmışdır.Dövlət tərəfindən fermerlərə müasir texnika ilə təminat gücləndirilir və məhsuldarlığın artırılması ücün tədbirlər görülür.

Bu da pambıqçılıqın yenidən inkişafına təkan verir. İpəkçilik də Azərbaycanın qədim və ənənəvi təsərrüfat sahələrindən biridir. Xüsusilə Şəki və ətraf bölgələr ipək istehsalı ilə məşhur olmuşdur. İpəkçilik barama yetişdirilməsi və ipak sapının alınması prosesini əhatə edir. Azerbaycan ipəyi yüksək keyfiyyəti ilə tanınmış və beynəlxalq bazarlarda bıyük tələbat olmuşdur. Lakin zaman keçdikcə bu sahələrdə də geriləmə müşahidə olunmuşdur. Son illərdə isə ipəkçiliyin dirçəldilməsi istiqamətində mühüm işlər aparılır. Yeni tut bağları salınır, baramaçılıq inkişaf etdirilir.

Bu sahələrin inkişafı kənd təsərrüfatının güclənməsinə, yeni iş yerlərinin yaranmasına və milli məhsulların dünya bazarına çıxarılmasına şərait yaradır. Son illərdə Azərbaycan yüngül sənaye sahəsində irəlləyişlər müşahidə olunur. Dövlət tərəfindən qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən proqramlarbu sahəyə də təsir göstərmişdir.

Xüsusilə:

-Sənaye parklarının və məhəllələrinin yaradılması.
-Yerli istehsalın təşviqi.
-Sahibkarlara maliyyə dəstəyi.

Bu tədbirlər nəticəsində yeni tekstil müəssisələri açılmış, yerli məhsulların istehsalı artmışdır.Yüngül sənaye və tekstil sahəsinin daha da inkişaf etməsi üçün bir sıra müasir yanaşmalar vacibdir.

1.Yeni texnologiyanın tətbiqi.

Müasir avadanlıqların və avtomatlaşdırılmış sistemlərin istifadəsi məhsuldarlığı artırır və istehsal xərclərini azaldır.

2. Yerli xammal bazasının gücləndirilməsi.

Azərbaycanda pambıqçılıq və ipəkçilik ənənələri mövcuddur. Bu sahələrin inkişafı tekstil sənayesinin davamlılığı üçün əsasdır.

3. İxrac imkanlarının genişləndirilməsi.

Rəqabət qabiliyyəti məhsulların istehsalı xarici bazarlara çıxışı asanlaşdırır və ölkəyə valyuta axınını artırır.

4.Kiçik və orta sahibkarlığın inkişafı.

Bu sahədə fəaliyyət göstərən KOB-ların dəstəklənməsi yeni iş yerlərinin açılmasına və bazarın genişlənməsinə səbəb olur.

5. İnnovasiya və dizaynın inkişafı.

Müasir bazarda yalnız keyfiyyət deyil,həm də məhsulun dizayn və fərqliliyi mühüm rol oynayır.Peşəkar mütəxəssisin hazırlanması sahənın inkişafı üçün vacib şərtlərdən biridir. Azərbaycanın yüngül sənaye və tekstil sahəsi aşağıdakı istiqamıtlərdə inkişaf edə bilər.

- Rəqamsal texnologiyaların tətbiqi
- "Made in Azerbaycan" brendinin gücləndirilməsi
- Ekoloji təmiz və davamlı istehsal
- Beynəlxalq əməkdaşlığın genişlənməsi

Müasir dövrdə innovativ yanaşmalar və dövlət dəstəyi bu sahələrin daha da inkişaf etməsinə imkan verir.

WAYS OF DEVELOPMENT OF LIGHT INDUSTRY AND TEXTILE SECTOR IN AZERBAIJAN

Imran Gasim oglu Gasimov
etngbioresurslar@gmail.com
Ulviyya Eldeniz gizi Pashayeva
penahova.shahnaz@mail.ru
Gulnara Nureddin gizi Asadova
gulus.esedova@bk.ru
Zarifa Fuad gizi Yusubova
nagiyeva_zarifa@mail.ru
Institute of Bioresources, Ministry of Science and Education of the Republic of Azerbaijan

Light industry and textile are promising sectors that play an important role in the economic development of Azerbaijan. As a result of state support, innovation and the right strategy, this sector will develop further, providing both the domestic market and increasing its competitiveness in the international market.

Keywords: light industry, local raw materials, modern technology, innovation, local raw materials, small and medium-sized businesses (SMEs), state support, economic development, investment

MÜASİR DİZAYNIN AKTUAL PROBLEMLƏRİ VƏ SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ DİZAYN SAHƏSİNƏ İNTEQRASİYA PERSPEKTİVLƏRİ

Aqşin Hafiz oğlu Hüseynov
aqsinkerim93@gmail.com
Mələhət Elnur qızı Həsənova
h.melahet0101@gmail.com
Müjgan Elşən qızı Orucova
mujgan.orucova@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Dizayn insan cəmiyyətinin estetik, funksional və mədəni tələbatlarını əks etdirən yaradıcı fəaliyyət sahəsi olmaqla yanaşı, həm də sosial-iqtisadi inkişafın mühüm komponentlərindən biridir. Müasir dövrdə dizayn artıq yalnız əl ilə yaradılan vizual kompozisiya deyil, eyni zamanda rəqəmsal texnologiyalar, proqramlaşdırma, məlumat analizi və süni intellekt sistemləri ilə sıx əlaqəli kompleks bir sahəyə çevrilmişdir. Bu transformasiya dizaynın mahiyyətini dəyişdirərək onu daha sistemli, daha texnoloji və daha qlobal bir fəaliyyət sahəsi halına gətirmişdir.

XXI əsrdə baş verən rəqəmsal inqilab dizayn prosesinə yeni yanaşmalar gətirmişdir. Ənənəvi dizayn metodları tədricən generativ dizayn, 3D modelləşdirmə, virtual reallıq və süni intellekt əsaslı yaradıcı sistemlərlə əvəz olunmaqdadır [5]. Bu dəyişikliklər dizaynın inkişafını sürətləndirsə də, eyni zamanda bir sıra nəzəri və praktik problemlərin ortaya çıxmasına səbəb olmuşdur. Orijinallığın

zəifləməsi, mədəni identikliyin itirilməsi, müəllif hüquqlarının qeyri-müəyyənliyi və yaradıcı rolun dəyişməsi bu problemlərin əsasını təşkil edir.

Müasir dizayn sahəsində ən mühüm problemlərdən biri yaradıcı prosesin standartlaşması və şablonlaşmasıdır. Rəqəmsal platformaların geniş yayılması dizaynerlərə hazır modellərdən istifadə etmək imkanı versə də, bu hal fərdi yaradıcılığın azalmasına gətirib çıxarır. Eyni vizual elementlərin təkrar istifadəsi nəticəsində dizayn məhsullarında oxşarlıq artır və orijinallıq zəifləyir.

Digər mühüm problem mədəni və milli identikliyin qloballaşma təsiri altında zəifləməsidir. Qlobal dizayn trendləri universal estetika yaratsa da, yerli mədəni xüsusiyyətlər, milli ornamentlər və ənənəvi vizual kodlar tədricən ikinci plana keçir [3]. Bu isə xüsusilə dekorativ-tətbiqi sənət, qrafik dizayn və moda dizaynında özünü daha aydın göstərir.

Bundan əlavə, müəlliflik hüquqları və intellektual mülkiyyət məsələləri də ciddi problem kimi çıxış edir. Rəqəmsal mühitdə dizayn nümunələrinin asanlıqla kopyalanması, dəyişdirilməsi və yenidən paylaşılması orijinal müəllifin hüquqlarının qorunmasını çətinləşdirir. Süni intellekt tərəfindən yaradılan dizayn nümunələri isə bu problemi daha da mürəkkəbləşdirir, çünki burada yaradıcı mənbənin kimə aid olduğu dəqiq müəyyən edilmir.

Eyni zamanda dizayn sahəsində kommersiyalaşma prosesinin güclənməsi də müşahidə olunur. Bir çox hallarda dizaynın estetik və mədəni dəyəri deyil, onun bazar dəyəri və satış potensialı əsas meyar kimi götürülür. Bu isə dizaynın bədii və mədəni funksiyasının zəifləməsinə səbəb olur və onu daha çox istehlak yönümlü məhsula çevirir.

Süni intellekt müasir dizayn sahəsində ən mühüm innovativ texnologiyalardan biri hesab olunur. O, böyük məlumat bazalarını emal edərək vizual nümunələri analiz edə, rəng uyğunluqlarını optimallaşdıra və kompozisiya baxımından daha effektiv dizayn həlləri yarada bilir. Bu xüsusiyyət dizayn prosesini həm sürətləndirir, həm də daha sistemli və elmi əsaslı edir.

Generativ süni intellekt sistemləri xüsusilə memarlıq, qrafik dizayn, sənaye dizaynı və moda dizaynı sahələrində geniş tətbiq olunur. Bu sistemlər mövcud məlumatlardan öyrənərək yeni vizual formalar yaradır və dizaynerlərə alternativ ideyalar təqdim edir[2]. Beləliklə, süni intellekt yalnız texniki vasitə deyil, həm də yaradıcı prosesin aktiv iştirakçısına çevrilir.

Bununla belə, süni intellektin dizayna inteqrasiyası müəyyən risklər də yaradır. Ən əsas risk insan yaradıcılığının rolunun azalmasıdır. Dizaynerin funksiyası tədricən ideya yaradıcısından texniki nəzarətçi və seçim edən şəxsə çevrilə bilər. Bu isə yaradıcılığın mahiyyətinə ciddi təsir göstərir.

Digər mühüm problem etik və hüquqi məsələlərlə bağlıdır. Süni intellekt tərəfindən yaradılan dizayn nümunələrinin müəlliflik hüququnun kimə məxsus olduğu, onların kommersiya məqsədilə istifadəsi və paylaşılması hələ də tam hüquqi tənzimlənməyib. Bu isə gələcəkdə beynəlxalq səviyyədə hüquqi mübahisələrə səbəb ola bilər[4].

Mövcud problemlərin həlli üçün kompleks yanaşma tələb olunur. İlk növbədə insan yaradıcılığı ilə süni intellekt texnologiyaları arasında balanslı inteqrasiya təmin edilməlidir. Süni intellekt dizayner üçün yalnız yardımçı vasitə kimi çıxış etməli, əsas yaradıcı qərarlar isə insan tərəfindən qəbul edilməlidir.

İkinci mühüm istiqamət təhsil sisteminin modernləşdirilməsidir. Dizayn təhsilində ənənəvi bədii biliklərlə yanaşı, rəqəmsal texnologiyalar, proqramlaşdırma və süni intellekt əsaslı dizayn alətləri də tədris olunmalıdır. Bu, gələcək dizaynerlərin həm yaradıcı, həm də texnoloji bacarıqlara malik olmasını təmin edəcəkdir.

Üçüncü istiqamət hüquqi bazanın gücləndirilməsidir. Süni intellekt tərəfindən yaradılan dizayn məhsullarının hüquqi statusu, müəlliflik məsələləri və istifadəsi ilə bağlı beynəlxalq standartlara uyğun qanunvericilik mexanizmləri hazırlanmalıdır.

Dördüncü istiqamət milli mədəni irsin rəqəmsallaşdırılmasıdır. Milli ornamentlər, ənənəvi dizayn nümunələri və mədəni vizual kodlar rəqəmsal arxivlərdə toplanmalı və süni intellekt sistemlərinin öyrədilməsində istifadə olunmalıdır. Bu, həm mədəni irsin qorunmasına, həm də milli dizayn üslubunun inkişafına töhfə verəcəkdir.

Beləliklə, müasir dizayn sahəsi dərin transformasiya mərhələsindədir və bu prosesdə süni intellekt texnologiyaları mühüm rol oynayır. Süni intellekt dizaynın inkişafına yeni imkanlar açsa da, eyni zamanda orijinallıq, müəlliflik və mədəni identiklik kimi fundamental məsələlərə yeni çağırışlar yaradır.

Dizaynın gələcək inkişafı yalnız texnoloji yeniliklərdən deyil, həm də insan yaradıcılığı, mədəni dəyərlər və etik prinsiplərlə süni intellektin harmonik inteqrasiyasından asılı olacaqdır. Bu balans qorunduğu halda dizayn həm innovativ, həm də mədəni baxımdan zəngin bir sahə kimi inkişafını davam etdirəcəkdir.

ƏDƏBİYYAT

1.Abbasov, N. Azərbaycan xalq sənətində ornament və naxış ənənələri. Bakı: Elm, 2000.
2.Hacıyev, E. Süni intellekt və yaradıcı sənaye. Bakı: Elm və Təhsil, 2020.
3.Əliyeva, N. Rəqəmsal dövrdə dizayn inkişafı. Bakı: Universitet nəşriyyatı, 2022.
4.Quliyeva, A. Süni intellektin dizayna təsiri. Bakı: Elm, 2024.
5.Vəliyev, F. Müasir texnologiyalar və müəllif hüquqları. Bakı: Hüquq ədəbiyyatı, 2026

CURRENT PROBLEMS OF MODERN DESIGN AND PROSPECTS FOR THE INTEGRATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES INTO THE FIELD OF DESIGN

Aghshin Hafiz oglu Huseynov
aqsinkerim93@gmail.com
Malahat Elnur gizi Hasanova
h.melahet0101@gmail.com
Mujgan Elshan gizi Orucova
mujgan.orucova@mail.ru
Azerbaijan Technological University

The article analyzes the current problems in the field of design and the impact of artificial intelligence technologies on this area. Digitalization and global trends have transformed the design process, but have also led to challenges such as the decline of originality, weakening of cultural identity, and copyright issues. Artificial intelligence accelerates the design process, provides new visual solutions, and expands creative opportunities. At the same time, it raises concerns regarding the reduced role of human creativity and emerging ethical and legal issues. To address these challenges, a balanced integration of human creativity and artificial intelligence, modernization of the education system, and strengthening of the legal framework are essential.

Keywords: design, artificial intelligence, digitalization, creativity, copyright.

MÜASİR MƏRHƏLƏDƏ NAXIŞ SƏNƏTİNİN AKTUAL PROBLEMLƏRİ VƏ SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ TƏTBİQ PERSPEKTİVLƏRİ

Aqşin Hafiz oğlu Hüseynov
aqsinkerim93@gmail.com
Qənirə Faiq qızı Abbasova
q.abbasova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Naxış sənəti hər bir xalqın mədəni yaddaşını, estetik baxışlarını və tarixi inkişaf yolunu özündə əks etdirən qiymətli irs nümunəsidir. Əsrlər boyu formalaşan naxışlar sadəcə bəzək elementi olmamış, həm də müəyyən düşüncə tərzinin, inancların, həyat fəlsəfəsinin və cəmiyyətin sosial xüsusiyyətlərinin daşıyıcısı kimi çıxış etmişdir [1]. Azərbaycan xalqının yaratdığı xalçalar, milli geyimlər, misgərlik nümunələri, ağac üzərində oyma sənəti, keramika məhsulları və memarlıq abidələri üzərindəki ornamentlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Hər bir xətt, rəng və forma müəyyən məna ifadə etmiş, nəsildən-nəslə ötürülərək bu günə qədər gəlib çatmışdır.

Lakin XXI əsrdə sürətli qloballaşma, texnoloji yeniliklər və istehlak mədəniyyətinin dəyişməsi nəticəsində naxış sənəti yeni çağırışlarla qarşılaşmışdır. Ənənəvi əl işlərinin sənaye istehsalı ilə əvəz olunması, gənclərin milli ornamentlərə marağının azalması, bazarda xarici motivlərin çoxalması və orijinal sənət nümunələrinin təqlid edilməsi bu sahədə aktual problemlər yaratmışdır [3]. Bir çox hallarda milli naxışlardan sadəcə dekorativ vasitə kimi istifadə edilir, onların mənəvi və tarixi mahiyyəti isə unudulur.

Müasir dövrdə süni intellekt texnologiyalarının inkişafı bu sahəyə həm yeni imkanlar, həm də yeni risklər gətirmişdir. Süni intellekt vasitəsilə qədim ornamentlərin rəqəmsallaşdırılması, arxivləşdirilməsi, yeni dizaynların hazırlanması və milli sənətin təbliği mümkün olmuşdur. Eyni zamanda insan yaradıcılığının arxa plana keçməsi, müəllif hüquqları problemləri və milli üslubun yanlış təqdim olunması kimi məsələlər də ortaya çıxmışdır. Buna görə də naxış sənəti ilə süni intellekt arasındakı əlaqənin elmi və praktiki baxımdan araşdırılması mühüm əhəmiyyət kəsb edir[4].

Müasir dövrdə naxış sənəti ilə bağlı əsas problemlərdən biri onun kommersiyalaşdırılmasıdır. Bu gün bir çox istehsal müəssisələri və brendlər milli ornamentləri yalnız satış məqsədilə istifadə edir. Məhsulun üzərində naxış yerləşdirilsə də, həmin ornamentin hansı bölgəyə aid olduğu, nəyi simvolizə etdiyi və hansı tarixi köklərə malik olduğu nəzərə alınmır. Bu isə milli irsin səthi formada təqdim olunmasına səbəb olur.

Digər problem orijinallığın itirilməsidir. Əvvəllər naxış ustaları hər bir əsəri əl ilə hazırlayır, öz təxəyyülünü və ustalığını işə qatırdı. Hazırda isə kompüter proqramları və avtomatik istehsal sistemləri vasitəsilə eyni ornament minlərlə dəfə təkrarlanır. Nəticədə naxış sənətində fərdilik azalır, sənət əsəri ilə kütləvi məhsul arasındakı sərhəd zəifləyir.

Bununla yanaşı, gənc nəslin milli ornamentlərə marağının azalması da ciddi problemdir[7]. Müasir gənclər daha çox xarici moda tendensiyalarına üstünlük verir, milli elementləri isə köhnəlmiş hesab edə bilirlər. Halbuki düzgün təqdimat və müasir yanaşma ilə milli naxışlar gündəlik geyimdə, aksesuarlarda, rəqəmsal platformalarda və interyer dizaynında uğurla istifadə oluna bilər.

Bu mərhələdə süni intellektin rolu xüsusi diqqət çəkir. Süni intellekt minlərlə ornament nümunəsini qısa zamanda analiz edərək onların strukturunu, rəng harmoniyasını, simmetriya qaydalarını və kompozisiya xüsusiyyətlərini müəyyən edə bilir. Məsələn, qədim xalça naxışları sistemə daxil edilərsə, AI həmin üslubda yeni ornament variantları yarada bilər. Bu, dizaynerlər üçün yeni ilham mənbəyi rolunu oynayır.

Süni intellekt həmçinin itmək təhlükəsi olan naxışların bərpasında da faydalıdır. Köhnə fotoşəkillər, zədələnmiş xalçalar və solmuş rəsmlər rəqəmsal üsullarla yenidən canlandırıla bilər. AI texnologiyası itmiş hissələri proqnozlaşdıraraq bərpa prosesinə yardım edir. Beləliklə, mədəni irsin qorunmasında mühüm vasitəyə çevrilir.

Lakin mənfi tərəflər də mövcuddur. Süni intellekt insanın emosional və mənəvi təcrübəsinə malik deyil. O, məlumat bazasına əsasən yeni formalar yaratsa da, sənətkarın hisslərini, həyat təcrübəsini və milli ruhunu tam şəkildə əks etdirə bilmir. Buna görə də AI tərəfindən hazırlanan bəzi ornamentlər texniki baxımdan düzgün olsa da, mənəvi baxımdan boş görünə bilər.

Digər təhlükə müəllif hüquqları ilə bağlıdır. Əgər süni intellekt mövcud sənət nümunələrindən istifadə edərək yeni dizayn hazırlayırsa, bu zaman ilkin müəllifin hüquqları necə qorunacaq? Xüsusilə fərdi sənətkarların illərlə yaratdığı üslubun proqram tərəfindən təkrarlanması hüquqi mübahisələr yarada bilər.

Bu problemlərin həlli üçün ilk növbədə milli naxışların rəqəmsal kataloqu yaradılmalıdır. Burada ornamentlərin adı, mənası, bölgəsi, tarixi və vizual nümunələri toplanmalıdır. Belə baza həm tədqiqatçılar, həm dizaynerlər, həm də süni intellekt sistemləri üçün etibarlı mənbə rolunu oynayar.

İkinci olaraq, süni intellekt yalnız yardımçı vasitə kimi istifadə olunmalıdır. Yəni son qərarı insan dizayner və sənətkar verməlidir. AI ideya təqdim edə, variasiyalar yarada bilər, lakin bədii dəyər və milli ruh insan tərəfindən formalaşdırılmalıdır. Bu yanaşma texnologiya ilə yaradıcılıq arasında balans yaradar.

Üçüncü istiqamət təhsil sahəsidir. Ali və orta ixtisas təhsil müəssisələrində milli ornamentlər, dekorativ sənət və rəqəmsal dizaynın inteqrasiyası üzrə yeni proqramlar hazırlanmalıdır. Gənclər həm ənənəvi sənəti öyrənməli, həm də onu müasir texnologiyalarla birləşdirməyi bacarmalıdırlar.

Dördüncü məsələ dövlət və özəl sektorun dəstəyidir. Milli ornamentlər əsasında məhsul hazırlayan startaplara, dizaynerlərə və sənətkarlara qrantlar ayrılmalı, sərgilər və

müsabiqələr təşkil olunmalıdır. Süni intellektlə milli dizaynın sintezi yeni iqtisadi imkanlar da yarada bilər.

Beşinci istiqamət hüquqi çərçivənin yaradılmasıdır. AI vasitəsilə yaradılan dizaynların istifadəsi, müəllif hüquqları, ilkin mənbələrin qorunması və etik normalar qanunvericiliklə tənzimlənməlidir. Bu, həm sənətkarların hüquqlarını qoruyar, həm də texnologiyanın şəffaf istifadəsinə şərait yaradar.

Beləliklə, naxış sənəti keçmişdən gələcəyə uzanan mədəni körpüdür. O, xalqın tarixini, düşüncəsini və estetik zövqünü yaşadan dəyərli irsdir[5]. Müasir dövrdə bu sahə qloballaşma, kütləvi istehsal, marağın azalması və orijinallığın itməsi kimi problemlərlə qarşılaşır. Eyni zamanda süni intellektin inkişafı bu sahəyə yeni nəfəs gətirir.

Süni intellekt qədim ornamentləri qorumağa, yenidən bərpa etməyə, yeni dizaynlar yaratmağa və milli sənəti dünyaya tanıtmağa kömək edə bilər. Lakin texnologiyanın nəzarətsiz istifadəsi milli ruhun zəifləməsinə, müəllif hüquqlarının pozulmasına və sənətin sadəcə mexaniki məhsula çevrilməsinə səbəb ola bilər.

Ən doğru yol insan yaradıcılığı ilə süni intellekt imkanlarının vəhdətidir. İnsan sənətkara məxsus duyğu, zövq və milli yaddaş texnologiyanın sürəti və imkanları ilə birləşərsə, həm milli naxışlarımız qorunar, həm də müasir dünyada yeni formada inkişaf edər. Bu isə gələcək nəsillərə həm keçmişi sevdirər, həm də yeniliyə açıq düşüncə formalaşdırar.

ƏDƏBİYYAT

1. Abbasov, N. Azərbaycan xalq sənətində ornament və naxış ənənələri. Bakı: Elm, 2000.
2. Səfərov, N. Rəqəmsal dizaynın əsasları. Bakı: Universitet nəşriyyatı, 2015.
3. Qasımov, B. Sənətdə innovativ texnologiyalar. Bakı: Elm, 2016.
4. Məmmədova, G. Mədəni irsin rəqəmsallaşdırılması. Bakı: Ziya, 2018.
5. Hacıyev, E. Süni intellekt və yaradıcı sənayelər. Bakı: Elm və Təhsil, 2020.
6. Əliyeva, N. Dizayn və texnologiyanın inteqrasiyası. Bakı: Universitet nəşriyyatı, 2022.
7. Quliyeva, A. Süni intellektin incəsənətdə tətbiqi problemləri. Bakı: Elm, 2024.
8. Vəliyev,F. Rəqəmsal dövrdə müəllif hüquqları və dizayn.Bakı:Hüquq ədəbiyyatı, 2025.

CURRENT PROBLEMS OF ORNAMENT ART AT THE MODERN STAGE AND PROSPECTS FOR THE APPLICATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES

Aqshin Hafiz oglu Huseynov
aqsinkerim93@gmail.com
Qanira Faiq qizi Abbasova
g.abbasova@atu.edu.az
Azerbaijan Technological University

The article examines the main contemporary problems of ornament art and the impact of artificial intelligence technologies on this field. Globalization, commercialization, loss of originality, and declining youth interest in national ornaments are identified as current challenges. At the same time, artificial intelligence provides significant opportunities for digitization, restoration, archiving of ancient patterns, and creation of new design solutions. The study also analyzes risks related to copyright issues, preservation of national identity, and ethical concerns. As solutions, the creation of a digital ornament database, modernization of educational programs, development of legal frameworks, and integration of human creativity with technology are proposed.

Keywords: ornament art, patterns, artificial intelligence, cultural heritage, digitization, design.

AZƏRBAYCAN SƏNAYE DİZAYNININ YENİ İQTİSADİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ ROLU

İsgəndər Ceyhun oğlu Əsgərov
asgarzadeh.isgandar@gmail.com
Azərbaycan Texnologiya Universiteti

XXI əsrdə iqtisadi inkişaf yalnız təbii resursların istifadəsi ilə deyil, həm də innovasiya, texnologiya və yaradıcı yanaşmaların tətbiqi ilə müəyyən edilir. Bu baxımdan sənaye dizaynı müasir iqtisadiyyatın mühüm komponentlərindən biri kimi çıxış edir. Sənaye dizaynı məhsulun funksionallığı, estetik görünüşü, ergonomik xüsusiyyətləri və texnoloji uyğunluğunu birləşdirən kompleks fəaliyyət sahəsidir [1].

Dizayn nəinki məhsulun xarici görünüşünü formalaşdırır həmçinin onun istifadə rahatlığını yüngülləşdirir, istehsal mərhələlərini optimallaşdırır və istehlakçıların zövqlərinə uyğunlaşdırır.

Ölkə iqtisadi inkişaf baxımından son illərdə innovasiyalı mərhələsi ilə irəliləmişdir. Bu mərhələdə məqsəd qeyri-neft sektorunun inkişaf gələcəyi qabaqcıl texnologiyaların tətbiqi və beynəlxalq bazarda rəqabət qabiliyyətli məhsulların istehsalıdır. Həmçinin Azərbaycanının sənaye dizaynının inkişafı iqtisadiyyatın müasirləşməsi baxımdan mühüm istiqamətlərindən hesab edilir.

İlham Əliyevin iqtisadi siyasətində əsas istiqamətlərdən biri neftdən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafıdır. Bu məqsədlə ölkədə sənaye parkları, texnoparklar və sənaye zonaları yaradılmışdır. Prezident çıxışlarında qeyd etmişdir ki, Azərbaycanın gələcək inkişafı sənaye və istehsal sektorunun genişləndirilməsi ilə bağlıdır və bu sahədə innovativ texnologiyaların tətbiqi vacibdir [2].

Ümumdünya inteqrasiya və texnoloji proseslərin inkişafı yeni məhsulların heç bir maheə olmadan azad bazarda rəqabət qabiliyyəti yalnız texniki göstəriciləri deyil, həm də dizayn sahələri ilə müəyyən olunur. Müasir cəmiyyətdə formalaşan səhih informasiyalarla təmin olunan istehlakçı məhsulun funksionallığı ilə yanaşı onun zövq və ergonomik cəhətlərinə də böyük diqqət yetirir.

Azərbaycanda sənaye dizaynı sahəsi son illərdə inkişaf etsə də, bu sahədə bir sıra problemlər mövcuddur. Bunlara dizaynın istehsal proseslərinə tam inteqrasiya olunmaması, innovativ dizayn həllərinin məhdud tətbiqi və dizayn sahəsində mütəxəssis hazırlığının kifayət qədər inkişaf etməməsi daxildir [3].

Buna əsas olaraq sənaye dizaynının iqtisadi inkişaf mərhələsində rolunun araşdırılması aktuallığı ilə seçilir.

Sənaye dizaynı məhsulun yaradılması prosesində texnologiya, mühəndislik və incəsənətin sintezini təmin edir. Bu sahə istehsal olunan məhsulların keyfiyyətini və bazar cəlbediciliyini artıraraq iqtisadi inkişafın mühüm amillərindən biri kimi çıxış edir [1].

Sənaye dizaynının əsas funksiyalarına məhsulun zövq və funksional xüsusiyyətlərinin formalaşdırılması, istehsal prosesinin yaxşılaşdırılması, istifadəçinin təhlükəsizliyinin təmin edilməsi və məhsulun bazarda rəqabətliliyinin gücləndirilməsi amilləri daxildir.

Beynəlxalq təcrübələrə əsasən, dizayna gəlir qoyan istehsalat sahələri bazarda daha da uğurlu fəaliyyət göstərirlər və yeni məhsullar istehsalına sahib olurlar.

Möhtərəm prezidentimiz İlham Əliyevin iqtisadi siyasətində əsas məqsədlərdən biri Azərbaycanın istehsal etdiyi məhsulların beynəlxalq bazarda rəqabət qabiliyyətini artırmaqdır.

Azərbaycan iqtisadiyyatında ötən dövrlərlə müqayisədə sənaye parklarının olması, qabaqcıl idarə olunan texnologiyaların tətbiqi və istehsalın müasirləşməsi istiqamətində addımlar atılmışdır. Bu səbəbdən də sənaye dizaynının rolu getdikcə inkişaf etmişdir.

Sənaye dizaynı bir sıra - agır maşınqayırma, məişət və elektronika məhsulları, nəqliyyat və iri şəhər idarəetmə dizaynı, qablaşdırma və məhsul çeşidlərinin sahələri ilə mühüm əhəmiyyətə malikdir.

Dizaynın istehsal prosesinə inteqrasiyası məhsulların keyfiyyətinin artırılmasına və onların beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaradır [4].

Azərbaycan İqtisadiyyatında sənaye dizaynı və yeni texnologiyalar bir-biri ilə sıx əlaqəli anlayışlardır. Müasir qabaqcıl texnologiyalar xammaldan yeni məhsulların yaradılmasına yönəldiyi kimi, sənaye dizayn da yeni texnologiyaların tətbiqini təmin edir .

Sənaye dizaynı o cümlədən inkişafını dəstəkləyən mühitinin və yaradıcı məhsul və xidmət istehsal edən sahələrin inkişafında həlledici rol oynayır. Bu sahənin gələcəyə tərəqqi etməsi yeni iş sahələrinin yaranmasına, iqtisadiyyatın şaxələndirilməsinə və innovasiyalı təklif və tövsiyyələrin ticarət əlaqələrinə zəmin yaradır.

Araşdırmalar zamanı sənaye dizaynı müasir iqtisadi inkişafın vacib sistemlərindən biridir. Sənaye dizaynı, məhsulların keyfiyyət göstəricilərindən sayılan təminat və təyinatı, estetikliyi və istifadə rahatlığını təchiz etmək onların bazar rəqabətində səmərəliliyini artırır.

Qədim tarixə malik Azərbaycanın yeni iqtisadi inkişaf mərhələsində sənaye dizaynının inkişafı qeyri-neft sektorunun gücləndirilməsi, innovativ məhsulların istehsalı və milli məhsulların beynəlxalq bazarda rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu nöqteyi-nəzərdən sənaye dizaynı sahəsində elm və tədqiqatların genişləndirilməsi, istehsalat sahələrində dizayn metodlarının tətbiqi və innovasiyalı layihələrin həyata keçirilməsinə kömək, ölkənin iqtisadi baxımdan inkişafına mühüm töhfə verə bilər.

ƏDƏBİYYAT

1.Ulrich, K. T., & Eppinger, S. D. (2016). Product Design and Development. New York: McGraw-Hill Education.

2. https://president.az/ İlham Əliyevin sənaye və iqtisadi inkişafla bağlı çıxışları. Ilham Aliyev has been interviewed by "The Business Year" magazine 14 May 2014.

3.Norman, D. A. (2013). The Design of Everyday Things. New York: Basic Books.

4.Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2022). Azərbaycanın iqtisadi inkişaf strategiyası və sənaye siyasəti. Bakı.

THE ROLE OF AZERBAIJANI INDUSTRIAL DESIGN IN THE NEW STAGE OF ECONOMIC DEVELOPMENT

Isgander Jeyhun oglu Askerov
asgarzadeh.isgandar@gmail.com
Azerbaijan Technological University

Industrial design is considered one of the important factors in the development of the economy in modern society. In an environment of increasing global competition, not only the technical characteristics of products but also their appearance, functionality, and ease of use are of particular importance. In the process of modern economic development in Azerbaijan, the application of industrial design plays a key role in the modernization of production facilities, the creation of new products, and the increase of competitiveness in global markets.

This thesis examines the economic development of industrial design, its impact on production and innovative technological processes, as well as the development prospects of this field in Azerbaijan. The results of the research show that the development of industrial design can make a significant contribution to the creation of new production sectors in the economy, strengthening the non-oil sector, and reinforcing the position of traditional products in international markets.

Keywords: Industrial design, innovation, economic development, product design, competitiveness, technological development, production efficiency, creative industries, Azerbaijan, international market

CREATİON OF POLYFUNCTİONAL TEXTİLE MATERİALS WİTH PROTECTİON AND ANTİMİCROBiAL ACTİVİTY

Abdikhan Moldir
Dyussenbiyeva Kulmairam Zhamanbaevna
d.kulmairam@mail.ru
Almaty University of Technology

With the rapid development of modern technologies and increasing requirements for quality and product safety, the development of multifunctional textile materials combining traditional consumer properties with additional protective characteristics is becoming increasingly important. In this regard, the creation of textile materials with UV-protective and antibacterial properties is of particular interest, which expands the scope of their application and increases the functional value of finished products [1].

The need to develop such materials is due to several factors. Ultraviolet radiation of the solar spectrum has a negative effect on human skin, contributing to photoaging, cell damage and the development of various dermatological disorders. At the same time, textile products are exposed to microorganisms during operation, which can cause bio damage of the material, deterioration of sanitary and hygienic indicators and a decrease in the service life of products. Therefore, giving textile materials the ability to effectively shield UV radiation and suppress the growth of bacteria is an urgent scientific and technical task [2].

At the present stage, various methods of textile functionalization are used to solve this problem, including the use of nanostructured compounds, natural extracts, biologically active substances and special finishing compositions. Such approaches allow obtaining materials with a complex of protective properties demanded in the production of casual, medical, sports and special purpose clothing.

Therefore, the development of textile materials with UV-protective and antibacterial properties is a promising direction in the advancement of the textile industry, meeting modern requirements for product quality, safety, and innovation [3,4].

As the research object, cotton fabric was used, which was предварительно cleaned and washed to remove surface impurities and prepare the material for further treatment. The samples were then treated with solutions containing titanium dioxide (TiO_2) and zinc oxide (ZnO) as the main components. The selection of these compounds is due to their ability to impart UV-protective and antibacterial properties to textile materials. The treatment was carried out under controlled conditions to ensure uniform distribution of the functional components over the fiber surface. After completion of the process, the samples were rinsed to remove weakly bound particles and dried under natural conditions. As a result, a functional layer was formed on the surface of the cotton fabric, improving its protective and performance characteristics [5-7].

The use of titanium dioxide (TiO_2) and zinc oxide (ZnO) enables the development of modern protective textile materials that are promising for applications in everyday, medical, children, and specialized clothing. The proposed approach meets current requirements for the safety, environmental friendliness, and functionality of textile products.

Keywords: textiles, antimicrobial activity, protection, ultraviolet radiation

REFERENCES

1. Saha B., Saha A., Das P., Kakati A., Banerjee A., Chattopadhyay P. A comprehensive review of ultraviolet radiation and functionally modified textile fabric with special emphasis on UV protection. Heliyon, 2024, Vol. 10, Issue 22, e40027, pp. 1–25
2. Maurya P., Majumdar A., Butola B. S., Goswami P., Bhattacharyya R. A scoping review of materials and approaches for developing antibacterial textiles. Journal of The Textile Institute, 2026, Vol. 117, Issue 4, pp. 686–718
3. Rahman M. S., Alom J., Nitai A. S., Hasan M. S. Ultraviolet-blocking protective textiles. In: Protective Textiles from Natural Resources. Elsevier, 2022, pp. 395-444.

4. Shah J. N., Padhye R., Pachauri R. D. Studies on UV Protection and Antimicrobial Functionality of Textiles. Journal of Natural Fibers, 2022, Vol. 19, No. 13, pp. 6810–6821.
5. Xue T., Fang D., Si L., Yin Y. Preparation of antibacterial and UV-protective cotton through coating with TiO_2-modified chitosan-based Schiff bases. ACS Applied Polymer Materials, 2024, Vol. No. 6. 14, pp. 8073–8083
6. Baysal G. Ultraviolet protection and antibacterial properties of polylactic acid nonwoven fabrics coated with polyurethane/ZnO composites. Sakarya University Journal of Science, 2024, Vol. 28, No. 5, pp. 1010–1021.
7. Pakdel E., Daoud W. A., Kashi S., Gashti M. P., Wang X. Superhydrophilic self-cleaning fabric with enhanced antibacterial and UV protection properties. Cellulose, 2025, Vol. 32, pp. 1937–1958.

KƏTAN PARÇALAR ƏSASINDA GEYİM QRUPUNUN XAMMAL VƏ STRUKTURUN TƏHLİLİ

Vüsalə Hacı qızı Musayeva
vusala.musayeva@unec.edu.az
Elnarə Elşən qızı Kərimli
elnarekerimli2579@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti[1]

Tekstil sənayesində təbii liflərdən hazırlanan materiallar mühüm yer tutur. Bu materiallar arasında kətan lifləri ekoloji təmizliyi, yüksək möhkəmliyi və gigiyenik xüsusiyyətləri ilə seçilir. Kətan lifləri Flax bitkisindən əldə olunan bitki mənşəli liflərə aiddir və əsasən sellüloza tərkibli olur [1]. Bu xüsusiyyətlər kətan materiallarının tekstil və geyim istehsalında geniş tətbiq olunmasına şərait yaradır

Kətan parçalar xüsusilə yay mövsümü üçün nəzərdə tutulan geyimlərin hazırlanmasında geniş istifadə olunur [1] Bu materialların yüksək hava keçiriciliyi və rütubət udma qabiliyyəti insan bədəninin temperaturunun tənzimlənməsinə kömək edir və geyim zamanı komfort yaradır. Bu səbəbdən kətan parçalar köynək, don, şalvar və digər gündəlik geyimlərin hazırlanmasında geniş tətbiq edilir [2]

Kətan liflərinin əsas xüsusiyyətlərinə yüksək mexaniki möhkəmlik, davamlılıq, gigiyenik xüsusiyyətlər və ekoloji təhlükəsizlik daxildir. Sellülozanın yüksək miqdarı lifə əlavə möhkəmlik verir və materialın uzunömürlü olmasını təmin edir. Lakin elastiklik baxımından kətan lifləri bəzi digər təbii liflərdən nisbətən geri qalır. Bu səbəbdən kətan parçalar istifadə zamanı qırışmaya meyilli ola bilər [3].

Kətan parçaların struktur xüsusiyyətləri əsasən ipliyin quruluşu və toxunma üsulu ilə müəyyən edilir. Tekstil istehsalında daha çox sadə (kətan), dimi və atlas toxunma növlərindən istifadə olunur. Bu toxunma üsulları parçaya möhkəm və sıx quruluş verərək onun aşınmaya davamlılığını artırır. Parça strukturunda liflər arasında mövcud olan boşluqlar isə havanın sərbəst hərəkətinə imkan yaradır və materialın hava keçiriciliyini yüksəldir [4].

Kətan materialları yüksək rütubət udma qabiliyyətinə malikdir. Liflərin sellüloza tərkibli olması sayəsində material nəmi tez udur və tez quruyur ki, bu da onun gigiyenik xüsusiyyətlərini artırır. Bu xüsusiyyətlər kətan parçaların xüsusilə isti iqlim şəraitində istifadə üçün əlverişli olmasını təmin edir [3]

Beləliklə, kətan parçalar əsasında hazırlanan geyimlər yüksək möhkəmlik, hava keçiriciliyi və gigiyenik xüsusiyyətləri ilə seçilir. Bu materialların xammal və struktur xüsusiyyətlərinin öyrənilməsi tekstil sənayesində keyfiyyətli və komfortlu geyimlərin istehsalı üçün mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, kətan lifləri təbii mənşəli olduğuna görə ekoloji baxımdan da üstün hesab olunur və insan sağlamlığı üçün təhlükəsizdir [5]. Bu materiallar həm də davamlılığı ilə seçildiyi üçün uzun müddət istifadə oluna bilir. Kətan parçaların xammal xüsusiyyətlərinin, lif quruluşunun və texnoloji emal proseslərinin öyrənilməsi tekstil sənayesində daha keyfiyyətli, davamlı və komfortlu geyimlərin hazırlanması üçün mühüm əhəmiyyət kəsb edir [6]. Bu sahədə aparılan tədqiqatlar həm məhsul keyfiyyətinin yüksəldilməsinə, həm də istehsal proseslərinin daha səmərəli təşkilinə imkan yaradır.

ƏDƏBİYYAT

1.R.Ə.Məmmədov Tekstil materialşünaslığı Bakı: Elm və Təhsil 2018
2.N.T.Əliyeva Kətan lifləri və onların struktur xüsusiyyətləri. Bakı: Universitet nəşriyyatı, 2017.
3.T.R.Həsənov .Geyim materiallarının texnologiyası. Bakı: Təhsil, 2016.
4.S.F.İbrahimova. Təbii liflər və parça keyfiyyəti. Bakı: Elm, 2019.
5.W. S Hearle John. Textile Fibres and Their Properties. – London: Woodhead Publishing, 2015.
6.Kadolph Sara J. Textile Science. Upper Saddle River, NJ: Pearson, 2016.

ANALYSIS OF RAW MATERIALS AND STRUCTURE OF CLOTHING GROUP BASED ON LINEN FABRICS

Vusala Haji gizi Musayeva
vusala.musayeva@unec.edu.az
Elnara Elshan gizi Kerimli
elnarekerimli2579@gmail.com
Azerbaijan State University of Economics

- strict adherence to ventilation and air filtration regimes and protection against toxic substances and dust;
- provision of employees with modern personal protective equipment along with proper training and instruction.

4. Limitation of exposure to electromagnetic fields and radiation:
- monitoring EMF levels at workplaces in accordance with EN 50121-1 and national sanitary standards;

- technical insulation of EMF sources and separation of workplaces from transformer substations in compliance with hygienic norms;
- implementation of regular medical monitoring procedures for employees exposed to long-term EMF.

5. Prevention of occupational diseases and injuries:
- strict compliance with occupational safety and fire safety regulations;
- organization of systematic injury prevention activities focusing on training, regular briefings, and modern simulation tools for emergency situations;
- regular preventive medical examinations, continuous health monitoring of employees, and identification of risk groups;
- expansion of social benefits and increased economic responsibility of enterprises for compliance with occupational safety requirements.

Working conditions in the railway sector require constant attention from employers, trade unions, government regulatory bodies, and research institutions. Professional development, investment in technology, a strong safety culture, broad expertise, and the implementation of innovative approaches are key to preserving and developing the labor potential of the industry, ensuring the professional longevity of railway workers, and establishing European-quality standards in national transport [3].

This paper examines the current state of working conditions in the railway sector, which is characterised by significant physical, psychological and occupational risks for employees. A set of recommendations is proposed, aimed at optimising working conditions, reducing the impact of harmful factors, and introducing modern technologies and monitoring systems. The implementation of these measures will help to improve safety levels, reduce occupational injuries and preserve the sector's workforce.

Key words: labour protection, working conditions, rail transport, risk prevention.

REFERENCES

1. Козодой Д.С., Гриценко Н.В. Теоретичні передумови економічного забезпечення охорони праці на транспортних підприємствах. Збірник наук. праць УкрДУЗТ, м.Харків, Вип. 212 , м. Харків, 2025. С. 274-281. DOI: https://doi.org/10.18664/1994-7852.212.2025.336517
2. Особливості регулювання робочого часу і часу відпочинку окремих категорій працівників залізничного транспорту і метрополітенів, безпосередньо пов'язаних із забезпеченням безпеки руху поїздів і обслуговування пасажирів на залізницях і метрополітенах України / Наказ Державної Адміністрації залізничного транспорту України № 40-Ц від 10.03.1994р. URL: https://www.vpmu.org.ua/osoblivosti-regulyuvannya-robochogo-chasu-i-chasu-vidpochinku/ (дата звернення: 13.04.2026)
3. Забезпечення промислової та цивільної безпеки в Україні та світі: управління, технології, моделі: колективна монографія / за наук. ред. проф. Матвійчук Л.Ю. – Луцьк: РВВ Луцького НТУ, 2016.–220с.URL:https://lib.lntu.edu.ua/sites/default/files/2021 01/%D0%9C%D0%9E%D0%9D%D0%9E%D0%93%D0%A0%D0%90%D0%A4%D0%86%D0 %AF%20%20%D0%9B%D1%83%D1%86%D1%8C%D0%BA.pdf (дата звернення: 13.04.2026

İCTİMAİ NƏQLİYYATDA HƏRƏKƏT İNTERVALININ OPTİMALLAŞDIRILMASI VƏ SƏRNİŞİN GÖZLƏMƏ VAXTININ AZALDILMASI ÜÇÜN RİYAZİ MODEL

Bəhram Zülfi oğlu Verdiyev
bahram.verdiyev@gmail.com
Azad Abduləli oğlu Əhməd
ahmadovazad@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Müasir şəhərlərdə əhalinin sayının artması və urbanizasiya prosesinin sürətlənməsi ictimai nəqliyyat sistemlərinin daha səmərəli təşkil edilməsini zəruri edir. Şəhər nəqliyyat sisteminin əsas məqsədi sərnişinlərin təhlükəsiz, rahat və qısa müddətdə təyinat nöqtəsinə çatdırılmasını təmin etməkdir. Bu məqsədə nail olmaq üçün nəqliyyat vasitələrinin hərəkət qrafikinin düzgün planlaşdırılması xüsusi əhəmiyyət daşıyır.

İctimai nəqliyyatın fəaliyyətini xarakterizə edən əsas göstəricilərdən biri hərəkət intervalıdır. Hərəkət intervalı eyni marşrut üzrə ardıcıl iki nəqliyyat vasitəsinin dayanacaqdan keçməsi arasındakı zaman fərqini ifadə edir. Bu göstərici sərnişinlərin dayanacaqlarda gözləmə müddətinə birbaşa təsir göstərir. Intervalın düzgün seçilməsi sərnişin axınının balanslaşdırılmasına və nəqliyyat vasitələrinin səmərəli istifadəsinə imkan yaradır.

Tədqiqatlar göstərir ki, sərnişinlərin ictimai nəqliyyatdan istifadə etməsi zamanı onların ümumi səfər vaxtının əhəmiyyətli hissəsi dayanacaqda gözləmə müddətindən ibarət olur. Buna görə də nəqliyyat planlaşdırılmasında əsas məqsədlərdən biri sərnişin gözləmə vaxtını minimuma endirməkdir [1]. Hərəkət intervalının optimallaşdırılması bu məqsədə çatmaq üçün ən vacib alətlərdən biri hesab olunur.

İctimai nəqliyyat sistemində sərnişin gözləmə vaxtı əsasən iki amildən asılıdır: nəqliyyat vasitələrinin hərəkət intervalı və sərnişinlərin dayanacağa gəlmə xüsusiyyətləri. Əgər sərnişinlər dayanacağa təsadüfi vaxtlarda gəlirlərsə, onların orta gözləmə müddəti hərəkət intervalı ilə birbaşa əlaqəli olur. Bu səbəbdən intervalın azaldılması ümumilikdə sərnişin gözləmə vaxtının azalmasına səbəb olur.

Bununla yanaşı, intervalın qeyri-bərabər olması nəqliyyat sistemində əlavə problemlər yaradır. Praktikada tez-tez rast gəlinən hallardan biri "avtobus yığılması" problemidir. Bu vəziyyətdə bir neçə avtobus eyni marşrut üzrə ardıcıl şəkildə hərəkət edir və onların arasında böyük zaman fərqi yaranır. Belə hallarda ilk avtobus həddindən artıq sərnişin daşıyır, digərləri isə nisbətən boş olur. Bu isə həm xidmət keyfiyyətinin azalmasına, həm də sərnişinlərin gözləmə müddətinin artmasına səbəb olur [2].

İctimai nəqliyyatda hərəkət intervalının (headway) optimallaşdırılması və sərnişinlərin gözləmə vaxtının azaldılması məqsədilə riyazi model qurulmuşdur. Modelin əsas məqsədi nəqliyyat vasitələrinin hərəkət tezliyi ilə sərnişinlərin gözləmə vaxtı arasında optimal balansın tapılmasıdır.

Tədqiqatlarda qəbul edilir ki, sərnişinlər dayanacaqlara təsadüfi şəkildə gəlirlər. Bu halda orta gözləmə vaxtı aşağıdakı kimi ifadə olunur:

W$= h/2$**,** burada W — sərnişinin orta gözləmə vaxtını, h - isə nəqliyyat vasitələri arasındakı hərəkət intervalını göstərir. Bu asılılıq göstərir ki, interval artdıqca sərnişinlərin gözləmə müddəti də xətti şəkildə artır.

Lakin yalnız gözləmə vaxtının minimallaşdırılması kifayət deyil. Nəqliyyat sisteminin effektivliyini təmin etmək üçün istismar xərcləri də nəzərə alınmalıdır. Bu məqsədlə ümumi xərcləri ifadə edən məqsəd funksiyası aşağıdakı kimi qurulur:

Z(h)=$C_o \cdot \frac{h}{1} + C_w \cdot \frac{h}{2}$ - burada **Z(h)** — sistemin ümumi xərci, C_o— nəqliyyat vasitələrinin istismar xərci, C_w — sərnişin vaxtının dəyəri, **h** - isə hərəkət intervalıdır. Birinci termin nəqliyyat vasitələrinin daha sıx hərəkəti zamanı artan xərcləri, ikinci termin isə sərnişinlərin gözləmə vaxtı ilə bağlı itkiləri əks etdirir.

Optimal intervalın tapılması üçün məqsəd funksiyası minimuma endirilir. Bunun üçün funksiyanın törəməsi sıfıra bərabərləşdirilir və nəticədə optimal interval aşağıdakı kimi əldə olunur**:** $h^* = \sqrt{\frac{2C_o}{C_w}}$

Alınan nəticə göstərir ki, optimal hərəkət intervalı istismar xərcləri ilə sərnişin vaxtının dəyəri arasındakı nisbətdən asılıdır. Əgər nəqliyyat xərcləri yüksək olarsa, interval artır, əksinə sərnişin vaxtı daha qiymətli olduqda interval azaldılır.

Modeli daha da təkmilləşdirmək üçün sərnişin axını da nəzərə alına bilər. Bu halda müəyyən zaman intervalında gözləyən sərnişinlərin sayı aşağıdakı kimi ifadə olunur:

Q= $\lambda \cdot \frac{h}{2}$ - burada **λ-** sərnişin axınının intensivliyini göstərir. Bu asılılıq göstərir ki, interval artdıqca dayanacaqlarda yığılan sərnişinlərin sayı da artır və bu da xidmət səviyyəsinin aşağı düşməsinə səbəb olur.

Beləliklə, təqdim olunan riyazi model ictimai nəqliyyatda hərəkət intervalının optimallaşdırılması üçün elmi əsas yaradır və həm sərnişin məmnuniyyətinin artırılması, həm də nəqliyyat xərclərinin səmərəli idarə olunması baxımından praktik əhəmiyyət kəsb edir.

Müasir nəqliyyat tədqiqatlarında intervalın optimallaşdırılması üçün müxtəlif riyazi modellər tətbiq olunur. Bu modellər adətən sərnişin axını, nəqliyyat vasitələrinin sayı, marşrut uzunluğu və dayanacaqların sayı kimi parametrləri nəzərə alır. Belə modellər vasitəsilə müxtəlif interval variantları qiymətləndirilir və ən səmərəli variant müəyyən edilir.

Son illərdə aparılan tədqiqatlarda optimallaşdırma problemlərinin həlli üçün müxtəlif metodlardan istifadə olunur. Bunlara xətti proqramlaşdırma, tam ədəd proqramlaşdırma, stoxastik modellər və metaevristik alqoritmlər daxildir. Bu metodlar böyük şəhərlərin kompleks nəqliyyat sistemlərinin planlaşdırılmasında geniş tətbiq olunur [3].

Bəzi elmi araşdırmalarda intervalın optimallaşdırılması ilə yanaşı, nəqliyyat vasitələrinin sayı və marşrut strukturu da birlikdə nəzərə alınır. Bu yanaşma sərnişinlərin ümumi səyahət vaxtını azaltmağa yönəlmişdir və nəqliyyat sisteminin daha balanslı fəaliyyət göstərməsinə imkan verir [4].

Son onillikdə informasiya texnologiyalarının inkişafı ictimai nəqliyyatın idarə olunmasına yeni imkanlar yaratmışdır. Xüsusilə ağıllı nəqliyyat sistemləri intervalın optimallaşdırılması prosesində mühüm rol oynayır. Bu sistemlər vasitəsilə nəqliyyat vasitələrinin hərəkəti real vaxt rejimində izlənilir və gecikmələr operativ şəkildə müəyyən edilir. GPS texnologiyası və avtomatik sərnişin sayma sistemləri sayəsində nəqliyyat planlaşdırıcıları marşrutlar üzrə sərnişin axınını daha dəqiq analiz edə bilirlər. Bu məlumatlar əsasında hərəkət intervalı dinamik şəkildə tənzimlənə və sərnişin gözləmə vaxtı azaldıla bilər.

Bundan əlavə, bəzi şəhərlərdə nəqliyyat vasitələrinin hərəkəti süni intellekt alqoritmləri vasitəsilə idarə olunur. Bu alqoritmlər sərnişin axını, yol şəraiti və digər faktorları nəzərə alaraq optimal intervalın müəyyən edilməsinə kömək edir. Belə yanaşmalar ictimai nəqliyyat sistemlərinin daha çevik və səmərəli fəaliyyət göstərməsinə imkan yaradır [5].

Hərəkət intervalının düzgün optimallaşdırılması ictimai nəqliyyat sisteminin ümumi səmərəliliyinə mühüm təsir göstərir. Optimal intervalın tətbiqi nəticəsində sərnişinlərin dayanacaqlarda gözləmə müddəti azalır və xidmət keyfiyyəti yüksəlir. Eyni zamanda nəqliyyat vasitələrinin daha bərabər yüklənməsi təmin olunur və marşrut üzrə sıxlıq problemləri azalır.

Bundan başqa, intervalın optimallaşdırılması nəqliyyat müəssisələri üçün iqtisadi baxımdan da faydalıdır. Nəqliyyat vasitələrinin optimal sayda istifadə olunması yanacaq sərfiyyatının və istismar xərclərinin azalmasına gətirib çıxarır. Bu isə ictimai nəqliyyat sisteminin daha dayanıqlı və səmərəli fəaliyyət göstərməsinə imkan yaradır.

Gələcəkdə şəhərlərdə nəqliyyat sistemlərinin daha da inkişaf etməsi ilə interval optimallaşdırması məsələsi daha böyük əhəmiyyət kəsb edəcəkdir. Xüsusilə böyük şəhərlərdə sərnişin axınının düzgün idarə olunması və gözləmə vaxtının minimuma endirilməsi urban nəqliyyat planlaşdırmasının əsas istiqamətlərindən biri olacaqdır.

ƏDƏBİYYAT

1. Kuzkin, O. "An Investigation of Bus Headways and Passenger Waiting Time on Urban Routes", Transport Problems, 2016.
2. Chen, F., Yang, H., Yang, Y. "Model for Evaluating Public Transport Timetables to Minimise Passenger Waiting Time", KSCE Journal of Civil Engineering, 2019.
3. Kim, M., Kim, E. "Joint Optimization of Headway and Transit Operations in Urban Bus Systems", Sustainability, 2023.
4. Ng, M., və b. "Joint Optimization of Pattern, Headway and Fleet Size of Urban Transit Lines", 2024.
5. Zhang, X., və b. "Minimizing Passenger Waiting Time in Multi-Route Public Transport Systems", Transportation Research, 2024.

MATHEMATICAL MODEL FOR OPTIMIZING THE TRAVEL INTERVAL AND REDUCING PASSENGER WAITING TIME IN PUBLIC TRANSPORT

Bahram Zulfi oglu Verdiyev
bahram.verdiyev@gmail.com
Azad Abdulali oglu Ahmad
ahmadovazad@gmail.com
Azerbaijan Technologycal University

This study examines the optimization of headway in public transport systems and its impact on reducing passenger waiting time. Headway is one of the key indicators that determines the quality and efficiency of public transport services. Proper planning of vehicle intervals can significantly decrease passenger waiting time and improve the overall performance of the transport system. The study highlights modern approaches used in headway optimization and emphasizes the importance of data-based planning and intelligent transport systems in improving urban public transport efficiency.

Key words: public transport, headway, passenger waiting time, optimization, mathematical model, transport planning.

NƏQLİYYAT İNFRASTRUKTURUNDA TƏHLÜKƏSİZLİK STANDARTLARININ TƏTBİQİ VƏ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

Xəyalə Məmmədova
x.memmedova@atu.edu.az
Şahin Quliyev
Azərbaycan Texnologiya Universiteti

Giriş: Nəqliyyat infrastrukturu iqtisadi inkişafın əsas elementlərindən biri olmaqla yanaşı, insan həyatının təhlükəsizliyi baxımından da mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə yol-nəqliyyat hadisələri həm sosial, həm də iqtisadi itkilərə səbəb olan əsas problemlərdən biridir. Bu baxımdan təhlükəsizlik standartlarının tətbiqi və effektiv idarəetmə sistemlərinin formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

Əsas hissə: Nəqliyyat infrastrukturunda təhlükəsizliyin təmin olunması kompleks yanaşma tələb edir. Bu sahədə ISO tərəfindən hazırlanmış ISO 39001 standartı yol hərəkəti təhlükəsizliyinin idarə olunması üçün mühüm alət hesab olunur. Bu standart təşkilatlara riskləri sistemli şəkildə müəyyənləşdirməyə və idarə etməyə imkan verir [1].

Təhlükəsizlik standartlarının tətbiqi aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- yolların və nəqliyyat obyektlərinin təhlükəsizlik tələblərinə uyğun layihələndirilməsi
- yol nişanları və işıqlandırma sistemlərinin beynəlxalq standartlara uyğun qurulması
- nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət
- ağıllı nəqliyyat sistemlərinin tətbiqi (ITS)
- sürücülərin davranışına nəzarət və maarifləndirmə tədbirləri

Statistik göstəricilər bu sahədə problemlərin miqyasını aydın şəkildə göstərir. "World Health Organization"un məlumatına əsasən dünyada hər il təxminən **1,19 milyon insan yol-nəqliyyat hadisələri nəticəsində həyatını itirir** və bu hadisələr gənclər arasında əsas ölüm səbəblərindən biridir [2].

Azərbaycan üzrə vəziyyətə nəzər saldıqda, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına görə:

- ildə orta hesabla **1500–1800 arası yol-nəqliyyat hadisəsi** baş verir
- bu hadisələr nəticəsində **800-dən çox ölüm**, **1000-dən çox yaralanma halı** qeydə alınır [3]

Bundan əlavə, World Bank-ın araşdırmalarına əsasən, yol-nəqliyyat hadisələri ölkələrin ÜDM-nin təxminən 3%-nə qədər iqtisadi itkilərə səbəb olur [4]. Bu isə nəqliyyat təhlükəsizliyi standartlarının tətbiqinin yalnız sosial deyil, həm də iqtisadi baxımdan vacibliyini göstərir.

Statistika göstərir ki, Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi və təhlükəsizlik standartlarının geniş tətbiqi zəruri olaraq qalır.

Son illərdə Azərbaycanda yol infrastrukturunun yenilənməsi, magistral yolların yenidən qurulması və elektron nəzarət sistemlərinin tətbiqi müsbət nəticələr versə də, insan amili və nəqliyyat sıxlığı kimi problemlər hələ də qalmaqdadır. Bu səbəbdən beynəlxalq standartların tətbiqi ilə yanaşı innovativ texnologiyaların istifadəsi daha da genişləndirilməlidir.

Nəticə: Araşdırma nəticəsində müəyyən edilmişdir ki, nəqliyyat infrastrukturunda təhlükəsizlik standartlarının tətbiqi yol-nəqliyyat hadisələrinin azalmasına və sistemin ümumi səmərəliliyinin artmasına birbaşa təsir göstərir. Gələcəkdə bu sahədə beynəlxalq təcrübənin tətbiqi, rəqəmsal texnologiyaların inteqrasiyası və maarifləndirmə tədbirlərinin gücləndirilməsi əsas prioritetlər kimi çıxış etməlidir.

ƏDƏBİYYAT

1. ISO – ISO 39001 Road Traffic Safety Management Systems (https://www.iso.org/standard/44958.html)
2. World Health Organization – Global Status Report on Road Safety, 2023 (https://www.who.int/publications/i/item/9789240063931)
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – Nəqliyyat statistikası (2022–2024) (https://www.stat.gov.az/source/transport/)

4. Dünya Bankı – Yol təhlükəsizliyi üzrə analitik hesabatlar (https://www.worldbank.org/en/topic/transport/brief/road-safety)

IMPLEMENTATION OF SAFETY STANDARDS AND INCREASING EFFICIENCY IN TRANSPORT INFRASTRUCTURE

Khayala Mammadova
x.memmedova@atu.edu.az
Shahin Guliyev
Azerbaijan Technologycal University

This thesis analyzes the application of international standards in ensuring safety within transport infrastructure and evaluates their effectiveness. It substantiates the importance of a systematic approach in preventing road traffic accidents and highlights the relevance of the problem based on statistical indicators.

Keywords: transport infrastructure, safety standards, road accidents, ISO 39001, risk management.

MAŞINQAYIRMA SƏNAYESİNDƏ TEXNOLOJİ İNNOVASİYALARIN HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN OPTİMAL STRATEGİYANIN SEÇİLMƏSİ

Zabit Yunus Aslanov
aslanov.zabit@mail.ru
Qadaşlı Abidət Vahid
abidetqadashli@gmail.com
Azərbaycan Dövlət İqtisad Üniversiteti

Giriş. İnnovasiya strategiyasının düzgün seçilməməsi investisiyaların səmərəsiz xərclənməsinə, texnoloji risklərin artmasına və istehsalın fasilələrinə səbəb ola bilər. Buna görə də müəssisələr üçün məqsədyönlü, ölçülə bilən nəticələr verən və mərhələli tətbiq imkanları yaradan optimal strategiyanın formalaşdırılması aktual elmi-praktik problem kimi çıxış edir.

1. Maşınqayırma sənayesində texnoloji innovasiyaların mahiyyəti və aktuallığı

Texnoloji innovasiya anlayışı istehsal proseslərində yeni və ya təkmilləşdirilmiş texnologiyaların, metodların və alətlərin tətbiqini əhatə edir. Maşınqayırmada bu, CAD/CAM/CAE sistemləri, rəqəmsal əkizlər, sənaye robotları, IoT əsaslı monitorinq, additiv istehsal və məlumatların real vaxtda analizi kimi istiqamətlərdə özünü göstərir.

İnnovasiyaların aktuallığı aşağıdakı səbəblərlə əsaslandırılır: məhsul keyfiyyətinə olan tələblərin artması; istehsal müddətlərinin qısaldılması zərurəti; xammal və enerji resurslarından səmərəli istifadə; təhlükəsizlik və ekoloji standartların sərtləşməsi. Bu faktorlar müəssisələri davamlı texnoloji yenilənməyə sövq edir[1,2].

Bununla yanaşı, innovasiyaların institusional mühitlə uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Standartlaşdırma, metrologiya və keyfiyyət idarəetmə sistemləri ilə inteqrasiya olunmayan texnoloji yeniliklər gözlənilən səmərəni vermir. Odur ki, innovasiya yanaşması kompleks idarəetmə modeli çərçivəsində qurulmalıdır.

2. Optimal innovasiya strategiyasının formalaşdırılması üçün meyarlar

Strategiyanın seçilməsi zamanı müəssisənin məqsədləri və resursları nəzərə alınmalıdır. İqtisadi meyarlar investisiya həcmi, geri dönüş müddəti və əməliyyat xərclərinə təsirlə ölçülür. Texniki meyarlar mövcud avadanlıqla uyğunluq, miqyaslana bilmə və texniki xidmət tələblərini əhatə edir.

Təşkilati meyarlar kadr potensialının səviyyəsi, dəyişikliklərin idarə edilməsi mexanizmləri və daxili kommunikasiyaların effektivliyi ilə bağlıdır. Risk meyarları texnoloji qeyri-müəyyənlik, təchizat zəncirində mümkün fasilələr və kiber-təhlükəsizlik risklərini özündə birləşdirir.

Bazar yönümlü meyarlar isə müştəri tələblərinin dinamikası, məhsulun fərdiləşdirilməsi imkanları və ixrac perspektivləri ilə əlaqəlidir. Bu meyarların çoxmeyarlı qiymətləndirilməsi optimal strategiyanın əsasını təşkil edir.

3. Texnoloji innovasiyaların tətbiqinin mərhələli modeli

İnnovasiyaların tətbiqi mərhələli yanaşma tələb edir. Birinci mərhələdə ehtiyacların diaqnostikası aparılır və problem sahələri müəyyənləşdirilir. İkinci mərhələdə alternativ texnoloji həllər müqayisə olunur və texniki-iqtisadi əsaslandırma hazırlanır.

Üçüncü mərhələdə pilot layihə icra olunur. Bu mərhələ risklərin azaldılması və real mühitdə sınaq baxımından vacibdir. Dördüncü mərhələdə əldə olunan nəticələr ölçülür, proseslər standartlaşdırılır və genişmiqyaslı tətbiqə keçid planlaşdırılır.

Mərhələli model müəssisəyə çevik uyğunlaşma imkanı verir və səhvlərin erkən aşkarlanmasına şərait yaradır.

4. Rəqəmsal transformasiya və Industry 4.0 kontekstində strategiya

Industry 4.0 konsepsiyası kiber-fiziki sistemlər, böyük verilənlərin analitikası və şəbəkələşmiş istehsal mühitini nəzərdə tutur. Bu kontekstdə strategiya yalnız texniki yenilikləri deyil, həm də biznes modellərinin transformasiyasını əhatə etməlidir[3,4].

Rəqəmsal platformaların tətbiqi istehsalın şəffaflığını artırır, proqnozlaşdırıcı texniki xidmət imkanları yaradır və qərarverməni məlumat əsaslı edir. Bununla yanaşı, məlumat təhlükəsizliyi və etik istifadəyə dair mexanizmlər strategiyanın ayrılmaz hissəsi olmalıdır.

5. İqtisadi səmərəliliyin qiymətləndirilməsi və göstəricilər

Səmərəliliyin ölçülməsi üçün məhsuldarlıq artımı, qüsur səviyyəsinin azalması, enerji sərfiyyatına qənaət və istehsal dövrünün qısalması kimi göstəricilər istifadə oluna bilər. Həmçinin investisiyanın geri dönüş müddəti və ümumi mülkiyyət dəyəri (TCO) nəzərə alınmalıdır.

Qiymətləndirmə prosesi dövri xarakter daşımalı və KPI-lar vasitəsilə izlənməlidir. Bu yanaşma strategiyanın vaxtında korreksiyasına imkan verir[5].

Nəticə.Maşınqayırma sənayesində texnoloji innovasiyaların məqsədyönlü tətbiqi müəssisələrin dayanıqlı inkişafını təmin edən əsas amillərdəndir. Optimal strategiya çoxmeyarlı qiymətləndirmə, mərhələli tətbiq və rəqəmsal transformasiya prinsiplərinə əsaslanmalıdır. Elmi əsaslandırılmış yanaşma investisiya risklərini azaldır və rəqabət üstünlüyünü gücləndirir.

ƏDƏBİYYAT

1.Aslanov Z.Y. Maşınqayırma məhsullarının keyfiyyətinin idarə edilməsi metodları (monoqrafiya) Bakı: Elm, 2013. – 316 s.

2.Кузьмина Е.И. Инновации - обгонять не догоняя: система менеджмента устойчивого развития предприятий оборонной отрасли. Кузьмина Е.И. Николаев В.В. Вестник Качества № 2 (98), 2011г., стр. 40-45

3.В.В. Бухарин, В.А. Липатников, Д.В. Сахаров. Метод управления информационной безопасностью организации на основе процессного подхода Информационные системы и технологии. № 3 (77) май-июнь 2013.

4.Антонец В. А. Инновационный маркетинг. Программа факультативного курса для аспирантов и молодых учёных. Н. Новгород: ПОЛИГРАФ Нижегородского государственного университета им. Лобачевского. 2002.;

5.ISO 9001:2015 Keyfiyyət idarəetmə sistemləri.

SELECTION OF OPTIMAL STRATEGY FOR IMPLEMENTATION OF TECHNOLOGICAL INNOVATIONS IN THE MACHINERY INDUSTRY

Zabit Yunus Aslanov
aslanov.zabit@mail.ru
Qadashlı Abidet Vahid
abidetqadashli@gmail.com
Azerbaijan State University of Economics

This article comprehensively analyzes the issues of forming an optimal strategy for the targeted application of technological innovations in the machine-building industry. In the modern industrial environment, maintaining competitive advantage is possible not only by increasing production capacities, but also by digitizing, automating processes and establishing information-

based management mechanisms. The study substantiates economic, technical and organizational criteria for selecting an innovation strategy, systematizes the stages of implementation, and suggests indicators for measuring expected results.

The mechanical engineering industry, being one of the basic branches of industrial production, plays an important role in the technical support of other sectors. In recent years, the globalization of markets, the acceleration of product turnover and the individualization of customer requirements have forced manufacturing enterprises to make flexible and efficient decisions. In these conditions, technological innovations mean not only the purchase of new equipment, but also the restructuring of production processes, the introduction of digital platforms, analytical processing of data and the transformation of organizational culture.

Keywords: technological innovation, mechanical engineering, innovation strategy, Industry 4.0, competitiveness, industrial robots.

ÖLÇMƏNİN STRUKTUR SXEMİNDƏ TƏKLİF OLUNAN KALİBRLƏNMƏ METODUNU HƏYATA KEÇİRMƏK ÜÇÜN SİSTEM

Zabit Yunus Aslanov
aslanov.zabit@mail.ru
Əlizamin Əvəz Hacızadə
alizamin.1@mail.ru
Azərbaycan Dövlət İqtisad Universiteti

Giriş. Hesablama gücünün eksponensial artması, xərclərin əhəmiyyətli dərəcədə azalması ilə birlikdə, ölçmələrin kompüterləşdirilməsi də daxil olmaqla, insan fəaliyyətinin demək olar ki, bütün sahələrinin kompüterləşdirilməsinə kömək etmişdir. Müasir kompüterləşdirilmiş ölçmə cihazlarının yaranma tarixi 1960-cı illərin ortalarında, həm ölçmə cihazlarının (ÖC), həm də hesablama sistemlərinin istehsalçısı olan Hewlett-Packard (HP) (HP ilk dəfə masaüstü fərdi kompüterlər istehsal edən şirkət idi) öz ölçmə cihazlarını xüsusi HP-IB şin interfeysi istifadə edərək öz kompüterlərinə qoşmaq kimi heyrətamiz bir ideya ilə ortaya çıxdığı zamandır. Parametrlərini dəyişdirə, çıxış dəyərlərini oxuya və son ölçmə nəticəsini əldə etmək üçün sonrakı hesablamalar apara bilərdi[1]. Ölkəmizdə Ölçmələrin Vahidliyinin Təmin Edilməsi üzrə İnformasiya Fondunun reyestrində qeydiyyata alınan "sistem" adlı ilk ölçmə cihazları ötən əsrin 1970-ci illərində ortaya çıxdı. Bu ölçmə cihazlarından birincisi, TAK-011P Sistemi, mövcud mənada ölçmə sistemi deyil, xəta limiti ±2% olan (termocütlər tərəfindən daxil edilən xəta istisna olmaqla) termocüt EMF çeviricisidir. "Sistem" adlanan növbəti ölçmə cihazı, əlavə gərginlik ölçənləri olan elastik elementin deformasiyasını sınaq nümunəsinin deformasiyasına mütənasib elektrik siqnalına çevirən və xəta limiti ±2% azaldılmışdır. Əsasən, təsdiq edilmiş tipli ilk sistem, ölçmə nəticələrinin rəqəmsal ölçmə cihazlarının ekranında təqdim edilməsi və nəticələrin rəqəmsal printer və ya yumruqla qeyd edilməsi ilə birdən çox mənbənin DC elektrik gərginliklərini (maksimum kanal keçid tezliyi 25 Hz) ardıcıl olaraq ölçmək üçün hazırlanmış K200 məlumat ölçmə sistemi hesab edilməlidir.

1974-cü ildə ilk ölçmə sistemi təsdiq edildi - elektrik enerjisinin ölçülməsi və idarə olunması üçün avtomatlaşdırılmış informasiya və ölçmə sistemi, maksimum 48 ədəd qoşulmuş üç fazalı elektrik sayğaclarının sayı ilə, impuls sensorları ilə təchiz olunmuş IISE1-48 elektron saat tezliyinin korreksiyası ±1 dəq/gün idi[2].

İnkişafının ilk mərhələsində sistemlər yalnız ölçmələr və nəticələrin qeyd edilməsi üçün nəzərdə tutulmuşdu. Onlar lokallaşdırılmışdı və kompüterdən məhrum idilər, buna görə də ölçmə nəticələrini emal etmirdilər və ya idarəetmə hərəkətləri yaratmırdılar. Bu sistemlər əsasən diskret yarımkeçirici texnologiyaya əsaslanan hesablama

texnologiyasının elementləri ilə ölçmə məlumatlarının mərkəzləşdirilmiş tsiklik əldə edilməsi üçün sistemlər idi. Buna görə də, bu mərhələ bəzən determinizm dövrü adlanır, çünki İS təhlil üçün yaxşı inkişaf etmiş analitik riyaziyyat aparatından istifadə edirdi[3]. Cəmi bir neçə il ərzində mikroelektronikanın inkişafı inteqral sxemlər də daxil olmaqla bütün ölçmə cihazlarını keyfiyyətcə yeni səviyyəyə qaldırdı. Beləliklə, 1982-ci ildə avtomatlaşdırılmış elektrik enerjisinin ölçülməsi və enerji istehlakına nəzarət sistemi (SAUKE) FIF OEI ölçmə cihazları reyestrində qeydiyyata alındı. Bu sistem, iki hissəli tarifdə elektrik enerjisi istehlakı haqqında məlumat əldə etmək və 30-a qədər elektrik yarımstansiyası, 256-ya qədər elektrik sayğacı, 25 km-ə qədər ötürmə diapazonu və ±0.01% elektron saat dəqiqliyi ilə enerji istehlakı rejimlərinin monitorinqi prosesini avtomatlaşdırdı[4].

İkinci mərhələli sistemlərin tipik nümunələrinə çən anbarlarında neft məhsullarının kütləsini ölçmək üçün UTRO-3 sistemləri, eləcə də 30-a qədər çənə xidmət edə bilən və çənin kalibrləmə əyrisinə əsaslanan hidrostatik metoddan istifadə edərək neft məhsullarının kütləsini ölçmək üçün hazırlanmış üfüqi çənlərdə səviyyəni ölçmək üçün UGR1 sistemləri daxildir.

Üçüncü mərhələ sistemlərinin tipik nümayəndələrinə aşağıdakılar daxildir: avtomatlaşdırılmış kommersiya elektrik enerjisi ölçmə sistemləri ASKUE-S (ASKUE-ni üç nəsil sistemlərə təsnif etmək cəhdi); kommersiya enerji ölçmə sistemləri TOK; enerji istehlakının monitorinqi və ölçülməsi üçün informasiya və ölçmə sistemləri PYRAMIDA və s[5].

Nəticə. Kalibrləmələrdə istifadə olunan ölçmə vasitələri təsnif edilir və təsnifat kalibrlənmiş ölçmə vasitələrinin (ÖÖ) yerini müəyyən edir. Həmçinin göstərilir ki, ölçmə vasitəsinin uzunluğuna görə onun komponentləri əhəmiyyətli dərəcədə fərqli təsir edən kəmiyyət dəyərləri ilə müxtəlif iş şəraitlərinə məruz qala bilər. Ən dominant ölçmə növü olan elektrik ölçmələri üçün standart kimi istifadə edilən stasionar kalibratorların xüsusiyyətlərinin müqayisəli icmalı və təhlilinin nəticələrinə əsasən, portativ etalonlarda ölçmə alətlərinin bir hissəsi kimi iş şəraitində ölçmə cihazlarının kalibrlənməsinə ehtiyac nümayiş etdirilir.Tədqiqat istiqaməti müəyyən edilir və dissertasiyanın məqsədləri müəyyən edilir.

ƏDƏBİYYAT

1. Aslanov Z.Y Seydəliyev. İ.M.. Metrologiya, standartlaşdırma və sertifikatlaşdırma. Bakı. 375 səh. "Ticprint" mətbəəsində çap olunub. 2025.
2. Aslanov Z.Y., və Rəcəbov İ.S. "Metrologiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, "Avropa" nəşriyyatı- 2019, 426s.
3. Кондаков, В. Ю. Об одном частном вопросе поверки «больших» систем / В. Ю. Кондаков, Э. М. Шейнин // Метрологическое обеспечение измерительных систем : сб. докл. IX Всерос. науч.-техн. конф. – Пенза, 2015. – С. 8–11.
4. РМГ 29-2013. ГСИ. Метрология. Основные термины и определения. Москва : Стандартинформ, 2014. – 55 с.
5. Международный словарь по метрологии: основные и общие понятия и соответствующие термины ; пер. с англ. и фр. / ВНИИМ им. Д. И. Менделеева, БелГИМ. – Санкт-Петербург : Профессионал, 2010. – 84 с

SYSTEM FOR IMPLEMENTING THE CALIBRATION METHOD PROPOSED IN THE STRUCTURAL SCHEME OF MEASUREMENT

Zabit Yunus Aslanov
aslanov.zabit@mail.ru
Alizamin Avaz Hajizadeh
alizamin.1@mail.ru
Azerbaijan State University of Economics

The system is analyzed to implement the proposed calibration method with the necessary changes in the structural scheme of the measurement. In accordance with the existing regulatory documents and national and international standards, the terminological definition of measuring instruments was analyzed. The classification of measuring instruments and their MEs was completed, which allowed us to define the calibrated

measuring instrument in a wide range of systems and determine its distinctive features as an object of research. The legislative, terminological, economic, metrological and technical aspects of the calibration of measuring instruments in the operating conditions of the measuring instrument were investigated, which allowed us to justify the relevance, feasibility, legality and practical need for the formulation and solution of research problems.

Keywords: Measuring instruments, regulatory documents, Measurement structure, calibration

ŞUM SƏTHİNİ HAMARLAYAN İŞÇİ ORQANIN ENERJİ VƏ RESURS SƏMƏRƏLİLİYİNİN ELMİ ƏSASLANDIRILMASI

Fəridə Ceyhun qızı Rəhimova
f.rehimova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Giriş. Müasir dövrdə kənd təsərrüfatında tətbiq olunan innovativ texnologiyalar yalnız məhsuldarlığın artırılmasına deyil, eyni zamanda enerji və resurslardan səmərəli istifadəyə yönəlmişdir. Zolaqlarla becərmə (strip-till) texnologiyası torpağın minimal emalını təmin etməklə torpaq münbitliyinin qorunmasına və yanacaq sərfiyyatının azaldılmasına imkan yaradır.

Lakin bu texnologiyanın tətbiqi zamanı şum səthinin qeyri-bərabər formalaşması aqreqatın hərəkət müqavimətini artırır, əlavə mexaniki əməliyyatlara ehtiyac yaradır və nəticədə enerji sərfiyyatını yüksəldir. Bu baxımdan şum səthini hamarlayan xüsusi işçi orqanın tətbiqi həm texniki, həm də iqtisadi baxımdan aktuallıq kəsb edir.

Problemin qoyuluşu. Zolaqlarla becərmə zamanı torpaq yalnız səpin zolaqları üzrə emal edilir. Lakin emal olunmuş və olunmamış sahələr arasında səth fərqləri yaranır. Bu fərqlər:

- aqreqatın stabil hərəkətini çətinləşdirir;
- səpin dərinliyinin qeyri-bərabərliyinə səbəb olur;
- yanacaq sərfini artırır;
- torpaq sıxlaşmasını gücləndirir;
- əlavə hamarlama əməliyyatlarını tələb edir.

Nəticədə logistika baxımından istehsal prosesinin müddəti uzanır, texnika parkına düşən yük artır və resurslardan istifadə səmərəliliyi azalır.

Elmi əsaslandırma və texniki həll. Təklif olunan işçi orqan şum səthinin mikrorelyefini stabilləşdirərək torpaq qatının bərabər paylanmasını təmin edir. Onun konstruktiv xüsusiyyətləri torpaq axınının optimallaşdırılmasına və müqavimət qüvvəsinin azaldılmasına yönəldilmişdir.

Enerji baxımından proses aşağıdakı üstünlükləri təmin edir:

Çəkmə müqavimətinin azalması;

Yanacaq sərfiyyatının aşağı düşməsi;

Əlavə keçidlərin ləğvi;

Aqreqatın iş sürətinin sabitləşməsi.

Aparılmış hesablamalar göstərir ki, şum səthinin hamarlanması nəticəsində enerji sərfiyyatında azalma müşahidə olunur ki, bu da bir hektara düşən yanacaq normasının optimallaşmasına səbəb olur.

Aqro-logistik və iqtisadi təsir. Kənd təsərrüfatında enerji və vaxt resurslarına qənaət ümumi təchizat zəncirinin səmərəliliyinə birbaşa təsir göstərir. Yanacaq sərfiyyatının azalması:

- məhsulun maya dəyərini aşağı salır;
- logistika xərclərini optimallaşdırır;
- texnikanın istismar müddətini uzadır;
- əməliyyat vaxtını azaldır.

Beləliklə, şum səthini hamarlayan işçi orqanın tətbiqi yalnız aqrotexniki deyil, həm də istehsal-logistika sistemində optimallaşdırıcı amil kimi çıxış edir [1,2,3].

Nəticə. Zolaqlarla becərmə texnologiyasında şum səthini hamarlayan işçi orqanın tətbiqi enerji və resurs səmərəliliyinin artırılmasına xidmət edir. Aparılan təhlillər göstərir ki, torpaq səthinin keyfiyyətli formalaşdırılması əlavə əməliyyatların qarşısını alır, yanacaq sərfini azaldır və istehsal prosesinin davamlılığını təmin edir.

Bu yanaşma müasir aqro-logistik sistemlərdə resurs qənaətinə və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılmasına töhfə verir.

ƏDƏBİYYAT

1. Abbasov Z.M, F.C.Rəhimova, Ş.M.Babayev və b. Yamaclarda şum səthini hamarlayan qurğu (Azərbaycan Respublikası Patent və Əmtəə Nişanları Mərkəzi, Patent, Faydalı model: A01B 15/04 (2006.01). Bülleten № 10; Bakı 2022.
2. Abbasov Z.M, F.C.Rəhimova. Zolaqlarla becərmə texnlogiyasında şum səthini hamarlayan işçi orqanın tədqiqi. AMEA-Gəncə bölməsi 2019, №4(78), s.165-169.
3. Ş.M.Babayev, F.C.Rəhimova. Yamaclarda şum səthini hamarlayan qurğunun avtomatlaşdırılmış intiqal mexanizminin işlənməsi SCIENTIFIC WORK International scientific journal. Impact Factor 1.790. Bakı,2022.səh.155-159.

SCIENTIFIC SUBSTITUTION OF ENERGY AND RESOURCE EFFICIENCY OF A WORKING BODY THAT SMOOTHS THE PLOW SURFACE

Farida Ceyhun gizi Rahimova
f.rehimova@atu.edu.az
Azerbaijan Technologycal University

The article presents a scientific substantiation of the energy consumption, fuel savings, and optimization of production resources achieved through leveling the plowed surface within strip tillage technology. In modern agriculture, the efficient use of energy and material resources directly influences the effectiveness of agro-logistic systems. The proposed working body ensures proper leveling of the soil surface, reduces the number of additional field passes, decreases draft resistance of the arperate, and consequently minimizes fuel consumption. Research results demonstrate that high-quality formation of the plowed surface contributes to the optimization of the production process from both technical and economic perspectives, leading to a reduction in the cost price of agricultural products.

Keywords: strip tillage, plowed surface, working body, energy efficiency, resource saving, agro-logistics.

MULTİFAZALI SUALTI BORU KƏMƏRLƏRİNİN DİK BORULARINDA MÜRƏKKƏBLƏŞMƏLƏRİN ARADAN QALDIRILMASI

Mehparə B. Adıgözəlova
Reyhan Y.Qəniyeva
civildefenseasoiu@gmail.com
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Giriş. Karbohidrogen qazlarının sualtı boru kəmərləri vasitəsilə dərin su hövzələrindən platformalara və sahilə nəqli bəzi müzəkkəbləşmələrin yaranması ilə nəticələndiyi üçün onların həlli yeni üsul və texnologiyalar tələb edir.

Azərbaycanın dəniz yataqlarından istehsal olunan qazın dəfələrlə özül üstü separatorlarda mexaniki hissəciklərdən ayrılmasına baxmayaraq, ölçüsü bir neçə mikrometr olan mexaniki bərk hissəciklər dibə çökə bilmir və əksər hallarda axın ilə aparılır. Nəticədə sualtı qaz kəmərilə nəql olunan məhsulun tərkibində nəm və toz halında olan hissəciklərin miqdarı limit vəziyyətindən xeyli artıq olur.

Multifazalı quyu məhsullarının meydanaçalar arası və sahilə nəqli zamanı boru kəmərlərinin kələ-kötürlü relyefli dəniz dibinin çökək yerlərində, eləcə də dənizin dibindən özülə qalxan hissəsində su, mexaniki qarışıqlar, kondensat yığılır ki, bu da kəmərin işçi en kəsiyinin azalmasına və nəticədə yığılan birləşmələrin mexaniki və kimyəvi təsirindən eroziya-korroziyaya uğramasına səbəb olur. Bu cür hadisələr sualtı boru kəmərləri və dik borularda, ən çox isə dik boruların kəmərin xətti hissəsi ilə birləşən yerlərində daha tez-tez müşahidə edilir.

Digər mürəkkəbləşmələrdən biri multifazalı axınlarda yaranan sxem və struktur rejimlərlə bağlı yaranan axın formalarıdır. Struktur formaları fazalar arasında kütlə, impuls və enerji ötürülməsi mexanizmləri müxtəlif olmaqla üfüqi və qravitasiyalı (şaquli) axınlar üçün fərqli olur. Sualtı boru kəmərlərinin korroziya və eroziya nəticəsində dağılmasının əsas səbəblərindən biri məhz multifazalı axının struktur formaları ilə əlaqədardır [1-4].

Təcrübələrlə müəyyən edilmişdir ki, multifazalı boru kəmərlərinin praktik hesablanması üçün əsasən təbəqələşmiş, tıxaclı və halqəvi struktur formalarının araşdırılması kifayət edir. Təcrübə göstərir ki, maili və horizontal boru kəmərlərində qeyd olunan hər üç struktur forma reallaşa bildiyi halda, aşağıdan yuxarı axınlarda yalnız tıxaclı və halqəvi strukturlar formalaşır [5,6].

Dik borunun dənizin dib hissəsində əyilməsi, yəni dənizin dibində platformaya qalxan hissədə əyrinin olması səbəbindən, rayzerlərdə şlakların əmələgəlmə ehtimalını artırır. Bu, mayenin və bərk hissəciklərin dik borunun girişində toplanmasına və onun tutulmasına səbəb olur. Dəniz yataqlarından multifazalı quyu məhsullarının yığılması və nəqli göstərir ki, dik borularda intensiv olaraq şlakların yaranması çox ciddi problemlər yaradır. Artıq 2000 m-ə qədər dərinlikdə enerji kəşfiyyatı adi hala çevrilməsi dik boruların daha böyük dərin su hövzələrində dayanıqlı və səmərəli istismarının aktuallığını göstərir [7-10].

Hal-hazırda elmi və ya texnoloji prinsiplərə əsaslanan bir sıra ciddi nəzarət üsulları mövcuddur ki, bunlar da əsasən axının vəziyyətinin dəyişməsi və dik borunun çıxışında sxemin tənzimlənməsi kimi iki cür təsnif edilir.

Mövcud olan praktiki yanaşmalardan aşağıdakıları göstərmək olar:

- qurğuların yenidən modifikasiyası;
- dik boruya qazliftin tətbiqi;
- qazın injeksiyası;
- multifazalı axının homogenləşməsi;
- sualtı separasiya və emal.

Birinci yanaşma, hansı ki, axın xəttinin diametrinin dəyişməsini nəzərdə tutur, kapital tutumlu və digər problemlər yaratdığı üçün həyata keçirilmə şansı çox aşağıdır.

İkinci yanaşma (üsul) dik boruya qazlift sisteminin tətbiqi mayeni qaldırmaq üçün sıxılmış qazın dik boruya vurulmaqla şlakı zəiflətmə üsuludur. Qaz liftin tətbiqi ilə güclü tıxacları sabitləşdirmək mümkün olsa da, qaz vurulması birbaşa proses deyil, ona görə ki, bu axın rejiminin dəqiq qiymərləndirilməsini tələb edir.

Üçüncü üsul (qazın injeksiyası) ilk növbədə öz-özünü nizamlayan sistemə nail olmağa yönəlmişdir. Belə ki, boru kəmərindəki sıxılmış qaz, dik borunun yuxarı axınında ayrılır və yenidən dik boruya vurulur. İnjektə edilmiş qaz qabarcıqları maye şlakları parçalamağa və mayenin statik təzyiqini azaltmağa kömək edir. Beləliklə, şlakın yaranmasına maneə törədir. Bu üsul mayelər üçün süni qaldırmanı təmin edir, onları dik boru ilə sabit şəkildə hərəkət etdirir.

Dördüncü yanaşma və ya üsul multifazalı axının homogenləşdirilməsi üsuludur. Bu cür yanaşma əsasında axının monofazalılığa, yəni homogenliyi yaradılır. Bu isə fazaların (maye və ya qaz) bir-birində dispersləşməsi (bərabər paylanması) ilə əldə olunur. Başqa sözlə, qaz fazası mayedə paylanaraq (dispersləşərək) sanki bircinsli homogen sistemə çevrilir. Təhlil göstərir ki, bu cür yanaşma əsasən əksər hallarda lokal olaraq müsbət nəticə verir.

Qazın platformalararası nəqli zamanı boru kəmərlərinin dənizin dibindən platformaya qaxan hissəsində maye fazanın və mexaniki hissəciklərin yığılmasının qarşısını almaq, həmçinin platforalarda qazın hazıranması prosesi zamanı texnoloji xətlər üzrə maye fazanın qeyri-bərabər paylanmasının aradan qaldırılması üçün təklif olunan separasiyaedici kollektorun dənizin dibinə platformaya qalxan boruların girişində quraşdırılması məqsədəuyğundur.

Nəticə: Dəniz yataqlarının istismarı zamanı platformalar arası sualtı boru kəmırlərinin dik borularında şlamların (kondensat, su, mexaniki hissəciklərin) yığılması və aradan qaldırılması üsulları təhlil edilmişdir. Dəniz dibindən platformaya qalxan dik boruda yığılan maye fazanın və mexaniki hissəciklərin yarada biləcəyi fəsadları aydınlaşdırmaq üçün həmin hissəciklərə təsir edən qüvvələr Dalamber prinsipinə görə araşdırılmışdır. Platformalar arası qazların yığılması və nəqlinin səmərəliliyini artırmaq üçün sualtı qaz yığım kollektorunun yeni innovativ sxemi və konstruksiyası işlənilmişdir.

ƏDƏBİYYAT

1. İsmayılov Q.Q., İsmayılova F.B., Zeynalova G.A. Multifazalı vertikal axınlarda struktur rejimlərin formalaşması // Azərbaycan Neft Təsərrüfatı, Bakı, 2022, №11, s. 28–33.
2. İsmayılova F.B. Multifazalı səmt neft qazının utilizə problemləri və nəql texnologiyaları // Azərbaycan Neft Təsərrüfatı, 2022, №4, s. 62–66.
3. Басниев К.С., Дмитриев Н.М., Розенберг Г.Д. Нефтегазовая гидромеханика. М.: Ижевск, Институт компьютерных исследований, 2005, 344 с.
4. Бородакин П.П. Морские нефтегазовые сооружения.М.: Недра, 2006, 555 с.
5. Вихрев Р.И., Никитин Б.А., Мирзоев Д.А. Обустройство и освоение морских нефтегазовых месторождений. М.: Академия горных наук, 1993, 373 с.
6. Гриценко А.И., Клапчук О.В., Харченко Ю.А. Гидродинамика газожидкостных смесей в скважинах и трубопроводах. М.: Недра, 1994, 279 с.
7. Гужов А.Ч. Совместный сбор и транспорт нефти и газа. М.: Недра, 1973, 200 с.
8. Исмайылов Г.Г., Искендеров Э.К., Исмаилова Р.Б. и др.
Некоторые аспекты повышения эффективности освоения газоконденсатных ресурсов в морских условиях //SOCAR PROCEEDINGS, 2023, с. 7–13.
9. Ismayilov G.G. Diagnosis of steady-state characteristics in laminar flow of fluids // Rudarsko-geološko-naftni zbornik, 2024, vol. 39, №69, p. 53–58.
10. Исмайылов Р.С., Исмайылов Г.Г., Сафаров Н.М.О возможности регулирования реологических свойств многокомпонентных смесей на основе биотехнологий // SOCAR PROCEEDINGS, 2022, №1, с. 77–83.

REMOVING COMPOUNDS IN STANDINGS OF MULTIPHASE SUBMARINE PIPELINES

Mehpara B. Adigozalova
Reyhan Y. Ganiyeva
civildefenseasoiu@gmail.com
Azerbaijan State Oil and Industry University

Operational experience in offshore fields demonstrates that during the gathering and transportation of gas between platforms, the accumulation of sludge composed of a liquid phase (hydrocarbon condensate and formation water) and mechanical particles occurs in the vertical sections (risers) of subsea pipelines extending from the seabed to the platforms. This phenomenon is particularly pronounced in low-pressure gas pipelines. Such conditions lead to a range of operational complications and increased flow assurance challenges during subsea pipeline operation.

This paper investigates the complications arising in the risers of subsea multiphase pipelines and analyzes methods for their mitigation. To enhance the efficiency of inter-platform gas gathering, a novel and innovative design of a subsea gas gathering manifold is proposed.

Keywords: subsea pipeline, riser, multiphase flow, sludge, flow assurance, flow structure.

NEFT-QAZ EMALI MÜSƏSSİSƏLƏRİNDƏ METROLOJİ TƏMİNAT SİSTEMİNİN TƏTBİQİNİN MƏHSULUN KEYFİYYƏTİNƏ TƏSİRİNİN TƏHLİLİ

Gülnarə Əli qızı Məmmədova
gunnara.ali63@gmail.com
Viktoriya İqor qızı Polosatikina
tevi1701@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Müasir sənaye müəssisələrində məhsulun keyfiyyətinin təmin olunması əsas prioritetlərdən biridir. Xüsusilə neft və qaz emalı sahəsində texnoloji proseslərin mürəkkəbliyi və yüksək təhlükəsizlik tələbləri ölçmə proseslərinin dəqiqliyinə xüsusi diqqət yetirilməsini tələb edir. Bu baxımdan metroloji təminat sistemi istehsalın bütün mərhələlərində istifadə olunan ölçmə vasitələrinin düzgün işləməsini və nəticələrin etibarlılığını təmin edir [4].

Metroloji təminat dedikdə ölçmə vasitələrinin seçilməsi, yoxlanılması, kalibrlənməsi, standartlara uyğunluğunun təmin edilməsi və ölçmə nəticələrinin vahid sistemə gətirilməsi başa düşülür. Bu sistemin düzgün qurulması neft və qaz emalı müəssisələrində məhsulun keyfiyyətinə birbaşa təsir göstərir.

Neft qaz emalı prosesində temperatur, təzyiq, sərfiyyat, sıxlıq və kimyəvi tərkib kimi parametrlərin dəqiq ölçülməsi vacibdir. Ölçmə vasitələrində yaranan kiçik səhvlər belə məhsulun keyfiyyət göstəricilərinin dəyişməsinə və istehsalın səmərəliliyinin azalmasına səbəb ola bilər [1].

Metroloji təminat sisteminin mahiyyəti və əsas elementləri

Metroloji təminat sistemi ölçmə proseslərinin dəqiqliyini təmin etmək məqsədilə həyata keçirilən təşkilati və texniki tədbirlərin məcmusudur. Bu sistemin əsas elementləri aşağıdakılardır:

Ölçmə vasitələrinin seçilməsi və tətbiqi;
Ölçmə vasitələrinin dövlət yoxlanışı və kalibrlənməsi;
Ölçmə metodikalarının hazırlanması və tətbiqi;
Ölçmə nəticələrinin analiz edilməsi;
Metroloji nəzarətin həyata keçirilməsi.

Neft qaz emalı müəssisələrində metroloji təminat sistemi əsasən laboratoriyalarda, texnoloji qurğularda və istehsal sahələrində tətbiq olunur [1]. Burada istifadə olunan ölçmə cihazlarına təzyiqölçənlər, temperatur sensorları, axın ölçənlər və analitik cihazlar daxildir

Bu cihazların düzgün işləməsi istehsal prosesinin stabil olmasına və məhsulun standartlara uyğun hazırlanmasına imkan yaradır. Əgər ölçmə cihazları vaxtında yoxlanılmasa və kalibrlənməsə, ölçmə nəticələrində səhvlər yarana bilər ki, bu da istehsal prosesinə mənfi təsir göstərir.

Metroloji təminat sisteminin məhsulun keyfiyyətinə təsiri

Metroloji təminat sistemi məhsulun keyfiyyətinə bir neçə istiqamətdə təsir göstərir. İlk növbədə, ölçmə nəticələrinin dəqiqliyi texnoloji proseslərin düzgün idarə olunmasını təmin edir. Məsələn, neftin emalı zamanı temperatur və təzyiq göstəricilərinin dəqiq ölçülməsi prosesin optimal rejimdə aparılmasına imkan verir [2].

Digər tərəfdən, metroloji təminat sistemi istehsal prosesində yaranan texnoloji itkilərin qarşısını alır. Ölçmə səhvləri nəticəsində xammalın və enerji resurslarının səmərəsiz istifadəsi baş verə bilər. Lakin ölçmə vasitələrinin düzgün kalibrlənməsi və yoxlanılması bu problemlərin qarşısını almağa kömək edir.

Metroloji təminat sisteminin tətbiqi həmçinin müəssisələrdə keyfiyyət idarəetmə sisteminin inkişafına da müsbət təsir göstərir. Bu sistem istehsal proseslərinin optimallaşdırılmasına və məhsulun rəqabət qabiliyyətinin artırılmasına imkan yaradır. [3]

Aparılan təhlil göstərir ki, neft qaz emalı müəssisələrində metroloji təminat sisteminin tətbiqi məhsulun keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Ölçmə vasitələrinin düzgün seçilməsi, vaxtında kalibrlənməsi və metroloji nəzarətin həyata keçirilməsi istehsal proseslərinin stabil işləməsinə şərait yaradır.

Metroloji təminat sistemi texnoloji proseslərin dəqiq idarə olunmasını təmin etməklə yanaşı, məhsulun standartlara uyğun istehsal olunmasına və istehsal səmərəliliyinin artırılmasına da kömək edir. Bu səbəbdən neft qaz emalı müəssisələrində metroloji təminat sisteminin təkmilləşdirilməsi və müasir ölçmə texnologiyalarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. [4]

ƏDƏBİYYAT

1. Həsənov A.Ə. "Metroloji təminat və ölçmə texnikası". Bakı: Azərbaycan Texniki Universitetinin nəşriyyatı, 2018, 256 s.
2. Məmmədov R.M. "Neft və qaz sənayesində ölçmə sistemləri".Bakı:"Elm" nəşriyyatı, 2020, 312 s.
3. Əliyev S.K. "Sənaye müəssisələrində keyfiyyətin idarə edilməsi". Bakı: İqtisad Universiteti nəşriyyatı, 2017, 284 s.
4. Rzayev N.İ. "Neft emalı proseslərində texnoloji nəzarət və ölçmə". Bakı: "Elm və Təhsil",2021, 275 s.

ANALYSIS OF THE IMPACT OF THE APPLICATION OF THE METROLOGICAL ASSURANCE SYSTEM IN OIL AND GAS REFINING ENTERPRISES ON PRODUCT QUALITY

Gulnara Ali Mammadova
gunnara.ali63@gmail.com
Viktoria Igor Polosatikina
tevi1701@gmail.com
Azerbaijan State University of Economics

The accuracy and reliability of measurements play an important role in ensuring the quality of products produced at oil and gas processing plants. In this regard, the metrological assurance system is considered an integral part of the production process. The article

analyzes the application of the metrological assurance system at oil and gas processing plants, the processes of calibration and verification of measuring instruments, as well as the impact of this system on product quality indicators.

Keywords: metrological assurance, measuring instruments, oil and gas processing, product quality, calibration, standardization.

УСТОЙЧИВОСТИ ЦИЛИНДРИЧЕСКИХ ОБОЛОЧЕК В ПЕРЕМЕЩЕНИЯХ

Ризван Эйваз оглы Шукуров
r.sukurov@atu.edu.az
Азербайджанский Технологический Университет

Предположим, что круговая цилиндрическая оболочка изготовлена из ортотропного упругопластического материала и имеет самоуравновешенные начальные напряжения $\sigma_{ij}^{0}(z)$, которые являются функциями координаты толщины z.

Используем гипотеза Кирхгофа-Лява, т.е.

$$\begin{aligned}\delta\varepsilon_x &= e_{11} + z\chi_{11},\\ \delta\varepsilon_y &= e_{22} + z\chi_{22},\\ \delta\varepsilon_{xy} &= e_{12} + z\chi_{12}\end{aligned} \tag{1.1}$$

где

$$\begin{aligned}e_{11} &= \frac{\partial u}{\partial x},\\ e_{22} &= \frac{\partial u}{\partial y} - \frac{W}{R},\\ e_{12} &= \frac{\partial u}{\partial y} + \frac{\partial v}{\partial x},\\ \chi_{11} &= -\frac{\partial^2 W}{\partial x^2},\\ \chi_{22} &= -\frac{\partial^2 W}{\partial y^2},\\ \chi_{12} &= -\frac{\partial^2 W}{\partial x \partial y}\end{aligned} \tag{1.2}$$

Здесь R – радиус оболочки; u, v, W – изменение осевого, окружного и радиального перемещений при потере устойчивости [4] .

Система устойчивости круговых цилиндрических оболочек состоит из следующих уравнений: [1]

$$\begin{aligned}&\frac{\partial \delta T_x}{\partial x} + \frac{\partial \delta T_{xy}}{\partial y} = 0,\\ &\frac{\partial \delta T_{xy}}{\partial x} + \frac{\partial \delta T_y}{\partial y} = 0,\\ &\frac{\partial^2 \delta M_x}{\partial x^2} + 2\frac{\partial^2 \delta M_{xy}}{\partial x\,\partial y} + \frac{\partial^2 \delta M_y}{\partial y^2} + T_{11}\chi_{11} + 2T_{12}\chi_{12} + T_{22}\chi_{22} + \frac{\delta T_y}{R} = 0\end{aligned} \tag{1.3}$$

Для вариации усилий определяется в нижние показанных формуле (здесь предполагается, что изменение границы упругих и пластических областей после потери устойчивости незначительно влияет на величину усилий и моментов) [2; 3.].

$$\begin{aligned}\delta T_x &= a_{11}e_{11} + a_{12}e_{22} + a_{13}e_{12} + b_{11}\chi_{11} + b_{12}\chi_{22} + b_{13}\chi_{12},\\ \delta T_y &= a_{21}e_{11} + a_{22}e_{22} + a_{23}e_{12} + b_{21}\chi_{11} + b_{22}\chi_{22} + b_{23}\chi_{12},\end{aligned} \tag{1.4}$$

$$\delta T_{xy} = a_{31} e_{11} + a_{32} e_{22} + a_{33} e_{12} + b_{31} \chi_{11} + b_{32} \chi_{22} + b_{33} \chi_{12}.$$

А так же для вариации моментов определяются

$$\delta M_x = A_{11} e_{11} + A_{12} e_{22} + A_{13} e_{12} + B_{11} \chi_{11} + B_{12} \chi_{22} + B_{13} \chi_{12},$$
$$\delta M_y = A_{21} e_{11} + A_{22} e_{22} + A_{23} e_{12} + B_{21} \chi_{11} + B_{22} \chi_{22} + B_{23} \chi_{12}, \qquad (1.5)$$
$$\delta M_{xy} = A_{31} e_{11} + A_{32} e_{22} + A_{33} e_{12} + B_{31} \chi_{11} + B_{32} \chi_{22} + B_{33} \chi_{12}.$$

Тогда с учетом (1.4), (1.5) и (1.2) из (1.3) после некоторых преобразований получим следующую систему устойчивости в перемещениях:

$$\left[a_{11}\frac{\partial^2}{\partial x^2} + (a_{13}+a_{31})\frac{\partial^2}{\partial x \partial y} + a_{33}\frac{\partial^2}{\partial y^2}\right]u + \left[a_{13}\frac{\partial^2}{\partial x^2} + (a_{12}+a_{33})\frac{\partial^2}{\partial x \partial y} + a_{22}\frac{\partial^2}{\partial y^2}\right]v -$$
$$-\left[b_{11}\frac{\partial^3}{\partial x^3} + (b_{13}+b_{31})\frac{\partial^3}{\partial x^2 \partial y} + (b_{12}+b_{33})\frac{\partial^3}{\partial x \partial y^2} + \frac{a_{12}}{R}\frac{\partial}{\partial x} + \frac{a_{32}}{R}\frac{\partial}{\partial y}\right]W = 0$$
$$\left[a_{31}\frac{\partial^2}{\partial x^2} + (a_{21}+a_{33})\frac{\partial^2}{\partial x \partial y} + a_{23}\frac{\partial^2}{\partial y^2}\right]u + \left[a_{33}\frac{\partial^2}{\partial x^2} + (a_{32}+a_{23})\frac{\partial^2}{\partial x \partial y} + a_{22}\frac{\partial^2}{\partial y^2}\right]v -$$
$$-\left[b_{11}\frac{\partial^3}{\partial x^3} + (b_{33}+b_{21})\frac{\partial^3}{\partial x^2 \partial y} + (b_{13}+b_{23})\frac{\partial^3}{\partial x \partial y^2} + b_{22}\frac{\partial^3}{\partial y^3} + \frac{a_{32}}{R}\frac{\partial}{\partial x} + \frac{a_{22}}{R}\frac{\partial}{\partial y}\right]W = 0$$

(1.6)

$$\left[A_{11}\frac{\partial^3}{\partial x^3} + (A_{13}+2A_{31})\frac{\partial^3}{\partial x^2 \partial y} + (A_{21}+2A_{33})\frac{\partial^3}{\partial x \partial y^2} + A_{23}\frac{\partial^3}{\partial y^3} + \frac{a_{21}}{R}\frac{\partial}{\partial x} + \frac{a_{23}}{R}\frac{\partial}{\partial y}\right]u +$$
$$+\left[A_{13}\frac{\partial^3}{\partial x^3} + (A_{12}+2A_{33})\frac{\partial^3}{\partial x^2 \partial y} + (A_{23}+2A_{32})\frac{\partial^3}{\partial x \partial y^2} + A_{22}\frac{\partial^3}{\partial y^3} + \frac{a_{22}}{R}\frac{\partial}{\partial x} + \frac{a_{23}}{R}\frac{\partial}{\partial y}\right]v +$$
$$-\left[B_{11}\frac{\partial^4}{\partial x^4} + (B_{13}+2B_{31})\frac{\partial^4}{\partial x^3 \partial y} + (B_{12}+B_{21}+2B_{33})\frac{\partial^3}{\partial x \partial y^2} + B_{22}\frac{\partial^4}{\partial y^4} + \left(T_{11} + \frac{b_{21}}{R} + \right.\right.$$
$$\left.\left. + \frac{A_{12}}{R}\right)\frac{\partial^2}{\partial x^2} + \left(T_{22} + \frac{b_{22}}{R} + \frac{A_{22}}{R}\right)\frac{\partial^2}{\partial y^2} + \left(2T_{12} + \frac{b_{23}}{R} + \frac{2A_{32}}{R}\right)\frac{\partial^2}{\partial x \partial y} + \frac{a_{22}}{R^2}\right]W = 0$$

Присоединяя к системе (1.6) граничные условия получим общую постановку задачи устойчивости круговых цилиндрических оболочек с учетом начальных напряжений в перемещениях.

ЛИТЕРАТУРА

1. Ильюшин, А. А. Пластичность. Ч.1. Упруго-пластические деформации. – М.: Гостехиздат, 1948. – 376 с.
2. Гаджиев В.Д., Исаев Ф.К., Шукюров Р.Э. Об устойчивости анизотропных цилиндрических оболочек с учетом начальных напряжений в перемещениях. Труды ИММ по математике и механике, Баку, 1997.
3. Шукюров Р.Э. Об устойчивости ортотропных упругопластических пластинок с учетом начальных напряжений при комбинированном нагружении. Ден. в АзНИИНТИ, 1997.
4. Gupta U.S., Ansari A.H., Sharma S. Buckling and vibration of polar orthotropic circular plate resting on Winkler foundation //Journal of Sound &Vibration. 2006, vol.297, N35, p.457–476

STABILITY OF CYLINDRICAL ENCLOSURES AND MOVEMENTS

Rizvan Eyvaz ogly Shukurov
r.sukurov@atu.edu.az
Azerbaijan Technological University

In this thesis the stability of a circular orthotropic elastic-plastic plate under radial compression is investigated taking into account the beginning tension. It is assumed that the plate has self-equilibrated initial stresses and the material properties are described by equations of state of the type of deformation theory of plasticity. The Kirchhoff-Lyava hypothesis is used to solve the problem. An expression for the critical load is found.

Keywords: Stability; initial stresses; plasticity; orthotropy; elasticity.

AERODYNAMIC OPTIMIZATION OF SUPERSONIC FLIGHT VEHICLES: SHOCK WAVE MANAGEMENT AND THERMAL STABILITY

Farhad Guliyev
farhad.guliyev@aztu.edu.az
Necmettin Erbakan University

The advancement of supersonic flight-defined by regimes exceeding Mach 1-represents one of the most significant frontiers in modern aerospace engineering. As an aircraft transitions into supersonic speeds, the fluid medium's compressibility becomes a dominant factor, leading to the instantaneous conversion of kinetic energy into pressure and thermal energy across the vehicle's geometry. The resulting shock waves do not merely increase drag; they severely compromise fuel efficiency and pose critical threats to structural integrity due to extreme thermal loads. This study provides a mathematical and physical framework for optimizing aerodynamic configurations to mitigate these non-linear effects [1].

In the mathematical modeling of supersonic flows, the Mach number (M), defined as the ratio of flow velocity (v) to the local speed of sound (a), serves as the primary governing parameter. This value dictates the Mach angle (μ), which defines the boundaries of the Mach cone formed around the vehicle:

$$\sin\mu = \frac{1}{M} \tag{1}$$

Optimizing aerodynamic efficiency requires a profound analysis of wave drag, which differs fundamentally from subsonic profiles. In supersonic regimes, the sharpness of the leading edge and the slenderness of the airfoil are decisive [2]. Computational fluid dynamics (CFD) simulations, utilizing high-fidelity solutions of the Navier-Stokes equations, demonstrate that as the Mach number increases, the shock wave angle narrows, intensifying the interaction between the shock and the boundary layer, which can lead to structural fatigue in conventional materials [4].

In practical flight conditions, shock waves are often oblique. The relationship between the deflection angle (θ), the shock wave angle (β), and the upstream Mach number (M_1) is characterized by the $\theta - \beta - M_1$ relation:

$$tan\theta = 2cot\beta\left[\frac{M_1^2 sin^2\beta - 1}{M_1^2(\gamma + cos2\beta) + 2}\right] \tag{2}$$

Where γ (typically 1.4 for air) is the heat capacity ratio. This equation is critical for determining the optimal sweep angle of wings and the geometry of nose cones to minimize wave drag [2, 5].

Thermal management remains the most complex challenge in supersonic aerodynamics. The compression and friction of air at high velocities cause surface temperatures to rise exponentially. This is quantified by the stagnation (total) temperature (T_0), which represents the temperature reached when the flow is brought to rest adiabatically:

$$T_0 = T_\infty\left(1 + \frac{\gamma - 1}{2}M^2\right) \tag{3}$$

This relation proves that surface temperatures increase quadratically with the Mach number. At Mach 3, for instance, stagnation temperatures can exceed several hundred

degrees Celsius. Managing this thermal gradient requires the integration of advanced ceramic matrix composites and active cooling strategies, such as transpiration cooling, to preserve structural lifespan [3].

The fundamental contribution of this research is the development of a hybrid model correlating aerodynamic form with thermodynamic response. The total drag coefficient (C_D), formulated as the sum of skin friction drag ($C_{D.f}$) and wave drag ($C_{D.\omega}$), serves as the objective function for optimization:

$$C_D = C_{D.f} + C_{D.\omega} \tag{4}$$

This model allows for the adaptive optimization of vehicle geometry across various flight phases-acceleration, steady-state cruise, and deceleration. By managing boundary layer turbulence and shock intensity, the proposed framework aims to reduce total drag by 10-15%, while simultaneously mitigating the "sonic boom" signature [5]. Ultimately, these results elevate the safety and performance parameters of high-speed vehicles, providing a theoretical foundation for the next generation of sustainable supersonic transport.

This study investigates the critical interplay between aerodynamic efficiency and thermal management in supersonic flight regimes. The research addresses the fundamental challenge of wave drag and kinetic heating through the application of the $\theta - \beta - M_1$ relation and high-fidelity numerical simulations. The scientific novelty of this work lies in the development of an integrated hybrid model that adaptively optimizes vehicle geometry to mitigate shock-wave/boundary-layer interactions. Key findings demonstrate that through strategic modification of the leading-edge configuration and the implementation of active transpiration cooling, the total drag coefficient (C_D) can be reduced by up to 15%, while structural thermal stability is significantly enhanced. The results provide a theoretical framework for the design of next-generation supersonic transport systems, balancing high-speed performance with structural and environmental sustainability.

Keywords: Supersonic aerodynamics, shock wave management, wave drag, thermal stability, Mach number, oblique shock.

REFERENCES

1. Anderson J. D. Fundamentals of Aerodynamics. // McGraw-Hill Education, — 6th Edition, 2016, pp. 621-750.
2. Anderson J. D. Modern Compressible Flow: With Historical Perspective. // McGraw-Hill, — 3rd Edition, 2003, pp. 110-245.
3. Dorr L., Schettle H. Aerodynamic Design and Thermal Management of Supersonic Vehicles. // Journal of Aircraft, — Vol. 47, No. 4, 2010, pp. 1230-1245.
4. Grasso F., Pirozzoli S. Numerical Simulation of Shock-Wave/Boundary-Layer Interactions. // AIAA Journal, — Vol. 40, No. 11, 2002, pp. 2220-2231.
5. Sobieczky H. Configurational Aerodynamics for Next Generation Air Transport. // Progress in Aerospace Sciences, — Vol. 33, No. 11-12, 1997, pp. 703-725.
6. Zhang L., Zhao Y. Time-Varying Aeroelastic Modeling and Analysis of a Rapidly Morphing Wing. // Aerospace, — Vol. 10, No. 2, 2023, Art. 197. — DOI: 10.3390/aerospace10020197.

MƏİŞƏT ÇİNİ MƏMULATLARININ KEYFİYYƏT EKSPERTİZASI

Elcin Ələsgər oglu Səmədov [2]
Elchinsamedov5@gmail.com
Mehman Nəriman oğlu Şirəliyev [1]
Shirliyev.mehman@mail.ru
Azərbaycan Dövlət İqtisad Universiteti[1]

Məişət çini məmulatları insan həyatının ayrılmaz hissəsi hesab olunur. Bu məhsullar gündəlik həyatda qab-qacaq, fincan, boşqab və digər mətbəx əşyaları kimi geniş istifadə olunur Məhsulların keyfiyyəti yalnız estetik görünüşlə deyil, həm də funksionallıq və təhlükəsizliklə ölçülür [1]. Son illərdə istehlakçı tələblərinin artması və bazarda müxtəlif keyfiyyətdə məhsulların mövcudluğu çini məmulatlarının keyfiyyət ekspertizasına olan ehtiyacı daha da artırmışdır.

Çini məmulatları yüksək temperaturda bişirilmiş kaolin, feldşpat və kvars qarışığından hazırlanır. İstehsal prosesi materialların seçimi, formanın hazırlanması, sırın tətbiqi və bişirmə mərhələlərindən ibarətdir[1]. Hər bir mərhələ məhsulun mexaniki dayanıqlığı, səth keyfiyyəti və estetik görünüşünə təsir göstərir. Bu səbəbdən ekspertiza zamanı yalnız vizual yoxlama deyil, həm də fiziki və kimyəvi analiz üsullarından istifadə olunur[1].

Məişət çini məmulatları funksionallığına və istifadəsinə görə bir neçə qrupa bölünür. Bu qruplara qab-qacaq (boşqablar, kasalar, fincanlar və süfrə dəstləri), dekorativ əşyalar (vazalar, bəzək qabları, suvenirlər) və istilikə davamlı məmulatlar (soba üçün uyğun kasalar, fincanlar və tava altlıqları) daxildir. Hər bir qrupun keyfiyyət göstəriciləri də fərqlənir [2]. Belə ki, qab-qacaq üçün əsas meyar mexaniki dayanıqlıq və gigiyenik xüsusiyyətlər hesab olunur, dekorativ əşyalar üçün isə daha çox estetik görünüş və rəngin sabitliyi ön plandadır.Keyfiyyət ekspertizasının əsas göstəriciləri[2].

1.Fiziki-mexaniki göstəriciləri səth hamar və qüsursuz olmalı, çatlar, qabarcıqlar və boşluqlar olmamalıdır. Həmçinin, materialın zərbəyə və təzyiqə qarşı dayanıqlılığı yoxlanılır.

2. Estetik göstəricilər rəng və naxışlar bərabər və sabit olmalı, səth parlaq və keyfiyyətli görünməlidir.

3. Texnoloji göstəricilər sırın düzgün tətbiqi və bişirmə prosesi optimal olmalı, məhsulun su udma səviyyəsi isə ideal halda 0,5%-dən az olmalıdır.

4. Gigiyenik və təhlükəsizlik göstəriciləri zərərli maddələr (məsələn, Pb, Cd kimi ağır metallar) olmamalı, məhsul yüksək temperatur və kimyəvi təsirlərə qarşı dayanıqlı olmalıdır.

Məişət çini məmulatlarının keyfiyyətini müəyyən etmək üçün müxtəlif metodlardan istifadə olunur[3].

Vizual yoxlama – qüsurların, çatların və rəng bərabərsizliyinin aşkarlanması.

Fiziki testlər – zərbəyə və təzyiqə davamlılıq, su udma testi.

Kimyəvi analizlər – sır və rəng qatında təhlükəli elementlərin olub-olmamasının yoxlanması.

Standartlarla müqayisə – məhsulun ISO və ya yerli standartlara uyğunluğunun qiymətləndirilməsi.

Ekspertiza nəticəsində məhsulun keyfiyyət səviyyəsi müəyyən edilir və istehlak üçün yararlılığı qiymətləndirilir. Keyfiyyətli məhsullar həm istehlakçı məmnuniyyətini artırır, həm də bazarda rəqabət qabiliyyətini gücləndirir [4].

Məişət çini məmulatlarının keyfiyyət ekspertizası məhsulların təhlükəsizliyini, estetik görünüşünü və uzunmüddətli istifadəsini təmin etməkdə mühüm rol oynayır. Ekspertiza prosesi istehsal prosesinin təkmilləşdirilməsi, standartlara uyğunluğun təmin edilməsi və bazarda rəqabət qabiliyyətli məhsulların çıxarılması üçün vacibdir[4].

Keyfiyyətə nəzarətin düzgün aparılması yalnız istehlakçı məmnuniyyətini artırmır, həm də sənaye inkişafına və istehsalçıların bazarda etibarlılığının yüksəlməsinə töhfə verir. Bu səbəbdən məişət çini məmulatlarının keyfiyyət ekspertizası sahəsi həm akademik, həm də praktiki baxımdan əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1.R.N.Əliyev, Çini sənətində material və texnologiya. Bakı: Elm nəşriyyatı. 2018
2.S.F.Məmmədova Məişət çini məmulatlarının istehsal texnologiyası və keyfiyyət göstəriciləri. Bakı: Texnologiya Universiteti nəşriyyatı 2020
3. T.R. İsmayılov Çini məmulatlarının fiziki və kimyəvi xüsusiyyətləri. Bakı: Kimya və Materialşünaslıq jurnalı, 2017 5(2), 45-53.
4. Fabbri, B., & Pellizzi, M. Quality control in ceramic production. Journal of the European Ceramic Society, 2001. 21(6),

QUALITY EXPERTISE OF HOUSEHOLD PORCELAIN PRODUCTS

Elchin Alasgar oglu Samedov
Elchinsamedov5@gmail.com
Mehman Nariman oglu Shiraliyev
Shirliyev.mehman@mai.ru
Azerbaijan State University of Economics

This thesis examines the issues of quality expertise of household porcelain products. Household porcelain products are widely used in everyday life as dishes, cups, plates and other kitchen utensils. The quality of products is of great importance in terms of both aesthetic appearance, functionality and consumer safety.During the study, the physical-mechanical, aesthetic, technological and hygienic indicators of porcelain products became the object of expertise. Parameters such as surface defects, cracks, water absorption level, impact and heat resistance, color and pattern stability of products were evaluated. The expertise methods included visual inspection, laboratory analysis, physical tests and comparison with standards.The results showed that quality expertise of household porcelain products, in addition to ensuring product safety, increases consumer satisfaction and creates conditions for the production of competitive products in the market. Thus, expertise is important both in terms of improving the production process and strengthening quality control.

Keywords: porcelain products, quality expertise, household utensils, physical and mechanical indicators, aesthetic indicators, consumer goods.

DƏRİYƏ QULLUQ VASİTƏLƏRİNİN İSTEHLAK XASSƏLƏRİNİN TƏDQİQİ VƏ KEYFİYYƏTİNİN EKSPERTİZASI

Nigar Oktay qızı Məmmədova[1]
nika.mamedova.75@mail.ru
Rəvanə Məhərrəm qızı Məmmədova [2]
m.ravana1986@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti[1]

Müasir dövrdə kosmetologiya sənayesinin sürətlə inkişaf etməsi dəriyə qulluq vasitələrinin çeşidinin və tətbiq sahələrinin genişlənməsinə səbəb olmuşdur. İstehlakçıların sağlam və estetik baxımdan cəlbedici dəriyə sahib olmaq tələbi artdıqca bu məhsullara olan maraq və tələbat da yüksəlir[1]. Lakin bazarda təqdim olunan müxtəlif tərkibli və funksiyalı kosmetik vasitələrin çoxluğu seçim zamanı qarışıqlıq yaradır və onların keyfiyyətinin obyektiv qiymətləndirilməsini zəruri edir.

Dəriyə qulluq vasitələrinin istehlak xassələrinin elmi əsaslarla tədqiqi, formulasiya xüsusiyyətlərinin öyrənilməsi və təhlükəsizlik göstəricilərinin ekspertizası xüsusi aktuallıq kəsb edir. Dəriyə qulluq vasitələri bir neçə funksional qrupa ayrılır[1].

1.Nəmləndiricilər - hialuron turşusu, qliserin və panthenol daxildir
2.Qidalandırıcı vasitələrə yağ turşuları və A, E, B5 vitaminləri daxildir
3.Qoruyucu vasitələrə SPF filtrləri və antioksidantlar daxildir
4.Yaşlanma əleyhinə vasitələrə retinoidlər, peptidlər və C vitamini daxildir
5. Problematik dəri üçün vasitələrə salisil turşusu, niasinamid və sink daxildir

Dəriyə qulluq vastələrinin istehlak xassələrinin tədqiqi

Dəriyə qulluq vasitələrinin istehlak xassələri onların keyfiyyətini və istifadəçi üçün uyğunluğunu müəyyən edən əsas meyarlardır. Bu xassələrdən biri effektivlikdir. Effektivlik məhsulun vəd etdiyi təsiri real şəkildə göstərmə qabiliyyətini ifadə edir. Məsələn, nəmləndirici krem dərini həqiqətən yumşaldır və quruluğu aradan qaldırırsa, bu onun effektiv olduğunu göstərir [2].

Digər mühüm xüsusiyyət təhlükəsizlikdir. Təhlükəsizlik məhsulun dəriyə zərər verməməsi, allergik reaksiyalara və ya toksik təsirlərə səbəb olmaması deməkdir. Keyfiyyətli dəriyə qulluq vasitələri istifadə zamanı dərini qıcıqlandırmamalı və sağlamlıq üçün risk yaratmamalıdır [2].

Orqanoleptik göstəricilər də istehlakçı üçün vacibdir. Bunlara məhsulun qoxusu, rəngi və konsistensiyası daxildir. Xoş qoxulu, düzgün rəngə malik və rahat teksturalı məhsullar istifadə zamanı daha müsbət təəssürat yaradır və istifadəni daha zövqlü edir. İstifadə rahatlığı məhsulun tətbiqinin asanlığı və dəridə sorulma səviyyəsi ilə bağlıdır. Yaxşı məhsul dəridə asan yayılmalı, tez sorulmalı və yapışqanlıq hissi yaratmamalıdır. Bu xüsusiyyət gündəlik istifadədə böyük əhəmiyyət daşıyır.

Saxlanma stabilliyi isə məhsulun zamanla öz keyfiyyətini qoruyub saxlamasını ifadə edir. Yəni məhsul müəyyən müddət ərzində öz təsirini, qoxusunu, rəngini və təhlükəsizliyini itirməməlidir [3]. Bu da məhsulun düzgün formulasiya və qablaşdırmaya malik olmasından asılıdır.

Keyfiyyət göstəriciləri

Dəriyə qulluq vasitələrinin keyfiyyət göstəriciləri onların təhlükəsiz, effektiv və standartlara uyğun olmasını müəyyən edən əsas meyarlardır.

Ən vacib üsullardan biri fiziki-kimyəvi analizlərdir. Bu analizlər vasitəsilə məhsulun pH səviyyəsi, tərkib hissələrinin sabitliyi və kimyəvi xüsusiyyətləri müəyyən edilir. Məsələn, pH səviyyəsinin dəriyə uyğun olması çox önəmlidir, çünki uyğunsuz pH dəridə qıcıqlanma yarada bilər [3]. Eyni zamanda, məhsulun zamanla öz tərkibini dəyişməməsi də bu analizlərlə yoxlanılır

Mikrobioloji analizlər də mühüm rol oynayır. Bu üsulla məhsulda bakteriya və göbələklərin olub-olmaması müəyyən edilir. Dəriyə qulluq vasitələri mikroorqanizmlərlə çirklənmiş olarsa, bu, istifadəçi üçün ciddi sağlamlıq riski yarada bilər. Buna görə də məhsulun steril və ya təhlükəsiz mikrobioloji səviyyədə olması vacibdir[4].

Dermatoloji testlər məhsulun birbaşa dəriyə təsirini qiymətləndirmək üçün aparılır. Bu testlər nəticəsində məhsulun allergik reaksiyalara səbəb olub-olmaması, dərini qıcıqlandırıb-qıcıqlandırmaması və ümumi təsiri müəyyən edilir. Belə testlər adətən könüllülər üzərində və ya xüsusi laborator şəraitdə aparılır[4].

Bundan əlavə, etiketləmə və standartlara uyğunluq yoxlanışı da keyfiyyətin qiymətləndirilməsində mühüm yer tutur. Məhsulun üzərindəki məlumatların düzgünlüyü, tərkibin tam göstərilməsi, istifadə qaydaları və son istifadə tarixinin qeyd olunması yoxlanılır. Eyni zamanda məhsulun müvafiq standartlara və normativ sənədlərə uyğunluğu da qiymətləndirilir[5].

Keyfiyyətə təsir edən amillər

Dəriyə qulluq vasitələrinin keyfiyyəti bir neçə əsas amildən asılıdır xammalın təmiz və təhlükəsiz olması, istehsal texnologiyasının düzgün tətbiqi, məhsulun uyğun saxlanma şəraiti, qoruyucu və funksional qablaşdırma, eləcə də istifadə müddətinə riayət olunması. Bu amillərin hər biri məhsulun effektivliyini, təhlükəsizliyini və dayanıqlığını təmin edir[4].

ƏDƏBİYYAT

1.R.Ə.Əliyev Kosmetologiyanın əsasları. Bakı: Elm nəşriyyatı, 2018, 245 s.

2.S.A.Məmmədova, Dəriyə qulluq vasitələrinin texnologiyası. Bakı: Təhsil nəşriyyatı, 2020, 198 s.

3.T. M. Hüseynov, Dermatologiya və kosmetologiya. Bakı: Şərq-Qərb, 2017, s.,312

4. N.R.Quliyeva, Kosmetik vasitələrin keyfiyyət ekspertizası. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2019, 176 s.
5.K. H. Abbasov Əmtəəşünaslıq (qeyri-ərzaq malları). Bakı: ADİU nəşriyyatı, 2016, 284 s.
6. L.S.Əliyeva Gigiyena və kosmetik vasitələrin təhlükəsizliyi. Bakı: Tibb Universiteti nəşriyyatı, 2021, 220 s.

RESEARCH OF CONSUMPTION PROPERTIES OF SKIN CARE PRODUCTS AND EXPERTISE OF THEIR QUALITY

Nigar Oktay gizi Mammadova
nika.mamedova.75@mail.ru
Ravana Maharram gizi Mammadova
m.ravana1986@gmail.com
Azerbaijan State University of Economics

The modern textile industry is characterized by high competition and rapidly changing consumer demands, therefore quality management is of strategic importance for enterprises. Quality is not just a laboratory test, but a key tool for ensuring the financial stability of the enterprise, market competitiveness and process efficiency. KM consists of five main functions: planning, management, control, improvement and interdepartmental integration; they work in conjunction with each other to reduce waste in the production chain and increase product quality.

Keywords: Textile industry, quality, planning and control, sustainable development

ÖLÇMƏ VASİTƏLƏRİNİN METROLOJİ XARAKTERİSTİKALARININ ƏHƏMİYYƏTİ

Afət Abbas qızı Əsgərova
atu.mss.a.askerova@gmail.com
Cəmalə Fizuli qızı Tahirzadə
tahirzademuhammed2015@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Metrologiya ölçmələrdən ibarət mühüm dəqiq sahələrdəndir. Metrologiya elminin elmi– tədqiqat işlərində, çoxfaktorlu təcrübələrin planlaşdırma metodlarının işlənməsində də rolu böyükdür. Elm – texnika, sənaye, iqtisadiyyat və digər dəqiq və təbiət sahələri ölçü və ölçmə vasitələrindən istifadə etməklə fəaliyyət göstərir.

Müasir texnologiyaların inkişafı ilə birlikdə ölçmələrin dəqiqliyinə və etibarlılığına olan tələblər də getdikcə artır. Bu baxımdan ölçmə vasitələrinin metroloji xarakteristikaları ölçmələrin keyfiyyətini müəyyən edən əsas göstəricilər hesab olunur.

Bu elm sahəsi ölçmə metodlarını, ölçmə vasitələrini və ölçmə nəticələrinin qiymətləndirilməsini tədqiq edir [1].

Müasir sənaye və texnoloji sistemlərdə ölçmə prosesləri yalnız məlumat əldə etmək məqsədi daşımır, eyni zamanda idarəetmə və nəzarət funksiyalarını da yerinə yetirir. Məsələn, avtomatlaşdırılmış istehsal sistemlərində ölçmə cihazları proseslərin idarə olunmasında mühüm rol oynayır. Bu baxımdan ölçmə vasitələrinin metroloji göstəricilərinin düzgün müəyyən edilməsi istehsalın keyfiyyətinə və təhlükəsizliyinə birbaşa təsir edir [2].

Digər tərəfdən, beynəlxalq ticarət və sənaye əməkdaşlığı şəraitində ölçmələrin vahid standartlara uyğun olması böyük əhəmiyyət daşıyır. Müxtəlif ölkələrdə aparılan ölçmələrin müqayisə oluna bilməsi üçün ölçmə vasitələrinin metroloji xarakteristikalarının beynəlxalq standartlara uyğunluğu təmin edilməlidir. Bu isə metrologiya sahəsində beynəlxalq təşkilatların və standartlaşdırma sistemlərinin fəaliyyətini zəruri edir [3]. Beləliklə, ölçmə vasitələrinin metroloji xarakteristikalarının təhlili və onların praktik və konstruktiv üsullarla mükəmməlləşdirmək müasir texnoloji proseslərin effektivliyini artırır.

Problemin qoyuluşu. Texnoloji proseslərin yüksək dəqiqliklə tələb olunan sahələrin sayının artması ilə ölçmə vasitələrinin etibarlılığına olan tələbləri artırmışdır. Bir çox hallarda istifadəyə ehtiyac olunan ölçmə vasitələrinin metroloji xarakteristikaları kalibrlənmədikdə ölçmələrin nəticələrində xətalar əmələ gəlir. Bununlada nöqsanlar baş verir. Ölçmə cihazlarında əsas düzəlişlərin yerinə yetirilməməsi, ölçmə xətalarının düzgün analiz olunmaması, beynəlxalq metroloji baxımdan normativ- texniki sənədlərin tətbiqinin yanlış aparılması problemlərə yol açan amillərdən sayılır.

Bu baxımdan ölçmə vasitələrinin metroloji xarakteristikalarının dəqiqliyi və onların mövcud problemlərini tədricən aradan qaldırmaq, aktual elmi-texniki məsələlərdən sayılır.

Əsas hissə. Ölçmə vasitələrinin metroloji xarakteristikaları ölçmə cihazlarının funksional və texniki xüsusiyyətlərini müəyyən edən əsas parametrlərdən ibarətdir. Bu xarakteristikalar ölçmə prosesinin keyfiyyətini qiymətləndirməyə imkan verir.

Ölçmə dəqiqliyi ölçmə nəticəsinin həqiqi qiymətə yaxınlıq dərəcəsini göstərir. Dəqiqlik ölçmə xətasının minimal olması ilə xarakterizə olunur. Ölçmə xətası isə ölçmə nəticəsi ilə həqiqi qiymət arasındakı fərq kimi müəyyən edilir [4].

Həssaslıq ölçmə cihazının ölçülən kəmiyyətin dəyişməsinə reaksiyasını göstərir. Yüksək həssaslığa malik cihazlar kiçik dəyişiklikləri belə müəyyən edə bilir.

Sabitlik ölçmə vasitəsinin müəyyən müddət ərzində öz metroloji xüsusiyyətlərini dəyişmədən saxlaması qabiliyyətidir. Bu xüsusiyyət ölçmə cihazlarının uzunmüddətli istifadə zamanı etibarlılığını təmin edir [2].

Bu amillər sənaye proseslərinin optimallaşdırılması yeni məhsulların istehsalının keyfiyyətinin artırılmasına zəmin yaradır. Bununla yanaşı rəqəmsal idarəetmə, innovativ texnologiyaların inkişafı ölçmə sistemlərinin daha yüksək dəqiqliklə işləməsinə şərait yaratmışdır. Qlobal Yerləşdirmə Sistemi (GPS) izləmə sistemləri və elektron ödəniş texnologiyaları, məlumat terminal sistemi,ağıllı sensorlar və avtomatlaşdırılmış ölçmə sistemləri real vaxt rejimində informasiyaların toplanmasına və emalına şərait yaradır. Bu da öz növbəsində sənaye - istehsalat proseslərinin daha da fəal idarə olunmasına yönəldilir.

Nəticə. Araşdırmalara əsasən ölçmələrin vasitələrinin metroloji xarakteristikaları ölçmə prosesinin keyfiyyətinin təmin edilməsində əsas rol oynayır. Metroloji xarakteristikaların düzgün qiymətləndirilməsi sənaye istehsalının keyfiyyət göstəricilərinin yüksəldilməsinə və beynəlxalq standartlara uyğunluğun təmin edilməsinə mühüm töhfə verir.

ƏDƏBİYYAT

1.Qafarov, A. (2010). Metrologiya. Bakı: Elm nəşriyyatı.
2.Bentley, J. (2005). Principles of Measurement Systems. Pearson Education.
3.Doebelin, E., & Manik, D. (2011). Measurement Systems: Application and Design. McGraw-Hill.
4.BIPM. (2012). International Vocabulary of Metrology – Basic and General Concepts and Associated Terms (VIM). Paris.

IMPORTANCE OF METROLOGICAL CHARACTERISTICS OF MEASURING INSTRUMENTS

Afat Abbas gizi Askerova
atu.mss.a.askerova@gmail.com
Jamala Fizuli gizi Tahirzade
tahirzademuhammed2015@gmail.com
Azerbaijan Technologycal University

Advanced technology increases the requirements for reliability and accuracy of measurement processes in connection with the development of economic and industrial sectors. Metrological characteristics of measuring instruments are considered indicators that ensure the accuracy and stability of measurement results. Determining and assessing the accuracy of measuring instruments allows for quality and product standards in production activities.

The application of metrological characteristics is of particular importance not only in light industry, but also in heavy engineering and scientific research. These indicators play a key role in the process of making adjustments to measuring instruments and checking them. Accurate measurement results play a key role in the adoption of technical regulations and contribute to the optimization of technological processes.

Thus, the determination of metrological characteristics of measuring instruments and their application in many areas is considered one of the important conditions for development based on advanced scientific and technical achievements. Correct determination of measurements increases the effectiveness of measurement systems and creates conditions for reducing errors. The thesis examines the metrological characteristics of measuring instruments, their scientific and practical significance, as well as the existing problems in the measurement process.

Keywords: metrological characteristics, measuring instruments, accuracy, measurement range, technology, measurement error, metrology, measurement system

MAŞINQAYIRMADA EKOLOJİ STANDARTLAR VƏ TULLANTILARIN İDARƏ EDİLMƏSİ: ISO VƏ BEYNƏLXALQ SERTİFİKATLARIN ROLU

Xəyalə Məmmədova
x.memmedova@atu.edu.az
Gülnarə Əsədova
g.esedova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Giriş: Sürətlə sənayeləşən dünyamız ekoloji riskləri artırır və istehsal proseslərinin ətraf mühitə təsirlərini minimuma endirmək üçün həm normativ, həm də könüllü ekoloji standartlaşdırma sistemlərinə ehtiyac yaradır. ISO 14001 kimi beynəlxalq sertifikatlar müəssisələrə ekoloji idarəetmə sistemlərini (EMS) qurmaqla tullantıların idarə edilməsini yaxşılaşdırmaq, resurslardan səmərəli istifadə və ətraf mühitə təsirin azaldılması kimi məqsədlərə çatmağa imkan verir.

Tədqiqatın məqsədi: Bu tədqiqatın məqsədi istehsal proseslərində ekoloji standartların tətbiqinin — xüsusən ISO 14001 — tullantıların idarəedilməsi, enerji səmərəliliyi və məhsulun brend dəyərinə təsirini araşdırmaqdır.

Nəzəri kontekst - ISO 14001 – Ətraf mühitin idarəetmə sistemi: ISO 14001:2015, təşkilatların ətraf mühit performansını yaxşılaşdırmaq üçün strukturlaşmış çərçivə təmin edən beynəlxalq standartdır. Bu standart vasitəsilə şirkətlər ətraf mühitə mənfi təsirləri və resurs sərfiyyatını müəyyənləşdirə, tullantıların azaldılması üçün hədəflər qoya və proaktiv risk idarəetməsi həyata keçirə bilərlər.

Bu standart sənaye, istehsal və xidmət sektorlarında resursların səmərəli istifadəsi, tullantıların azaldılması və ekoloji tələblərə riayət kimi fəaliyyətlər üçün əsas meyar kimi qəbul edilir.

ISO 14001 və təşkilat performansı əlaqəsi - Tədqiqatlar göstərir ki, ISO 14001 sertifikatı şirkətlərə ətraf mühit performansını, resurs idarəetməsini və tullantıların sistemli şəkildə azaldılmasını yaxşılaşdırmağa kömək edir. Bundan başqa, EMS sertifikatı təşkilatların reputasiyasını gücləndirir və müştəri-təchizatçı münasibətlərində etibarı artırır.

Metodologiya: Bu tədqiqat mövcud ədəbiyyatın analizinə və empirik statistik göstəricilərin müqayisəsinə əsaslanır. ISO 14001 sertifikatı almış və almamış müəssisələr arasında enerji istifadə göstəriciləri, tullantı həcmi və resurslardan səmərəli istifadə səviyyəsi müqayisə edilir. Qlobal sertifikat statistikaları da nəzərə alınır.

Müşahidələr:

ISO 14001 və tullantıların idarə edilməsi. ISO 14001 standartı tətbiq edən təşkilatlar tullantıların idarə edilməsində daha sistemli və proaktiv yanaşma sərgiləyir. Bu standart çərçivəsində tullantıların başlanğıc mənbədə azaldılması və sistematik şəkildə ölçülməsi prioritetə çevrilir.

Tədqiqatlar göstərir ki, ISO 14001 aşağıdakı hallarla əlaqələndirilir:

- tullantıların azaldılması,
- resursların daha səmərəli istifadəsi,
- qeyri-qanuni tullantıların monitorinq və aradan qaldırılması.

Enerji səmərəliliyi və resurs idarəetməsi. ISO 14001 sertifikatı olan müəssisələr uzunmüddətli enerjiyi daha yaxşı idarə etmək üçün strukturlaşdırılmış yanaşma tətbiq edə bilirlər. Geniş miqyaslı araşdırmalar göstərir ki, bu standart enerji intensivliyi və istixana qazı emissiyalarını azaltmaq və bərpa olunan enerji istifadəsini artırmaq kimi təsirlərə malikdir. Bu nəticə təsdiqləyir ki, EMS yalnız tullantıların idarə edilməsinə deyil, həm də enerji performansının optimallaşdırılmasına xidmət edir.

ISO 14001 və şirkət imici/brend dəyəri ISO 14001 sertifikatı şirkətlərə yalnız ekoloji performansı yaxşılaşdırmaqla kifayətlənmir, həm də təşkilatın reputasiyasını yüksəldir, müştəri və investor etibarını artırır və bazarda rəqabət üstünlüyü qazandırır. Bu nəticə bir neçə tədqiqatda müşahidə edilir. Müştərilər və tərəfdaşlar ekoloji davamlılığa diqqət yetirdikcə, sertifikatlı müəssisələrin məhsullarına müraciət etmə ehtimalı artır. 2022-ci il ISO Survey nəticələrinə görə dünyada təqribən 530,000-dən çox ISO 14001 sertifikatı verilmişdir.

Nəticə və tövsiyələr: ISO 14001 və digər ekoloji standartlar istehsal müəssisələrində tullantıların daha sistemli idarə olunmasına, resurslardan daha səmərəli istifadəyə və təşkilatların ekoloji performansında inkişaflara səbəb olur. Bu standartlar həmçinin məhsulun brend dəyərini və şirkətin bazar imicini gücləndirir.

- **Strategik tətbiq:** Şirkətlər ISO 14001 standartını yalnız ekoloji tələblərə riayət kimi yox, strateji biznes aləti kimi tətbiq etməlidir.
- **Ətraf mühit göstəriciləri:** EMS göstəriciləri (tullantı həcmi, enerji istifadəsi) mütəmadi ölçülməli və auditləşdirilməlidir.
- **İnteqrasiya:** ISO 14001 və digər idarəetmə sistemləri (məs., ISO 9001) sinerji üçün inteqrasiya olunmalıdır.

Summary. This study explores the role of environmental standards in improving waste management and sustainability in machine-building industries. It focuses particularly on the implementation of ISO 14001 and its impact on environmental performance, energy efficiency, and organizational reputation.

The research is based on a comparative analysis of enterprises with and without ISO 14001 certification, examining indicators such as waste volume, energy consumption, and resource efficiency. The findings show that organizations adopting ISO 14001 demonstrate a more systematic and proactive approach to waste management, including waste reduction at the source, effective monitoring, and improved compliance with environmental regulations.

ƏDƏBİYYAT

1. ISO 14001 – Environmental Management System explained, International Organization for Standardization (ISO), https://www.iso.org/home/insights-news/resources/iso-14001-
2. ISO 14001:2015 standard description, ISO–Environmental Management Systems, https://www.iso.org/cms/%20render/live/en/sites/isoorg/contents/data/standard/06/08/60857.

3. ISO 14001 ecological management explanation, zygon.az – ISO 14001 Environmental System, https://zygon.az/az/standards.php?standard_id=3
4. ISO 14001 waste and resource efficiency applications, kioscert.com–ISO 14001 blog, https://kioscert.com/az/blog/iso-14001-uzr-tullantilarin-idar-edilm-si-v-resurs-s-m-r-liliyi-t-tbiql-
5. Empirical evidence on energy performance from ISO 14001 adoption, Springer Nature – ISO 14001 and energy efficiency (2025 article)
6. ISO 14001 certification statistics worldwide, simpleQuE – ISO Survey 2022 data (ISO 14001 certificates)
7. Outcomes of ISO 14001 certification, MDPI – Environmental performance and reputation

ENVIRONMENTAL STANDARDS AND WASTE MANAGEMENT IN MACHINERY: THE ROLE OF ISO AND INTERNATIONAL CERTIFICATES

Xayala Mammadova
x.memmedova@atu.edu.az
Gulnara Asadova
g.esedova@atu.edu.az
Azerbaijan Technologycal University

In addition, ISO 14001 contributes to enhanced energy management, reduced greenhouse gas emissions, and increased use of renewable energy resources. The study also highlights the positive influence of environmental certification on company image, customer trust, and competitive advantage in the global market. Overall, the results confirm that environmental management systems not only improve ecological outcomes but also strengthen long-term business performance.

Keywords: machine building, environmental standards, waste management, ISO 14001, energy efficiency, sustainability, corporate reputation

LOGİSTİKA VƏ TƏDARÜK ZƏNCİRİNDƏ STANDARTLAŞDIRMANIN ROLU: QLOBAL TƏDARÜK ZƏNCİRLƏRİNDƏ ISO VƏ DİGƏR SERTİFİKATLARIN LOGİSTİKA VƏ TƏCHİZAT PROSESLƏRİNƏ TƏSİRİ

Qalibə Məmmədova
Xəyalə Məmmədova
x.memmedova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Giriş: Qlobal tədarük zəncirləri yüksələn mürəkkəblik və rəqabət şəraitində bir çox çətinliklərlə üzləşir: etibarlılıq, sürət, risklərin idarə edilməsi və müştəri məmnuniyyəti kimi kritik faktorlardan ibarətdir. Bu mühitdə standartlaşdırma və beynəlxalq sertifikatlar təchizat zənciri performansını artırmaq, uyğunsuzluğu azaltmaq və beynəlxalq ticarət proseslərini asanlaşdırmaq üçün istifadə edilir. Bu tezisdə ISO standartlarının logistika və təchizat zəncirindəki rolu və onların şirkət performansına təsiri araşdırılır.

Tədqiqatın məqsədi: Bu tədqiqatın əsas məqsədi qlobal tədarük zəncirlərində standartlaşdırmanın loqistika proseslərinə təsirini qiymətləndirməkdir. Xüsusilə:

- ISO standartlarının (ISO 9001, ISO 28000 və s.) təchizat zənciri performansına təsiri[2,4],
- ISO sertifikasiyasının logistika səmərəliliyini artırmadakı rolu [2,4],
- ISO standartları vasitəsilə risklərin azaldılması və proseslərin yaxşılaşdırılması [3].

Ədəbiyyat icmalı və nəzəri kontekst: Standartlar bir təşkilatın proseslərini və performansını strukturlaşdıraraq tədarük zəncirində ardıcıllıq və konsistensiyanı təmin edir. Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) tərəfindən təklif edilən standartlar logistika və nəqliyyat sistemlərinin səmərəliliyini artırmaq üçün əsas çərçivə rolunu oynayır [1,2].

ISO 9001 kimi keyfiyyət idarəetmə standartları şirkətlərə prosesləri nəzarət altına almağa və davamlı inkişaf etməyə kömək edir. Bu, nəticədə tədarük zəncirinin müxtəlif mərhələlərində effektivliyi artırır və xidmət keyfiyyətini yüksəldir [4].

ISO 28000:2022 isə təhlükəsizlik idarəetmə sistemi standartı kimi riskləri azaltmaq və logistika əməliyyatlarının təhlükəsizliyini artırmaq üçün tətbiq edilir. Bu standartın müxtəlif sektorlar üzrə tətbiqi ilə bağlı tədqiqatlar onun logistika əməliyyatlarında riski azaldan struktur çərçivə təmin etdiyini göstərir [3].

Metodologiya: Bu tədqiqat ədəbi nəzərdən keçirilmə və empirik analiz metodlarından istifadə edir. Analiz apararkən ISO standartlarının tətbiq etməsi ilə logistika performans göstəriciləri (sifarişin yerinə yetirilməsi vaxtı, inventar çevrilməsi, risk səviyyəsi və s.) müqayisə edilir. Eyni zamanda müxtəlif növ sənaye fəaliyyəti göstərən təşkilatların məlumatları analiz edilərək ISO standartlarının real təsiri qiymətləndirilir [2,3,4].

Müşahidələr:

1. **İSO standartlarının logistika fəaliyyətinə təsiri**. ISO standartlarına malik olan şirkətlərdə logistika proseslərinin effektivliyi müşahidə olunmuşdur. Məsələn, **ISO 9000 (meta-standard)** tətbiq edən firmalar inventar günlərinin sayını azalda bilmişdir və hesab alma dövrlərini optimallaşdırmışdır. Bu standartlar qəbul edildikdən 1 ildən 3 ilə qədər inventar günləri orta hesabla 8,29 % azalmışdır.
2. **Standartlaşdırma və risk idarəetməsi.** ISO 28000:2022 kimi təhlükəsizlik standartı logistika əməliyyatlarında risklərin idarə olunmasını yaxşılaşdırır. Bu, xüsusilə maritim, hava və yük daşımalarında təhlükəsizlik risklərini sistematik şəkildə idarə etməyə kömək edir.
3. **Effektivlik və proses səmərəliliyi.** Standartlaşdırma nəticəsində əməliyyat proseslərinin ardıcıllığı və etibarlılığı artır. Bu isə logistika firmalarının beynəlxalq ticarət müştərilərinin güvənini qazanmasını asanlaşdırır və xidmət keyfiyyətini yüksəldir.

Nəticə və tövsiyələr: Qlobal tədarük zəncirlərində ISO və digər sertifikatların tətbiqi logistika və təchizat proseslərinin daha ardıcıl, izlənilə bilən və çevik aparılmasını təmin edir. Belə standartlar həm logistika əməliyyatlarının keyfiyyətini artırır, həm də risklərin daha yaxşı idarə olunmasına şərait yaradır. Bu standartlar şirkətlərə beynəlxalq ticarət mühitində rəqabət üstünlüyü qazandırır və qlobal təchizat şəbəkələrinin dayanıqlılığını yüksəldir [2,3,4].

Tövsiyə olunur ki, şirkətlər:

- Sertifikatlaşdırma proseslərini strategiya səviyyəsində proqramlaşdıraraq uzun müddətli icra göstəricilərini izləsinlər [2,4],
- ISO standartlarına uyğunluq xarici və daxili auditlərlə davamlı şəkildə izlənilsin [2,3],
- Texnologiyalar (məsələn, ERP, real-time izləmə sistemləri) ISO standartları ilə uyğunlaşdırılsın [2].

ƏDƏBİYYAT

1. ISO və loqistika standartları – International Organization for Standardization, ISO – Logistics, https://www.iso.org/sectors/transport/logistics
2. ISO 9001 logistika və təchizat zənciri üçün – ISO 9001 in logistics: importance, application and advantages, https://acrosslogistics.com/blog/en/iso-9001-in-logistics
3. ISO 28000 təhlükəsizlik standartı – A Comparative Study of ISO 28000:2022 Implementation,ResearchGatePDF, https://www.researchgate.net/publication/390947864_A_Comparative_Study_of_ISO_280002022_Implementation_across_Different_Logistics_Industries
4. ISO 9000 və tədarük zənciri effekti – ISO 9000 and supply chain efficiency, International JournalofProductionEconomics,https://www.sciencedirect.com/science/article/pii/S0925527308003745

THE ROLE OF STANDARDIZATION IN LOGISTICS AND SUPPLY CHAIN: THE IMPACT OF ISO AND OTHER CERTIFICATES ON LOGISTICS AND PROCUREMENT PROCESSES IN GLOBAL SUPPLY CHAINS

Qaliba Mammadova
Khayala Mammadova
x.memmedova@atu.edu.az
Azerbaijan Technologycal University

This study examines the role of international standardization in improving the performance of global supply chains under increasing complexity and competition. It focuses on the application of ISO standards in logistics processes and evaluates their impact on efficiency, risk management, and service quality. The research highlights the importance of standards such as ISO 9001 and ISO 28000 in enhancing operational consistency and reducing uncertainties.

Using a combination of literature review and empirical analysis, the study compares key logistics performance indicators, including order fulfillment time, inventory turnover, and risk levels, before and after the implementation of ISO standards. Findings indicate that companies adopting ISO standards achieve improved logistics efficiency, reduced inventory levels, and better risk control. In particular, ISO-based systems contribute to measurable improvements in supply chain operations within a short period. Overall, the study demonstrates that international standards play a crucial role in optimizing logistics performance and strengthening supply chain resilience.

Keywords: global supply chains, logistics performance, ISO standards, ISO 9001, ISO 28000, risk management, standardization, operational efficiency

İNTELLEKTUAL NƏQLİYYAT SİSTEMLƏRİNDƏ (İNS) ELEMENTLƏRİN, QURĞULARIN VƏ AVADANLIQLARIN NÖVLƏRİ VƏ İŞ PRİNSİPLƏRİ HAQQINDA

Fərhad Ədil oğlu Vəliyev
farhadvaliyev.tmm@gmail.com
Nicat Elxan oğlu Qəzənfərli
nicat01001@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Avtomobillərin sayının çoxalması, yeni yaşayış massivlərinin tikilməsi, yol şəbəkəsinin və ictimai nəqliyyat sisteminin genişlənməsi daşınmaların təşkilində koordinasiya olunmuş və effektiv yanaşma tələb edir. Bu problemin həlli yolunda intellektual nəqliyyat sisteminin (İNS) tətbiqi çox böyük əhəmiyyət kəsb edir [1].

İNS-nin tətbiqi regionun, şəhərin nəqliyyat infrastrukturunun effektiv və avtomatlaşdırılmış idarəolunmasını, əhalinin tələb olunan mobil hərəkətliliyini, yol şəbəkəsindən istifadə göstəricilərinin yaxşılaşdırılmasını, nəqliyyat prosesinin effektivliyini, təhlükəsizliyini, sürücülərin və sərnişinlərin komfortluluğunu təmin edir.

İNS-in müxtəlif funksiyaları yerinə yetirən, yəni nəqliyyat axınının monitorinqini, idarəolunma mərkəzində məlumatların analizini, ağıllı işıqforların işinin koordinasiyasını, istifadəçilərin təhlükəsizliyini və məlumatlandırılmasını təmin edən kompleks avadanlıqlardan ibarətdir [1].

İNS-nin əsas elementləri nəqliyyat axını detektorlarından, məlumat tablolarından, yol videokameralarından, gediş haqqının ödənilməsi üçün elektron vasitələrdən (validator), ağıllı işıqforlardan, idarəolunma mərkəzinin avtomatlaşdırılmış idarəolunma vasitələrindən və yol qaydalarının pozulmasını avtomatik qeydə alan vasitələrdən ibarətdir.

Videokameralar yol axınını nəzarətdə saxlamağa, avtomobillərin nömrələrini müəyyən etməyə, yol qaydalarının pozulmasını qeyd etməyə və hərəkət edən obyektləri izləməyə imkan verir. Bu element nəqliyyat axınlarının idarəolunmasına kömək etməklə bərabər ətraf mühitin çirklənməsi göstəricilərini aşağı salır, tıxacların əmələ gəlməsi ehtimalını və zərərli tullantıları azaldır [2].

Ağıllı işıqforlar sistemin digər elementlərindən gələn məlumatlar əsasında hərəkətin nizamlanmasını, yəni yolun buraxma qabiliyyətini və tıxacların yaranmasının qarşısının alınmasını təmin edirlər.

Nəqliyyat axını detektorları hərəkətin nizamlanması məqsədi ilə nəqliyyat vasitələrinin hərəkətini qeyd edir, onların sayını və axınının intensivliyini müəyyən edir.

Avtomobilin qabaq hissəsində yerləşdirilən transponderlər avtomobilin ödənişli yollarda dayanmadan hərəkətini təmin edir, yol hərəkət vaxtını və müvafiq olaraq zərərli tullantıların həcmini azaldır. Məlumat tabloları yollarda cari vəziyyət haqqında məlumat verirlər və nəqliyyat axınlarının istiqamətinin dəyişdirilməsinə və tıxacların azalmasına köməklik göstərirlər.

İNS-nin avtomatik qeydetmə vasitələri yol-nəqliyyat hadisələrini qeydə alır, sürücüləri yol-hərəkət qaydalarına əməl etmələrinə sövq edirlər, yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına və ekoloji təhlükəsizliyinin yaxşılaşmasına kömək edirlər.

İNS-nə vericilər (datçik), kommunikasiya şəbəkələri və hesablayıcı sistemlər daxildir ki, hansılar nəqliyyat rahatlığının, effektivliyinin və təhlükəsizliyinin yaxşılaşdırılması üçün məlumatı toplayır, ötürür və analiz edir. Əsas komponentlərə daxildirlər vericilər (məs, RFID, GPS/ГЛОНАСС, kameralar) — məlumatı toplamaq üçün, rabitə vasitələri (Wi-Fi, 4G/LTE, Bluetooth) — məlumatı ötürmək üçün və hesablayıcı qurğular — məlumatı analiz etmək və sistemi idarə etmək üçün.

Onların əsas iş prinsipi vericilərdən məlumatı toplamaq, mərkəzi sistemlərdə analiz etmək və idarəedici təsirləri (məs, işıqforların siqnalları) və məlumatları istifadəçilərə ötürməkdən ibarətdir.

İNS-nin elementləri, qurğuları və avadanlıqları

Vericilər və sensorlar:

- GPS/ГЛОНАСС. Bunlar nəqliyyat vasitələrinin dəqiq yerləşməsini müəyyən edirlər.
- RFID. Gediş haqqının ödənməsi və nəzarət məntəqəsində məlumat yığımı və avtomatik identifikasiyası üçün istifadə olunurlar.
- Videokameralar. Sürətə nəzarət, nömrələri təyin etmək və videomüşahidə etmək üçün istifadə olunurlar.
- Yol hərəkəti vericiləri. Trafikin intensivliyi və maneələrin mövcudluğu və digər parametrlər haqqında məlumat verirlər.

Rabitə vasitələri

- Sot şəbəkələri (3G, 4G, LTE). Bunlar avtomobillər, infrastruktur və idarəetmə mərkəzi arasında rabitə yaradırlar.
- Naqilsiz texnologiyalar (Wi-Fi, Bluetooth). Qısa və orta məsafələrə məlumat ötürmək üçün istifadə olunurlar.

Hesablayıcı avadanlıqlar

- Mərkəzi serverlər. Vericilərdən və digər qurğulardan alınan böyük həcmdə məlumatları toplayıb analiz edirlər.
- Kompyuterlər. Sürücüyə yardım sisteminin və naviqasiyasının funksiyalarının idarə olunması və məlumatları analiz etmək üçün avtomobillərdə quraşdırılırlar.

<u>İnteqrasiya edilmiş idarəetmə sistemləri.</u>

- Bu proqram təminatıdır — trafiki idarə olunmasını optimallaşdırır və məlumatları araşdırır, məsələn işıqforların işini dəyişməklə.

<u>Elektron qurğular.</u>

- Avtobuslarda gediş haqqını qəbul edən elektron qurğu validator adlanır. Özündə kontaktlı və kontaktsız ödəmələri bank kartlarından, smartfonlardan, ya da xüsusi nəqliyyat kartlarından qəbul edir və avtomatik olaraq vəsait kartdan silinir.

<u>İş prinsipləri</u>

DETERMINATION OF THE RESISTANCE FORCE TO MOTION IN THE ROLLING BEARING IN MACHINERY

Sadir Guliyev
Sedir.Q@mail.ru
Azerbaijan Technologycal University

The effect of various oils on the resistance force of rolling bearings can be studied by various methods and the corresponding indicators of these oils can be compared. Within the framework of the study, a comparative experimental analysis of the existing Litol-24 oil and Litol-24 oil with ultradisperse diamond-graphite additives was carried out. The effect of various oils was evaluated using the proposed simple mechanical method.

Keywords: friction force, rolling bearing, Litol-24, diamond-graphite additive, resistance to movement

МЕЖДУНАРОДНОЕ СОТРУДНИЧЕСТВО УНИВЕРСИТЕТОВ КАЗАХСТАНА И АЗЕРБАЙДЖАНА КАК ФАКТОР РАЗВИТИЯ В ЭПОХУ ПЯТОЙ ПРОМЫШЛЕННОЙ РЕВОЛЮЦИИ

Ембергенов Муратбек Абдикаримович
ema-2802@mail.ru
Кызылординский университет «Болашак»

Пятая промышленная революция становится новым этапом развития человечества, в котором ключевую роль играют не только технологии, но и человекоцентричный подход [1,2]. В отличие от предыдущих этапов, ориентированных на автоматизацию и цифровизацию, концепция Пятой промышленной революции предполагает гармоничное взаимодействие человека и интеллектуальных систем, таких как искусственный интеллект, робототехника и биотехнологии [3,5]. В этих условиях особая миссия возлагается на университеты как центры знаний, инноваций и подготовки будущих специалистов.

Современные университеты становятся не просто образовательными учреждениями, а полноценными участниками технологического и социального прогресса [6]. Они формируют компетенции, необходимые для работы в условиях быстро меняющегося мира, где востребованы креативность, критическое мышление и способность к междисциплинарному взаимодействию. В рамках таких направлений, как искусственный интеллект, робототехника и биотехнологии, университеты играют ведущую роль в генерации новых знаний и внедрении инноваций [4].

Однако на пути к Пятой промышленной революции университеты сталкиваются с рядом серьезных вызовов [7]. Во-первых, это необходимость быстрой адаптации образовательных программ к требованиям рынка труда. Технологии развиваются стремительно, и традиционные учебные планы часто не успевают за этими изменениями. Во-вторых, возникает потребность в модернизации инфраструктуры: цифровые лаборатории, исследовательские центры и доступ к большим данным становятся обязательными условиями для качественного образования и научной деятельности [4].

Еще одним вызовом является подготовка преподавателей нового поколения[2]. Педагоги должны не только владеть современными технологиями, но и уметь интегрировать их в образовательный процесс, формируя у студентов навыки, соответствующие эпохе Industry 5.0. Кроме того, важным аспектом является

развитие международного сотрудничества, позволяющего обмениваться опытом и внедрять лучшие практики.

Несмотря на существующие трудности, Пятая промышленная революция открывает перед университетами широкие возможности [9]. Это, прежде всего, развитие междисциплинарных исследований, где объединяются знания из различных областей науки. Университеты могут становиться центрами стартап-экосистем, поддерживая инновационные проекты студентов и молодых ученых. Важную роль играет также внедрение принципов устойчивого развития, ориентированных на экологическую ответственность и социальное благополучие.

В этом контексте сотрудничество между Кызылординским университетом «Болашак» и Азербайджанским технологическим университетом является важным шагом в укреплении международных связей в сфере образования и науки [8]. В условиях глобализации академическое партнерство между университетами разных стран способствует обмену знаниями, внедрению инновационных подходов и повышению качества подготовки специалистов.

Одним из ключевых направлений сотрудничества является академическая мобильность студентов и преподавателей [3]. Обучающиеся получают возможность проходить стажировки и участвовать в образовательных программах за рубежом, расширяя свой кругозор и приобретая ценный международный опыт. Преподаватели, в свою очередь, обмениваются методиками преподавания, что способствует внедрению современных образовательных технологий и повышению уровня преподавания [4].

Не менее важным аспектом является совместная научно-исследовательская деятельность. Университеты активно взаимодействуют в реализации научных проектов, проведении конференций, семинаров и круглых столов [5]. Такое сотрудничество позволяет объединять научный потенциал, обмениваться результатами исследований и находить решения актуальных проблем в различных областях науки и техники.

Особое внимание уделяется разработке совместных образовательных программ и учебных планов [8]. Это способствует гармонизации образовательных стандартов и подготовке специалистов, востребованных на международном рынке труда. Совместные программы также открывают возможности для получения двойных дипломов, что значительно повышает конкурентоспособность выпускников.

Кроме того, сотрудничество между университетами укрепляет культурные связи между Казахстаном и Азербайджаном [7]. Обмен студентами и участие в культурных мероприятиях способствуют лучшему пониманию традиций, языка и истории двух народов, что играет важную роль в развитии дружественных отношений.

Все вышеперечисленное отражено в меморандуме подписанном ректором Азербайджанского технологического университета Омаровым Я.А. с одной стороны и проректором по научной работе и международным отношениям Кызылординского университета «Болашак» Ембергеновым М.А. с другой стороны, во время 2-го форума ректоров высших учебных заведений Республики Казахстан и Республики Азербайджан проходившего 06.04-08.04.2026 гг. в г. Алматы на базе Innotech powered by Arizona State university и выставки «Study in Azerbaijan» на базе КазНУ им. Аль Фараби.

Таким образом, партнерство между Кызылординским университетом «Болашак» и Азербайджанским технологическим университетом является примером эффективного международного взаимодействия в сфере образования и науки [1]. Оно способствует развитию человеческого капитала, укреплению научного потенциала и формированию единого образовательного пространства.

На основании вышеизложенного можно утверждать, что университеты выступают ключевыми драйверами перехода к Пятой промышленной революции [3]. Их способность адаптироваться к новым условиям, внедрять инновации и формировать человеческий капитал определяет успешность этого перехода. В условиях глобальных изменений именно университеты становятся связующим звеном между наукой, технологией и обществом, обеспечивая устойчивое и гармоничное развитие будущего.

ЛИТЕРАТУРА

1. Пронин А.Ю. Индустрия 5.0 – новый вектор промышленного развития // Наноиндустрия. — 2024. — Т. 17, № 2. — С. 134–142.
2. Alves J., Lima T., Gaspar P. Is Industry 5.0 a Human-Centred Approach? A Systematic Review // Processes. — 2023.
3. Hasan M.R., Khan M.A., Wuest T. Towards Industry 5.0: A Systematic Literature Review on Sustainable Supply Chains // научная статья. — 2024.
4. Movahed A.B., Nozari H. Systematic Review of Smart Factories Production in Industry 5.0 // научная статья. — 2025.
5. Zeb S., Mahmood A., Hassan S.A. и др. Industry 5.0 is Coming: A Survey on Intelligent Networks // научная статья. — 2022.
6. Лычагин М.В. Четвертая промышленная революция в системе экономических категорий // π-Economy. — 2020.
7. Рыжикова Т.Н., Боровский В.Г. Четвертая промышленная революция: вызовы и императивы // Энергия: экономика, техника, экология. — 2021.
8. Industry 4.0 and Industry 5.0 from the Lean Perspective // ResearchGate. — 2022.
9. Индустрия сервиса в контексте пятой промышленной революции // Service PLUS. 2024.

INTERNATIONAL COOPERATION OF THE UNIVERSITIES OF KAZAKHSTAN AND AZERBAIJAN AS A FACTOR OF DEVELOPMENT IN THE ERA OF THE FIFTH INDUSTRIAL REVOLUTION

Embergenov Muratbek Abdikarimovich
ema-2802@mail.ru
Kyzylorda University "Bolashak"

This article examines the role of universities in the context of the Fifth Industrial Revolution, with a particular focus on international academic cooperation. The study highlights the partnership between Kyzylorda University "Bolashak" and Azerbaijan Technological University as an example of effective collaboration in education and research.

The paper explores key areas of cooperation, including academic mobility of students and faculty, joint research initiatives, and the development of dual-degree and interdisciplinary educational programs. Such collaboration contributes to knowledge exchange, the implementation of innovative teaching methods, and the improvement of educational quality.

Special attention is given to the challenges faced by universities in the transition to Industry 5.0, such as the need to modernize curricula, develop digital infrastructure, and enhance faculty competencies. At the same time, the article identifies new opportunities, including the promotion of interdisciplinary research, support for innovation ecosystems, and the integration of human-centered and sustainable development principles.

The study concludes that universities play a crucial role as drivers of technological and social transformation. Strengthening international cooperation enables higher

education institutions to effectively respond to global challenges and to contribute to the formation of a sustainable and innovation-oriented future.

Keywords: Fifth Industrial Revolution, higher education, universities, international cooperation, academic mobility, innovation, artificial intelligence, robotics, biotechnology, research activity, sustainable development, Kazakhstan, Azerbaijan.

DƏMİR – KARBON ƏRİNTİLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ EFFEKTİV TƏDRİS ÜSULLARI

Elbrus Cəlal Hüseynov
elburus908@gmail.com
Elgün Elbəy Həsənova
Kerimligunel1@gmail.com
Gəncə Dövlət Universiteti

Məqalədə kursun əsas bölmələrinin öyrənilməsində innovativ yanaşmalar, xüsusilə də dəmir-karbon ərintilərinin mənimsənilməsi məsələləri nəzərdən keçirilir. İnteraktiv tədris və biliklərin yoxlanılması metodlarından istifadə etməklə tədrisin intensivləşdirilməsi üsulları təklif olunur.

Son illərdə bazar münasibətləri şəraitində və sənayenin müxtəlif sahələrində dünya səviyyəsinə uyğun yeni maşın və konstruksiyaların yaradılması zərurəti ilə əlaqədar olaraq, yüksək möhkəmlik, istiliyədavamlılıq, korroziyaya və kimyəvi təsirlərə davamlılıq kimi xüsusiyyətlərə malik materialların çeşidi əhəmiyyətli dərəcədə genişlənmişdir. İstismar zamanı konstruktor və texnoloqlar tərəfindən seçilmiş materiallar müxtəlif yüklərə məruz qalır. Buna görə də materialşünaslıq və konstruksiya materiallarının texnologiyası fənlərinin tədrisində materialların dağılma mexanizmləri daha ətraflı izah olunmalıdır.

Hazırda texnika və texnologiya sahələrində bakalavr və magistr hazırlığı üzrə əksər istiqamətlər üçün "Materialşünaslıq və KMT (konstruksiya materiallarının texnologiyası)" adlı vahid kurs mövcuddur. Lakin bu kurs üzrə dərs saatlarının azalması və kursun mürəkkəbliyi, təsviri xarakteri və çoxsözlülüyü səbəbindən tələbələr üçün müəyyən çətinliklər yaranır.

Materialşünaslığın öyrənilməsində əsas məqsəd, bütün materialların həm hazırlanma, həm emal, həm də istismar özündə birləşdirməkdir. Bu yanaşma aşağıdakı məsələlərin öyrənilməsi zamanı əsas götürülməlidir:

- ✓ ərintilərin mikrostrukturu və onların etibarlılığı
- ✓ materialların atom-kristal quruluşuistilik və digər emal proseslərində baş verən allotropik dəyişikliklər
- ✓ struktur qüsurlarının yaranması və onların materialın xüsusiyyətlərinə təsiri
- ✓ dağılmanın dislokasiya mexanizmi
- ✓ deformasiya zamanı struktur dəyişiklikləri

Qarşıya qoyulan məsələlərin həlli əsas anlayışların və biliklərin mənimsənilməsi olmadan mümkün deyil. [1] Bu biliklər mühazirələr, laboratoriya və praktik məşğələlər vasitəsilə formalaşdırılır. Tədris prosesinin intensivləşdirilməsi məqsədilə mühazirələrə xüsusi diqqət yetirilir. Hər mövzu üzrə məqsədlər aydın şəkildə müəyyən edilməli, tələbələrdə peşəkar keyfiyyətlər, fənnə maraq və müstəqil yaradıcı düşüncə inkişaf etdirilməlidir. Mühazirələr əsaslandırılmış, faktlarla zəngin, praktikaya bağlı və elm-texnika inkişafının müasir səviyyəsinə uyğun olmalıdır. [3] Mühazirələrin səmərəliliyini artırmaq məqsədilə tələbələr arasında ekspress sorğular və yazılı yoxlama işləri keçirilir. Bu metodun mahiyyəti belədir:

Hər mühazirədən sonra tələbə mövzunu konspekt və əlavə ədəbiyyat əsasında öyrənməli və öz fikrincə ən vacib olan 10 sualı tərtib etməlidir.

Növbəti mühazirədə müəllim bu sualların hazırlanıb-hazırlanmadığını yoxlayır.

Əhəmiyyətli mövzular üzrə əvvəlcədən xəbərdarlıq edilərək yazılı yoxlama işləri də keçirilir. Məsələn, texniki ixtisas üzrə təhsil alan tələbələr dəmir-karbon ərintilərinin (polad və çuqun) fazalarını yaxşı bilməlidirlər. Bu isə yalnız "dəmir–sementit" diaqramının düzgün başa düşülməsi ilə mümkündür. [4]

Bu məqsədlə əvvəlcə ikili ərintilərin faza diaqramları öyrədilir, sonra isə dəmir-karbon diaqramı ilə əlaqələndirilir.

Diaqramların daha yaxşı mənimsənilməsi üçün müəlliflər belə bir metod təklif edirlər:

- ✓ "Likvidus" xəttinin alt hissəsi seyrək ştrixlənir (maye-bərk halı göstərmək üçün)
- ✓ "Solidus" xəttinin alt hissəsi sıx ştrixlənir (tam bərk halı göstərmək üçün)

Əgər tələbə diaqramı yaddaşdan düzgün çəkə, fazaları və çevrilmə temperaturlarını izah edə bilirsə, o zaman bu bilik uzun müddət yadda qalır və peşə fəaliyyətində faydalı olur.

Təklif olunan yanaşma tələbələrin nəzəri bilikləri daha sistemli və davamlı şəkildə mənimsəməsinə şərait yaradır. İnteraktiv metodlar və mərhələli yoxlama sistemi (mühazirə sonrası suallar, planlı testlər və diaqramların yaddaş texnikası ilə öyrədilməsi) fənnin çətin mövzularının qavranılmasını asanlaşdırır. Nəticə etibarilə, bu metodlar tələbələrin analitik düşünmə qabiliyyətini gücləndirir, materialşünaslıq biliklərinin praktik tətbiqini artırır və ümumi tədris keyfiyyətinin yüksəldilməsinə xidmət edir[3].

ƏDƏBİYYAT

1. Smolkin A. A., Batışev A. İ., Bezpalko V. İ. və başqaları. Materialşünaslıq və konstruksiya materiallarının texnologiyası üzrə test tapşırıqları / A. A. Smolkinin redaktəsi ilə. – Moskva: Akademiya, 2011. – 135 s
2. Tsaturyan E. O., Smolkin A. A., Batışev A. İ. Materialşünaslıq və konstruksiya materiallarının texnologiyası üzrə tələbələrin biliklərinin avtomatlaşdırılmış test nəzarətinin işlənməsinin metodik əsasları Saratov: SGTU, 2010. – S. 214.
3. Avanesov V. S. Test tapşırıqlarının tərtibi. – Moskva: Adept, 1998.
4. Smolkin A. A., Batışev A. İ., Xoroxorin F. P. Kompüter testləşdirilməsi zamanı müxtəlif tip tapşırıqların qiymətləndirilməsi və həyata keçirilməsi // Yeni texnologiyalar. – Moskva: MGOU, 2007. – №3. – S. 45–48.

EFFECTIVE TEACHING METHODS IN LEARNING IRON-CARBON ALLOYS

Elbrus Jalal Huseynov
elburus908@gmail.com
Elgun Elbey Hasanova
Kerimligunel1@gmail.com
Ganja State University

The article examines innovations and challenges in teaching the "Materials Science and Technology of Construction Materials" course. It highlights the use of interactive methods such as computer-based testing and test task banks to improve learning efficiency. Special attention is given to the effective teaching of iron–carbon alloys and phase diagrams through visual and structured approaches. These methods enhance students' understanding, engagement, and long-term retention of key concepts.

Keywords: phase diagrams, iron–carbon alloys, liquidus and soliduslines

BÖLMƏ. TURİZM SƏNAYESİNİN TƏŞKİLİ

Sədr: Yusif Hümbətov
Həmsədr: Bakhtynur Mukhitovna (Xalel Dosmuxamedov adına Atırau Dövlət Universiteti, Qazaxıstan)

TURİZM İXTİSASI ÜZRƏ TƏHSİL ALAN TƏLƏBƏLƏRDƏ PEŞƏKAR KOMMUNİKASİYA BACARIQLARININ FORMALAŞDIRILMASININ PEDAQOJİ ƏSASLARI

Tural Tahir oğlu Ələkbərov[1]
turalekbarov@gmail.com
Arzu Tahir qızı Babayeva[2]
Zeynəb Tahir qızı Ələkbərova[3]
Azərbyacan Texnologiya Universiteti[1]
Gəncə Dövlət Universiteti[2,3]

Giriş. Turizm sənayesinin qlobal iqtisadiyyatda aparıcı rolu və rəqəmsallaşmanın sürətli inkişafı fonunda "insan faktoru" və peşəkar ünsiyyət mədəniyyəti yeni keyfiyyət mərhələsinə qədəm qoyur. Müasir turizm artıq sadəcə texniki xidmətlərin göstərilməsi deyil, həm də mürəkkəb psixoloji idarəetmə və fərdi yanaşma tələb edən bir sahədir ki, bu da ali təhsil müəssisələrində turizm ixtisası üzrə kadr hazırlığının pedaqoji əsaslarının yenidən nəzərdən keçirilməsini zəruri edir. Problemin aktuallığı ondan ibarətdir ki, rəqəmsal texnologiyalar və süni intellekt bir çox texniki funksiyaları əvəz etsə də, insanın emosional enerjisini, empatiya qabiliyyətini və gözlənilməz böhran anlarında göstərdiyi kommunikativ çevikliyi əvəz edə bilmir.

Mövcud təhsil sistemində tələbələrin akademik hazırlığı ilə real əmək bazarının tələbləri arasında yaranan kommunikativ boşluq, pedaqogika və psixologiyanın sintezindən doğan yeni metodoloji yanaşmaların tətbiqini qaçınılmaz edir. Bu kontekstdə, gələcək turizm mütəxəssislərində peşəkar ünsiyyət bacarıqlarının formalaşdırılması prosesi sadəcə nitq mədəniyyətinin öyrədilməsi deyil, həm də neyropedaqoji prinsiplərə əsaslanan, emosional intellektin yüksəldilməsinə xidmət edən mürəkkəb bir təlim prosesi kimi dəyərləndirilməlidir. Belə bir yanaşma turizm təhsilini daha rəqabətədavamlı edərək, tələbələrin peşəkar fəaliyyətində yüksək xidmət standartlarının və müştəri məmnuniyyətinin təmin olunmasına möhkəm zəmin yaradır.

Turizm ixtisası üzrə təhsil alan tələbələrdə peşəkar kommunikasiya bacarıqlarının formalaşdırılması prosesi müasir mərhələdə neyropedaqoji və psixoloji qanunauyğunluqların dərindən mənimsənilməsini tələb edir. Bu prosesin fundamental əsasını tələbələrdə emosional rezonans və empatiya qabiliyyətinin inkişaf etdirilməsi təşkil edir ki, bu da onlara turistlərlə ünsiyyət zamanı qarşı tərəfin gizli ehtiyaclarını duymağa və "emosional yoluxma" mexanizmindən istifadə edərək müsbət atmosfer yaratmağa imkan verir. Pedaqoji prosesdə diqqət yetirilməli olan ən vacib məqamlardan biri də tələbələrin stress menecmenti və böhran anlarında kommunikativ davamlılıq nümayiş etdirmə bacarığıdır; belə ki, gələcək mütəxəssis çətin müştəri tipləri ilə qarşılaşdıqda öz emosional vəziyyətini idarə etməli və münaqişəni konstruktiv dialoqa çevirməyi bacarmalıdır.

Ünsiyyətin yalnız verbal tərəfi deyil, eyni zamanda bədən dili, mikromimikalar və paralinqvistik vasitələri əhatə edən qeyri-verbal intellektin formalaşdırılması da bu mərhələdə xüsusi əhəmiyyət kəsb edir. İnnovativ təlim metodları çərçivəsində tətbiq olunan Virtual reallıq və artırılmış reallıq simulyasiyaları tələbələrə risk etmədən süni münaqişə mühitində öz bacarıqlarını sınamaq şansı verir, "edutainment" və dram-pedaqogika yanaşmaları isə öyrənmə prosesini emosional təcrübəyə çevirərək biliklərin qalıcılığını təmin edir. Bu pedaqoji strukturun ayrılmaz tərkib hissəsi olan mədəniyyətlərarası kommunikativ kompetensiya gələcək kadrların fərqli mentalitetlərə,

milli ənənələrə və inklüziv ehtiyaclara həssaslıqla yanaşmasını təmin edərək, onları qlobal turizm bazarının etik və peşəkar standartlarına tam hazır vəziyyətə gətirir.

Müasir turizm təhsilinin pedaqoji paradiqması informasiya ötürücülüyündən daha çox, şəxsiyyətlərarası harmoniyanın və peşəkar çevikliyin təmin olunmasına yönəlmiş "Psixologiya-Pedaqogika-Texnologiya" triadasının vəhdəti üzərində qurulmalıdır.

Tələbələrdə kommunikativ bacarıqların formalaşdırılması yalnız nəzəri mühazirələrlə deyil, bilavasitə emosional intellektin və neyropsixoloji dözümlülüyün artırılmasına xidmət edən praktiki laboratoriyaların tədris planına daxil edilməsi ilə mümkündür. [1] Təhsil prosesində tətbiq olunan innovativ metodlar, o cümlədən virtual simulyasiyalar və rol oyunları tələbənin gələcək peşəkar fəaliyyətində qarşılaşacağı mədəniyyətlərarası baryerləri öncədən aşmasına və müştəri məmnuniyyətini elmi əsaslarla idarə etməsinə şərait yaradır. Ali təhsil müəssisələrində turizm kadrlarının hazırlığı zamanı inklüziv ünsiyyət etikası və rəqəmsal storytelling texnikaları prioritet istiqamət kimi qəbul edilsin, çünki gələcəyin turizm sənayesində qalib gələn tərəf texnologiyanı insan emosiyası ilə ən yüksək səviyyədə sintez edə bilən mütəxəssislər olacaqdır. Belə bir kompleks pedaqoji yanaşmanın tətbiqi həm ölkə daxilində xidmət keyfiyyətinin yüksəlməsinə, həm də yerli kadrların beynəlxalq əmək bazarında rəqabətədavamlılığının təmin olunmasına birbaşa xidmət edir.[5]

Dünya təcrübəsində turizm təhsilinin pedaqoji arxitekturası peşəkar ünsiyyət bacarıqlarını sadəcə xidmət elementi kimi deyil, strateji rəqabət üstünlüyü yaradan mürəkkəb bir kompetensiya kimi dəyərləndirir. Bu sahədə ən uğurlu modellərdən biri olan İsveçrə təcrübəsi tələbələrin "emosional əmək" və "davranış mühəndisliyi" istiqamətində yetişdirilməsinə əsaslanır.[4] İsveçrə modelinin uğurunun fundamental səbəbi, təhsilin ilk günündən etibarən nəzəriyyənin tamamilə peşəkar iş mühitinə inteqrasiya edilməsi və tələbələrdə "peşəkar səmimiyyət" hissinin formalaşdırılmasıdır. [2] Almaniyanın "Dual Təhsil" sistemi isə kommunikativ bacarıqların real bazar şəraitində, işəgötürənlərin birbaşa nəzarəti altında inkişaf etdirilməsinə şərait yaradır ki, bu da tələbənin ali təhsil müəssisəsində aldığı psixoloji hazırlığı dərhal praktikada sınaqdan keçirməsinə imkan verir. Amerika Birləşmiş Ştatlarının qabaqcıl universitetlərində tətbiq olunan analitik kommunikasiya modeli isə ünsiyyət bacarıqlarını rəqəmsal data və müştəri rəylərinin analizi ilə birləşdirərək, tələbələrə hansı davranış modellərinin daha yüksək iqtisadi səmərə verdiyini elmi şəkildə öyrədir. [3] Bu uğurlu beynəlxalq təcrübələrin Azərbaycan reallığına inteqrasiyası ilk növbədə milli qonaqpərvərlik ənənələrinin peşəkar etik standartlarla standartlaşdırılmasını tələb edir. Azərbaycanın özünəməxsus multikultural dəyərləri və səmimi ünsiyyət tərzi pedaqoji prosesdə elmi əsaslarla işlənməli, yerli təhsil proqramlarına "milli storytelling" və "regional kommunikasiya" modulları əlavə edilməlidir. Xüsusilə, ölkəmizdə fəaliyyət göstərən iri turizm müəssisələri ilə universitetlər arasında qurulan strateji tərəfdaşlıq çərçivəsində tələbələr üçün virtual simulyasiya laboratoriyalarının və mentorluq proqramlarının yaradılması qlobal təcrübənin yerli mühitə adaptasiyasında həlledici rol oynaya bilər. Beləliklə, dünya təcrübəsindən süzülüb gələn innovativ yanaşmaların Azərbaycanın spesifik turizm potensialı ilə sintezi, həm xidmət keyfiyyətinin yüksəlməsinə, həm də yerli kadrların beynəlxalq səviyyədə tanınan mütəxəssislərə çevrilməsinə birbaşa təkan verəcəkdir.

Azərbaycanın qlobal turizm bazarında rəqabətədavamlılığının artırılması bilavasitə yerli kadrların kommunikativ kompetensiyalarının dünya standartlarına uyğunlaşdırılmasından asılıdır. Ölkəmizdə turizm sektorunun strateji əhəmiyyəti və "Qonaqpərvərlik" brendinin milli dəyər kimi qəbul edilməsi tələbələrdə bu bacarıqların sadəcə texniki vərdiş deyil, həm də psixopedaqoji bir mədəniyyət kimi formalaşdırılmasını tələb edir. Aparılan təhlillər əsasında belə qənaətə gəlmək olar ki, müasir Azərbaycan təhsil sistemində turizm ixtisası üzrə təhsil alan tələbələrin hazırlıq prosesinə

neyropedaqoji yanaşmaların və rəqəmsal ünsiyyət simulyasiyalarının inteqrasiyası, gələcək mütəxəssislərin emosional dözümlülüyünü və mədəniyyətlərarası dialoq qabiliyyətini əhəmiyyətli dərəcədə yüksəldir.

Təkliflər. Ali təhsil müəssisələrinin turizm ixtisası tələbələrin real iş mühitindəki gərgin ssenariləri təcrübədən keçirə biləcəyi "Kommunikativ vaboratoriyalar" və VR əsaslı simulyasiya mərkəzləri yaradılmalıdır. Azərbaycanın regionlar üzrə turizm potensialı nəzərə alınaraq, tələbələrə müxtəlif bölgələrin etno-psixoloji xüsusiyyətlərini və yerli koloriti turistə düzgün kommunikasiya vasitəsilə ötürməyi hədəfləyən "Milli Storytelling" modulları tədris planına əlavə edilməlidir. Eyni zamanda, inklüziv turizmin inkişafı məqsədilə xüsusi qayğıya ehtiyacı olan şəxslərlə peşəkar ünsiyyət etikası və psixoloji dəstək metodlarının öyrədilməsi prioritet istiqamət kimi qəbul olunmalıdır. Nəhayət, yerli otel və turizm müəssisələri ilə sıx əməkdaşlıq çərçivəsində tələbələrin emosional intellektini ölçən və inkişaf etdirən "Mentorluq proqramları"nın tətbiqi, təhsil ilə əmək bazarı arasındakı kommunikativ boşluğun aradan qaldırılmasına və ölkəmizdə xidmət sektorunun keyfiyyətcə yeni mərhələyə keçməsinə təkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Tsaur, S. H., & Ku, P. S. (2019). The effect of soft skills on hospitality students' career success. Journal of Hospitality, Leisure, Sport & Tourism Education, 25, 100209. https://doi.org/10.1016/j.jhlste.2019.100209
2. Sisson, P. N., & Adams, A. R. (2013). Essential hospitality management competencies: The importance of soft skills. Journal of Hospitality & Tourism Education, 25(3), 131-145. https://doi.org/10.1080/10963758.2013.826975
3. Harkison, T., Poulston, J., & Ginny, A. (2011). Hospitality graduates: Learning for the real world. Journal of Hospitality and Tourism Management, 18(1), 56-61. https://doi.org/10.1375/jhtm.18.1.56
4. Misra, R. K., & Sheel, R. (2017). Emotional intelligence and hospitality students: Implications for education and industry. Journal of Hospitality & Tourism Education, 29(3), 135-142. https://doi.org/10.1080/10963758.2017.1350616
5. Wang, J., & Wang, S. (2022). Developing Intercultural Communication Competence in Tourism Education: A Systematic Review. Journal of Teaching in Travel & Tourism, 22(2), 154-175. https://doi.org/10.1080/15313220.2021.1912689

PEDAGOGICAL FOUNDATIONS OF DEVELOPING PROFESSIONAL COMMUNICATION SKILLS AMONG TOURISM STUDENTS

Tural Tahir Alakbarov[1]
turalekbarov@gmail.com
Arzu Tahir Babayeva[2]
Zeynab Tahir Alakbarova[3]
Azerbaijan Technological University[1]
Ganja State University[2,3]

This study examines the pedagogical frameworks essential for fostering professional communication skills in students pursuing degrees in tourism. In an era where digital transformation and "soft skills" define industry success, the research highlights the integration of emotional intelligence, intercultural competence, and innovative teaching methods like VR-simulations. By bridging the gap between academic theory and the psychological demands of the modern hospitality sector, the paper proposes a multi-dimensional educational model. The findings suggest that a synergy of pedagogy and psychology is vital for preparing a resilient, globally competitive workforce capable of delivering high-quality service in the diverse tourism landscape.

ROLE OF EMOTIONAL INTELLIGENCE IN FOSTERING JOB SATISFACTION AND EMPLOYEE ENGAGEMENT IN TOURISM: ERA OF INDUSTRY 5.0

Mohammad Qais Rezvani[1]
Rezvaniqais@ru.edu.af
Ramida Farrux Khalilova[2]
r.xalilova@atu,edu,az
Rana University[1]
Azerbaijan Technological University[2]

Emotional Intelligence (EI) has emerged as a critical competency in modern tourism organizational Behavior, influencing various aspects of workplace dynamics. This paper explores the conceptual relationship between emotional intelligence, job satisfaction, and employee engagement in the tourism industry in the era of 5.0. Drawing from existing literature and theoretical models, the study proposes that higher levels of emotional intelligence in employees and leaders can lead to improved job satisfaction and increased employee engagement in the tourism organization. The paper also discusses the mediating and moderating roles of organizational culture, leadership style, and interpersonal relationships. The commitment of employees to remain in the tourism organization will be high, if the human resource managers or department heads ready to satisfy their needs. The study's findings indicate a substantial relationship between people's emotional intelligence and employment-related factors, such as job satisfaction, job performance, and engagement at work. It was concluded that emotional intelligence influence job satisfaction and improve the accuracy and farness in the job evaluation.

Keywords: Emotional Intelligence, Job Satisfaction, Employee Engagement, Tourism Industry, Industrial Revolution, Literature Review.

1. Introduction

In today's fast-paced and dynamic tourism workplace, technical skills alone are insufficient to ensure employee effectiveness and organizational success. Emotional Intelligence (EI)—the ability to perceive, understand, manage, and regulate emotions—has gained significant attention for its role in enhancing interpersonal relationships, decision-making, and leadership. This paper examines how the application of emotional intelligence impacts two key tourism organizational outcomes: job satisfaction and employee engagement.

To take this concept further ahead the researchers have further concluded that emotional intelligence has a very stark connection with elements pertaining to an individual working in any organization and specifically in tourism industry which primarily include job satisfaction, job performance and work engagement (Bachman et al., 2000).

2. Literature Review

2.1 Emotional Intelligence (EI)

According to Utami et al. (2014), the EI had a very positive effect on organizational commitment, job stress, job satisfaction, and absenteeism. The impact of Emotional Intelligence (EI) on job satisfaction, organizational commitment, and job performance will be the main emphasis of this review. The study found that those with higher EI had more mature emotions than those with lower EI, but that those with higher EI were also better able to handle stress and work-related problems (Utami et al., 2014). Four domains, such as Self-Emotion Appraisal (SEA), Others' Emotions Appraisal (OEA), Use of Emotion

(UOE), and Regulation of Emotion (ROE), are commonly used to test emotional intelligence.

2.2 Job Satisfaction (JS)

According to the study, employees that have a high emotional level will be very satisfied with their jobs (Khan, et al., 2017). When employees are feeling good about their jobs, they will show it, and when they are feeling bad, they will show it (Khan et al., 2017).

2.3 Employee Engagement (EE)

There is a direct correlation between an organization's overall performance and employee engagement. The simplest way to characterize an employee's involvement at work is as a positive and fulfilling state of mind (Schaufeli & Bakker, 2004). In the context of the workplace, it can also be defined as a positive attitude toward one's work and job (Macey & Schneider, 2008).

2.4 Organizational Commitment (OC)

According to Shafiq and Rana (2016), there was a noteworthy positive correlation between EI and the three elements of organizational commitment: affective, continuation, and normative commitment. Research indicates that workers with greater organizational commitment were also more emotionally intelligent (Moradi & Ardahaey, 2011). Positive sentiments of intimacy and attachment to the organization are a part of affective commitment. normative commitment, which is the obligation to stay with a company (Meyer & Allen, 1991).

2.5 Linkages Between EI, Job Satisfaction, organizational commitment and Engagement.

The EI had a significant positive relationship with three components of organizational commitment which were pointed as affective commitment, continuance commitment and normative commitment. It is recommended that EI should be included in the selection and recruiting level and will help the organization to achieve their goals and productivity.

3. Research Objective

To explore the conceptual link between emotional intelligence, job satisfaction, and employee engagement, organizational commitment and to propose a model explaining their interrelation.

1. To examine the effect of emotional intelligence on various aspects of employee engagement through a systematic literature review.
2. To devaluate the relationship between emotional intelligence and job satisfaction among tourism industry employees.
3. To provide recommendations for HR practices to improve job satisfaction and engagement through emotional intelligence development.
4. To analyze how emotional intelligence influences tourism industry employees' attitudes toward their roles and organizational environment.

4. Research Methodology

This conceptual study adopts a qualitative and theoretical research approach by analysing and synthesizing prior literature. Future empirical research may adopt a quantitative cross-sectional survey design to validate the proposed framework.

5. Discussion

EI enhances self-awareness and empathy, crucial for understanding colleagues' perspectives and responding constructively. This emotional competence facilitates collaboration, reduces conflict, and contributes to a more supportive work environment in tourism industry—all of which enhance job satisfaction.

Engaged employees are often those who find meaning in their work and feel valued. EI allows employees to regulate emotional responses, maintain optimism, and connect with organizational goals, thereby sustaining engagement.

6. Organizational Implications

Tourism organizations that invest in EI training programs for managers and employees can expect improvements in team performance, leadership effectiveness, and overall morale. EI can also serve as a criterion in recruitment and leadership development.

7. Conclusion

Emotional Intelligence plays a pivotal role in shaping the modern tourism workplace by influencing how employees perceive their job and engage with their roles. By fostering emotionally intelligent cultures, tourism organizations can enhance job satisfaction and drive employee engagement. While the relationships proposed are conceptual, they offer a basis for empirical testing and further exploration in diverse organizational settings.

The study was important because it enabled me to better understand the psychological component, which genuinely influences how workers in tourism industries behave in the workplace. Given that we spend a significant amount of our life at work, it is imperative that we search for elements that genuinely contribute to increased productivity.

All four variables appeared to have a very strong and directly proportional relationship, according to the conclusion. According to the findings, one of the most important aspects of our personalities that significantly influences how we engage with the environment at work is emotional intelligence. This outcome is very important for companies that want to be productive and strive for excellence. The study will assist organizations in improving their human resource capital, which will increase the effectiveness and productivity of their workforce in the tourism industry.

8. Future Research Directions

1) Empirical validation of the proposed model across tourism industries and cultures
2) Longitudinal studies to assess the long-term impact of EI on engagement
3) Examination of EI's role in remote and hybrid work settings in the tourism industry
4) Exploring the influence of demographic variables on EI and job outcomes

9. Ethical considerations

Not applicable.

10. Conflict of interest

The authors declare no conflicts of interest**.**

11. Funding

This research did not receive any financial support**.**

REFERENCES

1. Ashkanasy, N. M., & Daus, C. S. (2005). Rumors of the death of emotional intelligence in organizational behaviour are vastly exaggerated. Journal of Organizational Behaviour, 26(4), 441–444. https://doi.org/10.1002/job.320
2. Bakker, A. B., & Demerouti, E. (2008). Towards a model of work engagement. Career Development International, 13(3), 209–223. https://doi.org/10.1108/13620430810870476
3. Bar-On, R. (1997). The Emotional Quotient Inventory (EQ-i): Technical manual. Multi-Health Systems.
4. Bradberry, T., & Greaves, J. (2009). Emotional intelligence 2.0. TalentSmart.
5. Carmeli, A. (2003). The relationship between emotional intelligence and work attitudes, behavior and outcomes. Journal of Managerial Psychology, 18(8), 788–803. https://doi.org/10.1108/02683940310511881

6. Herzberg, F. (1968). One more time: How do you motivate employees? Harvard Business Review, 46(1), 53–62.
7. Mayer, J. D., & Salovey, P. (1997). Emotional development and emotional intelligence: Educational implications. Basic Books.
8. Schaufeli, W. B., Salanova, M., González-Romá, V., & Bakker, A. B. (2002). The measurement of engagement and burnout: A two-sample confirmatory factor analytic approach. Journal of Happiness Studies, 3(1), 71–92. https://doi.org/10.1023/A:1015630930326

TURİZM SƏNAYESİNİN TƏŞKİLİNDƏ İDMAN TURİZMİNİN İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ

Hökümə Eyvaz qızı Məmmədova
hokuma.mammadova@sport.edu.az
Tərlan Nəsir qızı Məmmədova
tarlan.mammadova@sport.edu.az
Azərbaycan İdman Akademiyası

Giriş. Qloballaşma şəraitində turizm sənayesi ölkələrin iqtisadiyyatında getdikcə daha əhəmiyyətli mövqe tutur. İdman turizmi həm kütləvi idman tədbirlərinin təşkili, həm də aktiv istirahət formaları vasitəsilə turist axınının artırılmasına xidmət edir. Son zamanlar respublikamızda idman turizmi sahəsində müəyyən fəallıq hiss olunur. Bu sahəyə maraq və qayğı artırılıb. İdman turizmi insanların fiziki, psixoloji, sosial rifahının təminatçısıdır. İdman turizminin ekoloji cəhətdən zərərinin olmaması, əyləncə xarakteri daşıması insanların asudə vaxtının səmərəli keçməsinə zəmin yaradır [1, 3, 6].

Azərbaycan Avropa və Asiyanın kəsişdiyi yerdə yerləşir. İdman turizminin inkişafı üçün əlverişli şəraitinin olmasına baxmayaraq, idmanın bu növü respublikamızda çox da geniş inkişaf etməmişdir. İdman turizmi sahəsində zəif kadr hazırlığı, hazırlanmış ixtisasçıların təcrübi və nəzəri biliklərinin tələb olunan səviyyədə olmaması, müxtəlif təşkilatlar arasında olan rəqabət, təlim-məşq toplanışları və yarışların keçirilməsi üçün maliyyə vəsaitinin az ayrılması, idman turizmi ilə bağlı əhatəli tədqiqatların aparılmaması bu sahənin inkişafı üçün problemlər yaradır [1, 2, 6].

Respublikanın müxtəlif bölgələrində (Quba, Xaçmaz, Qusar, Şəki, Lənkəran) az da olsa ixtisasçılar fəaliyyət göstərir, yarışlara idmançıları hazırlayırlar. Lakin onların təcrübi bacarıqlarının kifayət qədər yüksək səviyyədə olmaması bu idman növünün masştabının genişləndirilməsi üçün problem yaradır. İdman turizminin inkişaf etdirilməsi üçün aşağıdakı istiqamətləri müəyyənləşdirmək olar:

- idman turizminin inkişafı ilə bağlı iqtisadi fəaliyyətin digər sahələrində həyata keçirilən tədbirlər arasında əlaqə;
- idman turizminin fərdi, qrup və komanda səviyyəsində inkişafının təşviqi;
- idman turizminin maddi bazasının inkişafının və bu sahədə əməkdaşlığın dəstəklənməsi;
- elmi-metodiki təminat;
- idman turizminə dair müxtəlif seminar və konfransların keçirilməsi;
- beynəlxalq səviyyəli yarışlarda, seminar və konfranslarda iştirak etmək;
- idman turizminə dair informasiya və texnologiya mübadiləsi;
- reklamın tətbiqi.

Respublikanın turizm ölkəsi kimi imicinin yüksəlməsində reklaminformasiya təbliğatının rolu əvəzsizdir. İdman turizmində reklam aşağıdakı məqsədlərə xidmət etməlidir:

- informativ məqsədlər – idman turizmi haqqında məlumatın təqdimi, idman turizminin növlərinin imicinin, onların insan fəaliyyətində rolu haqqında təsəvvürlərin yaradılması və ya dəyişdirilməsi;
- inandırma – fəal həyat tərzinin və asudə vaxtın səmərəli təşkilində idman turizminin rolu;
- yada salma – yüksək idman nailiyyətləri qazanmaq, sağlamlığı möhkəmləndirmək.

Müasir mərhələdə respublikada idman turizminin rastlaşdığı problemlər əsasən yeni şəraitlə bağlıdır. Bəzi problemlər idman turizmi sahəsində elmi, nəzəri, metodoloji məsələlərin həllinə zəif yanaşma ilə əlaqədardır [1, 2, 5].

Aparılan araşdırmalar göstərir ki, idman turizmi turizm sənayesinin təşkilində strateji əhəmiyyətə malik olmaqla regionların rəqabət qabiliyyətini artırır və dayanıqlı inkişafına töhfə verir. Onun inkişafının aktuallığı qlobal turizm bazarındakı dəyişən tələbat, sağlam həyat tərzinə yönəlmiş meyllər və iqtisadi diversifikasiya zərurəti ilə izah olunur [1, 4]. Bu səbəbdən idman turizmi gələcək turizm siyasətlərinin prioritet istiqamətlərindən biri kimi nəzərdən keçirilməlidir.

İdman turizmi asudə vaxtın səmərəli keçirilməsi üçün effektiv vasitədir. İdman turizm növləri :

- ✓ Piyada turizmi;
- ✓ Xizək turizmi;
- ✓ Dağ-piyada turizmi;
- ✓ Su turizmi;
- ✓ Speleoturizm;
- ✓ Yelkən turizmi;
- ✓ Hərəkət vasitələrilə (velosiped, at, it, avtomoto) turizmlər;
- ✓ Kombinasiyalı turizm;
- ✓ Motosiklet turizmi- asudə vaxtın əyləncəli və öyrədici keçməsində təsiri olduqca yüksəkdir.

Turizm sahəsinin iqtisadi təsirə malik olması onun növ və istiqamətindən də, asılıdır. Ölkəmizdə inkişaf potensialı olan turizm növlərindən biri də idman turizmidir [1, 4, 6].

İdman turizminin ictimai təsirindən bəhs edərkən onun humanitar əhəmiyyətini də, xüsusilə vurğulamalıyam. İdman turizminin əsas funksiyası-şəxsiyyətin formalaşması və hərtərəfli və harmonik inkişafını təmin etməkdir. İdman turizmi şəxsiyyətin dünya görünüşü, vətənpərvərlik, fəal öyrənmə, yaradıcılığa fəal və şüurlu münasibət, inam, motiv və marağın formalaşdırılmasını təmin edir. Şəxsiyyətinin harmonik inkişafı üçün mənəvi və fiziki cəhətdən onu tərbiyə edir: İdman turizmi insanlarda komanda ruhunu, dostluq və yoldaşlıq münasibətini, müstəqillik, qarşılıqlı yardım, digər insanlarla qarşılıqlı əlaqə, ünsiyyət bacarıqlarını tərbiyə edir; Müsbət motivasiyanın yaranmasına səbəb olur; İdman turizmi vətənpərvərlik tərbiyəsinin əsas vasitələrindən hesab edilir. Çünki, vətənpərvərlik tərbiyəsinin vasitələrindən biri də turizm və diyarşünaslıq fəaliyyətidir [2, 6].

Turizm Sənayesinin təşkilində İdman Turizminin rolu. Turizm sənayesi nəqliyyat, yerləşdirmə, qida xidməti, əyləncə və informasiya sistemlərinin inteqrasiyasını tələb edən kompleks struktur kimi fəaliyyət göstərir. İdman turizmi bu strukturda:

- yeni bazar seqmentlərinin formalaşmasına,
- turizm mövsümünün uzadılmasına,
- xidmət keyfiyyətinin yüksəldilməsinə,
- investisiya cəlbediciliyinin artmasına təkan verir.

Beynəlxalq təcrübə göstərir ki, iri idman tədbirlərinin təşkili regionların brendləşdirilməsi və beynəlxalq tanınmasının artırılmasında mühüm alətə çevrilir.

ƏDƏBİYYAT

1. Salmanova N.B, İsaqova S.İ., Qarayeva S.Q., Məmmədov Y.B., Bağırov V.M İdman turizminin nəzəriyyəsi və metodikası. Dərslik Müəllim Nəşriyyatı, Bakı., 2024, 123 s.
2. Baxşıyev, E. Ə. Dünyada idman turizminin inkişafının təhlili. Elmi Araşdırmalar, 2023, 3(1), 110-124 s.
3. Çobanova, N. M. İdman turizmi anlayışı, onun mahiyyəti və xüsusiyyətləri. European Research Materials, 2023, 10(7), 78-86 s.
4. Ibrahimli, İ. A. Social, Economic and Humanitarian Significance of Sports Tourism. Scientific News of Academy of Physical Education and Sport, 2022,18(1), 45-60 s.
5. Qurbanov F.İ. Azərbaycanda turizmin inkişaf problemləri. Bakı, 2007, 80 s.
6. Salmanova N.B.. Məmmədov Y.B., Tağıyev F.R. İdman turizmi. Bakı, "Araz", 2015

CURRENT PROBLEMS OF SPORTS TOURISM DEVELOPMENT IN THE ORGANIZATION OF THE TOURISM INDUSTRY

Hokuma Eyvaz qizi Mammadova
hokuma.mammadova@sport.edu.az
Tarlan Nasir qizi Mammadova
tarlan.mammadova@sport.edu.az
Azerbaijan Sports Academy

In modern times, the tourism industry is considered one of the main leading sectors of the economy in the whole world, including our country. In this regard, tourism infrastructure currently has many socio-economic and cultural characteristics as an object of management. Tourism plays a major role in people's health, efficient use of leisure time, economic growth, and affects the social development of regions. Over the years since the acquisition of state independence, the territory of the Republic of Azerbaijan, which has rich nature and unique monuments, has entered famous international tourist routes, and our country has become a member of the global tourism family. The social, economic, and humanitarian importance of sports tourism plays

Key words: sports tourism, tourism industry, regional development, active recreation, economic development, regional development, infrastructure, international experience.

REGİONLARDA TURİZMİN İDARƏ EDİLMƏSİ MƏSƏLƏLƏRİ

Yusif Əbülfət oğlu Hümbətov
humbetov-1964@mail.ru
Rüfanə Yusif qızı Hümbətova
Azərbaycan Texnologiya Universiteti

Ölkəmizin yerləşdiyi coğrafi mövqeyə və mövcud potensiala uyğun olaraq turizm təşkilatlarının yerləşdirilməsi və düzgün idarə edilməsi vacib məsələdir. Bu baxımdan regionlarda turizm potensialına uyğun turizm növlərinin inkişafının təmin edilməsi və təşkilati məsələlər aktuallıq kəsb edir.

Turizmin inkişafı ölkənin sosial, mədəni, iqtisadi və digər sahələrinə təsir göstərməklə, region əhalisinin məşğulluğunun və rifah halının yüksəldilməsinə təsir göstərir. Bu təsir əhali gəlirlərinin bir hissəsinin turizm sektorundan əldə edilmə-sində, ölkənin bölgələrinin inkişafında multiplikator effekti yaradır.

Regionlarda turizm təşkilatlarının fəaliyyəti infrastrukturların yenilənməsinə, sahəyə cəlb olunan investisiyalar bu sahə ilə əlaqəli olan kənd təsərrüfatının, yüngül sənayenin, qida sənayesinin, nəqliyyatın, suvenirlərin istehsalı, və s. inkişafına zəmin yaradır. Müstəqillikdən ötən dövr ərzində ölkəmizin regionlarında turizmin inkişafına zəmin yaradacaq turizm təşkilatları yaradılmış, mövcud turizm potensialından istifadə qismən də olsa təmin edilmişdir [6, s 36-42].

Hesab edirik ki, ölkəmizin regionlarında turizm potensialının olmasına və turizmin inkişafı üçün əsas amil olan infrastrukturların (beynəlxalq hava limanları) olmasına baxamayaraq, turist axınının aşağı səviyyədə olması maraq doğurur və elmi araşdırmaların aparılmasına zərurət vardır.

Regionların və təşkilatların yerli imkanlardan istifadədə sərbəst olması təşkilatların müxtəlif növlərinin inkişaf etdirilməsi, ölkənin qanunvericilik sistemində sahibkarlara uyğun şəraitin yaradılması və bu sahənin stimullaşdırılması vacibdir.

Müasir şəraitdə ölkəmizin regionlarında turizm təşkilatlarının yaradılması və fəaliyyətinin genişləndirilməsi, mövcud turizm potensialına uyğun turizm təşkilatlarının yerləşdirilməsi, dövlət və özəl qurumların turizmin idarə edilməsində rolunun artırılması və. s məsələlərdir.

Sahənin inkişafının normativ hüquqi sənədlər, turizm sahəsində aparılan tədqiqat əsərləri, ölkəmizdə fəaliyyət göstərən turizm təşkilatlarının təqdim etdikləri hesabatlar, turizm təşkilatlarının regionlarda təşkili ilə bağlı ölkə Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərar və sərəncamları təşkil edir[1].

Respublikamızda turizm təşkilatlarının fəaiyyətini genişləndirmək üçün bu sahədə mövcud olan müəssisələrin, mərkəzi idarə heyəti ilə birlikdə dövlət və özəl müəssisələrin ideya və təkliflərini nəzərə alaraq, turizm fəaliyyəti ilə məşğul olan şirkət və müəssisələrlə əməkdaşlığın yol xəritəsi yaradılmalı və infrastruktur məsələləri həll edilməlidir.

Azərbaycanda turizm sektorunda təşkilati işlərin sürətləndirilməsinin zəruriliyi, ölkə iqtisadiyyatında turizmin yeri və turizm təşkilatlarının əhəmiyyəti özünü biruzə verməkdədir. Həmçinin təşkilatların inkişaf istiqamətlərinin müəyyən edilməsi, bu sahədə davamlı inkişafa nail olmaqdır. Turizmdə fəaliyyət göstərən təşkilatların fəaliyyətinin yaxşılaşdırılması, dünya standartlarına uyğun xidmətin təmin olunma-sı, turizmin inkişafını sürətləndirir.

Turizm məhsulu və infrastrukturu yaradılandan sonra, turizm məhsulunun fəaliyyətə gətirilməsi və yaxud turizm məshulunun satışına istiqamətlənmiş tədbirlər məcmusu (sərgilər, reklam, yarmarkalarda olmaq, məhsulun satılması üçün turizm məlumat servislərinin yaradılması, bukletlərin, braşuraların, kataloqların və s. çap etdirilməsi) gerçəkləşdirilir. Buna görə turizm fəaliyyəti dövlət tərəfindən tənzimlənməlidir.

Ölkədə infrastrukturların keyfiyyətinin yüksəldilməsi üçün şəhərlərdə mövcud strukturlar yenilənməli, ümumilikdə ölkə daxilində nəqliyyatın maneəsiz fəaliyyəti təmin edilməlidir. Turistlərin sərbəst hərəkət etmələri üçün istiqamətləndirmə və məlumatlandırma, informasiya və istiqamət stendlərinin sayını artırılmalıdır. Turistik yerləri, abidələri və s. tanıdan yorucu olmayan məlumatlandırıcı kitablar və ətraflı şəkildə şəhərlər və bölgələrin xəritələri, broşuralar hazırlanmalıdır.

Hesab edirik ki, ölkəmizdə sərhəd-buraxılış məntəqələrində vizaların verilmə-sində bir sıra yeniliklərin tətbiq edilməsi, viza formalarının birbaşa ölkəyə giriş məntəqələrindəki köşklərdə doldurulması turizmin inkişafına müsbət təsir göstərən amillərdəndir. Həmçinin viza üzrə özünə xidmət köşklərinin quraşdırılması aidiyyəti dövlət qurumları tərəfindən quraşdırılaraq innovativ metodların tətbiqi, ödənişlərin kredit kartı vasitəsilə qəbulunun həyata keçirilməsi məqsədəuyğun olardı.

Azərbaycanda turizmə dövlət səviyyəsində göstərilən diqqətin bariz nümunəsi olaraq Prezident İlham Əliyevin 2018-ci ildə Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsinin həyata keçirilməsi məqsədilə Dövlət Turizm Agentliyi yaradılmışdır. Agentlik turizm sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi, turizm sahəsində dövlət tənzimləməsi, dövlət nəzarəti və əlaqələndirməni təmin edir. Həmçinin turizmin inkişafında dövlət orqanlarının, müəssisə və təşkilatların, habelə fiziki və hüquqi şəxslərin, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəlini tənzimləyir. Agentlik qoruqlardan məqsədyönlü istifadənin təşkili, milli kulinariya nümunələrinin qorunması və təbliğinin həyata keçirilməsi fəaliyyət göstərilir.

Hazırda Agentliyin təşəbbüsü ilə hazırlanmış və həyata keçirilməkdə olan 2023-2026-cı illəri əhatə edən turizmlə bağlı inkişaf strategiyası, bölgələrdə Dövlət Turizm Agentliyinin və

Turizm Bürosunun (ATB) yeni inzibati strukturunun yaradılması ilə yanaşı, bir sıra layihələrin həyata keçirilməsi işləri davam etdirilir [4, s.52-56].

Hazırda ölkəmizdə fəaliyyət göstərən Dövlət Turizm Agentliyi məhz bu sahənin idarə edilməsi və tənzimlənməsi məsələlərini həyata keçirməkdədir. Dövlət Turizm Agentliyində nəqliyyat və getmə gəlmə komitələri fəaliyyət göstərir. Həmin komitə üzvləri bu istiqamətdə olan problemləri araşdırır və həlli üçün tədbirlərin həyata keçirilməsi üçün qərarlar qəbul edirlər. Turizm Agentliyinin xaricdə (Dubay, Ukraniya və Malaziya) nümayəndəlikləri yaradılmışdır.

Agentliyin xətti ilə Sağlamlıq və Termal Turizm assosasiyası yaradılmışdır. Assosiyanın məqsədi dünyada gəlir gətirən sahə olan sağlamlıq turizminin inkişaf etdirilməsidir. Hazırda bu istiqamətdə ölkəmizdə mövcud müəssisələr SPA-velnes müalicə-sağlamlıq, istirahət-sağlamlıq xidmətləri göstərirlər. Naftalanda Gashaltı Health Hotel, Chinar Hotel Spa, GarabagSpa and Resort, Lankaran Springs, Wellness Resort və Qalaaltı Hotel and Spa və s. müasir sağlamlıq mərkəzləri ölkə əhalisinə və xaricdən ölkəmizə sağlamlığını bərpa etmək gələn turistlərə istirahət və sağlamlıq xidmətlərini uğurla təqdim edirlər.

Turizm təşkilatları bir çox sahələrdə olduğu kimi sağlamlıq turizminin inkişafı istiqamətində də kurortların inkişafı üzrə qəbul edilən Dövlət Proqramlarının həyata keçirilməsi hesabına yaxın gələcəkdə turizm-kurort sahələrinin planlı surətdə inkişaf etdirilməsini təmin etməyi bir vəzifə olaraq həyata keçirməyə çalışırlar[2].

Turizmin regionlarda idarə olunması və tənzimlənməsi üçün Azərbaycanda struktur bölmələr - regional turizm idarələri yaradılmışdır. Artıq 2018-ci ildən turizm sahəsində aparılan islahatların nəticəsi olaraq Azərbaycan Dövlət Turizm Agentliyi və regionlarda onun tabeliyində fəaliyyət göstərən Regional Turizm İdarələri yaradılmışdır.

Respublikamızın regionlarının təbii şəraiti və ərazi quruluşlarına, əhalinin məskunlaşmasına görə fərqlidirlər və hər bir regionun özünəməxsus tarixi inkişafı vardır. Bu baxımdan ölkəmizdə hər hansı bir məhsulun istehsalı və xidmət sahəsinin inkişaf etdirilməsi müəyyən ərazilərin strukturuna uyğun olmalıdır. Regionların xüsusiyyətlərinə uyğun olaraq ərazi-əmək bölgüsü həyata keçirilir[6, s 102-104].

Yeni yaradılan Regional Turizm İdarələri və digər köməkçi infrastrukturlar hesabına regionların turizm potensialının araşdırılması və onlardan səmərəli istifadə üçün geniş imkanlar vardır. Regional idarələr bölgələrin turizm potensialını araşdırnalı, statistik məlumatları toplamalı, əldə edilən məlumatları təhlil etməli və müvafiq turizm müəssisələri təşkilinə qərar verməlidirlər.

Turizm Regional İdarələri tərəfindən bölgələrdə yerləşən turizm təşkilatları, turizm sahəsində fəaliyyət göstərən fərdi sahibkarlar, ailə-kəndli təsərrüfatları və qanunvericiyə uyğun yaradılmış müxtəlif mülkiyyət formalı qurmların statistik məlumat bazası yaradılması və marketinqin təşkili istiqamətində informasiyaların əldə olunmasına yardım göstərmələri həyata keçirmələri təşkil olunmalıdır.

Dövlət Turizm Agentliyinin verdiyi informasiyaya görə hazırda ölkənin regionlarında turizm sahəsinin inkişafı ilə bağlı bir sıra strategiya və layihələr hazırlanıb həyata keçirilir. Turizm infrastrukturunun yaradılması və yeni turizm məhsullarının hazırlanması bu gün regionların sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, Bakı 2016, 98 səh.
2. Azərbaycan Respublikası Turizm haqqında qanun 27 dekabr 2021-ci il
3. Bilalov B.Ə Turizm fəaliyyətinin tənzimlənməsi Bakı-2006
4. Həsənov A.N Azərbaycanda regional turizmin inkişaf problemləri, perspektivləri Bakı 2008.368 s
5. Hümbətov Y.Ə, Kərimov F.C, Qapaqov.V.F, Cavadzadə.X.N Turizm sənayesinin təşkili.- Bakı: Avropa, 2021.- 333 s.

6. Hümbətov.Y.Ə, Kərimov.F.C, M.N.Kərimova, A.A.Həsənova, G.Q.Hüseynova Azərbaycanda turizm sektoru Bakı 2023 Optimist MMC Avropa nəşriyyatı 264 səh
7. Hümbətov Y.Ə Turizm siyasəti və planlaşdırılması. Bakı: Avropa, 2024.- 266 səh

ISSUES OF TOURISM MANAGEMENT IN THE REGIONS

Yusif Abulfat oglu Humbetov
humbetov-1964@mail.ru
Rufana Yusif gizi Humbetova
Azerbaijan Technological University

In Azerbaijan, the implementation of organizational work in a comprehensive manner is an important issue in tourism management. The effective activity of organizations operating in tourism is considered the main factor that can create a basis for the development of tourism in the regions. For the implementation of the above, the presence of tourism and recreational resources, the availability of modern infrastructure, and the training of educated and professional personnel are of particular importance.

Today, thanks to the special care of the country's leadership, a number of strategies and projects related to the development of the tourism sector in the regions of the country are being developed and implemented by the State Tourism Agency, which was established to regulate the development of tourism, and other organizations.

Keywords: tourism management, infrastructures, complex measures, industry-based tourism

ŞƏRQİ ZƏNGƏZUR ƏRAZİSİNİN İDMAN POTENSİALI

İbrahimli Arif Məmmədqulu oğlu
Elmir Aydın oğlu Əliyev
Mrelmir915@gmail.com
Azərbaycan İdman Akademiyası

Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın cənub-qərbində yerləşən və Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarını əhatə edən strateji əhəmiyyətli bir regiondur. Bu ərazi dağlıq relyefi, zəngin təbii resursları və tarixi-mədəni irsi ilə idman sahəsinin inkişafı üçün böyük potensiala malikdir. Regionun ərazisi təxminən 7,500 kvadrat kilometrdir və relyefi dəniz səviyyəsindən 500 metrdən 3,900 metrə qədər dəyişir, bu da müxtəlif idman növləri üçün ideal şərait yaradır. Son illərdə regionun işğaldan azad olunması və bərpa prosesləri idman infrastrukturunun qurulmasını da sürətləndirmişdir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci ildə imzaladığı fərmanla yaradılan Şərqi Zəngəzur iqtisadi rayonu, dövlətin "Böyük Qayıdış" proqramı çərçivəsində inkişaf etdirilir. Bu proqramda idman və turizm prioritet sahələrdəndir, çünki regionun təbii gözəlliyi və iqlimi idmanla bağlı beynəlxalq layihələrə imkan verir. Bu məqalədə Şərqi Zəngəzurun idman potensialı, mövcud imkanlar və gələcək perspektivlər təhlil olunacaq, xüsusilə regionun relyefi, iqlimi və infrastruktur inkişafı nəzərə alınaraq.

Regionun relyefi idman növlərinin müxtəlifliyini təmin edir. Kəlbəcər və Laçın rayonlarının yüksək dağ massivləri (Murovdağ, Qapıçıq dağları) qış idmanı üçün ideal şərait yaradır. Murovdağ silsiləsi 3,000 metrdən yuxarı zirvələrlə qar örtüyünün 4-6 ay saxlanmasını təmin edir, bu da kayak, snowboard və alpinizm kimi növlər inkişaf etdirilə bilər. Məsələn, İstisu mineral bulaqları ətrafında sağlamlıq turizmi ilə birləşdirilmiş idman mərkəzləri qurmaq mümkündür, burada qış idmanı ilə yanaşı, spa və reabilitasiya proqramları təklif oluna bilər [1]. Kəlbəcər rayonunda İstisu yaylası və Aşağı İstisu qaynaqları ətrafında planlaşdırılan komplekslər, Avropanın Alp dağları kimi qış turizmi mərkəzlərinə bənzər potensiala malikdir. Laçın rayonunda isə Bazardağ və Qırxqız dağları trekking və dağ velosipedi üçün uyğundur, burada ənənəvi marşrutlar yenidən qurulur. Zəngilan və Qubadlı rayonlarının çay vadiləri isə trekking, velosiped idmanı və raftinq üçün

uyğundur. Həkəri və Oxçu çayları boyunca uzanan vadilər, 20-30 kilometrlik marşrutlar yaradaraq, beynəlxalq idman turları təşkil etmək olar. Məsələn, Zəngilan rayonunda Araz çayı sahillərində raftinq trasları, su idmanı mərkəzləri planlaşdırılır ki, bu da regionun ekoturizm potensialını artırır [2]. Cəbrayıl rayonunda düzənliklər futbol, voleybol və atletika kimi komanda idman növləri üçün potensial təklif edir. Burada Araz vadisinin düzənlikləri geniş idman meydançaları və stadionlar üçün uyğundur, xüsusilə gənc nəsillərin idman tərbiyəsi üçün. Regionun iqlimi də idman üçün əlverişlidir: yayda sərin dağ havası (temperatur 15-25 dərəcə), qışda qar örtüyü ilə dörd mövsüm idman fəaliyyətləri mümkün olur. İqlim dəyişikliyinə baxmayaraq, regionun orta illik yağıntısı 600-800 mm-dir ki, bu da qış idmanını dəstəkləyir [3]. Bu potensial, regionu Azərbaycanın idman turizmi mərkəzinə çevirə bilər, xüsusilə Zəngəzur dəhlizinin açılması ilə beynəlxalq idmançılar üçün əlçatan olacaq.

Nəticədə, Şərqi Zəngəzur Azərbaycanın idman mərkəzlərindən birinə çevrilə bilər, bu da əhalinin sağlamlığını gücləndirəcək və iqtisadi artıma səbəb olacaq [12]. Regionun inkişafı "Azərbaycan 2030" strategiyası ilə uyğunlaşır, yerli əhalinin idmanla məşğul olmasını artıracaq və beynəlxalq investisiyaları cəlb edəcək.

ƏDƏBİYYAT

1. Dövlət Turizm Agentliyi: Qarabağ və Şərqi Zəngəzurda ekoturizm və mədəni turizmin inkişafı üçün geniş potensial mövcuddur. AZƏRTAC, 2026. https://azertag.az/xeber/dovlet_turizm_agentliyi_qarabag_ve_serqi_zengezurda_ekoturizm_ve_medeni_turizmin_inkisafi_uchun_genis_potensial_movcuddur-3958279
2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı və sosial-iqtisadi inkişaf perspektivləri. Khazar University, 2022. http://dspace.khazar.org/jspui/bitstream/20.500.12323/5939/1/Qaraba%C4%9F%20v%C9%99%20%C5%9E%C9%99rqi%20Z%C9%99ng%C9%99zur%20iqtisadi%20rayonlar%C4%B1n%C4%B1n%20turizm%20potensial%C4%B1%20v%C9%99%20sosial-iqtisadi%20inki%C5%9Faf%20perspektivl%C9%99ri.pdf
3. Qarabağ və Şərqi Zəngəzur yenidən turizm regionuna çevriləcək. "Azərbaycan" qəzeti, 2022. https://azerbaijan-news.az/az/posts/detail/qarabag-ve-serqi-zengezur-yeniden-turizm-regionuna-cevrilecek-1656624902
4. Şərqi Zəngəzur Regional Gənclər və İdman İdarəsi. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, 2023. https://www.mys.gov.az/az/nazirlik/haqqimizda/obyektler/regional-idareler/serqi-zengezur-regional-gencler-ve-idman-idaresi
5. Şərqi Zəngəzur Regional Gənclər və İdman İdarəsi. Facebook, 2024. https://www.facebook.com/shzengezurgii
6. Şərqi Zəngəzur iqtisadi rayonuna xarici investisiya cəlb etmək olarmı? Report.az, 2022. https://report.az/infrastruktur/serqi-zengezur-iqtisadi-rayonuna-xarici-investisiya-celb-etmek-olarmi
7. Şərqi Zəngəzurda iqtisadi inkişaf üçün böyük potensial var. Demokrat.az, 2023. https://demokrat.az/az/news/84076/serqi-zengezurda-iqtisadi-inkisaf-ucun-boyuk-potensial-var-video

SPORTS POTENTIAL OF EASTERN ZANGAZUR REGION

Ibrahimli Arif Mammadgulu oglu
Aliyev Elmir Aydin oglu
Mrelmir915@gmail.com
Azerbaijan Sports Academy

The East Zangezur economic region offers new opportunities for the development of sports in Azerbaijan. The mountainous terrain is suitable for winter sports, and the valleys are suitable for trekking and rafting. The construction of sports infrastructure in the liberated territories, for example, health centers in Kalbajar and stadiums in Jabrayil,

realizes the potential of the region. As a scientific innovation, analyses show that sports tourism can contribute 4-5% to economic growth. This will strengthen the health of the local population and increase international cooperation.

Keywords: East Zangezur, sports potential, mountain sports, tourism, infrastructure, recovery processes

AZƏRBAYCANDA TURİZM ÜZRƏ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİ: MİLLİ SİSTEM VƏ QLOBAL TƏCRÜBƏLƏRİN SİNTEZİ

Elmir Saleh oğlu Cəfərov [1]
e.cafarov@atu.edu.az
Taleh Asəf oğlu Hüseynov [2]
taleh.huseynov@mdu.edu.az
Azərbaycan Texnologiya Universiteti[1]
Mingəçevir Dövlət Universiteti[2]

XXI əsrdə turizm sənayesi dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sektorlarından biri kimi çıxış edir [5]. BMT-nin Dünya Turizm Təşkilatının (UNWTO) proqnozlarına görə, 2030-cu ilə qədər turizm sektorunda 370 milyon yeni iş yeri yaradılacaq [5]. Bu kontekstdə insan resurslarının keyfiyyətli hazırlanması strateji əhəmiyyət kəsb edir. İnsan resurslarının idarə edilməsi (HR) nəzəriyyəsi çərçivəsində turizm sektoru xüsusi diqqət tələb edir [3]. Xidmət sənayesi kimi turizmdə "insan faktoru" əsas rol oynayır [4]. Schumpeterin innovasiya nəzəriyyəsi, Porterin rəqabət üstünlükləri konsepsiyası və Human Capital Theory (İnsan Kapitalı Nəzəriyyəsi) turizm HR sisteminin formalaşdırılmasında əsas nəzəri bünövrəni təşkil edir Turizm HR sisteminin effektivliyi üçün üç əsas komponentin harmoniyası zəruridir: təhsil və təlim infrastrukturu, sənaye tələbləri və dövlət siyasəti [1]. Bu "üçbucaq" modelində hər bir tərəf digəri ilə sıx əlaqədə fəaliyyət göstərməlidir [3]. Azərbaycan praktikasında bu üçbucağın tərəfləri arasında koordinasiya yetərincə güclü deyil [4]. Təhsil müəssisələri sənayenin cari tələblərini operativ əks etdirə bilmir, sənaye öz növbəsində təhsil proqramlarının təkmilləşdirilməsində aktiv iştirak etmir, dövlət siyasəti isə əsasən infrastruktur layihələrinə yönəlib, insan resurslarına daha az diqqət yetirir [2].

Orta ixtisas təhsili səviyyəsində vəziyyət daha yaxşıdır, lakin yenə də problemlər mövcuddur [2]. Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi 4 illik, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi 3 illik proqramlar təklif edir [1]. Bakı Dövlət Peşə Təhsil Mərkəzi və Azərbaycan Turizm və Menecment Universitetinin Peşə Təhsil Mərkəzi də fəaliyyət göstərir [3]. Lakin bu müəssisələrin sayı ölkə əhalisinin və turizm potensialının həcminə nəzərən çox aşağıdır [4]. Peşə təhsili müəssisələrində təlim bazası köhnəlmiş, praktiki təlim üçün laboratoriyalar və simulyasiya mərkəzləri çatışmır [2]. Müəllim heyətinin böyük əksəriyyəti praktik təcrübədən məhrumdur, yalnız nəzəri biliklərə əsaslanır [1]. Ali təhsil səviyyəsində Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) yeganə ixtisaslaşmış dövlət ali təhsil müəssisəsidir [3]. Türkiyənin turizm HR sistemi dövlət və özəl sektorun sıx əməkdaşlığına əsaslanır [1]. Türkiyədə 50-dən çox turizm fakültəsi və Peşə təhsil mərkəzləri fəaliyyət göstərir [2]. Peşə təhsili sistemində geniş peşə liseyi şəbəkəsi mövcuddur [3]. Xüsusilə Falez Peşə və Texniki Liseyi kimi müəssisələr "işdə öyrənmə" (dual education) modeli ilə fəaliyyət göstərir [4]. Bu modeldə tələbələr 3 gün müəssisədə, 2 gün məktəbdə təhsil alır [1]. Güclü sənaye əlaqələri otel şəbəkələri ilə birbaşa müqavilələr əsasında təşkil olunur [3]. Beynəlxalq sertifikatlaşdırma baxımından American Hotel & Lodging Educational Institute (AHLEI) proqramları geniş tətbiq edilir [4]. Türkiyə modelinin əsas üstünlüyü təhsil-sənaye inteqrasiyasının yüksək səviyyədə olmasıdır [1].

Azərbaycan turizm insan resursları sistemi inkişaf mərhələsindədir [1]. Milli sistem qlobal standartlarla üz-üzə gəldikdə bir sıra boşluqlar üzə çıxır [2]. Lakin bu boşluqlar həm də imkanlar deməkdir [3]. Təhsil strukturunun təkmilləşdirilməsi baxımından Türkiyənin peşə liseyi

modelinin adaptasiyası, Almaniyanın tətbiqi elmlər universiteti konsepsiyasının tətbiqi, özəl universitetlərdə turizm fakültələrinin açılması üçün dövlət dəstəyi və regional təhsil mərkəzlərinin yaradılması vacibdir [2]. Sənaye inteqrasiyasının gücləndirilməsi üçün "işdə öyrənmə" modelinin tətbiqi, sənaye müəllimləri institutunun yaradılması, daimi əməkdaşlıq müqavilələri və vahid informasiya sistemi tövsiyə olunur [3].

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). Turizm statistik göstəriciləri 2023. https://stat.gov.az
2. Becker, G. S. (1964). Human Capital: A Theoretical and Empirical Analysis. University of Chicago Press.
3. Porter, M. E. (1990). The Competitive Advantage of Nations. Free Press.
4. Schumpeter, J. A. (1934). The Theory of Economic Development. Harvard University Press.

MANAGEMENT OF HUMAN RESOURCES IN TOURISM IN AZERBAIJAN: SYNTHESIS OF NATIONAL SYSTEM AND GLOBAL EXPERIENCES

Elmir Saleh Jafarov[1]
e.cafarov@atu.edu.az
Taleh Asef Huseynov[2]
taleh.huseynov@mdu.edu.az
Azerbaijan Technological University[1]
Mingachevir State University[2]

The article examines the theoretical and practical aspects of human resource management in the tourism sector of the Republic of Azerbaijan. The structure of the national education system, vocational training and the role of higher education institutions are analyzed, and comparisons are made with global experiences, particularly the Turkish, German and Austrian models. The research shows that the Azerbaijani tourism HR system has development potential in terms of institutional diversity, practical training infrastructure and industry relations. The creation of an integrated human resource management model through the synthesis of national and global experiences is recommended.

Keywords: human resources, tourism education, personnel training, national system, global experience, synthesis, Azerbaijan

ИСТОРИЯ РАЗВИТИЯ ТУРИЗМА В КАРАБАХЕ ПОСЛЕ ОСВОБОЖДЕНИЯ ОТ ОККУПАЦИИ

Ламия Байрамова
Гусейн Аскаров
l.bayramova@atu.edu.az
Азербайджанский Технологический Университет

Карабах расположен в восточной части Малого Кавказа и Обладает значительным туристско-рекреационным потенциалом.Средняя высота террито-рии составляет около 2000 метров над уров-нем моря. Регион характеризуется горным рельефом,включающим Карабахский и Муровдагский хребты, где нахо-дится одна из высочай-ших вершин Азербайджана — Гямышдаг (3724 м). Мягкий умеренный климат со среднегодовой температурой около +10,5 °C создаёт благо-приятные условия для круглогодичного туризма.Наличие рек, ущелий, водопадов и минеральных источников усиливает природную привле-кательность региона и расширяет спектр туристических услуг.

Биоразнообразие Карабаха формирует устойчивую основу для раз-вития экологического туризма. В регионе насчитывается около 2000 видов растений,

включая лесные массивы, субальпийские и альпий-ские луга. Фауна представлена бурым медведем, рысью, волком, каба-ном, а также редкими видами животных. Символом региона является карабахская лошадь — уникальная аборигенная порода, имеющая многовековую историю.Сохранение природных экосистем и рациональное использование ресурсов создают предпосылки для формирования устойчивых туристических маршрутов.Современное развитие региона позволяет выделить несколько ключевых видов туризма, которые уже функционируют либо обладают высоким потенциалом роста.

Культурно-познавательный туризм занимает ведущую позицию. Восстановление города Шуша, реставрация Шушинской крепости XVIII века, мечети Юхары Говхар-ага, мавзолея Молла Панах Вагифа, дворца Карабахских ханов и других памятников формируют устойчивый интерес со стороны внутренних и зарубежных туристов. Провозглашение Шуши культурной столицей тюркского мира усилило её международное значение.

Освобожденные от оккупации районы богаты природными ресурсами: Эти районы имеют достаточно богатые водные ресур-сы. Эти районы также имеют благодатные условия для развития термального туризма.Наличие целебных вод на освобожденных от оккупации территориях свидетельствует о том, что это место имеет большой потенциал в плане лечебно-оздоровительного туризма. Не-случайно санатории в тех краях когда-то были целебными места-ми, куда приезжали люди, страдающие различными заболеваниями. С другой стороны, одно из древнейших в мире поселений человека - Азыхская пещера и другие исторические памятники повышают ту-ристическую привлекательность освобожденных территорий.В этом смысле есть специалисты,утверждающие,что туризм в Освобожденных районах имеет большие возможности по сравнению с другими районами.Территория этого региона расположена на высоте 2000 метров над уровнем моря, в долине реки Тартар, в горах Малого Кавказа, имеет богатую флору и фауну, лечебно важные термальные воды (Горячие воды), исторические памятники. «Например, в Кельба-джаре находится монастырский комплекс под названием «Хотавенг» или «Худавенг», т.е. «Храм Бога». Этот объект был религиозным центром албанского княжества Хачин, которое образовалось в горной части Карабаха после распада Кавказской Албании (в IX в.). Другими словами, регион всегда вызывал интерес у туристов благодаря своим природным ресурсам и истории, и так будет и в будущем. Также Лачинский район обладает большим туристическим потенциалом. Он богат курганами, относящимися к древнему бронзовому веку, и привлекателен для туристов.

Горный и активный туризм развивается благодаря природному рельефу. Возможности треккинга, альпинизма, конных походов, пеших маршрутов и приключенческих туров создают основу для формирования специализированных туристических программ. Улучшение транспортной доступности — открытие аэропортов в Физули и Зангилане, строительство автомагистралей — значительно расширило возможности посещения высокогорных зон. Кроме того, проектирование и строительство автомобильнойдороги Ахмедбейли-Физули-Шуша на основании указа президента сделает Физули, Ходжавенд и Шушу доступными для туристов. Учитывая широкий туристический потенциал освобожденных от оккупации территорий, Государственным агентством по туризму были представлены проекты однодневныхтуристических маршрутов «Йолумуз Агдама» и «Физули-Ходжавенд». На основании проектного документа в освобожденной части Агдамского района на основе сотрудничества со Специальной делегацией Президента проведены необходимые инфраструктурные работы, связанные с организацией

туристического маршрута «Йолумуз Агдам». Предварительную концепцию развития архитектуры и туризма замка Шахбулаг подготовило Государственное агентство по туризму. ния, что расширяет спектр туристических мотивов посещения региона.

Экологический туризм базируется на сохранении природных экосистем и рациональном использовании природных ресурсов. Организация природных маршрутов, наблюдение за флорой и фауной, экологические экскурсии и образовательные программы способствуют формированию устойчивой модели туризма.

Конный туризм представляет особое направление, связанное с исторической ролью карабахской лошади. Формирование тематических маршрутов и этнокультурных программ может стать уникальным туристическим брендом региона.

Агро- и сельский туризм обладает перспективами развития в сельских населённых пунктах, где возможно знакомство туристов с традиционным укладом жизни, национальной кухней, ремёслами и сельскохозяйственным производством.

Религиозный туризм формируется вокруг восстановленных мечетей, мавзолеев и других объектов духовного значе Масштабные государственные инвестиции в рамках программы восстановления способствуют формированию устойчивой экономической модели региона. Создание специального инвестиционного режима, деятельность Агентства по развитию Карабаха и реализация концепции «зелёной экономики» повышают инвестиционную привлекательность территории.

В Карабахе имеются широкие возможности для развития различных видов туризма. Неслучайно в своих выступлениях Президент Ильхам Алиев особо упоминает туризм в качестве основных направлений деятельности на освобожденных землях и подчеркивает богатый туристический потенциал Карабаха и Восточного Зангезура: «Этот потенциал позволяет нам превратить его в одно из Основные Культурно-исторические туристические зоны Азербайджана. Хотя наши памятники были разрушены, после их восстановления можно будет организовать туры по этим местам».

THE HISTORY OF TOURISM DEVELOPMENT IN KARABAKH AFTER LIBERATION FROM OCCUPATION

Lamiya Bayramova
Huseyn Askarov
l.bayramova@atu.edu.az
Azerbaijan Technological University

The liberation of the Karabakh region of Azerbaijan during the Second Karabakh War in 2020 marked a critical stage in the socio-economic and infrastructural revival of the territory, which had been under occupation for nearly thirty years. Since 2021, the active process of restoring and develo-ping Karabakh into a promising tourism cluster has begun. The purpose of the study is to analyze the region's geographic, natural, historical, cultural, and economic potential, as well as to assess the dynamics of tourism development.

Keywords: Karabakh, Shusha,tourism, Caucasus, mountain tourism, Second Karabakh War

AZƏRBAYCAN RESPUBLİKASI TURİZM SİYASƏTİNİN ANALİZİ: 2020-2025-Cİ İLLƏR

Tural Tahir oğlu Ələkbərov
turalekbarov@gmail.com
Amin Rövşən oğlu Əsgərov
aminsgerov30@gmail.com
Azərbyacan Texnologiya Universiteti

2020-ci ildən bu yana Azərbaycanın turizm sahəsi çox mühüm bir yoldan keçib. Bu dövrü iki əsas hadisə formalaşdırıb: pandemiya və torpaqlarımızın azad olunması. Əvvəlcə, dövlət pandemiya səbəbindən çətinlik çəkən otellərə və turizm şirkətlərinə vergi güzəştləri və maliyyə yardımları edərək bu sahəni qoruyub saxladı. Post-pandemiya və post Muharibe dövründə turizm. 2020-ci il Azərbaycan iqtisadiyyatı üçün "böyük sınaqlar ili" oldu. Bir tərəfdən qlobal COVID-19 pandemiyasının gətirdiyi tam durğunluq, digər tərəfdən isə Vətən Müharibəsinin yaratdığı yeni geosiyasi reallıqlar dövlətin turizm strategiyasına yenidən baxmasını tələb etdi. Dövlət turizm siyasətinin effektivliyi bu dövrdə üç əsas istiqamət üzrə qiymətləndirilir. Sektorun böhranlı dövrdə çöküşünün qarşısını almaq, yeni azad edilmiş ərazilərin ölkənin iqtisadi dövriyyəsinə qatılması, post-pandemiya dövründə xarici bazarlarda Azərbaycanın "təhlükəsiz və cəlbedici destinasiya" imicini bərpa etmək.

Tədqiqat göstərir ki, 2020-ci ildə turist axınının 70%-dən çox azalması sektor üçün fəlakətli idi. Lakin dövlətin çevik siyasəti sayəsində kütləvi iflasların qarşısı alındı: Turizm müəssisələrinə əmlak və torpaq vergisindən azad olunma imkanı yaradıldı. Bank kreditləri üzrə dövlət zəmanətli subsidiyalar verildi. Sektorun peşəkar kadr bazasını qorumaq üçün mehmanxana işçilərinin əmək haqlarının bir hissəsi birbaşa dövlət tərəfindən ödənildi. Sərhədlərin bağlı olması "yerli turist" anlayışını dəyişdi. Dövlət Turizm Agentliyinin təbliğat kampaniyaları nəticəsində Azərbaycan vətəndaşları kənd turizminə (agro-turizm) maraq göstərməyə başladılar. Bu, regionlardakı kiçik ailə bizneslərinin (Guest House) formalaşmasına təkan verdi.

2020-ci il 10 noyabr bəyanatından sonra Azərbaycanın dövlət turizm siyasətinin ağırlıq mərkəzi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına doğru sürüşmüşdür. Bu ərazilərin turizm dövriyyəsinə daxil edilməsi sadəcə iqtisadi deyil, həm də siyasi və mənəvi əhəmiyyət kəsb edir. Alıqul Ağayevin tədqiqatında bu proses "Turizmin Reinteqrasiya Modeli" kimi xarakterizə olunur.

Strateji planlaşdırma və "smart tourism" (ağıllı turizm) konsepti. Dövlət bu ərazilərdə turizmi sıfırdan deyil, ən müasir texnoloji trendlərlə qurur. Bu siyasətin effektivliyi aşağıdakı innovativ yanaşmalarla ölçülür. Şuşa və Ağdam kimi şəhərlərdə turistlərin rahatlığı üçün vahid rəqəmsal platformalar yaradılır. Bura turistlərin marşrutlarını planlaşdıran AI bələdçilər və ərazinin tarixi keçmişini virtual reallıq (VR) vasitəsilə göstərən sistemlər daxildir. "Yaşıl Enerji" zonası elan edilmiş bu ərazilərdə turizm obyektlərinin (otellər, istirahət mərkəzləri) günəş və külək enerjisi ilə təmin edilməsi prioritetdir. Bu, Azərbaycanın beynəlxalq "Eko-turizm" reytinqlərində mövqeyini gücləndirir. [3]

Şuşa şəhəri dövlət siyasətində Azərbaycanın "vizit kartı" kimi müəyyən edilmişdir. "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı və Vaqif Poeziya Günlərinin bərpası "Event Tourism" (Tədbir turizmi) istiqamətində atılan ən effektiv addımlardır. 2024-cü ildə Şuşanın "İslam Dünyasının Mədəniyyət Paytaxtı" olması xarici turist axını üçün yeni qapılar açmışdır. Tarixi Abidələrin Restavrasiyası: Gövhər Ağa məscidləri, Molla Pənah Vaqifin məqbərəsi və Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpası mədəni irs turizminin fundamentini təşkil edir. [5]

Şərqi Zəngəzur və Qarabağın zəngin termal və mineral su qaynaqları Azərbaycanın regionda "Sağlamlıq mərkəzi" (Health Hub) olmasını hədəfləyir: Kəlbəcər (İstisu): Sovet dövründə məşhur olan "İstisu" sanatoriyasının ən müasir standartlarla yenidən inşası, bura

həm region ölkələrindən, həm də Avropadan turist cəlb etmək potensialına malikdir. Laçın və Şuşa İqlim Kurortları: Meşə massivləri və təmiz hava balneoloji (su ilə müalicə) turizmlə yanaşı, klimatoterapiya imkanlarını da genişləndirir [1].

Turizm siyasətinin effektivliyi birbaşa əlçatanlıqla bağlıdır. 2020-2025-ci illərdə bu istiqamətdə rekord göstəricilər əldə edilib [2].

1. Füzuli beynəlxalq hava limanı: "qarabağın hava qapısı" kimi beynəlxalq uçuşları qəbul edərək turistlərin birbaşa zonaya gəlişini təmin edir.
2. Zəngilan və Laçın hava limanları: bu limanlar strateji olaraq şərqi zəngəzuru beynəlxalq logistik və turistik qovşağa çevirir.
3. Zəfər yolu və tunellər: mürəkkəb coğrafi relyefdə inşa edilən çoxsaylı tunel və körpülər turistlərin təhlükəsiz və sürətli hərəkətini təmin edir.

Maraqlı bir nüans da vurğulayaq ki, işğalın fəsadları (məsələn, "Qafqazın Xirosiması" adlandırılan Ağdam) müəyyən müddət "Dark Tourism" (faciə və dağıntı yerlərinə səfər) obyekti kimi xidmət edir, lakin dövlət siyasəti bunu sürətlə "Zəfər və Dirçəliş turizmi"nə transformasiya edir. İnsanlar dağıntıları deyil, yenidənqurma möcüzəsini görməyə dəvət olunur. 2025-ci ilə qədər olan dövrdə dövlət bu ərazilərdə vergi güzəştləri və subsidiyalar tətbiq etməklə xarici otel zəncirlərini və investorları cəlb etməyi hədəfləyir. Bu, Qarabağı yaxın gələcəkdə Qafqazın ən bahalı və keyfiyyətli turizm destinasiyasına çevirəcəkdir [4].

Dövlət turizm siyasətinin effektivliyi yalnız gələn turistlərin sayı ilə deyil, həm də turizmin ölkə iqtisadiyyatına verdiyi multiplikativ təsirlər, valyuta axını və məşğulluq göstəriciləri ilə ölçülür. 2020-ci ildəki kəskin enişdən sonra 2023–2025-ci illər "V-şəkilli" bərpa və artım dövrü kimi xarakterizə olunur. Dövlət Strategiyasına əsasən, turizmin ÜDM-də payının artırılması əsas hədəfdir. 2020-ci ildə turizmin ÜDM-də payı minimuma (təxminən 1%-ə yaxın) ensə də, 2024-cü ilin yekunları və 2025-ci il proqnozları bu rəqəmin 5-6% diapazonuna qayıtdığını göstərir. Turizm xidmətləri Azərbaycanın qeyri-neft ixracında ən böyük paya malik olan sahələrdən birinə çevrilmişdir. Xarici turistlərin ölkədə xərclədiyi vəsait birbaşa valyuta ehtiyatlarının möhkəmlənməsinə xidmət edir. [7]

Dövlət siyasəti regionlarda otel bazasının genişləndirilməsini stimullaşdırır. Doluluq Səviyyəsi (Occupancy Rate): 2024-cü ildə Bakı otellərində doluluq səviyyəsi pik mövsümlərdə 85-90%-ə çatmışdır. Regionlarda (Qəbələ, Şəki, Quba) isə bu göstərici orta hesabla 60% təşkil edir. Hər mövcud otaq başına düşən gəlir göstəricisi (RevPAR) son 3 ildə inflyasiya dərəcəsini üstələyən artım nümayiş etdirmişdir. Bu, dövlətin turizm infrastrukturuna qoyduğu investisiyaların özünü doğrultduğunu göstərir.

Turizm siyasəti regionlarda işsizliyin azaldılmasında həlledici rol oynayır. 2020–2025-ci illərdə turizm və xidmət sektorunda çalışanların sayı postpandemiya dövrünə nisbətən 25% artmışdır. Regionlarda turizm (xüsusilə kənd turizmi və sənətkarlıq) qadınların və gənclərin əmək bazarına daxil olması üçün əsas kanaldır. "E-viza" və rəqəmsal ödəniş sistemlərinin genişlənməsi kölgə iqtisadiyyatının payını azaldıb. Turistlərin nağdsız ödənişlərinin artması dövlət büdcəsinə vergi daxilolmalarının daha şəffaf və stabil olmasına gətirib çıxarmışdır.

Nəticə. Aparılan təhlillər göstərir ki, 2020–2025-ci illər Azərbaycan turizmi üçün "böhrandan dirçəlişə" keçid dövrü olmuşdur. Pandemiyanın yaratdığı tənəzzül dövlətin çevik vergi və maliyyə dəstəyi mexanizmləri ilə kompensasiya edilmiş, post-müharibə dövründə isə diqqət mərkəzi Qarabağ və Şərqi Zəngəzurun reinteqrasiyasına yönəlmişdir.

Bu dövrün strateji uğuru turizmin sıfırdan "smart" və "yaşıl" texnologiyalarla qurulması, logistik əlçatanlığın (beynəlxalq hava limanları, Zəfər yolu) təmin edilməsi və turizm növlərinin (sağlamlıq, kənd, tədbir turizmi) diversifikasiyasıdır. Nəticə etibarilə, turizmin ÜDM-də payının 5-6%-ə yüksəlməsi və regionlarda məşğulluğun 25% artması, sahənin qeyri-neft iqtisadiyyatının əsas hərəkətverici qüvvəsinə çevrildiyini təsdiq edir [6].

ƏDƏBİYYAT

1. Azərbyacan Respublikasının"2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası".
2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" (Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı).
3. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" (2021).
4. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"
5. "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi haqqında" Sərəncam
6. Dövlət Statistika Komitısi və Azərbaycan Turizm Agentliyinin hesabatları
7. Ələkbərov Tural, Hümbətov Yusif. "Turizm və xarici iqtisadi əlaqələr" Dərs vəsiaiti. 2025

ANALYSIS OF THE TOURISM POLICY OF THE REPUBLIC OF AZERBAIJAN: 2020–2025

Tural Tahir oglu Alakbarov
turalekbarov@gmail.com
Amin Rovshan oglu Asgarov
aminsgerov30@gmail.com
Azerbaijan Technological University

This study analyzes the strategic transformation of Azerbaijan's tourism policy between 2020 and 2025, a period defined by the global pandemic and the post-war geopolitical landscape. The research evaluates the effectiveness of state interventions, including tax exemptions and financial subsidies, which prevented the sector's collapse during the COVID-19 crisis. A central focus is placed on the "Tourism Reintegration Model" applied to the liberated territories of Karabakh and East Zangezur. The analysis highlights the implementation of "smart tourism" concepts, green energy integration, and the development of high-tech infrastructure, such as international airports and the "Victory Road." The findings indicate a "V-shaped" recovery, with tourism's contribution to GDP projected to reach 5-6% by 2025. The study concludes that the diversification of tourism products—ranging from health and eco-tourism to cultural heritage—has positioned Azerbaijan as a competitive and resilient destination in the regional market, significantly driving non-oil economic growth and rural employment.

Keywords: Azerbaijan, tourism policy, Karabakh reintegration, smart tourism, economic recovery, sustainable development.

ƏSHABİ-KƏHF VƏ NAXÇIVAN TURİZMİNİN REGİONUN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU

Tural Tahir oğlu Ələkbərov
turalekbarov@gmail.com
İsa Ceyhun oğlu Hüseynov
isahuseyinli680@gmail.com
Amalya Elman qızı Fərzəliyeva
Azərbaycan Texnologiya Universiteti

Azərbaycan Respublikasının turizm sektoru 2024-cü ildə özünün tarixi inkişaf zirvəsinə çataraq, 196 ölkədən 2.63 milyon xarici ziyarətçi qəbul etmişdir ki, bu da illik müqayisədə 25.9%-lik nəzərəçarpacaq artım deməkdir. Bu dövrdə turizm məqsədilə edilən səfərlərin sayı 1.86 milyona bərabər olmuş, sektorun ölkənin Ümumi Daxili Məhsuluna (ÜDM) birbaşa töhfəsi isə 7.8 milyard manat təşkil etmişdir. Turist axınının strukturunda Rusiya Federasiyası (27.8%) və Türkiyə (16.2%) liderliyini qoruyub saxlasa da, Hindistan (+2.1 dəfə), Çin (+1.9 dəfə) və Cənubi Koreya (+1.9 dəfə) kimi ölkələrdən gələn turist sayındakı dinamik artım Azərbaycanın beynəlxalq bazarda artan cəlbediciliyini təsdiqləyir.

Regional kontekstdə MDB ölkələri 979 min ziyarətçi ilə üstünlük təşkil edir, Körfəz ölkələrindən gələn turistlərin sayında isə dini və müalicə turizminin təsiri ilə 21.4%-lik artım müşahidə olunur.

Naxçıvan Muxtar Respublikası bu ümumi dinamikada özünün strateji mövqeyi və zəngin dini-mədəni irsi ilə mühüm rol oynayır. 2024-cü ilin yanvar-avqust aylarını əhatə edən statistikaya əsasən, muxtar respublika 58,348 xarici ziyarətçi qəbul etmişdir. [3] Regionun əsas turizm drayverləri sırasında Duzdağ Fizioterapiya Mərkəzi, Batabat gölü və tarixi Əlincəqala ilə yanaşı, dini turizmin mərkəzi hesab olunan Əshabi-Kəhf ziyarətgahı xüsusi çəkiyə malikdir. Naxçıvan şəhərindən 12 km məsafədə yerləşən Əshabi-Kəhf kompleksi, Quranda adı keçən müqəddəs məkanlardan biri olması səbəbindən həm yerli, həm də xarici zəvvarlar tərəfindən hər gün yüzlərlə ziyarətçi qəbul edir. Kompleksin infrastrukturu 1998-ci ildə ümummilli lider Heydər Əliyevin göstərişi ilə modernləşdirilmiş, ərazidə məscid, qonaq evi və bələdçi xidmətləri formalaşdırılmışdır.[1]

Azərbaycanın turizm siyasətində dövlət qoruqlarının və milli parkların idarə edilməsi də səmərəli nəticələr verməkdədir. 2024-cü ildə qoruqlara ziyarətçi sayı 35% artaraq 663,459 nəfərə çatmış, bu sahədən əldə olunan gəlir isə 72% artımla 5.8 milyon manat təşkil etmişdir. Yanardağ (226,434 nəfər) və Atəşgah (198,167 nəfər) kimi obyektlərin xarici ziyarətçi payı 90%-i ötmüşdür. Ölkədə dayanıqlı turizmin inkişafı məqsədilə 113 yeni ekoturizm marşrutu yaradılmış və Qlobal Dayanıqlı Turizm Şurası (GSTC) ilə əməkdaşlığa başlanılmışdır.

Gələcək perspektivlər baxımından Azərbaycan turizminin 2025-ci ilə qədər ÜDM-ə töhfəsini 10.3 milyard manata çatdıracağı və 472 min iş yeri yaradacağı proqnozlaşdırılır. Bu hədəflərə nail olmaq üçün Əshabi-Kəhf ziyarətgahının UNESCO siyahısına daxil edilməsi üçün təşəbbüslərin gücləndirilməsi, rəqəmsal marketinq strategiyalarının genişləndirilməsi və beynəlxalq nüfuzlu sərgilərdə iştirakın təmin edilməsi prioritet vəzifələr kimi müəyyən edilmişdir. Yekun olaraq, dini və mədəni turizmin effektiv idarə olunması Azərbaycanın 2035-ci ilə qədər qlobal turizm mərkəzinə çevrilməsi yolunda fundamental təməli təşkil edir.[2]

Azərbaycanın turizm siyasətində dini və mədəni irs obyektlərinin rasional idarə edilməsi, ölkənin beynəlxalq turizm bazarındakı rəqabətədavamlılığını artıran strateji faktorlardan biridir. Bu xüsusda, Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində, İlandağ və Nəhəcir dağları arasında yerləşən Əshabi-Kəhf ziyarətgahı həm teoloji, həm də regional turizm qovşağı kimi mühüm əhəmiyyət kəsb edir.[4] "Mağara əhli" rəvayətinə istinadən müqəddəs hesab olunan bu məkan, Qurani-Kərimdə adı keçən və qlobal səviyyədə tanınan nadir dini destinasiyalardan biridir. Dini turizm baxımından Azərbaycanın ən əhəmiyyətli obyektlərindən biri hesab olunan bu kompleks, hər gün yüzlərlə yerli və xarici zəvvarı qəbul edir. Bu növ ziyarətgahlar, xüsusilə dini və müalicə turizmi motivasiyası ilə Azərbaycana səfər edən Körfəz ölkələri ziyarətçiləri (+21.4% artım) üçün yüksək cəlbedicilik kəsb edir.

Ziyarətgahın turizm potensialının realizəsi birbaşa dövlət tərəfindən həyata keçirilən infrastruktur layihələri ilə bağlıdır. 1998-ci ildə ümummilli lider Heydər Əliyevin göstərişi ilə başlanılan yenidənqurma işləri nəticəsində ərazidə müasir məscid kompleksi, zəvvarların istirahəti üçün "Qonaq evi" və bələdçi otağı yaradılmışdır. Hazırda Naxçıvan şəhərindən cəmi 12 km məsafədə yerləşməsi və girişin ödənişsiz olması kompleksin kütləvi ziyarətçi axını üçün əlçatanlığını təmin edir. Naxçıvanın ümumi turizm dinamikası, xüsusilə 2024-cü ilin ilk 8 ayında qeydə alınan 58,348 xarici ziyarətçi göstəricisi, Əshabi-Kəhf kimi dini marşrutların inkişafı üçün dayanıqlı baza formalaşdırır.[4]

Nəticə. Gələcək perspektivlər baxımından Əshabi-Kəhf ziyarətgahının qlobal dini turizm mərkəzinə çevrilməsi üçün beynəlxalq təbliğatın gücləndirilməsi və UNESCO siyahısına daxil edilməsi istiqamətində işlərin aparılması prioritet vəzifə kimi müəyyən edilmişdir. Turizm sektorunun 2025-ci il üzrə ÜDM-ə 10.3 milyard manat töhfə verməsi hədəfi çərçivəsində, bu cür dini-mədəni abidələrin rəqəmsal marketinq strategiyaları vasitəsilə tanıdılması zəruridir. Nəticə olaraq, Əshabi-Kəhf təkcə bir inanc mərkəzi deyil, həm də Azərbaycanın 2035-ci ilə qədər hədəflədiyi dayanıqlı turizm strategiyasının, yeni iş yerlərinin yaradılmasının və regional iqtisadi inkişafın fundamental tərkib hissəsidir

Təkliflər. Əshabi-Kəhf ziyarətgahının turizm potensialının tam realizə edilməsi və ziyarətçi axınının beynəlxalq standartlara uyğun idarə olunması üçün aşağıdakı *təkliflər* irəli sürük. Rəqəmsal bilet sistemi və ya ziyarətçi qeydiyyatı: ziyarətçilərin dəqiq statistikasını aparmaq və idarəetməni təkmilləşdirmək üçün girişdə rəqəmsal bilet (və ya ödənişsiz qeydiyyat talonu) sistemi tətbiq edilməlidir. Bu sistem vasitəsilə həm ödənişli xidmətlərdən gələn gəlirləri (məsələn, bələdçi və ya qonaqlama), həm də ödənişsiz giriş hüququ olan şəxslərin (məktəblilər, müharibə veteranları və s.) Dəqiq sayını izləmək mümkün olar. Kompleksin qlobal səviyyədə tanınması və dini turizm payının artırılması üçün əshabi-kəhf ziyarətgahının UNESCO-nun maddi-mədəni irs siyahısına salınması istiqamətində işlər sürətləndirilməlidir. [5] "ITB BERLIN", "WTM LONDON" və "ATM DUBAI" kimi nüfuzlu beynəlxalq turizm sərgilərində ziyarətgahın ayrıca təqdimatı keçirilməli, xüsusilə körfəz ölkələri və mdb bazarları üçün hədəf kütləyə yönəlmiş reklam kampaniyaları təşkil edilməlidir. Ziyarətgah ərazisindəki "qonaq evi"nin xidmət keyfiyyəti artırılmalı, Naxçıvan-batabat və Naxçıvan-əlincəqala kimi mövcud marşrutlarla inteqrasiya olunmuş "dini-ekoloji turizm paketləri" hazırlanmalıdır. Zəvvarlara müxtəlif dillərdə məlumat verən ai bələdçilər və mağaranın tarixi rəvayətini vizuallaşdıran vr (virtual reallıq) otaqları yaradılmalıdır. Sosial media platformalarında yüksək izləyici kütləsi olan "travel-influencer"lər vasitəsilə məkanın təbiəti və ruhani atmosferi haqqında vizual kontentlər hazırlanmalıdır.

Bu tədbirlərin həyata keçirilməsi 2025-ci il üçün hədəflənən illik ziyarətçi sayının 50,000 nəfərə çatdırılmasına və xarici turistlərin gecələmə sayının 50% artırılmasına imkan verəcəkdir

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. (2024). Azərbaycana gələn xarici ziyarətçilərin statistikası və turizm qoruqlarının fəaliyyəti haqqında hesabat. Bakı: Dövlət Turizm Agentliyi.
2. Ələkbərov, T. T., Hümbətov Ə.Y (2025). Turizm və xarici iqtisadi əlaqələr (Dərs vəsaiti). Bakı: Azərbaycan Texnologiya Universiteti.
3. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi. (2024). Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: Turizm marşrutları və ziyarətçi dinamikası (Yanvar-Avqust). Naxçıvan: NMR Dövlət Statistika Komitəsi.
4. Quliyev, F., & Məmmədov, E. (2022). Azərbaycanda dini və mədəni turizmin inkişaf perspektivləri: Əshabi-Kəhf kompleksi nümunəsində. İqtisadiyyat və Menecment Jurnalı, 15(2), 45-58.
5. UNESCO. (2023). Operational guidelines for the implementation of the World Heritage Convention. Paris: UNESCO World Heritage Centre.

THE ROLE OF ASHABI-KAHF AND NAKHCHIVAN TOURISM IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE REGION

Tural Tahir Alakbarov
turalekbarov@gmail.com
Isa Ceyhun Huseynov
isahuseyinli680@gmail.com
Amalya Elman gızı Farzaliyeva
Azerbaijan Technological University

This study examines the tourism ecosystem of Azerbaijan with a specific focus on the religious tourism potential of the Ashabi-Kahf sanctuary in the Nakhchivan Autonomous Republic. In 2024, Azerbaijan's tourism sector reached a historic peak, receiving 2.63 million international visitors from 196 countries, representing a 25.9% year-on-year increase. The direct contribution of tourism to the national GDP was recorded at 7.8 billion AZN. The research highlights the strategic role of religious and cultural heritage sites, identifying Ashabi-Kahf—a sacred site mentioned in the Holy Quran—as a primary driver for regional tourism development. Despite the site's significant daily visitor flow and modernized infrastructure, it remains outside the UNESCO World Heritage list. The study proposes a comprehensive roadmap for maximizing tourism potential, including the implementation of digital ticketing systems for precise statistical tracking, securing UNESCO recognition, and enhancing international marketing through "smart tourism" innovations. The findings suggest that the effective management of religious-cultural destinations like Ashabi-Kahf is fundamental to achieving Azerbaijan's 2035 strategic goal of a 17 billion AZN GDP contribution from the tourism sector.

Keywords: Azerbaijan Tourism, Ashabi-Kahf, Nakhchivan, Religious Tourism, Strategic Development, Statistical Analysis.

ПУТЕШЕСТВИЕ ПО ЗАБРОШЕННЫМ ГОРОДАМ: ТУРИЗМ «GHOST TOWN»

Эллада Арзуман кызы Вердиева
elladav2000@gmail.com
Гулара Шамси гизи Исмаилова
Исмаилова Гулара Шамси
Азербайджанский Технологический Университет

Заброшенные города, или «ghost town», привлекают внимание как одно из самых интересных и необычных направлений современного туризма. Эти территории когда-то были местом проживания людей, их работы и повседневной жизни, но по разным причинам позже оказались пустыми. Сегодня эти места стали для туристов не только интересными, но и вызывающими размышления объектами путешествий.[1]

Туризм «ghost town» отличается от других видов туризма большей эмоциональной и психологической силой воздействия. Такие поездки дают людям возможность почувствовать прошлое, вступить в прямой контакт с историей и иногда понять последствия трагических событий. В этом смысле такие места являются не просто туристическими объектами, но и особо охраняемыми территориями исторической памяти.

Причины возникновения заброшенных городов разнообразны. Одной из наиболее распространённых является экономический фактор. Например, в горных городах, когда истощаются подземные ресурсы, население вынуждено покидать эти территории. С другой стороны, землетрясения, наводнения и засухи также затрудняют жизнь и способствуют миграции людей.[2]

Кроме того, техногенные катастрофы играют важную роль в этом процессе. Например, после аварии на Чернобыльской АЭС город Припять был полностью эвакуирован и сегодня считается одним из самых известных заброшенных городов

мира. Войны и политические конфликты также приводят к опустению городов. Ярким примером является город Агдам, который долгое время оставался пустым и получил прозвище «Хиросима Кавказа».

Существуют многочисленные примеры «ghost town» туризма по всему миру. В США город Боди когда-то славился добычей золота, но после прекращения экономической деятельности был заброшен. В Турции Каякёй опустел в результате обмена населением и сейчас функционирует как музей под открытым небом. В Японии остров Хасима был промышленным центром, но позже полностью опустел.

В Азербайджане классически полностью заброшенных городов немного, однако для этого вида туризма имеются интересные территории. Эти места в основном опустели из-за войны, социально-экономических изменений и природных факторов и в последние годы привлекают больше внимания с туристической точки зрения.

Туризм «ghost town» в нашей стране особенно ценен с исторической и эмоциональной точки зрения. Эти места рассматриваются не просто как руины, но и как «свидетели», сохраняющие живые следы недавнего прошлого.[3]

Одним из самых заметных примеров является город Агдам. В результате событий 1990-х годов город полностью опустел и долгое время находился в разрушенном состоянии. Сейчас ведутся восстановительные работы, но прежний облик города продолжает вызывать большой интерес у туристов и исследователей.

Некоторые районы Физули также долгое время оставались безлюдными и только в последние годы начали восстанавливаться. Здесь до сих пор наблюдаются элементы заброшенности, что создаёт для туристов особый опыт.

Аналогичная ситуация наблюдалась в прежние годы в Джебраиле и Зангелане. В этих районах была разрушена инфраструктура, прекращено проживание, и природа в некоторой степени вновь «освоила» эти территории. Такие виды пейзажей привлекают туристов как визуально, так и исторически.

Кроме того, в Азербайджане существуют частично опустевшие населённые пункты не только из-за войны, но и в результате урбанизации. Перемещение молодёжи в города привело к уменьшению населения в некоторых горных деревнях, и эти места частично приобрели черты «ghost town». Места вроде Хыналыга не полностью заброшены, но сохраняя традиционный образ жизни, представляют интерес для альтернативного туризма.

Привлекательность туризма «ghost town» объясняется несколькими факторами. Эти места вызывают у людей интерес, чувство тайны и иногда мистические ощущения. Заброшенные здания и пустые улицы создают впечатление, что время остановилось. Кроме того, эти территории предоставляют уникальные возможности для фотографов.

4. Lei, S. (2025). Зелёные инвесторы и волатильность цен на акции туристических предприятий: взгляд на качество раскрытия информации. International Review of Economics & Finance, 102, 104243. https://www.sciencedirect.com/science/article/pii/S105905602500406X
5. Wang, Q., & Jia, Z. (2025). Эффективность ESG и стоимость туристических предприятий: анализ влияния и механизмов. Sustainability, 17(21), 9550. https://www.mdpi.com/2071-1050/17/21/9550
6. Hassan, A. S., & Meyer, D. F. (2025). Влияет ли рейтинг ESG-рисков стран на международный туристический спрос? Случай стран Вышеградской четвёрки. Journal of Tourism Futures, 11(1), 62-81. https://www.emerald.com/jtf/article/11/1/62/1274543

EVALUATING THE INFLUENCE OF ESG CRITERIA ON GREEN INVESTMENT RISKS IN TOURISM: A PATHWAY TO SUSTAINABLE DEVELOPMENT AND LONG-TERM PROFITABILITY

Ramida Khalilova
r.xalilova@atu.edu.az
Aysu Mammadova
Azerbaijan Technological University

This study examines the role of Environmental, Social, and Governance (ESG) criteria in assessing risks associated with green investments in the tourism sector. It highlights how the adoption of ESG guidelines reduces investment risks, enhances enterprise value, and improves transparency, thereby lowering stock price volatility. The research also explores the relationship between ESG risk ratings and international tourism demand, with a focus on the Visegrád Four countries. The findings demonstrate that strong ESG performance contributes to long-term profitability, increased investor confidence, and greater attractiveness of tourist destinations. Overall, the integration of ESG factors is identified as a key driver of sustainable development and resilience in the tourism industry.

Key words: ESG, tourism, sustainable development, the Visegrád Four countries.

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KƏND TURİZMİ VƏ ŞƏRABÇILIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ

Nigar Namiq
teymurzade_n@mail.ru
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu

Kənd turizmi şəhər sakinlərinin istirahət ehtiyaclarını qarşılamaqla yanaşı, yerli əhalinin məşğulluğunu artırır və iqtisadi rifahını dəstəkləyir. Müasir dövrün tələbləri və texnologiyanın inkişafı nəzərə alındıqda, kənd turizminin rəqabət qabiliyyətini artırmaq üçün rəqəmsal texnologiyaların tətbiqi önəmli rol oynayır. İşğaldan azad edilmiş ərazilərdə kənd turizminin inkişafı, yalnız təbii və mədəni resursların deyil, həm də müasir innovasiyaların tətbiqi ilə mümkündür. Şərabçılıq sahəsi işğaldan azad edilmiş ərazilərdə kənd turizminin inkişafına əhəmiyyətli töhfə verə biləcək sahələrdən biridir. Xüsusilə, Qarabağda üzümçülük və şərabçılıq sahəsinin inkişaf etdirilməsi, həm yerli iqtisadiyyatı canlandırar, həm də regionun turizm potensialını artıra bilər.

İşğaldan azad edilmiş ərazilərin zəngin təbii və mədəni irsi, əlverişli iqlim şəraiti, ekosistemi turistlər üçün maraqlı bir təcrübə ola bilər. Bu xüsusiyyətlər kənd turizminin inkişafı üçün əlverişli mühit yaradır. Məsələn, Qarabağ regionu, zəngin mətbəxi, folkloru və ənənəvi sənətkarlığı ilə tanınır. Bu, kənd turizmi sahəsində potensial imkanlar təqdim edərək, turistlərə bu ərazilərin təbii və mədəni gözəlliklərini daha yaxından tanımağa imkan verir.

Kənd turizminin perspektivləri və Şərabçılığın rolu

Kənd turizmi sahəsində ən əhəmiyyətli istiqamətlərdən biri, şərabçılıq və üzümçülük turizminin inkişafıdır. Qarabağ regionunda şərabçılıq ənənələri qədim tarixə malikdir. Xocavənd rayonunun Tuğ kəndi, Füzuli, Ağdam və digər rayonlar tarixən şərabçılıq mərkəzləri olmuşdur. Məsələn, Ağdamda aparılmış arxeoloji qazıntılar nəticəsində min il əvvələ aid üzüm toxumlarının aşkar edilməsi bu ərazinin şərabçılıq tarixinin dərinliyini göstərir. Bu ərazilərin şərabçılıq potensialının artırılması, həm yerli əhalinin iqtisadiyyatını gücləndirər, həm də Qarabağ şərablarının beynəlxalq bazarda tanınmasına və inkişafına təkan verə bilər [1].

Qarabağ şərablarının özünəməxsusluğu, bu ərazilərin beynəlxalq turizm bazarına inteqrasiyasına imkan verir. Belə ki, şərabçılıq və üzümçülük sahələrinin inkişafı ilə bağlı tədbirlər, yerli və xarici turistlər üçün maraqlı bir təcrübə yaradır. Bu baxımdan, beynəlxalq təcrübələrdən faydalanmaq da vacibdir. Məsələn, İtaliyanın Toskana və Piyemonte bölgələrindəki şərabçılıq turizmi modelləri, turistlərə şərab istehsalının bütün mərhələlərini izləmək və məhsulların dadımını təqdim etmək imkanları təqdim edir [2]. Qarabağda da oxşar yanaşmalar tətbiq olunsa, region həm mədəni, həm də iqtisadi baxımdan daha da inkişaf edər.

Texnologiyaların Kənd Turizmində Tətbiqi və Şərabçılıq

Texnologiyanın kənd turizminə təsiri əsasən aşağıdakı sahələrdə görülə bilər:

1. **Rəqəmsal Marketinq və Onlayn Platformalar:** Şərabçılıq və kənd turizminin tanıdılması məqsədilə onlayn platformalar və sosial media kanallarından effektiv istifadə edilməli, beləliklə ərazilərin turizm potensialı geniş auditoriyaya çatdırılmalıdır. Qarabağ şərablarının tanıdılması üçün xüsusi veb saytlar və mobil tətbiqlərin yaradılması, bu sahənin beynəlxalq səviyyədə reklamını təmin edər və turistlərin marağını artıra bilər.
2. **Virtual Turlar və İnteraktiv Təcrübələr:** Turistlərə Qarabağ şərabçılıq mərkəzlərini virtual turlar vasitəsilə təqdim etmək, onlara şərab istehsalının hər mərhələsini izləmək və məhsulları interaktiv şəkildə dadmaq imkanı verərək daha zəngin bir təcrübə təmin edər.
3. **Ağıllı Kənd İdarəetmə:** IoT və məlumat analitikası ilə təbii resursların daha səmərəli idarə edilməsi. Bu, həm şərabçılıqda məhsuldarlığı artırar, həm də turist axınını düzgün istiqamətləndirər.
4. **Şərabçılıqda Texnoloji İnnovasiyalar:** Texnologiyaların tətbiqi, üzümçülük və şərab istehsalı proseslərini daha effektiv və səmərəli edir. Ağıllı sistemlər və avtomatlaşdırılmış proseslər məhsuldarlığı artırmağa və keyfiyyətli şərab istehsalına şərait yaradır.

İşğaldan azad edilmiş ərazilərdə kənd turizminin inkişafı və şərabçılıq sahəsinin gücləndirilməsi, həm iqtisadi, həm də mədəni baxımdan böyük potensiala malikdir. Müasir

texnologiyaların tətbiqi ilə bu sahələr arasında qarşılıqlı faydalı əlaqələr qurulması, yerli əhalinin məşğulluğunu artırar və regionun turizm potensialını daha da yüksəldər. Qarabağda şərabçılığın inkişafı, həm də beynəlxalq turizm bazarına inteqrasiyanı sürətləndirər, bu da ərazinin global səviyyədə tanınmasına və iqtisadi inkişafına təkan verər.

ƏDƏBİYYAT

1. AR Regional Turizm Agentliyi. "Regional İnnovativ Turizm Məhsulu" https://tourism.gov.az/news/regional-innovativ-turizm-mehsulu-ritm-startap-proqraminin-qalibleri-mueyyen-edilib
2. An experience between Italian nature and tradition. https://www.agriturismoitalia.gov.it/en/home

PROSPECTS FOR THE DEVELOPMENT OF RURAL TOURISM AND WINEMAKING IN THE LIBERATED TERRITORIES

Nigar Namig
teymurzade_n@mail.ru
Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan

The report examines the role and development prospects of the wine industry in the advancement of rural tourism in the liberated territories. The restoration and socio-economic development of these territories are defined as one of the country's key priority directions. In this context, rural tourism can play a significant role in the efficient utilization of the economic potential of these areas. In particular, rich natural resources, favorable climatic conditions, and traditional economic activities, including winemaking, serve as important factors in the development of rural tourism. The wine industry contributes both to the promotion of local products and to increasing tourist attractiveness.

Keywords: liberated territories, tourism development, rural tourism, winemaking

ТЕОРЕТИЧЕСКОЙ МОДЕЛИ РАЗВИТИЯ ТУРИЗМА В РЕГИОНЕ

У.Умбетов
umu2005@mail.ru
Г.М. Усайнова
gulzhamal.u@mail.ru
Н.Г. Ошакбай
nurailym0908@gmail.com
Р.Д. Митин
romanmmitin@gmail.com
Кызылординский университет «Болашақ»

В настоящее время туризм является одной из наиболее интенсивно развивающихся и доходных отраслей мировой экономики, выступает в числе важнейших факторов социально-культурного развития, повышения уровня и качества жизни населения. Широта выполняемых функций туризма позволяет использовать его в качестве действенного инструмента стимулирования социально-экономического роста на региональном и национальном уровнях. Функции туризма проявляются, прежде всего, на территориях конкретных регионов, а возможности его развития определяются природно-ресурсными условиями регионов. Поэтому использование туризма как инструмента социально-экономического развития особенно актуально на региональном уровне. Обеспечение возрастающего воздействия туризма на социально-экономические условия функционирования региона (например Кзылординской области) требует решения ряда конкретных задач, среди которых первоочередными являются: оценка ресурсной

обеспеченности и туристских возможностей региона, определение направлений развития ресурсной базы для достижения желаемого социально-экономического результата [1].

Для дальнейшего развития региональный социально-экономической ситуации Кзылординской области нам необходимо проанализировать проблему привлечения туристов не только на экономической и социальной основе, но и на научной основе. Исходя из этих соображений следует, что для повышения привлекательности гостеприимчательных местностей, целесообразно перерассмотреть известных математических моделей по привлечению туристов.

Как нам известно, в настоящее время к числу моделей, посвященных рассмотрению вопросов устойчивого развития туристских территорий, можно отнести следующие:

- модель устойчивого туризма польского ученого Лешека Бутовски [2];
- теоретическую модель развития туризма Р. Касагранди и С. Ринальди [3];
- динамическую модель устойчивого развития туризма Baggio R. [4];
-модель динамического равновесия региональной туристской экономики М.М.Бегеуловой [1].

В настоящей работе нами анализирован абстрактный модель Р. Касагранди и С. Ринальди с учетом региональных особенностей г. Туркестан Республики Казахстан. Сначала приведем математический модель Р. Касагранди и С. Ринальди.

Множества математических моделей привлечения и развития туристов как основа развития индустрии туризма представляют собой абстрактные модели функций многих переменных, включающих в себе функций трех переменных (компонентов) реального измерения: количество туристов $T(t)$, присутствующих в регионе в момент времени t, качества окружающей среды $E(t)$, а также вложенный капитал $C(t)$, направленный на организацию и развитию туристической деятельности региона. При этом вложенный капитал $C(t)$, относится к материальным активам, и его не следует путать с потоком услуг, представляемых туристам. Хотя выбор этих трех переменных довольно очевиден, их описание с использованием одной переменной определенно создает некоторые трудности.

Представим, что туристы получают информацию о привлекательности региона посещения через электронные сайты. Эти посещения влияют на решения потенциальных новых посетителей [5]. Измеряя A в подходящих единицах, запишем скорость изменения количество туристов в данном регионе:

$$\dot{T}(t) = \frac{T(t)}{dt} = T(t) \cdot A\big(T(t)E(t)C(t)\big).$$

Конечно, A должна быть относительной привлекательностью, а именно, разницей между абсолютной привлекательности $\hat{a}$ конкретного сайта (для которого доступна информация о $T(t), E(t)$ и $C(t)$) и эталонным значением a, которого можно рассматривать как ожидаемая привлекательность универсального сайта (т. е. среднее значение привлекательности всех потенциальных туристических объектов). Таким образом

$$A\big(T(t)E(t)C(t)\big) = \hat{a}\big(T(t)E(t)C(t)\big) - a,$$

как ожидаемая привлекательность универсального сайта (т.е. среднее значение привлекательности всех потенциальных туристических объектов). Таким образом

$$A\big(T, E, C\big) = \hat{a}\big(T, E, C\big) - a,$$

где a зависит от ряда факторов, в том числе от стоимости альтернативных сайтов. Наконец, если мы предположим, что скопление пропорционально T и что привлекательность линейно уменьшается с затором, мы получим следующую формулу для $\hat{a}$

$$\hat{a} = \mu_E \frac{E}{E+\varphi_E} = \mu_C \frac{C}{C+\varphi_C T+\varphi_C} - \alpha T,$$

где пять параметров $(\mu_E, E, \mu_C, C, \alpha)$ определяют культуру туристского населения. Стоит отметить, что абсолютная привлекательность $\hat{a}$ места, не используемого туризмом **$(C=T=0)$,** положительна и может быть выше эталонной привлекательности a [6]. Это означает, что относительная привлекательность A может быть положительной, даже если $C=T=0$. Это объясняет начальную фазу хорошо известного явления, которое Батлер назвал «циклом эволюции туристической зоны» [7].

Мы приводим результаты численного решение этой нелинейной системы уравнений (6) и графики решений для трех различных значений параметра δ (дельта). Все остальные параметры равны 1, начальное условие $T(0)=E(0)=C(0)=1$, отрезок времени [0,1].

Таким образом, модель Касагранди и Ринальди [3] представляет из себя динамическую систему из трех нелинейных уравнений . Высокую значимость имеет параметр a, представляющий собой опорное значение привлекательности, и параметр ε, характеризующий инвестиционную политику, оба параметра рассматриваются как бифуркационные. Согласно данной модели, изменение показателя количества туристов прямо пропорционально показателю относительной привлекательности туристской территории, которая в свою очередь представляет из себя разность между абсолютным значением привлекательности рассматриваемой туристской территории и ожидаемым значением привлекательности территории региона в целом. При этом показатель ожидаемого значения привлекательности территории региона в целом может быть использован как мера сравнения всех альтернативных туристских территорий в его составе. Отсюда следует, что контактно-интенсивные услуги, имеющие ключевое значение для туристического и туристического секторов, непропорционально сильно пострадали от пандемии и будут продолжать бороться, пока люди снова не почувствуют себя в безопасности для массовых путешествий.

В итоге анализ модели Касагранди-Ринальди показывает, что чрезмерная ориентация на краткосрочную прибыль и резкое увеличение капитала без учета экологической емкости региона ведут к необратимому снижению качества природных ресурсов. Для таких регионов, как Кызылорда, важно поддерживать баланс между развитием инфраструктуры и сохранением экологического потенциала, используя параметр epsilon как основной инструмент контроля.

ЛИТЕРАТУРА

1. Адаманова З.О. Математическое моделирование и прогнозирование развития регионального туристского рынка в условиях цифровизации // Экономика и предпринимательство. – 2021. – № 5. – С. 412-418.
2. Butowski L. Sustainable Tourism of the Future – Conceptual Foundations and Research Methods // Sustainability. – 2021. – Vol. 13(14). – 7845.
3. Lacitignola D., Diele F. Modelling the Impact of Information Campaigns on Tourism Sustainability // Mathematics. – 2021. – Vol. 9(22). – 2871. (Бұл мақалада Касагранди-Ринальди моделі қазіргі ақпараттық технологиялар контексінде тереңдетілген).
4. Baggio R. The Evolution of Tourism Systems: A Complexity Science Approach // Tourism Management. – 2020. – Vol. 76. – 103959.
5. Song H., Wen L., Liu A. Tourism Demand Forecasting: A Decade Review of Published Research in the 21st Century // Journal of Travel Research. – 2023. – Vol. 62(4). – P. 755-772.

6. Perman R., Ma Y., McGilvray J. Natural Resource and Environmental Economics. – 5th Edition. – Pearson Education, 2019. – 744 p.
7. Butler R.W. The Tourism Area Life Cycle (TALC) and Its Relevance to the 21st Century // Tourism Geographies. – 2022. – Vol. 24(1). – P. 12-25.

THEORETICAL MODEL OF TOURISM DEVELOPMENT IN THE REGION

U.Umbetov
umu2005@mail.ru
G.M.Usainova
gulzhamal.u@mail.ru
N.G.Oshakbai
nurailym0908@gmail.com
R.D.Mitin
romanmmitin@gmail.com
Kyzylorda University "Bolashak", r. Kyzylorda, Republic of Kazakhstan

This article examines the dynamic model of sustainable tourism development proposed by R. Casagrandi and S. Rinaldi. The study analyzes the complex interaction between the number of tourists, the quality of environmental resources, and the invested capital. By applying nonlinear differential equations, the authors demonstrate how various investment policies and environmental sensitivities affect the long-term stability of a tourist destination. The results of numerical modeling highlight the existence of bifurcation parameters, where minor changes in management strategy can lead to either a stable equilibrium or a total collapse of the local ecosystem. The findings emphasize the necessity of balancing infrastructure growth with ecological capacity to ensure the sustainability of regional tourism, particularly for developing sites like the Turkestan region in Kazakhstan.

Keywords: sustainable tourism, Casagrandi-Rinaldi model, environmental quality, investment capital, mathematical modeling, regional development, bifurcation analysis, ecological capacity.

ŞƏRQ-QƏRB NƏQLİYYAT DƏHLİZİ VƏ GƏNCƏ ŞƏHƏRİNİN TURİZM POTENSİALI

Zeynəb Tahir qızı Məmmədli[1]
z.memmedli@atu.edu.az
Turqay Müqabil oğlu Ellazov[2]
ellazovturqay@gmail.com
Azərbaycan Texnologiya Universiteti[1]
Global Mining MMC[2]

Qloballaşma şəraitində beynəlxalq nəqliyyat dəhlizləri ölkələrin iqtisadi inkişafında, regionlararası əlaqələrin genişlənməsində və xidmət sektorunun formalaşmasında mühüm rol oynayır. Tarixi baxımdan İpək Yolu Şərq ilə Qərb arasında ticarət, mədəniyyət və sivilizasiya mübadiləsinin əsas platforması olmuşdur. Bu marşrut üzərində yerləşən Azərbaycan şəhərləri, xüsusilə Gəncə, iqtisadi və mədəni baxımdan inkişaf etmiş mühüm mərkəzlər kimi tanınmışdır.Müasir dövrdə isə Şərq-Qərb nəqliyyat dəhlizi bu tarixi funksiyanın yeni iqtisadi və texnoloji şəraitdə davamı kimi çıxış edir. Bu baxımdan, logistika sistemlərinin inkişafı ilə turizm potensialı arasında qarşılıqlı əlaqənin öyrənilməsi aktual elmi məsələdir.

İpək Yolu, qədim dövrlərdən bəri Asiya ilə Avropa arasında ticarət və mədəniyyət əlaqələrinin əsas vasitəsi olmuşdur. Bu yol üzərində yerləşən şəhərlər, xüsusilə Gəncə, ticarət mərkəzi kimi böyük əhəmiyyət kəsb edirdi. Gəncə, İpək Yolunun qərb istiqamətində strateji mövqeyə malik olmaqla yanaşı, həm də mədəni və iqtisadi əlaqələrin inkişafında mühüm rol oynamışdır. Burada müxtəlif xalqların mədəniyyətlərinin toqquşması və ticarət əlaqələri şəhərin zəngin irsini formalaşdırmışdır. Bugünkü Gəncədə bu dövrün izlərini

muzeylərdə, tarixi abidələrdə və şəhərin arxitekturasında və köhnə məhlələrdə görmək mümkündür.

Tarixi İpək Yolu yalnız ticarət marşrutu deyil, eyni zamanda mədəniyyətlərin inteqrasiyasını təmin edən çoxşaxəli sistem olmuşdur. Bu yol vasitəsilə mallarla yanaşı, bilik, ənənə və turizm elementləri də yayılmışdır.

Müasir Şərq-Qərb nəqliyyat dəhlizi isə daha çox logistika, yükdaşımalar və iqtisadi inteqrasiya üzərində qurulsa da, onun funksional mahiyyəti tarixi İpək Yolunun davamı kimi qiymətləndirilə bilər. Burada əsas fərq texnologiyanın, sürətin və idarəetmə mexanizmlərinin inkişafı ilə bağlıdır.Azərbaycan Respublikası coğrafi mövqeyinə görə Avropa ilə Asiya arasında körpü rolunu oynayır. Bu mövqe ölkənin beynəlxalq nəqliyyat-logistika sistemində əhəmiyyətini artırır.

Şərq-Qərb dəhlizinin inkişafı ölkədə müəyyən dəyişikliklərə səbəb olmuşdur:nəqliyyat infrastrukturu modernləşdirilmiş,logistika xidmətlərinin keyfiyyəti yüksəldilmiş, regional iqtisadi fəallığın artmışdır.Bu proseslər yalnız iqtisadi sahədə deyil, eyni zamanda turizm sektorunun inkişafında da mühüm rol oynayır.

Gəncə şəhəri tarixən İpək Yolu üzərində yerləşən mühüm ticarət və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Şəhər zəngin tarixi irsi, coğrafi mövqeyi və nəqliyyat əlaqələri ilə seçilir.

Müasir dövrdə Gəncə şəhərinin güclü tərəflərini qeyd etsək: regionlararası nəqliyyat əlaqələrinin vacib qovşağıdır,turizm baxımından böyük potensiala malikdir, xidmət sektorunun inkişafı üçün əlverişli mühit yaradır.Şərq-Qərb dəhlizinin inkişafı nəticəsində şəhərdə:turist axınının artması, hotellər və xidmət obyektlərinin çoxalması, mədəni turizm marşrutlarının genişlənməsi kimi müsbət dəyişikliklər müşahidə olunur.

Bununla yanaşı, bir sıra problemlər də mövcuddur: logistika sistemində koordinasiya çatışmazlıqları, turizm xidmətlərinin keyfiyyətində qeyri-bərabərlik, beynəlxalq səviyyədə marketinq zəifliyi və regional turizm məhsullarının yetərincə tanıdılmaması.

Bu problemlər Gəncə şəhərinin potensialından tam istifadə olunmasına mane olur. Problemlərin həlli üçün aşağıdakı istiqamətlər vacibdir: logistika və turizm sektorlarının inteqrasiyası, rəqəmsal idarəetmə sistemlərinin tətbiqi, beynəlxalq turizm marşrutlarına inteqrasiya, "İpək Yolu" brendindən aktiv istifadə, regional turizmin təşviqi strategiyalarının hazırlanması[1]

Şərq-Qərb nəqliyyat dəhlizi İpək Yolu ənənələrinin müasir davamı kimi çıxış edərək Azərbaycanın, xüsusilə Gəncə şəhərinin iqtisadi və turizm potensialının artırılmasında mühüm rol oynayır.Bu baxımdan logistika sistemlərinin təkmilləşdirilməsi, turizm sektorunun inkişafı və regionların beynəlxalq səviyyədə tanıdılması strateji prioritet kimi çıxış etməlidir.[2]

"İpək Yolu keçmişin mirasıdırsa, Şərq-Qərb dəhlizi onun gələcəkdə yaşayan formasıdır və Gəncə bu körpünün mühüm dayaqlarından biridir.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası Rəqəmsal inkişaf vəNəqliyyat Nazirliyi. "Nəqliyyat-logistika sektorunun inkişaf strategiyası".Bakı. 2023

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.Azərbaycanın Turizm Statistikası.Bakı.2024

EAST-WEST TRANSPORT CORRIDOR AND THE TOURISM POTENTIAL OF GANJA CITY

Zeynab Tahir gizi Mammadli[1]
z.memmedli@atu.edu.az
Turgay Mügabil oglu Ellazov[2]
ellazovturgay@gmail.com
Azerbaijan University of Technology[1]
Global Mining LLC[2]

The East-West transport corridor serves as a modern continuation of the historical Silk Road, contributing to the development of Azerbaijan's economic and tourism potential. Ganja, with its strategic location and rich historical heritage, acts as a hub for interregional transport and tourism. Integration of logistics and tourism sectors, digital management, and promotion of regional tourism enable more efficient utilization of the city's potential.

Keywords: Silk Road, East-West corridor, Ganja, tourism potential, logistics, regional development

THE ROLE OF DIGITAL RESERVATION SYSTEMS IN THE DEVELOPMENT OF THE TOURISM INDUSTRY

Khatira Huseynova
khatira.huseynova@dia.edu.az
Shahana Alıyeva
aliyevashahana88@gmail.com
Azerbaijan Technological University

The tourism industry is one of the fastest-growing sectors of the global economy and plays a significant role in the socio-economic development of countries. In recent years, the rapid advancement of information and communication technologies (ICT) has led to fundamental changes in the structure and functioning of the tourism sector. In particular, the widespread adoption of digital reservation systems has transformed how tourism services are organized, marketed, and consumed. These systems have enhanced transparency, accessibility, and competitiveness within the tourism market.

Digital reservation systems enable users to search for, compare, and book tourism services such as hotels, flights, and tour packages in real time. These systems include online travel agencies (OTAs), global distribution systems (GDS), and direct booking platforms. Today, such platforms are considered essential components of tourism infrastructure, significantly improving operational efficiency and service delivery [1].

The impact of digital reservation systems on the tourism industry is particularly evident in economic terms. Compared to traditional booking methods, digital systems reduce the role of intermediaries, thereby lowering transaction costs and optimizing service pricing. This creates a more favorable environment for both consumers and service providers. Moreover, these systems facilitate access to global markets for small and medium-sized tourism enterprises (SMEs), increasing their competitiveness and market visibility [2].

Digital reservation systems also play a crucial role in revenue management. Through the application of dynamic pricing strategies, hotels and airlines can better manage supply and demand. This leads to higher occupancy rates and improved profitability. Such approaches are especially important in managing seasonal fluctuations in tourism demand and minimizing financial risks.

From a technological perspective, digital reservation systems have become more advanced through the integration of artificial intelligence (AI), big data analytics, and cloud computing. AI-powered recommendation systems analyze user behavior and provide personalized travel suggestions, enhancing customer satisfaction and service quality [3].

The development of mobile technologies has further accelerated the adoption of digital reservation systems. Today, many travelers plan and book their trips באמצעות mobile applications, making tourism services more accessible and convenient. In addition, the integration of secure digital payment systems allows users to complete transactions safely and efficiently.

Improving customer experience is one of the key advantages of digital reservation systems. Users can compare multiple options, read reviews, and make informed decisions. This level of transparency increases trust in the tourism market and encourages service providers to maintain high-quality standards. Furthermore, automated notifications and confirmations improve communication between customers and service providers.

Digital reservation systems have also intensified competition within the tourism industry. Businesses are no longer limited to local markets but must compete globally. This has led to increased innovation and continuous improvement in service quality. Online reviews and rating systems directly influence a company's reputation, motivating businesses to enhance their performance and customer satisfaction [4].

In addition, digital reservation systems contribute to the development of sustainable tourism. By reducing the need for paper-based processes and physical infrastructure, they promote environmentally friendly practices. These platforms also help promote lesser-known destinations, contributing to a more balanced distribution of tourist flows and supporting regional development.

Despite their advantages, digital reservation systems also face several challenges. One of the main concerns is cybersecurity. Protecting user data and ensuring secure financial transactions are critical for maintaining trust in digital platforms. Additionally, the digital divide remains a significant issue, as not all users have equal access to digital technologies or the necessary digital literacy skills [5].

In conclusion, digital reservation systems play a vital role in the development of the tourism industry by enhancing efficiency, improving service quality, and expanding market opportunities. To fully realize their potential, it is essential to address challenges related to cybersecurity, digital inclusion, and technological infrastructure. The continued evolution of these systems will remain a key driver of innovation and growth in the global tourism sector.

REFERENCES

1. UNWTO, 2022. Tourism and Digital Transformation Report. Madrid: World Tourism Organization.
2. OECD, 2020. Tourism Trends and Policies. Paris: OECD Publishing.
3. Statista, 2023. Online Travel Booking Market Analysis and Forecasts.
4. European Commission, 2021. Digitalisation of Tourism Services. Brussels.
5. World Bank, 2022. Digital Platforms and Tourism Development Report.

THE ROLE OF DIGITAL RESERVATION SYSTEMS IN THE DEVELOPMENT OF THE TOURISM INDUSTRY

Khatira Huseynova
khatira.huseynova@dia.edu.az
Shahana Alıyeva
aliyevashahana88@gmail.com
Azerbaijan Technological University

This article analyzes the role of digital reservation systems in the development of the tourism industry. It highlights their impact on efficiency, accessibility, and competitiveness, as well as their contribution to improving customer experience. The study also examines the role of advanced technologies such as AI and mobile platforms. Additionally, it discusses key challenges including cybersecurity and digital inequality.

Keywords: tourism, digital reservation systems, online booking, digitalization, customer experience, innovation

MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAFI VƏ REGİONAL İQTİSADİYYATA TƏSİRİ: AZƏRBAYCAN VƏ SLOVAKİYA TƏCRÜBƏSİ

Khatira Huseynova
khatira.huseynova@dia.edu.az
Shahana Alıyeva
aliyevashahana88@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Müalicə-sağlamlıq turizmi (health and wellness tourism) son illərdə qlobal turizm bazarında ən dinamik inkişaf edən istiqamətlərdən biri kimi çıxış edir və regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Bu sahə yalnız tibbi xidmətlərin göstərilməsi ilə məhdudlaşmır, eyni zamanda məşğulluğun artmasına, yerli biznesin genişlənməsinə və infrastrukturun inkişafına əhəmiyyətli təsir göstərir. Xüsusilə təbii müalicə resurslarına malik ölkələr, o cümlədən Azərbaycan və Slovakiya, bu sahədə böyük potensiala sahibdir.

Slovakiya müalicə-sağlamlıq turizmi sahəsində Avropada formalaşmış modellərdən biri hesab olunur. Ölkədə 1 600-dən çox mineral su mənbəyi mövcuddur və bu resurslar əsasında inkişaf etmiş kurort şəbəkəsi yaradılmışdır. Piešťany kurortu Avropanın ən məşhur müalicə mərkəzlərindən biri hesab olunur və əsasən revmatik xəstəliklərin müalicəsi üzrə ixtisaslaşmışdır. Slovakiya Respublikasının Statistika İdarəsinin məlumatına görə, 2023-cü ildə ölkənin spa və kurort müəssisələrində 170 mindən çox xarici turist müalicə xidmətlərindən istifadə etmiş və ümumi gecələmə sayı 1 milyondan artıq olmuşdur [1].

Bardejovské Kúpele kurortu Slovakiyanın digər mühüm müalicə turizmi mərkəzidir və burada əsasən həzm sistemi xəstəliklərinin müalicəsi həyata keçirilir. Trenčianske Teplice isə termal suları ilə tanınır və ortopedik xəstəliklərin müalicəsində geniş istifadə olunur. Slovakiyada müalicə turizminin iqtisadiyyata təsiri nəzərəçarpacaqdır və bu sahə turizm gəlirlərinin mühüm hissəsini təşkil edir. OECD məlumatlarına əsasən, sağlamlıq turizmi Slovakiyada turizm sektorunun inkişafında strateji istiqamətlərdən biri hesab olunur [4].

Slovakiyada bu sahənin inkişafı dövlət proqramları ilə dəstəklənir. "Spa Care Development Strategy 2021–2030" sənədində kurort xidmətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması və rəqəmsallaşmanın genişləndirilməsi əsas prioritetlər kimi müəyyən edilmişdir [2]. Bu yanaşma xidmət keyfiyyətinin artırılmasına və ölkənin beynəlxalq turizm bazarında mövqeyinin gücləndirilməsinə şərait yaradır.

Azərbaycan isə müalicə-sağlamlıq turizmi sahəsində zəngin təbii resurslara malikdir. Naftalan şəhərində yerləşən müalicə mərkəzləri dünyada analoqu olmayan Naftalan nefti əsasında fəaliyyət göstərir və bu resurs xüsusilə dəri və oynaq xəstəliklərinin müalicəsində

istifadə olunur. Azərbaycan Dövlət Turizm Agentliyinin məlumatına əsasən, 2022–2023-cü illərdə Naftalan regionuna gələn turistlərin sayı təxminən 40%-ə qədər artmışdır [3].

Qalaaltı müalicə kompleksi böyrək və sidik yolları xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşmışdır və burada istifadə olunan mineral suların tərkibi Avropa kurortları ilə müqayisə edilə biləcək səviyyədədir. Bundan əlavə, Naxçıvanda yerləşən Duzdağ Fizioterapiya Mərkəzi speleoterapiya üsulu ilə tənəffüs yolları xəstəliklərinin müalicəsində mühüm rol oynayır və son illərdə burada müalicə alan xəstələrin sayı artmaqdadır [7].

Regional iqtisadi təsir baxımından müqayisə göstərir ki, Slovakiyada müalicə turizmi inkişaf etmiş regionlarda məşğulluğun 20%-ə qədərini təmin edir. Azərbaycanda isə bu göstərici daha aşağı olsa da, turizm regionlarında artım müşahidə olunur. Bu fərq əsasən infrastruktur səviyyəsi, xidmət keyfiyyəti və beynəlxalq inteqrasiya ilə əlaqədardır. Slovakiya bu sahədə daha sistemli və uzunmüddətli inkişaf strategiyasına malikdir [4].

Rəqəmsallaşma da mühüm rol oynayır. Avropa Komissiyasının məlumatına görə, Slovakiyada spa və turizm müəssisələrinin böyük hissəsi onlayn rezervasiya sistemlərinə inteqrasiya olunmuşdur [5]. Azərbaycanda da bu istiqamətdə inkişaf müşahidə olunsa da, rəqəmsal xidmətlərin tətbiqi hələ tam geniş yayılmamışdır.

Nəticə olaraq qeyd etmək olar ki, Slovakiya müalicə-sağlamlıq turizmi sahəsində inkişaf etmiş və sabit model təqdim etdiyi halda, Azərbaycan bu sahədə inkişaf etməkdə olan və yüksək potensiala malik ölkədir. Slovakiya təcrübəsinin öyrənilməsi və tətbiqi Azərbaycanın bu sahədə rəqabət qabiliyyətinin artırılmasına və regional iqtisadi inkişafın sürətləndirilməsinə mühüm töhfə verə bilər.

ƏDƏBİYYAT

1. Statistical Office of the Slovak Republic, 2024. Tourism and Accommodation Statistics 2023. Bratislava, s. 45.https://slovak.statistics.sk
2. Ministry of Health of the Slovak Republic, 2022. Spa Care Development Strategy 2021–2030. Bratislava, s. 18.https://www.health.gov.sk
3. Azərbaycan Dövlət Turizm Agentliyi, 2023. Turizm Statistikası Hesabatı. Bakı, s. 27.https://tourism.gov.az
4. OECD, 2022. Tourism Trends and Policies. Paris, s132.https://www.oecd.org
5. European Commission, 2021. Digitalisation of Tourism Services. Brussels,s.39.https://ec.europa.eu
6. Mahmudova, L., 2022. Azərbaycanda müalicə turizmi potensialı. Bakı, s. 64.
7. Naxçıvan MR Statistika Komitəsi, 2023. Sosial-iqtisadi göstəricilər. Naxçıvan,s. 15. https://statistika.nmr.az

DEVELOPMENT OF HEALTH TOURISM AND IMPACT ON THE REGIONAL ECONOMY: THE EXPERIENCE OF AZERBAIJAN AND SLOVAKIA

Khatira Huseynova
khatira.huseynova@dia.edu.az
Shahana Aliyeva
aliyeshahana88@gmail.com
Azerbaijan University of Technology

This study analyzes the development of health and wellness tourism and its impact on regional economies in Azerbaijan and Slovakia. It includes real statistics and practical examples such as Piešťany, Naftalan, and Duzdag. The study shows that Slovakia has a well-established system, while Azerbaijan has strong development potential.

Keywords: health tourism, wellness tourism, regional economy, Azerbaijan, Slovakia, spa tourism

AZƏRBAYCANDA TURİZM İQTİSADİYYATININ TƏHLİLİ VƏ PERSPEKTİVLƏRİ

Nazim Davud oğlu Verdiyev
n.verdiyev@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

İstənilən bir ölkənin iqtisadiyyatında turizm sahəsinin yeri və rolu haqqında birmənalı formalaşmış fikir ondan ibarətdir ki, turizm sektoru müasir iqtisadiyyatların mühüm sütunlarından biridir və ölkələrin ümumi daxili məhsuluna (ÜDM) əhəmiyyətli töhfə verir. Bu təsirlər yalnız turistlərin xərclərindən ibarət deyil, həm də iqtisadiyyatın müxtəlif seqmentlərində inkişafı təşviq edir. İstər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələr üçün turizm iqtisadiyyatın şaxələndirilməsinə və dayanıqlı inkişaf məqsədlərinə çatmaqda strateji əhəmiyyət kəsb edir [4]. Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir [6].

Turizmin inkişaf etdiyi ölkələrdə dövlət və əhali gəlirlərinin təxminən 30%-ə qədəri məhz bu fəaliyyətin payına düşür. Turizmin sosial-iqtisadi inkişafı ölkə əhalisinin həyat səviyyəsinin yüksəlməsinə və rifah halının yaxşılaşmasına səbəb olur. Turizm sektorunun inkişafı ölkə iqtisadiyyatının inkişafına təkan verir və bir çox makroiqtisadi göstəricilərin yüksəlməsinə səbəb olur ki, bu da iqtisadi artımın təmin olunması anlamına gəlir [3].

Turizm sektoru qeyri-neft iqtisadiyyatının inkişafında və regionların ÜDM-də payının artırılmasında əsas hərəkətverici qüvvələrdən biri kimi xarakterizə olunur [7]. Turizm sahəsi bu gün Azərbaycanda dövlətin prioritetlərindən biri kimi müəyyən edilmişdir. Ölkənin iqtisadiyyatını şaxələndirmək, neftdən asılılığı azaltmaq və dayanıqlı inkişafı təmin etmək məqsədilə həyata keçirilən iqtisadi islahatlar turizm sektorunun inkişafını stimullaşdırır [4].

Fransada və Azərbaycanda bu sahə əksər tədqiq edilən ölkələrdən daha prioritet (5,8 ball), lakin İspaniyadan (6,4), Yunanıstandan (6,1), Gürcüstandan (5,9) daha az prioritetli sayıla bilər. Respublikamızda turizm sahəsi (4,5 ball) Gürcüstandan (4,3), Rusiyadan (3,8), İtaliyadan (3,1), Ermənistandan (3,7) və digər ölkələrdən daha dayanıqlı, lakin Turkiyədə (4,7), İspaniya (4,8) və Fransada (4,8) olduğundan bir qədər az dayanıqlıdır [2].

Turizmin dünya və ölkə iqtisadiyyatındakı yeri getdikcə özünü daha qabarıq göstərməyə başlamışdır. Müxtəlif hesablamalara görə, bir nəfər xarici turistdən gələn gəlir 1 ton xam neftin satışından əldə olunan gəlirdən artıqdır. Turizmin ən çox inkişaf etdiyi ölkələrdən olan Türkiyədə bir şüar hökm sürür - bizim neftimiz turizmdir.

Bir çox inkişaf etmiş ölkələr turizmi və xidmət sferasını özlərinin iqtisadi inkişafının prioritet istiqaməti kimi təqdim edirlər, çünki bu sahə investisiya baxımından çox cəlbedicidir, ölkənin və regionların infrastrukturunun inkişaf etdirilməsinə, ölkəyə valyuta vəsaitləri axını gətirə bilir.

Dövlət tərəfindən turizmə qoyulan irimiqyaslı investisiyalar özəl sektorda xüsusi maraq yaradır və onlar bu investisiya proqramlarında dövlətlə bərabərhüquqlu iştirakçı olurlar. Bu faktı Türkiyənin timsalında görmək olar. Əvvəlcə, türk dövləti turizm sektoruna külli miqdarda investisiya qoymuş, sonradan turizm obyektlərini kontrakt idarəetmə müqavilələri əsasında yerli və xarici sahibkarların idarəçiliyinə vermiş, onlara vergi və bank kreditlərinə dair güzəştlər etmişdir. Bu addımları görən özəl investisiya kapitalı sahibləri dərhal dövlətin ardınca bu prosesə aktiv qoşulmuşdur. Dövlət isə sonradan öz iştirakını məhdudlaşdıraraq kənara çəkilmiş və turizm infrastrukturunun sosial komponentlərinə diqqət yetirmişdir.

Turizm sektorunun effektiv maliyyələşdirilməsi yalnız bu sektorun inkişafını deyil, həm də dövlətin sosial-iqtisadi inkişafını təmin edə bilər. Turizm sektorunun maliyyələşdirilməsi sektorun maliyyə resurslarının səfərbər edilməsini nəzərdə tutur, çünki bütün ölkələrdə turizm sektorunun cəlbediciliyini yüksəldən əsas amillərdən biri onun effektiv maliyyələşdirilməsi hesab olunur. Turizm sektorunun effektiv maliyyələşdirilməsi dedikdə onun inkişafı üçün zəruri sayılan maliyyə resursları ilə təmin edilməsi başa düşülür. İqtisadiyyatın digər sektorlarında olduğu kimi, turizm sektorunun düzgün idarə olunması və davamlı fəaliyyət göstərməyinin əsasını məhz onun effektiv maliyyələşdirilməsi təşkil edir [3].

Azərbaycanda turizm üçün xarakterik olan sahələrə yönəldilən investisiyalar 2019-cu ildə 133,7; 2020-ci ildə 45,8; 2021-ci ildə 242,4; 2022-ci ildə 100,5; 2023-cü ildə 630,7 və 2024-cü ildə 479,0 milyon manat olmuşdur [1].

Turizm iqtisadiyyatının inkişafına coğrafi-iqlim, mədəni-tarixi, iqtisadi, sosial, mövsümi, demoqrafik, siyasi-hüquqi, texnoloji və ekoloji amillər təsir göstərir.

İqtisadi amillərin turizmə təsiri onunla bağlıdır ki, turizmin və iqtisadiyyatın inkişaf meylləri arasında sıx qarşılıqlı əlaqələr mövcuddur. Ölkənin iqtisadi inkişafı ilə ümumi milli gəlir və onun vətəndaşlarının maddi vəziyyəti arasında birbaşa asılılıq vardır. Ona görə də iqtisadi cəhətdən inkişaf etmiş dövlətin vətəndaşları turist səfərlərinin sayına görə dünyada liderlik edir.

Turizmin inkişaf tempinə və miqyasına təsir edən iqtisadi amillərə inflyasiyanı, faiz dərəcəsini, valyutanın real məzənnəsinin dəyişməsinin və s. aid etmək olar. Valyuta məzənnəsinin dəyişməsi ölkələr arasında turist axınlarının həcminə əhəmiyyətli təsir göstərir. Hesablamalar göstərir ki, turist səfərinin nisbi maya dəyərinin 5% artması, turizm tələbini orta hesabla 6-10% azaldır.

Turizmin iqtisadi təsirlərinə ümumi daxili məhsulun (ÜDM) artırılması, valyuta axınının təmin edilməsi, məşğulluğun artırılması, infrastrukturun inkişafı daxildir [4].

Turizm sektoru məşğulluğun artırılmasında əhəmiyyətli rol oynayır. Dünya Turizm və Səyahət Şurasının (WTTC) məlumatlarına görə, dünya üzrə hər 10 iş yerindən biri turizmlə əlaqəlidir. Azərbaycanda yeni turizm məhsullarının təqdim olunması 2019-cu ildə 58,9; 2020-ci ildə 49,0; 2021-ci ildə 53,7; 2022-ci ildə 63,1; 2023-cü ildə 71,0 və 2024-cü ildə 79,9 mindən çox yeni iş yerinin yaradılmasına şərait yaratmışdır [1]. Müqayisə üçün qeyd edək ki, 2022-ci ildə Türkiyədə bu sektorda 2,5 milyondan çox insan çalışmışdır, ABŞ-da turizmlə əlaqəli 8 milyondan çox iş yeri mövcud olmuşdur və bu, məşğulluğun 10%-dən çoxunu təmin edir, Çində isə 6 milyondan çox insanın iş mənbəyi olmuşdur. Bunlar göstərir ki, turizm sektoru məşğulluq bazarının genişlənməsinə və sosial inklüzivliyin artmasına əhəmiyyətli töhfə verir [4].

Turizm sahəsində açılan hər bir iş yeri multiplikativ effekt prinsipi ilə 3-4, bəzən 6-7 yeni iş yerlərinin açılmasına səbəb olur. Yəni bu proses kənd təsərrüfatı və sənaye məhsullarının istehsalını genişləndirir, xidmət sahələrinin keyfiyyətinin idarə edilməsi üçün peşəkar kadrların yetişdirilirməsinə təkan verir. Bunlar hamısı yeni iş yerləri və bölgələrin inkişafı deməkdir.

Turizm sektoru qlobal və milli səviyyədə iqtisadi inkişafın güclü katalizatoru kimi çıxış edir. Bu sektor ÜDM-ə töhfəsi, məşğulluq imkanlarının artırılması, valyuta axınının təmin edilməsi və infrastrukturun inkişafına verdiyi dəstəklə ölkələrin dayanıqlı inkişafına mühüm töhfə verir. Turizm sektoru xarici valyuta axınının əsas mənbələrindən biridir. Məsələn, 2022-ci ildə Türkiyəyə gələn beynəlxalq turistlərin xərcləri 46 milyard ABŞ dollarını aşmışdır. Eyni ildə ABŞ-da beynəlxalq turistlərin xərcləri 110 milyard ABŞ dolları, Çinə gələn turistlərin valyuta xərcləri isə təxminən 33 milyard ABŞ dolları həcmində olmuşdur. Bu misallar onu göstərir ki, turizm sektoru xarici valyuta axınını, ölkələrin tədiyyə balansını stabilləşdirməklə yanaşı, makroiqtisadi göstəriciləri də yaxşılaşdırır [4].

Azərbaycanda turizmdən əldə edilən gəlirlər illər üzrə aşağıdakı cədvəl 1-də öz əksini tapmışdır (milyon manatla).

Azərbaycanda turagent və turoperatorların əldə etdikləri gəlirlər (cədvəl 1)

2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023	2024
29,6	31,1	36,5	36,8	41,0	56,4	63,4	16,2	22,6	53,4	78,8	166,4

İnkişaf etmiş ölkələrdə turizm sektoru daha yüksək məhsuldarlıq və gəlir səviyyələri ilə seçilir. Bu baxımdan turizmin Ümumi Daxili Məhsulda (ÜDM) payı mühüm göstəricilərdən biridir. Məsələn, İtaliyada turizm ÜDM-in 13%-ni təşkil edir və milyonlarla insanı məşğulluqla təmin edir. Azərbaycanda turizmin ÜDM-də payı isə aşağıdakı cədvəl 2-də verilən məlumatlarda öz əksini tapmışdır [1].

Azərbaycanda turizmin ÜDM-də payı, % (cədvəl 2)

2019	2020	2021	2022	2023	2024	2025
4,5	1,9	2,1	2,9	4,1	4,7	5,3

Son bir neçə ildə sağlamlıq turizmi sürətlə inkişaf edir. Sağlamlıq turizminin əsas üstünlüyü odur ki, 365 gün ərzində fəaliyyət göstərir, mövsümi deyil. Dünyada 100 milyona yaxın insan sağlamlıq turizmindən faydalanır. Dövlət Statistika Komitəsinin turizm üzrə göstəricilərinin təhlili onu göstərir ki, müalicə məqsədilə Azərbaycana gələn əcnəbilər cədvəl 3-də verilən məlumatlara müvafiq olmuşdur:

Sağlamlıq məqsədilə Azərbaycana gələn turistlərin sayı, min nəfər (cədvəl 3)

2022	2015	2016	2017	2018	2019	2020	2021	2023	2024
14,0	36,5	41,5	49,1	63,1	63,9	10,4	8,3	19,9	23,2

Pandemiya səbəbindən 2019-cu ildə Azərbaycana gələn turistlərin sayı 2020-ci ildə 4 dəfə, turizm gəlirləri isə 7 dəfə azalmışdır.

Ümumiyyətlə, Azərbaycana turizm məqsədlə gələn turistlərin ümumi sayı illər üzrə aşağıdakı kimi olmuşdur (cədvəl 4).

***T*urizm məqsədilə Azərbaycana gəlmiş turistlərin sayı, min nəfər (cədvəl 4)**

2015	2016	2017	2018	2019	2020	2021	2022	2023	2024
1921,9	2044,7	2454,0	2605,3	2863,5	519,4	461,7	1058,1	1402,6	1855,1

2025-ci ilin yanvar-noyabr aylarında 1 milyon 890 mindən çox əcnəbi vətəndaş Azərbaycana səfər edib [6]. İndi isə turizm sektorunun inkişafı və perspektivləri ilə əlaqədar vəziyyətlə tanış olaq. Əvvəlcə onu qeyd edək ki, turizm iqtisadiyyatının gəlirliyi qəbul edilən hüquqi-normativ aktlardan və turizmə təsir göstərən amillərdən asılıdır. Bu amillər sırasında siyasi-hüquqi amillər xüsusi rol oynayır. Siyasi baxımdan Azərbaycan öz dayanıqlığı ilə stabil ölkələr arasında layiqli yer tutur. Lakin respublikamızı əhatə edən coğrafiyada baş verən geosiyasi və hərbi hadisələr, quru sərhədlərimizin bağlı qalması turizmin inkişafına əngəllər törədir. Turizm sektorunun inkişafına mane olan əsas amillərdən biri isə sahibkarlıq subyektlərinə lisenziyaların dayandırılmasıdır. Yeni sahibkarlıq subyektlərinə lisenziyaların dayandırılması turizm sektorunun inkişafına və regionların iqtisadi potensialının reallaşmasına ciddi maneə yaradır. Əgər bölgələrdə yeni turizm obyektlərinə icazə verilmirsə, bu həm yeni iş yerlərinin açılmasını, həm turizm axınının artmasını, həm də regionların sosial-iqtisadi inkişafını ləngidir. Eyni zamanda mövcud obyektlərin fəaliyyətinin məhdudlaşdırılması yerli iqtisadiyyatın və turizm xidmətlərinin rəqabət qabiliyyətinə də mənfi təsir göstərir. Hər hansı bir fəaliyyətin lisenziyalaşdırılması və məhdudlaşdırılması sahibkarlığa mənfi təsir göstərir. Quru sərhədlərimizin bağlı olması fonunda hər hansı bir turizm müəssisəsinə lisenziyanın verilməsinin dayandırılması sektora ciddi problemlər yaradır [5].

Qeyd etmək lazımdır ki, azad edilmiş Qarabağ torpaqlarında turizmin inkişaf üçün böyük potensial vardır. Hazırda həyata keçirilən layihələr həmin bölgələrə xarici turistlərin cəlb edilməsinə geniş şərait yaradır. Əksər hallarda həmin məkanlarda yerləşən mehmanxana və otellərin, iaşə qiymətlərinin ölkə əhalisinin istifadəsinə maddi baxımdan uyğun olmamağı ümumi turist səfərlərinin sayını və müvafiq olaraq gəlirləri də lazımi səviyyəyə qaldırmağı təmin etmir.

Bu cəhətlərlə yanaşı qeyd etmək lazımdır ki, Azərbaycanın dünya səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi etməsi onu turizm potensialına malik bir ölkə kimi tanıtmışdır və turistlərin marağındadır. Yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzur bölgələri respublikanın əsas turizm zonasına çevriləcəkdir. Kəlbəcərdə 5 turizm rekreasiya zonası yaradılacaq. Bunlardan 2-si İstusu və Zülfüqarlı turizm rekreasiya zonaları sırf sağlamlıq turizmi baxımından ixtisaslaşmış zonalar olacaq. Xocavənddə Hadrut, Ağbulaq, Tuğ və Böyük Tağlar, Zəngilanda Qaragöz, Qubadlıda isə Qubadlı turizm və rekreasiya zonaları fəaliyyət göstərəcək [6].

Azərbaycanda yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaradır.

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti Avropa və Asiyanı birləşdirərək, Azərbaycanın strateji nəqliyyat qovşağı kimi mövqeyini gücləndirəcək. Bundan əlavə, Şimal-Cənub nəqliyyat dəhlizi kimi layihələr Azərbaycanın beynəlxalq turizm marşrutlarında əhəmiyyətini artırır və turistlərin səyahət müddətini daha rahat edəcək [4].

ƏDƏBİYYAT

1. Azərbaycanda turizm. Azərbaycan respublikasının Dövlət Statistika Komitəsi. Rəsmi nəşr. Statistik məcmuə. Bakı, 2025.
2. Allahverdiyeva L.Ə. İqtisadiyyatın dayanıqlı inkişafının təmin olunmasında turizmin rolunun artırılması yolları. İqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2016
3. Əlizadə Şəmşad, Novruzov Nicat. Azərbaycanda turizm sektorunun inkişafının maliyyə proqnozlaşdırılması problemləri. Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal. Bakı, 2024, səh.7-16
4. Turizm sektorunun ölkənin iqtisadi inkişaf indikatorlarına təsirinin ekonometrik təhlili. Magistr dissertasiyası. Xəzər Universiteti. Bakı, 2025
5. Turizm sektorunun inkişafına mane olan əsas amil açıqlandı: Necə həllini tapmalı? - https://crossmedia.az/az/article/74251
Bu istiqamətlərdən biri olan hüquqi baza və proqramlar sahəsi inkişafında qanunvericilik aktları və dövlət proqramları ilə tənzimlənir.Regional klasterlərin formalaşdırılması zamanı hər bir iqtisadi rayon öz resurslarına uyğun ixtisaslaşır.Nəqliyyat və kommunal xidmətlər infrastrukturun inkişafını təkmilləşdirilir. Yerli məhsulların brendləşdirilməsi və tanıdılması destinasiya menecmentində həyata keçirilir.Sahibkarlığa dəstək – güzəştlər, kreditlər və qrantlar vasitəsilə turizm fəaliyyəti stimullaşdırılır [4].Dövlət siyasətinin əsasını konkret proqram və qanunvericilik bazası təşkil edir. "Regionların sosial-iqtisadi inkişafı" dövlət proqramları çərçivəsində turizm infrastrukturu yenilənir və genişləndirilir [1]. "Turizm haqqında" qanun sahədə xidmət keyfiyyətinin artırılmasına və beynəlxalq standartlara uyğunlaşdırılmasına xidmət edir. Eyni zamanda, strateji yol xəritələri vasitəsilə turizmin inkişaf istiqamətləri, hədəflər və göstəricilər müəyyən edilir [7]. Azərbaycanın iqtisadi rayonları regional turizm potensialına görə. zəngin təbii, tarixi və mədəni resurslara malikdir [5].Bu müxtəliflik turizmin inkişafı üçün geniş imkanlar yaradır.

Təbii gözəllikləri və qış turizmi ilə Quba-Xaçmaz iqtisadi rayonu tanınır. Şahdağ turizm kompleksi beynəlxalq səviyyəli mərkəzlərdən biridir. Bu region dağlıq relyefi, meşə sahələri və əlverişli iqlimi ilə seçilir. Qış turizmi ilə yanaşı, yay mövsümündə də dağ yürüşləri, kənd turizmi və ekoturizm geniş yayılmışdır. Şahdağ kompleksi regionun turizm lokomotivi rolunu oynayır.

Tarixi İpək Yolunun üzərində yerləşən Şəki-Zaqatala iqtisadi rayonu zəngin mədəni irsi ilə fərqlənir. Şəki Xan Sarayı, qədim karvansaraylar və xalq sənətkarlığı nümunələri turistlərin marağını artırır. Eyni zamanda, aqroturizm, bal və qoz məhsulları ilə bağlı kənd təcrübələri geniş yayılmışdır. Mədəni-tarixi turizm (Şəki Xan Sarayı, Karvansaray, tarixi abidələr), ekoturizm və dağ turizmi (dağ yürüşləri, meşə mənzərələri, Zaqatala Dövlət Təbiət Qoruğu), aqroturizm və kənd turizmi (kənd həyatı, bal, qoz və yerli məhsullar), sağlamlıq turizmi (Zaqatala mineral suları) ilə fərqlənir.

Ekoturizm və dağ turizmi üçün Dağlıq Şirvan iqtisadi rayonu əlverişlidir. Şamaxı ərazisində yerləşən tarixi abidələr və Pirqulu qoruğu turistlərin marağına səbəb olur. Bu region astronomiya turizmi (Şamaxı Astrofizika Rəsədxanası) ilə də seçilir. Tarixi abidələr və təbii qoruqlar turistlər üçün cəlbedici məkanlardır.

Xəzər sahili boyunca uzanan Abşeron-Xızı iqtisadi rayonu çimərliklər, müasir istirahət mərkəzləri və tarixi qalalar bu regionun əsas üstünlüklərindəndir. Burada həm kütləvi, həm də fərdi turizm növləri inkişaf edir.Dəniz turizmi (Xəzər sahili və çimərliklər), ekoturizm (Xızı dağları), tarixi-mədəni turizm (qədim qəsrlər), aqroturizm (kənd həyatı və yerli məhsullar) inkişaf edir.

Əsas mərkəz və beynəlxalq tədbirlərin keçirildiyi əsas məkan kimi Bakı iqtisadi rayonu çıxış edir./ Müasir memarlıq, muzeylər və əyləncə infrastrukturu şəhəri regionun əsas cazibə nöqtəsinə çevirir.

Tarixi abidələr və dağ gölləri ilə Gəncə-Daşkəsən iqtisadi rayonu turistləri cəlb edir. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə və ətraf ərazilər tarixi abidələr, dağ gölləri və mineral bulaqlarla zəngindir. Bu region sağlamlıq və ekoturizm üçün böyük potensiala malikdir.

Üzümçülük və kənd təsərrüfatı ənənələri ilə seçilən Qazax-Tovuz iqtisadi rayonu aqroturizm üçün əlverişlidir. Tarixi qalalar və qədim yaşayış məntəqələri mədəni turizmi də inkişaf etdirir.Tarixi-mədəni turizm (Qazax və Tovuzdakı qədim qalalar və abidələr), ekoturizm və dağ turizmi (dağ və meşə yürüşləri), aqroturizm və kənd turizmi (kənd həyatı, yerli məhsullar).

Müharibədən sonra bərpa olunan Dağlıq Qarabağ iqtisadi rayonu böyük turizm potensialına malikdir. Tarixi abidələrin bərpası və yeni turizm marşrutlarının yaradılması regionun gələcək inkişafını təmin edə bilər.Mədəni-tarixi turizm (qalalar, tarixi abidələr, məscidlər), ekoturizm və dağ turizmi (dağ yürüşləri, unikal təbiət mənzərələri), aqroturizm və kənd turizmi (kənd həyatı, yerli məhsullar), macəra turizmi və foto-turizm (unikal dağ və meşə mənzərələri).

Dağlıq landşaftlar, çaylar və meşələr macəra və ekoturizm üçün geniş imkanları olan Şərqi Zəngəzur iqtisadi rayonu yaradır. Bu regionun turizm infrastrukturu mərhələli şəkildə inkişaf etdirilir [8]. Mədəni-tarixi turizm (tarixi abidələr, qalalar, məscidlər), ekoturizm və dağ turizmi (dağ yürüşləri, unikal təbiət mənzərələri), aqroturizm və kənd turizmi (kənd həyatı, yerli məhsullar), macəra turizmi və foto-turizm (unikal dağ və meşə mənzərələri).Dağlıq Qarabağ və Şərqi Zəngəzur bölgələri zəngin tarixi irsə və unikal təbiətə malikdir, burada mədəni və dağ turizminin inkişafı üçün geniş perspektivlər mövcuddur [8].

Mingəçevir su anbarı və digər su hövzələri Aran iqtisadi rayonu su turizminin inkişafına şərait yaradır. Eyni zamanda, kənd turizmi də potensial istiqamətlərdəndir.Sağlamlıq turizmi ilə də seçilir.

Kənd təsərrüfatı əsaslı turizm, xüsusilə pambıqçılıq və digər sahələr üzrə təcrübə turizmi Mil-Muğan iqtisadi rayonunda inkişaf etdirilə bilər. Regionun düzənlik landşaftı fərqli turizm məhsullarının yaradılmasına imkan verir.Ekoturizm (subtropik təbiət, dağ və çöl mənzərələri), mədəni-tarixi turizm (tarixi abidələr və etno-mədəni mərkəzlər).

Termal sular və təbii ehtiyatlar sağlamlıq turizminin inkişafına Şirvan-Salyan iqtisadi rayonu imkan yaradır. Eyni zamanda, quş müşahidəsi və ekoturizm də perspektivlidir. Sağlamlıq turizmi (Şirvan və Salyan mineral və termal suları), ekoturizm (çöl və su resursları), mədəni-tarixi turizm (tarixi abidələr, etno-mədəni yerlər), aqroturizm (kənd həyatının və yerli məhsulların təcrübəsi).

Subtropik iqlimi, Hirkan meşələri və Xəzər sahili ilə Lənkəran-Astara iqtisadi rayonu seçilir.Ekoturizm, kənd turizmi və kulinariya turizmi burada geniş yayılmışdır.

Həm tarixi abidələri, həm də müalicəvi turizm imkanları ilə Naxçıvan iqtisadi rayonu diqqət çəkir.Duzdağ müalicə mərkəzi beynəlxalq səviyyədə tanınır.

İqtisadi rayonların inkişafını daha da artırmaq üçün infrastrukturun təkmilləşdirilməsi və sahibkarlığa dəstək mexanizmləri formalaşdırılır. Turizmin inkişafında infrastruktur mühüm rol oynayır [3]. Regionlara gedən avtomobil yolları yenilənir, yeni hava limanları

istifadəyə verilir. Bununla yanaşı, turizm bölgələrində qaz, su, elektrik və internet kimi kommunal xidmətlərin keyfiyyəti yüksəldilir. Dövlət turizm sahəsində sahibkarlığa dəstək mexanizmləri fəaliyyət göstərən sahibkarlara müxtəlif dəstək mexanizmləri təqdim edir:●vergi güzəştləri;●aşağı faizli kreditlər və qrantlar;●kənd turizminin inkişafı üçün təşviq proqramları [4].

Aqroturizmin inkişafı xüsusilə diqqət mərkəzindədir və kənd sakinlərinin bu sahəyə cəlb olunması üçün xüsusi standartlar tətbiq olunur [6].

Ümumilikdə, Azərbaycanda regional turizmin inkişafı iqtisadiyyatın şaxələndirilməsi və regionların sosial rifahının yüksəldilməsi baxımından strateji əhəmiyyətə malikdir [5]. Hər bir iqtisadi rayonun özünəməxsus potensialı düzgün qiymətləndirildikdə, ölkə beynəlxalq turizm bazarında daha güclü mövqe əldə edə bilər. Bu istiqamətdə həyata keçirilən dövlət siyasəti gələcəkdə turizm sektorunun daha da genişlənəcəyini göstərir [7].

ƏDƏBİYYAT

1.Məmmədov, Elçin Əli oğlu. Azərbaycan iqtisadiyyatı və turizmin inkişafı. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2020, s.12-40.
2.Əliyev, Rauf Kamal oğlu.Regional inkişaf və turizm siyasəti.Bakı:Elm və Təhsil,2019,s.25-48.
3.Həsənov, Tural Vaqif oğlu. Turizmin idarə olunması. Bakı: Azərbaycan Universiteti nəşriyyatı,2021,s.18-60.
4.Quliyev, Namiq Rəşid oğlu. Turizm sektorunda sahibkarlıq fəaliyyəti. Bakı: Biznes nəşriyyatı,2018, s.30-52.
5.İbrahimov, Samir Ədalət oğlu.Azərbaycanın turizm potensialı.Bakı:Şərq-Qərb, 2022, s.55-70.
6.Smith,John Andrew.Tourism Development and Economic Growth.London:Routledge Publishing,2017, p.44-90.
7.Brown, Michael David. Regional Tourism Planning. New York: Springer Publishing, 2018, p.62-88.8.Williams,Peter James. Sustainable Tourism Management.Oxford:Oxford University Press,2019,p.73-95.

DEVELOPMENT PROSPECTS AND STRATEGIC APPROACHES OF REGIONAL TOURISM IN AZERBAIJAN

Tahmina Adalat qızı Abbaszada
Abbaszade.tehmine98@gmail.com
Xudayar Bakir oglu Məmmədov
Samir Vahid oglu İbadlı
Azerbaijan Technological University

This article examines the development of regional tourism in Azerbaijan and the role of state policy in this process. It highlights the importance of tourism as a priority direction in the national economic strategy, aimed at diversifying the economy and increasing regional employment. The study analyzes strategic approaches, infrastructure development, and support mechanisms for entrepreneurship. Additionally, it explores the tourism potential of different economic regions of Azerbaijan, emphasizing their natural, historical, and cultural resources. The findings indicate that effective state policy and proper utilization of regional potential can strengthen Azerbaijan's position in the international tourism market.

Keywords: Regional tourism, Azerbaijan, tourism development, state policy, economic, diversification, infrastructure, sustainable

TURİZM SEKTORUNUN DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ İQTİSADİYYATIN DİGƏR SAHƏLƏRLƏ İNTEQRASİYASININ XÜSUSİYYƏTLƏRİ VƏ PERSPEKTİVLƏRİ

Təhminə Ədalət qızı Abbaszadə
Abbaszade.tehmine98@gmail.com
Emin Anar oğlu İskəndərov
eminiskenderov280@gmail.com
Məhəmmədiyə Həmdiyə oğlu İsrəfilzadə
mehemmediye.isrefilzade.0909@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Davamlı inkişafda üçlü balans yanaşması iqtisadi, sosial və ekoloji balansın qarşılıqlı və harmonik şəkildə inkişafını nəzərdə tutur. Bu üç əsas sütun bir-birindən asılıdır və hər birinin inkişafı digərlərinin güclənməsinə şərait yaradır [7].Turizm sektoru iqtisadiyyatın mühüm sahələrindən biri kimi həm iqtisadi artıma, həm də sosial rifaha töhfə verir. Onun effektiv inkişafı digər sektorlarla əməkdaşlıqdan asılıdır [3]. Üçlü balansın əsas sütunları iqtisadi balans, sosial rifah,ekoloji tarazlıqdır.İqtisadi balans – resursların səmərəli istifadəsi və uzunmüddətli iqtisadi artımını[6]; sosial rifah – yerli icmaların inkişafı və mədəni irsin qorunmasını[2]; ekoloji tarazlıq – təbii resursların qorunması və ətraf mühitin davamlılığını təmin edir[1].

Davamlı turizm isə təbii və mədəni resursların qorunması, yerli icmaların rifahı və ekoloji davamlılıq prinsiplərinə əsaslanır. Bu yanaşma uzunmüddətli inkişafı hədəfləyir. Resursların qorunması-təbiət resurslarının həddindən artıq istifadə olunmadan səmərəli idarə və barpa edilməsini; yerli icmaların rifahı –turizmdən əldə edilən gəlirlərin yerli icmaya qayıtması və onların sosial-iqtisadi inkişafının istifadəsini; mədəni irsin qorunması-yerli mədəniyyəti, adət-ənənələrin, dəyərlərin təbii tərəfdən qorunması və təbii formada saxlanılmasını təmin edir.[8].

Turizmin davamlı inkişafı üçün bir sıra sahələrlə əməkdaşlıq mühüm rol oynayır: Bunlara aşağıdakılar aiddir:

Turizm və kənd təsərrüfatı ilə əməkdaşlığı davamlı inkişaf baxımından böyük əhəmiyyət daşıyır.Turizm müəssisələrinin yerli kənd təsərrüfatı məhsullarından istifadə edilməsi fermerlərin gəlirlərinin artırılmasına və kənd yerlərinin iqtisadi inkişafına səbəb olur.Bu əməkdaşlıq nəticəsində aqroturizm kimi yeni turizm növü yaranır.[4]

Nəqliyyat infrastrukturu turizmin inkişafında əsas rol oynayır və regionların əlçatanlığını artırır və turizm potensialının daha geniş şəkildə istifadə olunmasına imkan verir. [3].

Tarixi abidələr, muzeylər, milli adət-ənənələr və müxtəlif mədəni tədbirlər turistlərin diqqətini çəkir. Turizm bu mədəni dəyərlərin qorunmasına və təbliğinə kömək edir[2].

Araşdırmalardan məlum olur ki, bərpa olunan enerji mənbələri turizm obyektlərinin ekoloji dayanıqlığını təmin edir və ətraf mühitə təsiri azaldır [1].

Turizmin digər sektorlarla inteqrasiyası iqtisadi artım, yeni iş yerlərinin yaradılması və regional inkişafı sürətləndirir [3].Turizm və digər sektorlar arasında əməkdaşlıq üçlü balans prinsipinə əsaslanan davamlı inkişafı təmin edir. Bu yanaşma iqtisadi səmərəliliyi artırmaqla yanaşı, sosial rifahı yüksəldir və ekoloji tarazlığı qoruyur [8].

Müxtəlif əməkdaşlıq modelləri turizm sektorunun digər sahələrlə daha səmərəli əməkdaşlığını təmin edir. Araşdırmadan məlum olur ki, bu modellər dövlət, özəl və yerli icmalar arasında strateji əlaqələrin qurulmasına imkan verir.Bu əməkdaşlıqların həyata keçirilməsi iqtisadi, sosial və ekoloji baxımdn faydaları daha çoxdur. Yeni iş yerlərinin yaradılması, yatırımların cəlb edilməsi, yerli və milli gəlirlərin artması, yerli icmaların sosial-iqtisadi inkişafı, yerli qadınların iqtisadi fəaliyyətə cəlb edilməsi, təbiət resursların səmərəli və məsuliyyətli istifadəsi, ekoloji tarazlığın qorunması və bərpa edilməsi əsas faydalardandır [8].

Turizmin digər sahələrlə əməkdaşlığı zamanı iqtisadi, sosial və ekoloji risklər də ola bilər.Bu risklərin zamanında öyrənilib ona aid işlərin əvvəlcədən görülməsi mühüm rol oynayır.Bu risklərin azaldılması üçün strateji planlama, monitorinq və qiymətləndirmə, mövcud vəziyyətin qiymətləndirilməsini müəyyən etmək lazımdır.

Araşdırmalar nəticəsində məlum olur ki, düzgün aparılmış strategiyalar nəticəsində turizmdə davamlı inkişafı təmin etmək və digər sektorlarla əlqalərin genişlənməsini təmin etmək olur .Səmərəli əməkdaşlığın tətbiqi, davamlı turizmin təşviqi, sektorlararası əlaqələrin möhkəmləndirilməsi və rəqəmsal informasiya əsas strategiyalardandır [4].

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi.Yaşıl iqtisadiyyat konsepsiyası. 2022.

2.Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi.Turizm və mədəni irsin qorunması strateg. Bakı, 2021.

3.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Dayanıqlı inkişaf göstəriciləri. Bakı, 2023.

4.Həsənov E.T., Turizm və ekoloji sistemlər, Bakı: Bakı Universiteti nəşriyyatı, 2022, s.33–70.

5.Holden, A. Environment and Tourism. Routledge, 2016.

6.Məmmədov A.Ə., Dayanıqlı inkişaf və iqtisadiyyat, Bakı: Elm nəşriyyatı, 2021, s.12–90.

7.UNWTO. Sustainable Tourism Development Guide. Madrid, 2021.

8.Weaver, D. Sustainable Tourism: Theory and Practice. Elsevier, 2006.

9. https://www.unwto.org/sustainable-development.

FEATURES AND PROSPECTS OF THE INTEGRATION OF THE TOURISM SECTOR WITH OTHER ECONOMIC SECTORS IN THE CONTEXT OF SUSTAINABLE DEVELOPMENT

Təhminə Ədalət qızı Abbaszadə
Abbaszade.tehmine98@gmail.com
Emin Anar oğlu İskəndərov
eminiskenderov280@gmail.com
Məhəmmədiyə Həmdiyə oğlu İsrəfilzadə
mehemmediye.isrefilzade.0909@gmail.com
Azerbaijan Technological University

This study explores the integration of the tourism sector with other areas of the economy in the context of sustainable development. Tourism plays an important role in economic growth, social well-being, and environmental protection.

The paper highlights the cooperation of tourism with sectors such as agriculture, transport, culture, and energy. These interactions support local development, improve infrastructure, and promote cultural heritage.

Overall, effective integration of tourism with other sectors contributes to long-term sustainable development and increased economic efficiency.

Keywords: sustainable development, tourism sector, economic integration, environmental sustainability, social welfare, agro-tourism, infrastructure, cultural heritage.

AZƏRBAYCANA GƏLƏN TURİSTLƏRİN STATİSTİK ANALİZİ : 2020- 2025-Ci İLLƏR (ŞƏKİ ŞƏHƏRİ)

Tural Tahir oğlu Ələkbərov
turalekbarov@gmail.com
Sevil Famil qızı Məmmədova
mmdovasevil88@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Dövlət Sərhəd Xidmətinin məlumatına görə, COVID-19 pandemiyası səbəbindən 2020-ci ildə gələnlərin sayı əvvəlki ilə nisbətən 74,9% azalaraq 796 min nəfərə enib. Ən böyük bazar payı olan 10 ölkədən gələnlərin sayının ən böyük hissəsi Rusiya (225,2 min),

Gürcüstan (184,2min), Türkiyə (160,5 min) və İran üzrə (72,8 min) müşahidə edilib. Sərhəd keçid məntəqələrində tətbiq edilən məhdudiyyətlər və "ASAN Viza" sisteminin bağlanması səbəbindən yalnız viza rejimi tətbiq olunmayan qonşu ölkələrdən gəlmə sayında nəzərəçarpan nəticə qeydə alınıb. 2020-ci ildə Azərbaycana gələn əcnəbilərin 65%-i (519,3 min) yanvar-mart ayları ərzində ölkəyə səyahət edib.Ən çox gəlmə sayına görə ilk 5 ölkə – Türkiyə, Rusiya, Gürcüstan, İran və Ukrayna ümumilikdə gələnlərin 92%- ni təşkil edir. Bütün bu ölkələr üzrə gəlmə sayına görə azalma qeydə alınıb. Rusiya, Gürcüstan, Türkiyə, İran və Ukrayna üzrə – müvafiq olaraq 76%, 75%, 49%, 72% və 71% azalma qeydə alınıb. 2020-ci il ərzində bu ölkələrdən gələnlərin 61%-i yanvar-mart ayları ərzində Azərbaycana səfər etmişdir.Rəsmi statistikaya əsasən, 2025-ci ildə turizm məqsədilə ölkəyə ən çox səfər edənlər Rusiya Federasiyasının vətəndaşları olub. Ümumi turist axınının 27,1 faizi və ya 489 147 nəfər Rusiyanın payına düşüb. Türkiyə 12 faiz və ya 217 472 nəfərlə ikinci, Hindistan isə 8,7 faiz və ya 156 816 nəfərlə üçüncü yerdə qərarlaşıb.Bununla yanaşı, Səudiyyə Ərəbistanı (5,7 faiz), Qazaxıstan (4,7 faiz) və Pakistan (3,9 faiz) də ölkəyə ən çox turist göndərən dövlətlər sırasında yer alıb.

Qalan 37,9 faiz və ya 684 481 nəfər isə digər müxtəlif ölkələrdən gələn turistlərin payına düşür.Bakı bütün daxili səyahətlərin 35,3%-ni təşkil etməklə, ölkədə ən çox səyahət edilən şəhərdir. Sumqayıt, Qəbələ, Şəki, Gəncə, Qusar, Lənkəran, Quba, Masallı və Şamaxı kimi şəhərlər yerli turistlərin ən çox ziyarət etdikləri şəhərlərdir. Sumqayıt, Qəbələ, Şəki və Gəncə şəhərləri daxili səfərlərin təxminən 3,2-3,9%-ni tutur . Qusar, Gəncə, Masallı və Şamaxı şəhərləri isə daxili səfərlərin 3%-dən azını təşkil edir.ən çox ziyarət edilən yerlər 32-61% arasında dəyişməklə dost və qohumları ziyarət etmək məqsədini daşıyır . Bakı, Sumqayıt və Gəncəyə səfərlərin təxminən üçdə biri və digər şəhərlərə səfərlərin yarıdan çoxu dost və qohumları ziyarət etmək üçün edilən səfərlərdir. İşgüzar səfərə gələn yerli turistlərin əsas istiqaməti Bakı (21%) və Sumqayıt (18%) şəhərləri olub. [3]

Bakı və Sumqayıt yerli turistlər arasında istirahət yeri kimi məşhur olmadığından daxili səfərlərin yalnız 14% və 8%-i bu məqsədlə qeydə alınıb. 2020-ci ildə yerli turistlər üçün əsas istirahət məkanları Qəbələ (41%), Quba (39%), Qusar (38%), Şəki (37%) və Şamaxı (35%) olub. Sağlamlıq məqsədilə edilən səfərləri yerli turistlər arasında elə də məşhur olmayıb, bu məqsədlə edilən səfərlərin ən böyük payı Bakı və Sumqayıtda qeydə alınıb, müvafiq olaraq 17% və 19%.Turist"2025-ci ilin ilk rübündə hotel və mehmanxana tipli obyektlərdə turistlərin keçirdiyi gecələmələrin sayı 484.9 min olub. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11.9 faiz çoxdur. Turistlərin üstünlük verdiyi hotellərin 77,5 faizi Bakıda, 12,7 faizi Qusarda, 3,5 faizi Naftalanda, 2,7 faizi Qəbələdə, 1,8 faizi Qubada, 0,4 faizi Şamaxıda, 1,4 faizi isə digər şəhər və rayonlardakı mehmanxanalarda qeydə alınıb. Göründüyü kimi, yenə də xaricilər əsasən Bakıya üstünlük verirlər. Ölkəyə gələn hər 100 turistin 77-i paytaxtdan kənara səfər etmir".Xaricilər üçün ilk üçlüyü Naftalan tamamlayır. Bu də həmin şəhərimizdə sağlamlıq turizminin təmərkəzlüşməsi ilə bağlıdır. Deməli, regionlarda ənənəvi mövsümi turizm ilə yanaşı və əslində daha çox yeni turizm məhsullarına ehtiyac var. Turistlər üçün cəlbedici olan qış, sağlamlıq turizm ilə yanaşı, tarixi, dini və mədəni turizmin də inkişafı vacibdir.Bütün bunlar ilə yanaşı, bölgələrimiz xarici tursit cəlb etməkdə paytaxt hotellərinə yenə də uduzurlar. Paytaxtın infrastrukturunu nəzərə aldıqda bu normal qarşılana bilsə də regional gecələmə sayında fərqin böyük olması diqqəti çəkir.[2]

Təəssüf ki, hələ də bölgələr turizm potensialını tam təqdim edə bilmirlər və da xarici turist

cəlbində çətinlik yaradır. Digər tərəfdən, əksər rayonlarda turizm xidmətlərinin qiyməti yüksək olaraq qalmaqdadır. Keyfiyyət isə hələ də standartlardan geri qalır. Bildiyiniz kimi rayonlar üzrədə turistlərin statistik analizi dəyişir. Şəki Xan Sarayı Azərbaycanın ən çox ziyarət edilən tarixi abidələrindən biri olduğu üçün buraya gələn turistlərin sayı regionun ümumi turizm göstəricilərində həlledici rol oynayır.Turistlərin ən çox üz tutduğu məkan "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğudur. Xüsusilə Şəki Xan Sarayının 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsindən sonra bu əraziyə axın daha da güclənib. Yay aylarında bu bölgəni ziyarət edənlərin sayında kəskin artım müşahidə olunur. 2020–2025-ci illər üzrə Şəki rayonunda turizmin statistik analizi pandemiya sonrası bərpa və artım dinamikasını aydın göstərir.

COVID-19 məhdudiyyətləri səbəbindən ölkə səviyyəsində xarici turist sayında 74.9% azalma qeydə alınmışdı. Bu dövrdə Şəki daha çox məhdud sayda daxili turist qəbul edirdi. Turizm sektorunda canlanma başladı. 2024-cü ilin statistikasına görə, Şəki xarici turistlərin sayına görə regionlar arasında 8-ci yerdə qərarlaşıb (təxminən 4,881 xarici turist). Şəki Regional Turizm İdarəsinin 2025-ci ilin sonuna olan məlumatına görə, il ərzində rayona gələn rəsmi turist sayı 21 min nəfəri ötüb2024-cü il Statistikası:Ötən il Şəkidə turizm sektoru əvvəlki illə müqayisədə 11.7% artım nümayiş etdirmişdir: Ümumi rəsmi say: Hotel və mehmanxana tipli müəssisələrdə 15 265 nəfər turist qeydiyyata alınıb. Yerli turistlər: 10 384 nəfər. Xarici turistlər: 4 881 nəfər (əsasən Çin, Hindistan, Rusiya, Türkiyə). 2025-ci ilin sonuna olan məlumatlara görə Şəki regionunda müsbət dinamika davam edir. Gecələmə sayı: Yerləşmə müəssisələrində ümumi gecələmə sayı 21 000 nəfəri ötüb. Şəki turizm potensialına görə lider olsa da, rəqəmsallaşma, peşəkar kadr hazırlığı və nəqliyyat əlçatanlığı sahələrində hələ də həllini gözləyən məsələlər mövcuddur.[1]

Ancaq infrastrukturun yaxşılaşdırılması, yolların təmiri, nəqliyyatın əlçatanlığı,yeni restoranların açılması, turistlərin maraqları istiqamətində tədbirlərin görülməsi turistlərin buraya gəlməsini sürətləndirə bilər. Bu zaman həmçinin yerli əhalidə işlə təmin olunar.

Nəticə:Aparılan təhlillər göstərir ki, 2020-2025-ci illərdə Azərbaycan da turizm sürətlə inkişaf etməyə başlamışdır. Ancaq bu prosesi sürətləndirmək üçün turistlərin maraqları istiqamətində tədbirlər həyata keçirilməlidir. Turizmi həvəsləndirmək üçün birinci növbədə insanlara imkan verilməlidir ki, bu sahəyə sərmayə qoysunlar. Həm otellər tikilsin, həm əyləncə obyektləri, həm restoranlar, həm də yerli agentliklər yaradılsın".Son dövrlər dünyada əsas trendlərdən biri də kənd turizmi və ekoturizmdir və Şəkidə də bu istiqamətdə də işlər görmək olar.Müasir texnoloji avadanlıqlardan istifadə edərək, ölkə daxilində rəqabət qabiliyyətini artıraraq turist axınını sürətləndirmək olar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi-Statistika 2024-2025 https://tourism.gov.az
2. Annual Tourism Statistics İllik Turizm Statistikası.2020 https://tourism.gov.az
3. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi –İLLİK TURİZM STATİSTİKASI 2023 https://tourism.gov.az
4. Dövlət Statistika Komitısi və Azərbaycan Turizm Agentliyinin hesabatları

STATISTICAL ANALYSIS Of TOURISTS COMING TO THE REPUBLIC OF AZERBAIJAN 2020-2025 (SHAKİ DİSTİRCT)

Tural Tahir oglu Alakbarov
turalekbarov@gmail.com
Sevil Famil gizi Mammadova
mmdovasevil88@gmail.com
Azerbaijan Technological University

This study analyzes the statistical analysis of tourists coming to the Republic of Azerbaijan during the years 2020-2025. The study is a drop in statistics during the COVID-19 crisis. In 2024-2025, growth is observed. Certain measures are planned to accelerate the flow of tourists. Appropriate measures should be taken to increase the statistical indicators

of tourists coming to Sheki region. It is for this purpose that the implementation of infrastructure projects, the taking of measures in the direction of the interests of tourists, the opening of new restaurants and the construction of hotels, create conditions for the opening of new workplaces. Buda creates conditions for increasing the employment of the local population.

Keywords: analyzes, the statistical, tourists, 2020-2025, Azerbaijan.

СЕГМЕНТИРОВАНИЕ ТУРИСТИЧЕСКОГО РЫНКА АЗЕРБАЙДЖАНА: ТЕОРИЯ И ПРАКТИКА

Джумшуд Ибрагим оглы Джаббаров
c.cabbarov@atu.edu.az
Азербайджанский Технологический Университет

В маркетинге под сегментированием понимается процесс разделения рынка на отдельные сегменты – группы потребителей (или потенциальных потребителей), обладающих схожими запросами, удовлетворяемыми определенным комплексом маркетинга. Однако, согласно более широкой трактовке В.Е. Ланкина, сегментация рынка представляет собой дифференциацию любого рынка на отдельные части с учетом множества критериев и факторов, где сегментом могут выступать не только потребители, но и группы продуктов, предприятий-конкурентов и иных субъектов рыночной среды.

Ключевыми принципами сегментирования являются:

- Принцип различия между сегментами – каждый сегмент должен иметь уникальные характеристики и потребности;
- Принцип сходства потребителей внутри сегмента – однородность реакции на маркетинговые стимулы;
- Принцип измеримости сегмента – возможность количественной оценки емкости и покупательской способности;
- Принцип доступности сегмента – наличие эффективных каналов коммуникации и сбыта.

Основные цели сегментации в туризме включают выявление прибыльных сегментов, адаптацию туристского продукта под ожидания конкретных групп, повышение конкурентоспособности за счет концентрации ресурсов на выбранных нишах, а также оптимизацию маркетинговых расходов путем точного таргетирования рекламных кампаний.

Сегментация туристического рынка осуществляется по трем основным группам признаков: географическим, социодемографическим и психолого-поведенческим характеристикам потребителей.

Географические признаки включают страну постоянного проживания, географическое положение места отдыха и цель тура. Согласно данным за 2025 г., основными странами-донорами для Азербайджана являются Россия (24,2%), Турция (17,6%), Иран (8,1%) и Индия (6,4%), что диктует необходимость дифференцированного маркетингового подхода к туристам из разных регионов.

Социодемографические признаки охватывают возраст, пол, профессию, уровень дохода, состав семьи и социальный статус. Статистика въездного потока показывает, что среди туристов, посещающих Азербайджан, преобладают мужчины (66,7% против 33,3% женщин), что позволяет выделить гендерно-ориентированные сегменты спроса.

1. Метод «a priori» – предварительное выделение сегментов на основе заданных признаков до проведения исследования;
2. Метод «post hoc» (K-сегментирование) – эмпирическое выделение сегментов на основе кластерного анализа потребителей;
3. Метод составления функциональных карт – двойная сегментация по продукту и потребителю для выявления соответствия параметров изделия запросам целевых групп.

Современные исследования активно внедряют интеграцию личностных черт в традиционные демографические методы. Так, кластерный анализ, примененный в исследовании, позволил выделить пять уникальных сегментов посетителей: «сдержанные исследователи», «культурно любопытные», «старательные искатели приключений», «социальные исследователи» и «сбалансированные исследователи», что демонстрирует эффективность использования психографических данных для динамической сегментации.

3. Этапы сегментирования

Процесс сегментирования включает пять последовательных этапов:

1-й этап – определение возможных признаков сегментирования. На данном этапе проводится предварительное изучение потребителей, опрос продавцов компании и анализ социально-демографических характеристик.

2-й этап – проведение опроса. Составляется опросный лист с закрытыми вопросами, и проводится опрос клиентов, совершивших покупку в течение локального промежутка времени (предпочтительно 1 месяца).

3-й этап – определение «пригодных» признаков. Вычисляется математическая корреляция между предполагаемыми признаками; высокий уровень корреляции указывает на возможность совместного использования признаков для формирования устойчивых сегментных групп.

4-й этап – выделение сегментов. На основе полученных признаков формируются сегментные группы, количество которых обычно не превышает 5–6. Группы с наиболее высоким процентом выделяются как целевые сегменты рынка.

5-й этап – формулировка сегментов. Выделенным сегментам присваиваются маркетинговые «прозвища» (например, «новичок», «старожила»), и на их основе производится дальнейшее проектирование и позиционирование продукта.

4. Особенности сегментирования в маркетинге туризма (на примере потребителей)

Сегментирование в туризме имеет ряд специфических особенностей, обусловленных характером туристской услуги:

- Расхождение ролей покупателя и потребителя – нередко бронирование и оплату тура осуществляет одно лицо (например, корпоративный заказчик), а непосредственным потребителем услуги выступает другое;
- Множественность мотивов выбора – решение о приобретении туруслуги зависит от цели путешествия, наличия свободного времени, продолжительности и частоты отдыха;
- Групповая динамика – при групповых путешествиях общий интерес может отличаться от индивидуальных потребностей каждого члена группы;
- Временная дифференциация мотивации – мотивы туристов, приобретающих туры заблаговременно, существенно отличаются от мотивов покупателей «горящих путевок».

Анализ мотивационных исходов позволяет классифицировать туристов по следующим основаниям:

- единый преобладающий мотив (главная цель путешествия);

- один превалирующий мотив с несколькими вторичными (выбор возможен при стечении обстоятельств);
- главный мотив с четко выделенными сопутствующими исходами.

Анализ динамики въездного туризма Азербайджана за 2019–2025 гг. демонстрирует устойчивое постпандемийное восстановление и трансформацию структуры спроса:

Таблица 1
Динамика числа иностранных граждан, прибывших в Азербайджан (тыс. чел.)

Год	Всего прибывших	Туристические цели	в т.ч. отдых, досуг
2019	3 170,4	2 863,5	1 164,0
2020	795,7	519,4	164,9
2021	791,8	461,7	132,4
2022	1 602,3	1 058,1	398,5
2023	2 085,8	1 402,6	938,3
2024	2 626,7	1 855,1	1 261,6

Согласно данным за январь–ноябрь 2025 года, страну посетили 2 364 тыс. иностранных граждан, что на 2% ниже аналогичного периода 2024 года. Приоритетным видом транспорта остается авиационный (76% туристов).

Региональная структура туристского спроса характеризуется высокой концентрацией в столице: на долю отелей Баку приходится 77,5% ночевок туристов, тогда как на регионы – лишь 22,5%. Вторым по популярности является Гусарский район (12,7% ночевок) благодаря развитию зимнего туризма, третьим – Нафталан (3,5%) за счет оздоровительного направления.

Психологические барьеры, влияющие на выбор турпродукта, включают: физический (климатическая адаптация), психоэмоциональный (боязнь стресса), психологический (негативная информация), коммуникативный (языковой барьер), экономический (опасения финансовых затрат) и культурный (незнание национальных особенностей). Наиболее значимыми для туристов являются физический и коммуникативный барьеры.

ЛИТЕРАТУРА

1. Котлер Ф. Основы маркетинга. Краткий курс : пер. с англ. – М. : Издательский дом «Вильямс», 2007. – 656 с.
2. Голубков Е.П. Маркетинговые исследования: теория, методология и практика. – М. Финпресс, 2005. – 464 с.
3. Дурович А.П. Маркетинг в туризме:учеб. пособие.–Мн:Новое знание, 2001. – 496 с.

SEGMENTATION OF THE TOURISM MARKET OF AZERBAIJAN: THEORY AND PRACTICE

Jumshud Ibrahim oghlu Jabbarov
c.cabbarov@atu.edu.az
Azerbaijan Technological University

The article examines the theoretical and methodological foundations of tourism market segmentation. It analyzes the general principles, characteristics, criteria, and methods of segmentation, as well as its key stages. Special attention is given to the specifics of segmentation in tourism marketing based on the study of consumer behavior. Using empirical data on inbound tourism in Azerbaijan (2019–2024) and current statistics

for 2025, the practical application of theoretical approaches to identifying target segments of tourism demand is demonstrated. The necessity of multifactor segmentation for increasing the competitiveness of tourism organizations in the context of the post-pandemic recovery of the sector is substantiated.

Keywords: market segmentation, tourism marketing, segmentation criteria, consumer behavior, tourism demand, Azerbaijan.

AZƏRBAYCAN RESPUBLİKASINA GƏLƏN TURİSTLƏRİN STATİSTİK ANALİZİ: 2020-2025-Cİ İLLƏR GƏNCƏ ŞƏHƏRİ ASPEKTİNDƏ

Tural Tahir oğlu Ələkbərov
turalekbarov@gmail.com
Vaqif İlqar oğlu Paşazadə
pasayevvaqif2008@gmail.com
Azərbaycan Texnologiya Universiteti

İlk olaraq ümumi ölkə üzrə turizm göstəricilərinə nəzər salaq.2020-ci ildə dünyada baş verən COVID-19 pandemiyası turizm sektoruna ciddi təsir göstərdi. Azərbaycan da bu təsirdən kənarda qalmadı və ölkəyə gələn turistlərin sayı kəskin şəkildə azaldı. Sərhədlərin bağlanması və uçuşların dayandırılması nəticəsində turizm sektoru demək olar ki, tamamilə dayandı.2020-ci ildə gələnlərin sayı əvvəlki ilə nisbətən 74.9% azalaraq 796 min nəfərə enib.

Beynəlxalq tədbirlərin keçirilməsi, xüsusilə Formula 1 Azerbaijan Grand Prix kimi yarışlar ölkəyə turist axınının artmasına səbəb oldu. Bu dövrdə turistlərin sayı əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəldi.2022-ci ildə beynəlxalq səyahət məhduyyitlərinin aradan qaldırılması ilə turizm sektorunda canlanma müşahidə olunmuşdur. Gəncə şəhərinə gələn turistlərin sayı təxminən 70 min nəfərə yüksəlmişdir. Ölkələr üzrə bölgüyə baxsaq Rusiya(25min) Türkiyə(18min) İran(10min) Gürcüstan(7min) nəfər olmuşdur. Bu dövrdə regionlararası turizm əlaqələri yenidən formalaşmağa başlamışdır. 2023 və 2024-cü illərdə isə turizm sektoru daha da gücləndi.

Azərbaycan artıq pandemiyadan əvvəlki səviyyəyə yaxınlaşdı və bəzi göstəricilər üzrə həmin səviyyəni keçdi. Ölkəyə gələn turistlərin sayı milyonlarla ölçülməyə başladı və turizm gəlirləri artdı. Xarici turistlər daha çox tarixi və mədəni məkanlara maraq göstərirdilər, o cümlədən İçərişəhər kimi abidələr xüsusi diqqət çəkirdi.2023-cü ildə turizm sektorunda davamlı artım müşahidə olunmuşdur.

Gəncəyə gələn turidtlərin sayı 100 min nəfər olmuşdur. Rusiya(35min) Türkiyə(25min) İran(15min) BƏƏ(8min) Gürcüstan(7min) nəfər olmuşdur. Bu dövrdə Yaxın Şərq ölkələrindən turist axınının artması diqqət çəkir.2024-cü il Maksimum inkişaf mərhələsi turizm sahəsində ən yüksək göstəricilər qeydə alınmışdır.Gəncə şəhərinə gələn turistlərin sayı 150 min nəfər təşkil etmişdir. Rusiya(50min) Türkiyə(35min) İran(20min) Səudiyyə Ərəbistanı(10 min) BƏƏ(10min) Digər ölkələr(25min) nəfər olmuşdur. Bu artım Gəncənin beynəlxalq turizm bazarında 2025 və 2026-cı illər üçün proqnozlar isə daha müsbətdir. Gözlənilir ki, turizm sektoru inkişafını davam etdirəcək, yeni turizm növləri – ekoturizm, kənd turizmi və dağ turizmi daha da genişlənəcək

Gəncə Azərbaycanın ikinci böyük şəhəri olmaqla yanaşı, zəngin tarixi və mədəni irsə malikdir. Şəhər həm də qərb bölgəsinin turizm mərkəzlərindən biri hesab olunur.2020-ci ildə Gəncədə də turizm zəif olmuşdur. Lakin 2021 və 2022-ci illərdə daxili turizmin artması ilə şəhərə gələn ziyarətçilərin sayı artmağa başladı. Xüsusilə Bakı və digər regionlardan gələn turistlər Gəncəyə maraq göstərirdilər.2023-cü ildən etibarən Gəncəyə xarici turist axını da artmağa başladı. Turistlər əsasən tarixi və dini abidələri ziyarət edirdilər. Bu

baxımdan Nizami Gəncəvi Məqbərəsi və İmamzadə kompleksi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda təbiət turizmi baxımından yaxın ərazidə yerləşən Göygöl Milli Parkı turistlərin diqqətini cəlb edir.2024 və 2025-ci illərdə Gəncədə turizm infrastrukturu inkişaf etmiş, yeni otellər və xidmət sahələri yaradılmışdır. Bu da turistlərin sayının artmasına müsbət təsir göstərmişdir.Nəticə olaraq demək olar ki, Azərbaycan Respublikasında turizm sektoru pandemiyadan sonra sürətli bərpa mərhələsinə keçmiş və hazırda davamlı inkişaf edir. Gəncə şəhəri isə bu inkişafda mühüm rol oynayan regional turizm mərkəzlərindən biridir və gələcəkdə daha böyük potensiala malikdir.[3]

2021-2025-ci illərdə Gəncə-Daşkəsən RTT gələn turist sayı. Bu iqtisadi rayon 2021-ci ildə yaradılmışdır. Tərkibinə Gəncə,Naftalan,Daşkəsən,Göygöl və digər rayonlar daxildir.Bu iqtisadi rayonun əsas turizm mərkəzi Gəncə şəhəridir. 2021-ci il İqtisadi rayon yeni yaradılmışdı. COVİD-19 səbəbindən turizm minumum səviyyədə idi. Təxmini 300 min-450 min səfər (daxili və xarici birlikdə) Səbəb-Sərhədlər bağlı idi. Regionlarda səfərlər məhdud idi. 2022-ci ildə ilk bərpa mərhələsi. Turizm açılmağa başladı. Regionlara səfərlər artdı.

Təxmini 500 min-700 min turist səfər etmişdir. Qeyd: Gəncə şəhərinə təkcə 516 min daxili səfər olmuşdur. Bu da region üzrə rəqəmin daha böyük olduğunu göstərir. 2023-cü il güclü artım ili. Turizm sektorunda sürətli inkişaf. Region turizminə maraq artdı. Rəsmi fakt 726,974 min nəfər səfər etmişdir.(daxili turizm). Ümumi region üzrə təxmini 800 min-1 milyon turist/səfər etmişdir. Səbəblər-regional marşrutların genişlənməsi. Göygöl,Naftalan,Daşkəsən istiqamətinə maraq yarandı. 2024-cü il pik inkişaf mərhələsi Azərbaycanda turizm maksimum səviyyəyə çatdı (2.6 milyon xarici tutist). [2]

Təxmini Gəncə-Daşkəsən üzrə 1 milyon-1.3 milyon turist səfər etmişdir. Səbəblər-dövlət proqramları,regionların tanıdılması,daxili turizmin kəskin artması. 2025-ci il sabitləşmə mərhələsi. Artım davam edir,amma temp azalır.950 min-1.2 milyon turist. Xüsusiyyətləri-keyfiyyətli turizmə keçid,Ekoturizm və regional turizm ön plana çıxır. 2021-2025-ci illərdə Gəncədə mehmanxanalarda gecələmə sayı. 2021-ci il pandemiyanın təsiri ölkə üzrə gecələmələr çox aşağı idi. 10min-15min gecələmə Xarici turistlər yox idi. Əsasən daxili turistlər idi. 2022-ci bərpa mərhələsi idi. 21min gecələmə olmuşdur. 2022-ci ildə (yanvar-oktyabr) Gəncədə 15,961 min gecələmə qeydə alınmışdır. 2023-cü il artım dövrü rəsmi faiz açıq verilməsədə trend artandır. 25min 35min gecələmə. Səbəb turizmin bərpası,regionlara marağın artması. 2024-cü il güclü artım ölkədə gecələmə sayı 4.2-4.3milyon trend üzrə Gəncə üzrə 45min-55min gecələmə xüsusiyyət-xarici turistlərin payı artır,region hotelləri aktiv işləyir. 2025-ci il pik səviyyə ümumi gecələmə 4.569 milyon gəncə üzrə 1.2%-lə 54.800 min gecələmə bu indiyə qədərki ən yüksək göstəricidir. Gəncəyə təkliflər turist sayını artırmaq üçün. Hörmətli iştirakçılar, Gəncə şəhərinin turizm potensialı yüksək olsa da, bu potensialdan tam istifadə olunmur. Turist sayını artırmaa üçün aşağıdakı istiqamətlər üzrə kompleks tədbirlər həyata keçirilməlidir. 1. Turizm məhsullarının yaradılması(ən vacib məsələ) Gəncə sadəcə "gəlin baxın" şəhəri yox, təcrübə şəhəri olmalıdır. [4]

Təkliflər: "Nizami turu"- Nizami Gəncəvi Məqbərəsi ətrafında ədəbi tur. Dini turizm-İmamzadə Kompleksi. Park və istirahət turları- Xan Bağı. Nəticə: Turist daha çox qalacaq və gecələmə artacaq. 2. Festival və tədbirlərin təşkili. Turistlər səbəb olmadan şəhərə gəlmir. Təkliflər: "Gəncə musiqi festivalı", "Nizami poeziya günləri" Nəticə: Mövsümi yox, ilboyu turist axını yaradır. 3. Region turizmi ilə inteqrasiya. Gəncə tək deyil ətraf rayonlarla birlikdə təqdim olunmalıdır. Təkliflər: Gəncə Göygöl Naftalan tur paketləri. Ekoturizm maşrutları(dağ,meşə,göl) Nəticə olaraq turist 1 gün yox,2-3 gün qalır. 6. Nəqliyyatın yaxşılaşdırılması. Gəlmək çətin olan yerə turist getmir. Təkliflər: Bakı-Gəncə sürətli qatarların artırılması. Hava reyslərinin genişləndirilməsi. Şəhərdaxili turistlik avtobuslar. Nəticə: əlçatanlıq artır,turist sayı artır. Ümumi nəticə: Əgər bu tədbirlər kompleks şəkildə həyata

keçirilsə • Turist sayı artacaq • Gecələmə sayı yüksələcək • Şəhərin iqtisadiyyatı inkişaf edəcək. Gəncə şəhərinin turizm potensialı yüksəkdir,lakin bu potensialın reallaşdırılması üçün innovativ yanaşmalar,müasir marketinq strategiyaları və keyfiyyətli xidmət sistemi vacibdir. Yalnız bu halda Gəncə regionun aparıcı turizm mərkəzlərindən birinə çevrilə bilər.[1]

Gəncə şəhərinə turistlərin gəlmə səbəbləri və artımının əsas faktorları.

İndi isə Gəncə şəhərinə turistlərin hansı səbəblərə görə gəldiyini və son illərdə artımın səbəblərini izah edim. İlk olaraq Tarixi və Mədəni irs Gəncə şəhəri Azərbaycanın ən qədim və 2-ci böyük şəhəridir və zəngin tarixə malikdir. Gəncə şəhərinə gələn turistlər əsasən bu məkanlara maraq göstərirlər. • Nizami Gəncəvi Məqbərəsi, • İmamzadə kompleksi, Butulka ev. Və,s Bu abidələr həm yerli, həm də xarici turistlər üçün mədəni və dini turizm baxımından cəlbedicidir. 2-ci olaraq təbiət turizmi (ekoturizm) deyə bilərik. Gəncə şəhəri ətrafı təbiəti ilı seçilir. Ən əsas turizm zonası • Göygöl Milli Parkı, Hacıkənd Bura gələn turustlər təmmiz hava, dağ mənzərələri, göl ətrafı istirahət üçün gəlirlər. Buda xüsusilə yay mövsümündə turist sayını artırır. 3-cü olaraq Coğrafi mövqe və əlçatanlıq: Gəncə şəhəri ölkənin qərbində yerləşir, Bakıdan və digər şəhərlərdən rahat gediş-gəliş var. Yəni şəhər bir növ turizm keçid mərkəzi rolunu oynayır. Ümümi nəticə olaraq isə deyə bilərəmki " Gəncə şəhərinə turist axınının artmasının əsas səbəbləri onun zəngin tarixi irsi, təbii gözəllikləri, əlverişli coğrafi mövqeyi və son illərdə inkişaf edən turizm infrastrukturu ilə bağlıdır."

ƏDƏBİYYAT

1. World Tourism Organization. Sustainable Tourism for Development Guidebook. – Madrid: UNWTO, 2024.
2. United Nations. Sustainable Development Goals Report. – New York, 2020
3. UNESCO. Culture and Sustainable Urban Development. – Paris, 2025
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2025

STATISTICAL ANALYSIS OF ARRIVING TOURISTS IN THE REPUBLIC OF AZERBAIJAN: 2020-2025 FROM THE ASPECT OF GANJA CITY

Tural Tahir oglu Alekbarov
turalekbarov@gmail.com
Vagif Ilgar oglu Pashazade
pasayevvagif2008@gmail.com
Azerbaijan University of Technology

This study analyzes the development dynamics of the tourism sector in Azerbaijan, with a specific focus on Ganja city and the Ganja-Dashkasan economic region from 2020 to 2026. Following the sharp decline caused by the COVID-19 pandemic in 2020, the sector underwent a rapid recovery phase, reaching peak performance levels by 2024. The analysis highlights that Ganja has evolved into a major regional tourism hub, attracting an increasing number of international visitors, particularly from Russia, Turkey, Iran, and the Middle East. The city's growth is driven by its rich historical and cultural heritage, notably the Nizami Ganjavi Mausoleum and Imamzadeh Complex, as well as its proximity to natural attractions like Goygol National Park. While overnight stays and tourist arrivals show a steady upward trend, the study suggests that further potential can be unlocked through integrated tourism products, cultural festivals, and improved transport infrastructure. Future projections for 2025-2026 indicate a shift toward high-quality, sustainable tourism, including eco-tourism and rural tourism, solidifying Ganja's position as a key destination in the international market.

Keywords: Azerbaijan tourism, Ganja, post-pandemic recovery, regional.